# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal




№ 4
2024

www.genprosecutor.gov.az




**44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir, parlaq Qələbəmizdir. Biz həm Birinci Qarabağ müharibəsinin, həm İkinci Qarabağ müharibəsinin, eləcə də antiterror əməliyyatının şəhidlərinin qanını döyüş meydanında aldıq, öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etdik.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Talıb Cəfərov

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Fərizə Mirzəyeva

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu,
Süleyman Sani Axundov küçəsi 160.

**Telefon:** 361 14 26
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 4-cü nömrəsi*

*Oktyabr - Dekabr (2024-cü il)*

"Media haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 31.01.2025
60x84 1/8 formatda 240 səhifə həcmdədir.

© "Azərbaycan Prokurorluğu", 2025

# MÜNDƏRİCAT


**ÖLKƏDƏ**

**5** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilanda və Cəbrayılda bir çox təhsil, sosial və istehsal obyektlərin təməlini qoyub, tikintisi ilə tanış olub, açılışında iştirak edib
**14** Azərbaycan Respublikasının Prezidenti MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Rusiya Federasiyasına səfər edib
**19** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XVI BRICS Sammitində iştirak etmək üçün Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə dəvət olunub
**21** Azərbaycan Respublikasının Prezidenti Bakıda yeni salınan parkda, habelə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub
**23** Azərbaycan Respublikasının Prezidenti Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün Qırğız Respublikasına səfər edib
**27** Azərbaycan Respublikasının Prezidenti Bakıda Zəfər parkının açılışında iştirak edib, Dövlət Bayrağı Meydanında Azərbaycanın üçrəngli Bayrağını ucaldıb
**35** Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimi keçirilib
**39** COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammiti keçirilib
**42** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər
**44** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təyyarə qəzası ilə bağlı müşavirə keçirib və qəzada həlak olan ekipaj üzvlərinin vida mərasimində iştirak edib
**46** AZAL-a məxsus təyyarənin Qazaxıstanda baş vermiş qəzası ilə bağlı təxirəsalınmaz istintaq-operativ tədbirlər görülüb

**COP29 ÇƏRÇİVƏSİNDƏ YÜKSƏK SƏVİYYƏLİ SESSİYA**

**48** AZƏRTAC-a açıqlamasında Baş prokuroru Kamran Əliyev COP29 çərçivəsində iqlim dəyişikliyi ilə hüquq müstəvidə mübarizəyə həsr edilmiş sessiyanın keçiriləcəyini bildirib
**48** Baş prokuror BMT-nin Baş katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Vali ilə görüşüb
**50** Baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi – Əsəd Məcid Xan ilə görüşüb
**51** Baş prokuror Kamran Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Baş Prokurorunun müavini Sultan Al-Juwaiedin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**52** Baş prokuror Kamran Əliyev BMT-nin Baş Katibinin Qanunun Aliliyi və Təhlükəsizlik Təsisatlari üzrə köməkçisi Aleksandr Zuyev ilə görüşüb
**53** Baş prokuror Kamran Əliyev Moldova Respublikasının Baş prokuroru İon Muntyanu ilə görüşüb
**54** Baş prokuror Kamran Əliyev Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürk ilə görüşüb
**55** Beynəlxalq təşkilatların rəhbər vəzifəli şəxsləri və xarici dövlətlərin Baş prokurorları tərəfindən paytaxt ərazisində ağaclar əkilib
**57** Bakıda iqlim dəyişikliyi ilə mübarizəyə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi müzakirə olunub
**59** COP29 çərçivəsində keçirilmiş “İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması” adlı yüksək səviyyəli sessiyada Baş prokuror çıxış edib
**61** “İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması” adlı yüksək səviyyəli sessiyada BƏƏ rəsmisi çıxış edib
**61** COP29 çərçivəsində keçirilmiş yüksək səviyyəli sessiyada BMT rəsmisi çıxış edib
**62** COP29-un Prezidenti ekoloji cinayətlərə qarşı mübarizədə hüquq-mühafizə orqanlarının səlahiyyətlərinin artırılmasına münasibət bildirib
**62** Türkiyə Ali Məhkəməsinin Baş prokuroru dünyanın, insanlığın ən böyük problemlərindən biri olan iqlim dəyişmələri barədə danışıb
**62** Rusiyada hər il ekoloji sahədə 300 minə yaxın qanun pozuntusunun aşkar olunduğunu Rusiya Federasiyasının Baş prokuroru bildirib
**63** Baş prokuror Kamran Əliyev Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**64** Baş Prokuror Kamran Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Baş nazirinin müavini, Daxili işlər naziri Saif Bin Zayed Al Nahyanının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**66** Baş prokuror Kamran Əliyev Gürcüstanın Baş prokuroru Giorgi Qabitaşvili ilə görüşüb
**67** Baş Prokuror Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**68** Baş Prokuror Kamran Əliyev İnterpolun prezidenti Ahmed Naser Al-Raisi ilə görüşüb
**69** Baş prokuror Kamran Əliyev Braziliya Federativ Respublikasının Baş prokurorun müavini Hindenburq Çatebriandın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb

**PROKURORLUQDA**

**71** Baş prokuror Türkiyə Respublikasının Ədliyyə naziri ilə görüşüb
**73** Azərbaycan Respublikası Baş Prokurorluğunun Geniş Kollegiya iclası keçirilib
**76** Baş prokuror Kamran Əliyev İrkutsk Dövlət Universitetinin nümayəndə heyətini qəbul edib
**78** Baş prokuror Vyanada işgüzar səfərdə olub
**80** Baş prokuror Çin nümayəndə heyəti ilə görüşüb
**81** Baş Prokurorluqda “Zəfər Günü” münasibətilə tədbir keçirilib
**83** Baş prokuror Qətərə işgüzar səfər edib
**86** Baş prokuror yanında Elmi-Məsləhət Şurasının iclasında hüquq ictimaiyyəti üçün aktual olan məsələlər müzakirə edilib
**88** Baş Prokurorluqda Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunan tədbir keçirilib
**90** Prokurorluq əməkdaşları anım günü ilə bağlı Fəxri Xiyabanı ziyarət edib
**91** Baş Prokurorluqda Kollegiya iclası keçirilib
**93** Baş prokurorun yerlərdə qəbulları
**95** Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilib
**96** “Dövlət xidmətləri üzrə məlumatların əlçatanlığı və şəffaflıq” üzrə yeni xidmətlərin və imkanların təqdimatı keçirilib
**98** Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində antikorrupsiya davranış modelinin formalaşdırılması mövzusunda təlim keçirilib
**99** Baş Prokurorluq Qarabağ Universitetinin tələbləri ilə görüş keçirib
**101** Gəncə şəhər və Lənkəran prokurorları kollektivlərə təqdim olunub
**102** Nərimanov rayon prokurorluğunda “Açıq qapı günü” təşkil edilib
**103** Nərimanov rayon prokurorluğunda “Yaşıl dünya üçün hüquqi yeniliklər” adlı tədbir keçirilib
**104** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə həsr olunmuş növbəti təlim keçirilib
**105** Baş Prokurorluqda Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının Bakı İctimai Birliyinin “Şahid Dindirmə Müsabiqəsi” keçirilib
**106** Prokurorluq əməkdaşları tərəfindən təhsil işçiləri üçün maarifləndirici təlimlər keçirilib
**107** “Qanunsuz miqrasiyanın təşkili ilə bağlı məlumatlar üzrə istintaq-araşdırma təcrübəsi” mövzusunda kurs təşkil edilib
**108** Prokurorluğun işçilərinin hakim vəzifələrinə təyin edilməsi ilə əlaqədar tədbir keçirilib
**108** Kibercinayətlərin istintaq metodikası Baş Prokurorluqda növbəti təlimin mövzusu olub

# MÜNDƏRİCAT


**109** Ekoloji hüquqpozmalara dair Baş Prokurorluğun təqdimatı aidiyyəti vəzifəli şəxslərin iştirakı ilə geniş tərkibdə müzakirə edilib
**110** Baş Prokurorluqda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində növbəti tədbir keçirilib
**110** Baş Prokurorluqda seminarlar interaktiv diskussiya formatında keçirilib
**111** Respublikanın Hərbi prokuroru ölkənin ictimai-siyasi həyatında baş vermiş əhəmiyyətli hadisələrlə əlaqədar keçirilmiş tədbirlərdə iştirak edib
**114** Respublika Hərbi Prokurorluğu tərəfindən silsilə tədbirlər keçirilib
**116** Hərbi Prokurorluqda Ulu Öndər Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib
**118** Naxçıvan Muxtar Respublikası Prokurorluğu hərbi vətənpərvərlik mövzusunda tədbirlər keçirib
**119** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən ekologiya ilə bağlı maarifləndirmə tədbirləri keçirilib
**121** Naxçıvanın tabe prokurorluqlarında yetkinlik yaşına çatmayanlar barəsində cinayət təqibinin xüsusiyyətlərinə həsr edilmiş seminarlar keçirilib
**122** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Zəfər abidəsini ziyarət edib


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**123** Baş Prokurorluğun idarə rəisi Albaniya tərəfindən BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının tətbiqini qiymətləndirib
**124** Baş Prokurorluğun əməkdaşı BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasına tərəf dövlətlərin Konfransının 12-ci sessiyasında iştirak edib
**125** Beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq uğurla davam etdirilir
**126** Azərbaycan Respublikası Prokurorluğunun nümayəndələri Beynəlxalq Anti-Korrupsiya Akademiyasının (IACA) Tərəflər Assambleyasının Sessiyasında iştirak edib
**127** Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir
**128** BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının Tətbiqinin təftişi Qrupunun növbəti iclası keçirilib
**129** Prokurorluq əməkdaşları Beynəlxalq Prokurorlar Assosiasiyasının 18-ci Avropa Regional konfransında iştirak edib
**130** Beynəlxalq təşkilatlarla əməkdaşlıq uğurla davam etdirilir
**130** Prokurorluq əməkdaşı beynəlxalq elmi-praktiki konfransda iştirak edib
**131** Ümumrusiya Dövlət Ədliyyə Universitetinin beynəlxalq elmi-praktiki konfransında Baş Prokurorluğun əməkdaşları iştirak edib
**132** Beynəlxalq elmi-praktiki konfransda Azərbaycan Prokurorluğu təmsil olunub
**132** Azərbaycan Respublikası Prokurorluğunun beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirilir
**133** BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) ilə əməkdaşlıq uğurla davam etdirilir
**134** Prokurorluq əməkdaşları Beynəlxalq Prokurorlar Assosiasiyasının 11-ci Asiya və Sakit Okean üzrə Regional konfransında iştirak edib
**134** Prokurorluq əməkdaşı BMT-nin Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədaləti üzrə Komissiyasının (CCPCJ) 33-cü sessiyasında iştirak edib
**135** Azərbaycan və Qazaxıstan hüquq-mühafizə orqanları arasında təcrübə mübadiləsi genişlənir
**136** Prokurorluq əməkdaşı regionlararası təlimdə iştirak edib
**137** Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub
**139** Azərbaycan və Tacikistan korrupsiyaya qarşı mübarizə sahəsində birgə əməkdaşlığı davam etdirir
**139** Xarici dövlətlərin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq uğurla davam etdirilir


## TÜRK ƏDLİYYƏ TƏLİM ŞƏBƏKƏSİ ÇƏRÇİVƏSİNDƏ KONFRANS


**141** Bakı şəhəri Türk Ədliyyə Təlim Şəbəkəsinin konfransına ev sahibliyi edib
**143** Türk Ədliyyə Təlim Şəbəkəsinin Bakı şəhərində keçirilən konfransının açılışı olub
**145** Beynəlxalq konfransda transmilli cinayətkarlığa qarşı mübarizənin effektiv vasitəsi kimi aktivlərin bərpasına diqqət yetirilib
**147** Ekoloji hüquqpozmalara qarşı mübarizə və transmilli hüquqpozmaların qurbanlarının müdafiəsi beynəlxalq konfransın müzakirə obyekti olub
**149** Bakıda kommersiya hüququ sahəsində Türk dövlətlərinin qanunvericilik bazasının inkişafı müzakirə edilib
**151** Qarabağ Universiteti və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb
**153** Baş prokuror Kamran Əliyev Türk Ədliyyə Təlim Şəbəkəsinin konfrans iştirakçılarını qəbul edib
**155** Beynəlxalq konfransın iştirakçıları Bakı şəhərinin abidələri və muzeyləri ilə tanış olublar


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**156** Mətbuat xidmətinin məlumatı
**163** *İradə Xəlilova* – Azərbaycan hüquq elminə töhfə verən təsisatlar
**168** *Faiq Səfərov* – Hərbi münaqişələr zamanı insan hüquqlarının müdafiəsi problemləri
**173** *Pirayə Səmədzadə* – Korrupsiyaya qarşı mübarizədə qadınların rolu


## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE


**175** *Mayıl Bayramov, Mətanət Əsgərova* – Cinayət tətbiqi üzrə qiyabi icraatın tətbiqi məsələləri (II hissə)
**179** *Fəridə Mirzəyeva* – Müsadirə anlayışı ətrafında diskussiyalar


## HƏMKARLARIMIZLA MÜSAHİBƏ


**182** Çili Respublikasının İllapel şəhər prokurorunun müsahibəsi
**183** Rusiya Federasiyasının İrkutsk Dövlət Universitetinin prorektorunun müsahibəsi
**184** Türkiyə Ədliyyə Akademiyasının rəhbərinin müsahibəsi
**188** Qazaxıstan Respublikası Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanları Akademiyasının rektorunun müsahibəsi
**192** Qırğızıstan Respublikası Ali Məhkəməsi yanında Ali ədalət məktəbinin müəlliminin müsahibəsi
**195** Özbəkistan Respublikasının Hüquq-mühafizə Akademiyasının baş müəlliminin müsahibəsi


## PROKURORLUĞUN VETERANLARI


**198** Azərbaycan Prokurorluğunun veteranı Rüstəm Usubovun 70 illik yubileyi qeyd olunub
**199** Prokurorluğun veteranları təbrik edilib
**199** Azərbaycan Prokurorluğunun veteranının yubileyi münasibətilə tədbir keçirilib
**199** Baş prokuror tərəfindən Azərbaycan Prokurorluğunun veteranları və təqaüdə çıxmış prokurorluq işçisi təltif edilib
**200** Təqaüdə çıxmış prokurorluq işçisinə "Prokurorluğun fəxri işçisi" döş nişanı təqdim edilib
**202** Prokurorluğun veteranı İradə Həsənovanın müsahibəsi


## HÜQUQİ AKTLAR


**208** Qanunvericiliyə dəyişikliklər

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilanda və Cəbrayılda bir çox təhsil, sosial və istehsal obyektlərin təməlini qoyub, tikintisi ilə tanış olub, açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər.



Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Diqqətə çatdırıldı ki, ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində abadlıq işləri görülüb, futbol, basketbol, voleybol və açıq oyun meydançaları yaradılıb.





Xatırladaq ki, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun olaraq Cəbrayıl şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Prezidenti 2021-ci ildə Sərəncam imzalayıb.

Təhsil ocağının təməli 2021-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.



Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə təhsil infrastrukturunun bərpası istiqamətində Prezident

İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Bu, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda əksini tapıb. Tədbirlər Planına əsasən, Elm və Təhsil Nazirliyinə 2022-2026-cı illərdə ərazi planlaşdırma sənədlərinə uyğun olaraq, yaşayış məntəqələrində təhsil müəssisələrinin tikintisi və bərpası ilə bağlı təkliflərin hazırlanması tapşırılıb.

***







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin (ASC) Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

“Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Rəqəmsal İdarəetmə Mərkəzi iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə hər birinin gücü 2500 kV olan iki güc transformatoru, 35 və 0,4 kV-luq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə isə idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Mərkəzin elektrik təchizatı üçün 110/35/10 kilovoltluq “Zəngilan” yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib.

Diqqətə çatdırıldı ki, Mərkəz elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Prezident İlham Əliyev “Azərişıq” ASC-nin Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı.

Qeyd olundu ki, rəqəmsal yarımstansiyadan qidalanan istehlakçılar elektrik enerjisi verilişində fasilələrin yaranması barədə məlumatları onlayn qaydada əvvəlcədən ala bilərlər. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiya edilməsi prosesi rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə işin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə koordinasiyasını tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, “yaşıl enerji” mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir, daimi işçi heyətə ehtiyac olmur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan rayonunda “AzərEnerji” ASC-nin “Sarıqışlaq” Su Elektrik Stansiyasının açılışında iştirak edib.

“AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, “Sarıqışlaq” SES Oxçuçayın üzərində kaskad üsulla tikilən Zəngilan silsiləsindəki 4 SES-dən biridir və buna qədər digər 3 SES - “Cahangirbəyli”, “Şayıflı” və “Zəngilan” Su Elektrik stansiyaları dövlətimizin başçısının iştirakı ilə istismara verilib.




Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq tikilən “Sarıqışlaq” SES-də eyni vaxtda derivasiya borularının montajından, bünövrə işlərindən tutmuş maşın zalının tikilməsinə, açıq paylayıcının qurulmasına qədər bütün işlər tam normativ qaydalara uyğun həyata keçirilib.




Flora və faunanın qorunması üçün xüsusi qurğular quraşdırılmaqla yaradılan baş suqəbuledicidən çıxan suyun 35 faizi çay məcrasında saxlanılmaqla derivasiya boruları çəkilib və borudan çıxan suyun itkisiz şəkildə çaya təkrar buraxılması təmin edilib.

“Sarıqışlaq” SES-də tikilən maşın zalında çayda su azalarkən özünü avtomatik dayandıra bilən 2 ekoturbin quraşdırılıb ki, bu turbinlər Oxçuçayın ekoloji axımından iki dəfə artıq suyun çayda saxlanılmasını təmin edir.




Qeyd olunub ki, su elektrik stansiyasında 110 kV-luq açıq paylayıcı qurğu tikilib. Bu qurğu nəinki “Sarıqışlaq” SES-də, eyni zamanda “Şayıflı” SES-də istehsal olunan yaşıl enerjinin sistemə ötürülməsi funksiyasını icra edir. Burada həm yarımstansiya, həm də bütövlükdə su elektrik stansiyası rəqəmsal avadanlıqlarla təchiz edilərək avtomatik idarəetmə sistemi ilə təmin olunub.

“Sarıqışlaq”da il ərzində 33 milyon kilovat-saatadək elektrik enerjisinin istehsal olunması, bununla da 7,4 milyon kubmetr qaza qənaət edilməsi və atmosferə atılan 13 min ton karbon qazının qarşısının alınması nəzərdə tutulur.



Prezident İlham Əliyev “Sarıqışlaq” Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, “Sarıqışlaq” SES-in də daxil olduğu 4 SES-dən ibarət 42 meqavatlıq Zəngilan silsiləsi işğaldan azad edilən ərazilərdə yaradılan ən böyük silsilədir.

Yerli mütəxəssislər tərəfindən layihələndirilməklə, tam yeni tikilmiş 42 MVt gücündə kaskad tipli bu 4 stansiya qoyuluş gücünün 70 faizdən çox hissəsi ilə çalışır. Burada istehsal olunan enerjinin bir hissəsi

daxili tələbata sərf edilir, artıq qalan enerji isə ölkə enerjisisteminə yönləndirilir. Bu da regional enerji müstəqilliyini artırır və ətraf mühitin qorunmasına töhfə verir.

Ümumilikdə isə bu günədək "AzərEnerji" tərəfindən Qarabağda və Şərqi Zəngəzurda istismara verilən 270 meqavat gücündə 32 Su Elektrik Stansiyasında hava şəraitindən asılı olan digər bərpaolunan enerji mənbələrindən fərqli olaraq, 24 saat fasiləsiz yaşıl enerji istehsal edilir.

Prezident İlham Əliyevin regionun yaşıl enerji zonasına çevrilməsi barədə qəti mövqeyinin nəticəsi kimi ölkə enerjisistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur regionları istismarda olan su elektrik stansiyaları hesabına ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı bölgəyə çevrilib və elektrik enerjisi tələbatı tam həcmdə yaşıl enerji hesabına təmin edilir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirak ediblər, yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim ediblər.

Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına və birinci xanıma yaşayış kompleksində görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Cəbrayıl yaşayış kompleksinin ümumi sahəsi 7,9 hektardır. Kompleks 7-si beşmərtəbəli və 26-sı dördmərtəbəli olmaqla 33 yaşayış binasından ibarətdir. Bu binalarda ümumilikdə 712 mənzil var. Onlardan 8-i birotaqlı, 136-sı ikiotaqlı, 8-i ikiotaqlı studio tipli, 392-si üçotaqlı, 168-i isə dördotaqlıdır. Birotaqlı mənzillərin sahəsi 45-50 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi 55-90 kvadratmetr, ikiotaqlı studio tipli mənzillərin sahəsi 98-100 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 90-108 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 110-120 kvadratmetr təşkil edir.

Bütün mənzillər tam təmirli, mətbəx mebeli, qaz plitəsi, kombi isitmə sistemi, su, qaz və elektrik sayğacları ilə təchiz olunmuş şəkildə vətəndaşlara təhvil verilir.



Altı kvartaldan ibarət kompleksin inşası keyfiyyətlə həyata keçirilib. Yaşayış binaları ilə yanaşı, ərazidə sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq əyləncə və idman meydançaları istifadəyə verilib.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.





## Prezident İlham Əliyevin çıxışı

– Bu gün Cəbrayıl şəhərinin azad olunmasının dördüncü ildönümüdür. Bu münasibətlə sizi, bütün cəbrayıllıları, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu gözəl hadisəni biz dörd il sonra bu gün Cəbrayılda qeyd edirik. Bildiyiniz kimi, mənim Sərəncamımla 4 Oktyabr - Cəbrayıl Şəhəri Günü elan edilmişdir. Əminəm ki, bundan sonra biz hər il bu gözəl günü qeyd edəcəyik.



Cəbrayılın azad olunmasının çox böyük əhəmiyyəti vardır. Çünki İkinci Qarabağ müharibəsi dövründə işğalçılardan azad edilmiş birinci şəhər idi. O vaxta qədər artıq müharibə bir həftə idi ki, gedirdi və 20-yə yaxın kənd azad edilmişdi, o cümlədən Cəbrayıl rayonunun kəndləri. Ancaq şəhər olaraq birinci şəhər Cəbrayıl olmuşdur və Cəbrayıl əməliyyatı xüsusi əhəmiyyətə malik idi. Ordumuz, Silahlı Qüvvələrimiz böyük peşəkarlıq, qəhrəmanlıq göstərmişdir və işğalçıları Cəbrayıl şəhərindən qovmuşdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsində əsl qəhrəmanlıq, fədakarlıq, rəşadət göstərmişdir. Biz şəhidlərimizlə əbədi fəxr edəcəyik. Əlbəttə, Cəbrayıl şəhərinin azad olunması həm müharibənin sonrakı gedişatına müsbət təsir göstərmişdir, eyni zamanda, Ordumuzun və ümumiyyətlə, xalqımızın mənəvi ruhunu yüksəltmişdir. Bizim hamımızda inam var idi ki, bu müharibə bizim Zəfərimizlə başa çatacaq və hər yaşayış məntəqəsinin azad edilməsi, o cümlədən şəhərlərimizin azad edilməsi bu inamı daha da artırırdı.

Cəbrayıldan bir neçə gün sonra uğurlu Hadrut əməliyyatı keçirilmişdir. O da çox böyük peşəkarlığa malik olan əməliyyatdır. Düşmənin orada çox möhkəm istehkam mövqeləri var idi, özü də bütün təpələrdə onlar yerləşmişdi, Cəbrayılda da, həmçinin. Şəhəri azad etmək üçün bizim qəhrəman övladlarımız bir neçə müdafiə xəttini yarmalı idi və bunu edə bilmişdilər.

Hadrutdan sonra Füzuli əməliyyatı oktyabrın 17-də uğurla başa çatmışdır və yolumuz həm Şuşaya, həm Zəngilan və Qubadlı istiqamətinə açılmışdır. Müzəffər Ordumuzun zəfər yürüşü bundan sonra daha sürətlə getmiş və qeyd etdiyim kimi, döyüş meydanında böyük yaşayış məntəqələrini - Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, rayonlarını, Laçın rayonunun bir neçə kəndini və nəhayət noyabrın 8-də Şuşa şəhərini azad edə bilmişik. Bütövlükdə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Beləliklə, Ermənistan noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Beləliklə, İkinci Qarabağ müharibəsi tarixi Zəfərimizlə başa çatdı. Bu gün bütün Azərbaycan xalqı qəhrəman övladlarımıza minnətdarlıq hissi ilə yaşayır, vətənpərvərlik ruhunda yetişmiş gənc nəsil vaxtilə itirilmiş torpaqlarımızı xalqımıza, dövlətimizə qaytara bilmişdir.

Cəbrayılın inkişafı ilə bağlı dərhal bütün müvafiq tapşırıqlar verilmişdir. İlk növbədə, minalardan təmizləmə işləri aparılmalı idi. Çünki xüsusilə keçmiş təmas xəttinə yaxın olan rayonların minalanması daha genişmiqyaslı idi. İnfrastruktur layihələrinin icrası dərhal başlamışdır və bu gün Cəbrayıla gələn hər bir insan görür, həm köhnə yol, hansı ki, sovet vaxtında olan yol yenidən qurulmuşdur və mən o yolu çox yaxşı xatırlayıram. Çünki Zəfərdən sonra o yolla dəfələrlə bu bölgələrə gəlmişəm. Yeni dördzolaqlı magistral yol uğurla inşa edilir və Zəngilana qədər, Qubadlıya qədər və oradan da Laçına qədər davam edir.

Digər infrastruktur layihələrinin icrası da uğurla, sürətlə həyata keçirilir. Təkcə Cəbrayıl rayonunda yox, bütün azad edilmiş bölgələrdə. Dünən burada





olarkən biz yeni məktəbin açılışını qeyd etdik və siz də bilirsiniz ki, gələn həftədən başlayaraq uşaqlar artıq məktəbə gedəcəklər. Bu yeni məhəllədə xəstəxananın tikintisi və müvəqqəti olaraq tibb məntəqəsi də nəzərdə tutulur. Əlbəttə, belə gözəl, gözoxşayan evlər həm dövlətimizin gücünü göstərir, həm də onu göstərir ki, keçmiş köçkünlərin yaşayış şəraitinin lazımi səviyyədə təmin edilməsi üçün Azərbaycan dövləti əlindən gələni əsirgəmir. Birinci məhəllədə çoxmənzilli 33 bina inşa edilib. Burada 712 mənzil inşa edilir. Bu mənzillərin bir hissəsi artıq istifadəyə verilib, bir hissəsinin də istifadəyə verilməsi yaxın aylarda nəzərdə tutulur. Beləliklə, Cəbrayıl şəhərinin birinci yeni yaşayış məhəlləsi istifadəyə verilir.

Deyə bilərəm ki, azad edilmiş torpaqlarda aparılan işlər öz miqyasına görə xüsusi xarakter daşıyır. Heç bir başqa yerdə işğaldan, müharibələrdən əziyyət çəkmiş ölkələr bu sürətlə və bu keyfiyyətlə bərpa işlərini bu günə qədər aparmamışlar. Çünki bu işlər genişmiqyaslı və çox dəqiq planlar əsasında görülür. Hər bir şəhərin Baş planları təsdiq edilib. Hər bir kəndin bütün lazımi infrastrukturu nəzərdə tutulur. Dünən mən tikintisi gedən Horovlu kəndinin bərpası ilə tanış olmuşam. Bildiyiniz kimi, Horovlu da Cəbrayıl şəhəri kimi, eyni gündə azad edilmişdir və bir neçə aydan sonra, yəqin ki, gələn ilin birinci yarısında Horovluya da vətəndaşlar qayıdacaqlar.

Amma bununla işlərimiz bitmir. Biz, eyni zamanda, buraya qayıdacaq insanların məşğulluğu ilə məşğuluq. Təkcə dünən Cəbrayıl rayonunda yerləşən beş yeni müəssisənin təməlini qoydum. O vaxta qədər “Araz Vadisi Sənaye Zonası”nda 10-a yaxın müəssisənin həm təməli qoyulmuşdu, həm də ki, bir müəssisə artıq fəaliyyətdədir. Təkcə dünən təməlini qoyduğum müəssisələrdə mindən çox insan çalışacaq. Bu müəssisələri ərsəyə gətirən iş adamlarına da mənim tövsiyəm o idi ki, orada işləyənlərin əksəriyyəti Cəbrayıla qayıdan və qayıdacaq keçmiş köçkünlər olmalıdır. Yəni, həm yaşayış yerləri, həm bütün infrastruktur - su, qaz, elektrik enerjisi, yollar, məktəblər, xəstəxanalar, eyni zamanda, məşğulluq.

Dünən təməlini qoyduğum müəssisələrin fəaliyyətə başlaması gələn il nəzərdə tutulur. Bəlkə də bəzi müəssisələrin daha genişmiqyaslı fəaliyyəti olacaq və ilyarıma ərsəyə gələcək. Yəni, bütün bu işlər bir daha onu göstərir ki, bu torpaqlara bu torpaqların əsl sahibləri qayıdıb. Mənfur düşmən 30 il ərzində bu əraziləri ancaq dağıdıb. Bizim bu görüşümüz də bu dağıntılar arasındadır.

Mən tarixi Zəfərimizdən sonra birinci dəfə Cəbrayıla gələndə dəhşətə gəldim. Biz bilirdik ki, ermənilər bizim torpaqlarımızda öz vəhşiliyini hər yerdə göstərmişlər. Bilirdik ki, ərazilərimizin böyük əksəriyyəti dağıntılar içindədir. Amma bu dərəcədə vəhşiliyi, qeyri-insani hərəkətləri təsəvvür etmək mümkün








deyildi. Cəbrayılda demək olar ki, cəmi iki bina qalmışdı. Orada da erməni hərbçiləri yerləşmişdi. Qalan bütün şəhər, bax, bu cürdür və bunu görmək istəməyən, Ermənistana bu gün də dəstək verən, onların işğalçılıq siyasətinə bəraət qazandıran bəzi Qərb dövlətləri də gözlərini geniş açıb baxsınlar. Görürlər, amma görməzliyə vururlar. Bizi ittiham edirlər, bizə qarşı sanksiyalar tətbiq edilir. Ermənistana qarşı 30 il ərzində bir dənə də sanksiya tətbiq edilməmişdir. Ermənistan beynəlxalq hüququn bütün norma və prinsiplərini pozmuşdur, torpaqlarımızın təxminən 20 faizini işğal etmişdir, etnik təmizləmə siyasəti aparmışdır, Xocalı soyqırımını törətmişdir, bütün şəhər-kəndlərimizi viran qoymuşdur. Hansısa Qərb dövlətinin rəsmi nümayəndəsi bir dəfə onlara irad tutubmu? Xeyr. Onlar hətta dünyanın bir nömrəli təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə də məhəl qoymurdular. Halbuki Təhlükəsizlik Şurasının qətnamələri mütləq icra edilməlidir. 1993-cü ildə dörd qətnamə qəbul edilmişdir. Kimsə 2020-ci ilə qədər onlara bir söz dedi ki, sən o torpaqları işğal etmisən, oradan çıxmalısan? Xeyr. Minsk qrupu nə ilə məşğul idi - ancaq bu işləri malalamaqla, erməni işğalına müəyyən dərəcədə bəraət qazandırmaqla və bizi alçaldıcı sülhə təhrik etməklə. Minsk qrupunun fəaliyyəti bundan ibarət idi. Biz bütün beynəlxalq platformalarda öz haqq səsimizi ucaldanda bizə deyirdilər ki, sizin sözləriniz çox kəskindir. Bu kəskin ritorika sülhü yaxınlaşdırmır, sülhü uzaqlaşdırır. Ermənistanla dil tapmalısınız, barışmalısınız, müharibəni uduzmusunuz, bununla barışın. Bax, bütün bunları biz eşitmişik, həm rəsmi çıxışlarda, həm bağlı qapılar arxasındakı təmas əsnasında. Bizim isə mövqeyimiz birmənalı, qətiyyətli idi və dəyişməz idi: bir qarış torpaq işğal altında qala bilməz! Məsələ sülh yolu ilə həllini tapmasa, biz məsələni müharibə yolu ilə həll edəcəyik. Mənim sözlərim bütün arxivlərdə vardır. Buna nə desələr yaxşıdır?! Müharibənin, bu münaqişənin hərbi həlli yoxdur. Yəni, Qərb dövlətləri, ilk növbədə, bizi məğlubiyyətlə barışdırmaq üçün bütün çirkin əməllərdən istifadə edirdilər ki, təki biz torpaqları işğaldan azad etməyək. Bu işğalı əbədi etmək üçün Fransa və onun kimi Qərb dövlətləri əllərindən gələni edirdilər. Bu ədalətsizliyin dərəcəsinə baxın ki, bizim torpaqlarımızı Ermənistana bağışlamaq istəyən ölkələr bu münaqişənin guya həlli ilə məşğul olurdular. Amma onların əsl niyyəti bizi daim təzyiq altında saxlamaq və bu torpaqları Ermənistana bağışlamaq idi. Onların təklifləri nədən ibarət idi? Ondan ibarət idi ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə müstəqillik verilsin. Axı, bu riyakarlığın, ikiüzlülüyün dərəcəsi olmalıdır, yoxsa yox?! Bu gün Rusiya-Ukrayna müharibəsinə baxın, Qərb dövlətləri, Fransa, Amerika, o birilər nə deyirlər? Deyirlər, Ukraynanın ərazi bütövlüyü bərpa edilməlidir, Ukrayna silahdan istifadə etməlidir. Bütün növ silahları Ukraynaya verirlər. Yaxşı, bəs bizim işğal altında olan torpaqlarımıza niyə münasibət fərqli idi? Axı, bizim də ərazi bütövlüyümüz pozulmuşdu. Bizim insanlar – 1 milyon insan evsiz-eşiksiz qalmışdır. Kim bizə kömək edirdi? Vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, çadırlarda 1 milyon insan yaşayanda niyə bu dərəcədə ikiüzlülük göstərilirdi? Bu suallara cavab tələb edirik. Amma cavabı biz harada görürük? Yenə də anti-Azərbaycan addımlarında. Bu gün səhər mənə məlumat verildi. Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir



köçkünlərimizin yaşayış yerlərinə görə. Bax, onların gözü bunu götürmür, bu günü götürmür. Bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür, matəm günüdür. Yəni, necə ola bilər ki, bizim icazəmiz olmadan Azərbaycan öz hüququnu bərpa etdi, heç kimdən soruşmadan, heç kimdən qorxmadan, heç kimi saymadan. Öz gücü hesabına, öz övladlarının fədakarlığı hesabına. Bunu bizə bağışlaya bilmirlər və bu gün Azərbaycana Amerikadan sanksiya tətbiq edilir. Ondan sonra da deyirlər ki, gəlin, dostluğumuzu möhkəmləndirək. Hansı dostluqdan söhbət gedə bilər? Bizim dostumuz odur ki, bu günə sevinir. Mən bunu bir neçə gün bundan əvvəl demişəm. Bu günə məyus olan və bu günü qəbul etməyən heç vaxt bizim dostumuz ola bilməz, bunu Azərbaycan xalqı bilməlidir. Açıq demək lazımdır, yəni diplomatik dillə qoy, diplomatlar danışsın. Mən Azərbaycan xalqına həmişə həqiqətləri demişəm, bütün dövrlərdə və bu gün də həqiqət bundan ibarətdir. Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq. Xüsusilə mən gənc nəsli nəzərdə tuturam. Çünki bu gün anti-Azərbaycan qüvvələrin əsas hədəfi gənc nəsillərin şüurudur. Ona təsir etməyə çalışırlar. Ona görə Azərbaycana qarşı olmazın yalanlarını uydururlar, tirajlayırlar, öz mətbuatlarında, öz dırnaqarası qeyri-hökumət təşkilatlarında. Anti-Azərbaycan mövqeyində olan müxtəlif ünsürləri bu günə qədər də maliyyələşdirirlər Azərbaycanda, müxtəlif QHT-lər adı altında, hansısa ictimai qurumlar adı altında. Yəni, gənc nəslin şüuruna təsir etsələr, demək olar ki, Azərbaycanın gələcəyinə təsir edəcəklər, heç vaxt gənclər unutmasınlar.

Bu dağıntılar təbii ki, bir müddətdən sonra söküləcək, bunların yerində yeni binalar inşa ediləcək. Ancaq bu mənzərə heç vaxt bizim yadımızdan çıxmamalıdır. Çünki bu işlərdə təkcə Ermənistan günahkar deyil. Əlbəttə, Ermənistan əsas günahkardır. Amma o günahı bölüşənlər onların arxasında o vaxt da, bu gün də duranlardır. Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri görəsən nə fikirləşirlər? Hesab edirlər ki, biz buna göz yumacağıq? Yoxsa ki, biz gözləyəcəyik ki, bax, bu binalar da bu günə düşsün? Xeyr, gözləməyəcəyik. Heç kim bizi çəkindirə bilməz. Biz öz gələcək inkişafımızı, təhlükəsiz həyatımızı təmin etməliyik və təmin edəcəyik! Mən Ermənistana da bax, burada,

müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni, özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik. Burada erməni yaşayıb? Yox, siz - Cəbrayılın sakinləri.

Başqa yerlərdə də bütün Azərbaycan kəndlərini bax, bu günə qoyublar. Məscidlərimizi dağıdıblar, heyvanxana düzəldiblər, inək-donuz saxlayıblar. Qərbdə bir adam deyib ki, Azərbaycanın mədəni irsi talan edilir, dağıdılır, təhqir edilir? Yox. Ancaq bizi nədə ittiham edirlər? Guya biz hansısa tarixi irsi məhv edirik. Tamamilə əsassızdır. Amerika 1992-ci ildə bizə qarşı sanksiya tətbiq etmişdir, o vaxt ki, torpaqlarımız əldən gedirdi. Sonra sanksiyalar 2001-ci ildə aradan qaldırıldı. Nə üçün? Çünki onların Əfqanıstandakı işğalçılıq fəaliyyəti başlamışdı, işğalçılıq müharibəsi başlamışdı və bizə ehtiyacları var idi. Nə qədər ki, onlar Əfqanıstanda qalmışdılar, hər il bu sanksiya Amerika Prezidenti tərəfindən qaldırılırdı. Onlar ki, Əfqanıstandan qaçdılar, - özü də bütün dünyanın gözü qarşısında, - bu sanksiyalar yenidən bizə qarşı tətbiq edildi. Bu nankorluğun dərəcəsi var, yoxsa yox?! Yəni, biz sizə lazım olanda sən bu sanksiyaları aradan qaldırırsan, biz sizə lazım olmayanda yenidən bərpa edirsən, nə üçün? Bax buna görə, buna görə, bu binaya görə. Bunun kimi bütün bölgələrdə inşa etdiyimiz, bərpa etdiyimiz keçmiş

dağıntılar arasında xəbərdarlıq edirəm: dayandırın bu təhlükəli oyunları! Bir tərəfdən sülhdən danışırlar, yalan-palan danışırlar, digər tərəfdən genişmiqyaslı silahlanma gedir. Silahları da kim verir onlara? Fransa və onun kimi anti-Azərbaycan ölkələr. O silahlar nə üçün onlara pulsuz verilir? Yəni, dediyim kimi şəhər-kəndlərimizi yenə də bax, bu vəziyyətə salmaq üçün. Nə qədər çalışsalar da, heç nə alınmayacaq. Ancaq bu gün Cənubi Qafqazı rahat buraxsınlar, əl çəksinlər, getsinlər öz işləri ilə məşğul olsunlar, öz problemləri ilə məşğul olsunlar, öz qanlı keçmişlərini yusunlar, öz günahlarını yumağa çalışsınlar. Bu gün əzab verdikləri 100 minlərlə insanın müstəqilliyini bərpa etsinlər, müstəmləkəçilik siyasətinə son qoysunlar, xalqları əzməsinlər, hər yerə burunlarını soxmasınlar. Xəbərdarlığım budur və hesab edirəm ki, bunu eşidən və buna əməl edən səhv etməz.





Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmasın. Onların yadından çıxmasın ki, necə diz üstə bizdən imdad diləyirdilər, necə Rusiyaya gündə bəlkə 10 dəfə ən yüksək səviyyədə müraciət edirdilər ki, müharibə dayandırılsın. O, onların yadından çıxıb. İndi yeni sahiblər tapıblar. O sahiblər qabağında diz üstə yürüyürlər. Antiterror əməliyyatı onların yadından çıxmasın. Yadından çıxmasın ki, hətta o coğrafiyada biz istədiyimizə nail ola bilmişik. Heç kimə baxmadan, heç nəyə baxmadan cəmi bir neçə saat ərzində separatçılığın kökünü kəsmişik.

Əgər Cəbrayılı, şəhəri azad etmək üçün bizə bir həftə lazım idisə, Qarabağı 44 günə azad etmişiksə, separatçıların yuvası olan o bölgələri cəmi bir neçə saat ərzində azad etmişik. Bizimlə heç kim zarafat etməsin və səbrimizlə də oynamasın. Mən bu sözləri istənilən yerdə deyə bilərdim. Çünki yenə də deyirəm, Azərbaycan xalqına həmişə həqiqətləri deyirəm, fikirlərimi deyirəm. Dünyada vəziyyət dəyişir. Əlbəttə ki, bizim də hadisələrə münasibətimiz adekvat olmalıdır. Ancaq hesab etdim ki, mən bu sözləri bax, bu dağıntılar və bu gözəl binalar arasında deməliydim ki, onu həm Azərbaycan xalqı eşitsin, həm bizim dostlarımız eşitsin və bir daha bizim Qələbəmizə sevinsin, düşmənlərimiz də eşitsin və düzgün nəticə çıxarsın.

Bu gün biz azad edilmiş torpaqlarda yaşayırıq. Bu gün bütün azad edilmiş torpaqlarda, o cümlədən Xankəndidə və Xocalıda Azərbaycan Bayrağı dalğalanır. Azərbaycan vətəndaşları artıq Şuşada, Laçında, Füzulidə, Xankəndidə, Xocalıda, Cəbrayılda – bu şəhərlərdə və bir neçə kənddə yaşayır. 100-ə yaxın kəndin bərpası davam edir və biz Böyük Qayıdış Proqramını uğurla icra edirik.

Sizə isə mən burada xoşbəxt həyat arzulayıram. Siz buna layiqsiniz. Siz uzun illər çadırlarda, qaçqın düşərgələrində yaşamısınız. Biz imkan daxilində çalışmışıq ki, həyatınızı bir az yüngülləşdirək. Burada artıq 100-dən çox insan məskunlaşıb, bu gün də, dünən də gələnlər var. Onlardan bir hissəsi Biləsuvardakı qaçqın şəhərciyində yaşamışdır. Yəqin ki, mənim o şəhərciyə gəlişimi xatırlayan da var. Birinci dəfə 20 il bundan əvvəl orada olmuşam. Çalışmışıq ki, yeni mənzillər, yeni evlər tikək və təqribən 300 minə yaxın, bəlkə də çox keçmiş köçkün 2020-ci ilə qədər normal şəraitlə təmin edilmişdir. Ancaq ondan da çox insan ağır vəziyyətdə yaşamışdır. Ona görə bu gözəl binalarda yaşamaq sizin haqqınızdır, siz buna layiqsiniz. Əminəm ki, bu torpaqlarda yaşamış və oradan köçmüş, eyni zamanda, bu torpaqları heç vaxt görməmiş sizin uşaqlarınız, nəvələriniz burada rahat və xoşbəxt yaşayacaq, öz dövləti ilə, xalqı ilə həmişə fəxr edəcəkdir. Bir daha sizi təbrik edirəm.

# Azərbaycan Respublikasının Prezidenti MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Rusiya Federasiyasına səfər edib





Oktyabrın 8-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.

Dövlətimizin başçısını salamlayan **Prezident Vladimir Putin dedi:**



– Hörmətli İlham Heydər oğlu.

Hörmətli dostlar, həmkarlar.

Sizin hamınızı Moskvada salamlamağa çox şadıq. Mənim Bakıya səfərim zamanı razılaşdığımız kimi bu gün görüş keçiririk.

Biz indi Prezidentlə, necə deyərlər, üzbəüz danışırdıq, dünən axşam da qeyri-rəsmi təmasımız olub, münasibətlərimizin hazırkı statusu ilə bağlı məsələlərə bu və ya digər dərəcədə toxunduq.

Dərhal qeyd etmək istərdim ki, münasibətlər müsbət inkişaf edir, biz bunu hələ Azərbaycana səfər zamanı bildirmişdik: əmtəə dövriyyəsi 4 dəfədən çox – 4,3 milyard dollardır. Bizim Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarımız dörd milyard dollardan çoxdur. Energetika sahəsində də, infrastrukturun inkişafı üzrə də çoxlu yaxşı, maraqlı layihələr var. Onların hamısı perspektivlidir, realdır, həm ikitərəfli, həm də çoxtərəfli layihələr aktualdır.

Çox şadıq ki, MDB ölkələri başçılarının görüşü platformasında bizim bu gün cari işlər barədə informasiya mübadiləsi aparmaq, ola bilər ki, irəliyə doğru bu hərəkətdə, - bu isə açıq-aşkardır, - hər hansı düzəlişlər etmək imkanımız var.

Sizi görməyimizə çox şadıq. Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev dedi:**

– Hörmətli Vladimir Vladimiroviç, bu gün görüşmək imkanına görə sağ olun, həmçinin dünənki nahar yeməyinə görə təşəkkür edirəm. Yeri gəlmişkən, fürsətdən istifadə edərək, Sizi keçmiş doğum gününüz münasibətilə təbrik etmək istərdim.



Sizin dövlət səfərinizdən sonra ikitərəfli münasibətlərimizin dinamikası kifayət qədər nəzərə çarpır. Avqust ayında Bakıda əldə olunmuş qərarların yerinə yetirilməsi çərçivəsində artıq müxtəlif strukturların nümayəndələri səviyyəsində, hökumət üzvləri arasında çoxlu təmaslar olub.

Siz qeyd etdiyiniz kimi, bu gün həmin məsələləri nəzərdən keçirmək üçün yaxşı imkan var, çünki gündəliyimiz kifayət qədər genişdir və həmin layihələr, xüsusən avqust ayında Bakıda nəzərdə tutduqlarımız, əlbəttə ki, bizim daimi diqqət və nəzarətimizi tələb edir. Beləliklə, bu gün gündəliyə nəzər salmaq və iki ölkə arasında əldə olunmuş həmin razılaşmaların yerinə yetirilməsi üzrə konkret addımları müəyyənləşdirmək üçün yaxşı fürsətdir.

Görüşə görə bir daha sağ olun.

**Prezident Vladimir Putin:** Hörmətli İlham Heydər oğlu, Sizi oktyabrın 23-24-də Kazanda BRICS xətti ilə BRICS plyus-autriç tədbirlərində gözləyirik. Əminəm ki, orada faydalı görüşlər keçiriləcək, bu təşkilatın iştirakçı ölkələrinin bütün liderləri ilə işləmək mümkün olacaq. Əlbəttə ki, biz BRICS-lə əməkdaşlıq etməyə çalışan çox sayda ölkəni dəvət edirik. İyirmi beş həmkarımız öz iştirakını təsdiq edib. Ona görə də belə platformalarda işləmək hər zaman rahatdır. Onu nəzərdə tuturam ki, bu tədbirin iştirakçılarını maraqlandıran məsələlərin bütöv dairəsi üzrə danışıqlar aparmaq mümkündür. Zənnimcə, bu, həm faydalı, həm də maraqlı olacaq. Sizi Kazanda gözləyirik.

**Prezident İlham Əliyev:** Vladimir Vladimiroviç, sağ olun. Azərbaycan elə Sergey Viktoroviçin də dediyi, öz iştirakını təsdiq etmiş həmin 25 ölkə arasındadır. Sizin dəvətinizi məmnuniyyətlə qəbul edirəm və yeni görüşümüzü səbirsizliklə gözləyirəm. Sağ olun.





Oktyabrın 8-də Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

İclasda iştirak edən dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.

Çıxış üçün sözü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verən **Rusiya Prezidenti Vladimir Putin dedi:** Buyurun, İlham Heydər oğlu, söz Sizindir.

Dövlətimizin başçısı iclasda çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Vladimir Vladimiroviç.

Hörmətli həmkarlar.

Vladimir Vladimiroviç, əvvəlcə Sizi keçmiş doğum gününüz münasibətilə bir daha təbrik etmək və Sizə möhkəm cansağlığı, əmin-amanlıq, Rusiyanın dost xalqına isə yeni uğurlar və nailiyyətlər arzulamaq istərdim. Rusiya Federasiyası Prezidentinin Azərbaycana bu yaxınlardakı dövlət səfəri Rusiya-Azərbaycan münasibətlərinin müttəfiqlik xarakterini bir daha təsdiq etdi. Əminəm ki, əldə olunmuş razılaşmaların həyata keçirilməsi gələcəkdə münasibətlərimizin ardıcıl inkişafı işinə xidmət edəcək.



Fürsətdən istifadə edərək, Emoməli Şərifoviç Rəhmona Tacikistan Respublikasının növbəti il MDB-də sədrliyində uğurlar arzulamaq və keçmiş doğum günü münasibətilə bir daha təbrik etmək istərdim.

MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilib. Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılmışdı. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb.

Növbəti il Azərbaycanda III MDB Oyunları keçiriləcək. Gəncə şəhəri idman paytaxtına çevriləcək. Yarışlar, həmçinin Azərbaycanın 10-dan çox şəhərində keçiriləcək.

Fürsətdən istifadə edərək, Belarusu II MDB Oyunlarını uğurla keçirməsi münasibətilə təbrik etmək istərdim. Belaruslu dostlarımızın və qardaşlarımızın təcrübəsi bu mühüm idman tədbirinə hazırlıqda və onun keçirilməsində bizim üçün çox faydalı olacaq.

Bir aydan sonra Bakı ən böyük beynəlxalq tədbirə – COP29 iqlim konfransına ev sahibliyi edəcək. Biz 200-ə yaxın ölkənin bu konfransın Bakıda keçirilməsi haqqında yekdil qərarını bütün dünya ictimaiyyətinin Azərbaycana hörmətinin əlaməti kimi qiymətləndiririk.

Hörmətli həmkarlar, bu gün MDB dövlət başçılarının İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı müraciəti qəbul ediləcək. Azərbaycan ümumi qələbəmizə sanballı töhfə verib. Həmin dövrdə 3 milyon 400 min əhalisi olan Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə








illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib. Bütün bunlar həmin dövrdə Azərbaycanda istehsal olunub, göstərilən məhsulların o vaxtlar SSRİ-də ümumi istehsalının faizidir. Azərbaycanda 130 növdən çox silah, sursat və texnika, o cümlədən məşhur "Katyuşalar", "Yak-3" qırıcıları istehsal edilirdi.

Bakıda 41 hərbi hospital fəaliyyət göstərirdi, 440 min yaralı müalicə alırdı. 1942-ci ilin martında, həmçinin Taqanroq adı ilə tanınan 416-cı Azərbaycan atıcı diviziyasının döyüşçüləri and içdilər və Şimali Qafqazdan başlayan döyüş yolunu Berlində başa çatdırdılar. 416-cı Azərbaycan atıcı diviziyası 1945-ci il aprelin 21-də birincilər sırasında Berlinin girəcəyinə daxil oldu. Mayın 2-də diviziyanın döyüşçüləri polkovnik Rəşid Məcidovun komandanlığı altında Qələbə Bayrağını Brandenburq darvazası üzərinə sancdılar.

Bizim 9 May ümumi Qələbəmiz MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığının mühüm amilidir. Azərbaycan bu əməkdaşlığa böyük əhəmiyyət verir və bundan sonra da qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

**Vladimir Putin:** İlham Heydər oğlu, çox sağ olun.

***

Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirdi.

Rusiya Prezidenti Vladimir Putin MDB ölkələri arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı layihələrin həyata keçirildiyini, əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko iclasda çıxış etdi və 1941-1945-ci illər müharibəsində Qələbənin 80 illiyi ilə bağlı MDB xalqlarına və dünya ictimaiyyətinə birgə müraciəti oxudu.

Sonra Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko çıxış edərək MDB ölkələrinin parlamentlərarası əlaqələrindən, görüləcək işlərdən, nəzərdə tutulan layihələrdən danışdı.

Daha sonra sənədlər imzalandı.

Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatdı.



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XVI BRICS Sammitində iştirak etmək üçün Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə dəvət olunub







Oktyabrın 24-də Kazan şəhərində XVI BRICS Sammitinin “Outreach”/“BRICS+” formatının ilk plenar iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmək üçün “Kazan Expo” Beynəlxalq Sərgi Mərkəzinə gəldi.

Əvvəlcə XVI BRICS Sammitinin “Outreach”/“BRICS+” formatının nümayəndə heyətləri başçıları - iştirakçılar birgə foto çəkdirdilər.

Rusiya Prezidenti Vladimir Putin çıxış üçün sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Vladimir Vladimiroviç.
Hörmətli həmkarlar.
Xanımlar və cənablar.




Hər şeydən əvvəl dəvətə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinə təşəkkürümü bildirmək istərdim.

Fürsətdən istifadə edərək, Rusiya Federasiyasını BRICS-də uğurlu sədrliyi münasibətilə təbrik etmək istərdim.




Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır, bu, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib. Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir.

Öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq.

Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının – COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident Vladimir Putin dedi:** Hörmətli cənab Prezident, çox sağ olun. Həqiqətən, Siz tamamilə düzgün qeyd etdiniz ki, Azərbaycanın rolu, xüsusilə logistika dəhlizlərinin inkişafında çox mühümdür. Eyni zamanda, zənnimcə, Rusiyanın, həmçinin digər BRICS dövlətləri ilə artan əmtəə dövriyyəsini nəzərə alsaq, Qazaxıstan Prezidentinin indicə dediyi kimi, bu da böyük əhəmiyyətə malikdir.

Sizə ən xoş arzularımı çatdırmaq istəyirəm. Çox sağ olun.

***

Qeyd edək ki, hazırda 10 üzvü olan BRICS 2006-cı ildə yaradılıb. Builki BRICS Sammitinə 36 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, o cümlədən 22 dövlət başçısı və BMT-nin Baş katibi Antonio Quterreş qatılıblar. BRICS 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri əlaqələndirən vahid geosiyasi bloka çevrilib, həmçinin dünya əhalisinin təxminən yarısını və qlobal iqtisadiyyatın dörddəbirindən çoxunu təşkil edən nəhəng iqtisadi güc mərkəzinə çevrilib.

# Azərbaycan Respublikasının Prezidenti Bakıda yeni salınan parkda, habelə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub











Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Bakının Nəsimi rayonunda Zərifə Əliyeva, Rixard Zorge küçələrinin və Neftçilər prospektinin əhatəsində yerləşən ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yeni salınan parkda yaradılan şəraitlə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına burada həyata keçirilən abadlıq və yenidənqurma işləri, yeni salınan parkda yaradılan şərait barədə məlumat verdi.

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin göstərişinə əsasən Nəsimi rayonu ərazisində salınan yeni parkdır.

Bildirildi ki, yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Ərazidə asfalt örtüyü ləğv edilərək müasir tələblərə cavab verən piyada yolları salınıb. Yeni parkda yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artmaqdadır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən quruculuq işlərinin daha da genişləndiyini göstərir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə də yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nəsimi rayonu ərazisində yeni salınan park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından əhəmiyyətlidir. Yeni parkının salınması gələn ay COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Bakı Dəmiryol Vağzalının və metronun "28 May" stansiyasının qarşısındakı ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına paytaxtımızda Puşkin küçəsinin Azadlıq prospekti ilə birləşməsindən Dilarə Əliyeva küçəsi ilə kəsişməsinədək olan hissəsində - Bakı Dəmiryol Vağzalı və metronun "28 May" stansiyasının qarşısındakı ərazidə görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 3,5 hektar olan ərazidə minik avtomobillərinin hərəkəti ləğv edilərək, müasir tələblərə cavab verən avtobus, piyada və velosiped zolaqları yaradılıb. Köhnə döşəmə örtükləri ləğv edilərək, qranit bordürlər düzülüb və təqribən 22 min kvadratmetr qranit döşəmə örtüyü salınıb. Ərazidə ümumi sahəsi təqribən 2300 kvadratmetr olan yaşıllıq yaradılıb, İtaliyadan gətirilmiş 200-dən çox ağac, 15 mindən çox kol əkilib, işıqlandırma işləri aparılıb, müasir oturacaqlar quraşdırılıb. Həmçinin müasir tikinti norma və qaydalarına





cavab verən 2 fəvvarə, 2 dayanacaq inşa edilib, elektrik avtobusları üçün 4 enerjidoldurma məntəqəsi quraşdırılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində ölkəmizin hər yerində, o cümlədən paytaxt Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb.

Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasındadır. Bu xüsusda görülən işlər həm paytaxt sakinlərinin və Bakıya gələn çoxsaylı turistlərin istirahəti üçün müvafiq şəraitin yaradılması, həm də şəhərin ekoloji durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlı olduğunu bir daha nümayiş etdirir. COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində görülən abadlıq və yenidənqurma işləri də ətraf mühitin sağlamlaşdırılmasına mühüm töhfə verir, eyni zamanda, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir.

# Azərbaycan Respublikasının Prezidenti Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün Qırğız Respublikasına səfər edib

Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Görüşdə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bir daha qeyd olundu.

Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşünün türk dövlətləri arasında əməkdaşlığın güclənməsi işinə xidmət etdiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanda keçiriləcək COP29-un əhəmiyyəti bir daha qeyd edildi.







Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirildi, ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***

Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmək üçün Prezident Administrasiyasına gəldi.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Daha sonra Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının iclası keçirildi.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Zirvə görüşünün işinə uğurlar arzuladı. S.Japarov çıxışında yaxın günlərdə Azərbaycanda keçiriləcək COP 29 konfransına diqqət çəkərək dedi: "Tezliklə Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 keçiriləcək. Hörmətli Azərbaycan Prezidenti belə bir böyük Zirvə toplantısına ev sahibliyi edəcək və biz Azərbaycan hökumətinə bu mövzu ilə bağlı hər cür dəstək göstərməyə hazırıq".




Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Türk Dövlətləri Təşkilatının türk xalqlarını daha da yaxınlaşdırdığını bildirdi. Kasım-Jomart Tokayev ortaq türk əlifbasının yaradılması, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi istiqamətində görülən işlərin əhəmiyyətini vurğuladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Hörmətli Sadır Nurqojoyeviç.

Hörmətli dövlət və hökumət başçıları.

İlk növbədə, qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğız Respublikasının Prezidenti Sadır Nurqojoyeviç Japarova təşəkkür edirəm.

Bu, mənim son iki ildə Qırğız Respublikasına üçüncü səfərimdir. Hər səfərimdə Sadır Nurqojoyeviçin rəhbərliyi ilə ölkədə inkişafın şahidi oluram. Əldə edilmiş bütün uğurlar münasibətilə qardaş Qırğızıstanı təbrik edirəm.

Həmçinin Türk Dövlətləri Təşkilatına uğurlu sədrliyinə görə Qazaxıstanı təbrik edirəm.

Bu il Türk Dövlətləri Təşkilatının əsasını qoymuş Naxçıvan Sazişinin 15-ci ildönümüdür. Təşkilatımız bu dövr ərzində uğurlu inkişaf yolu keçib. İyul ayında Şuşa şəhərində keçirilmiş Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanmış Qarabağ Bəyannaməsi əməkdaşlığın daha da dərinləşməsinə töhfə verir.

Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Türk Dövlətləri Təşkilatının mövcud büdcəsi qarşıya qoyduğumuz hədəflərin həyata keçirilməsi üçün yetərli deyil. Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək.

Hazırda dünyada artan təhlükələri nəzərə alaraq müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Son dövrlər hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız arasında əməkdaşlıq daha da genişlənib.

Ölkələrimizin silahlı qüvvələrinin iştirakı ilə hərbi təlimlər keçirilir. Hərbi təhsil müəssisələrimizdə qardaş ölkələrin müdavimlərinin təhsil alması qarşılıqlı etimadın və dostluğun göstəricisidir.





Son dövrlər Şərq-Qərb nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisi üzrə daşımalar daha da artıb. Mərkəzi Asiya ölkələri ilə Türkiyəni Azərbaycan üzərindən bağlayan bu dəhlizin ötürmə qabiliyyətinin yüksəldilməsi üçün Azərbaycan öz sərmayələrini artırır.

2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin yanvar-sentyabr aylarında üzv və müşahidəçi dövlətlər ilə tranzit daşımalarının həcmində 15 faizə yaxın artım müşahidə edilir.

Hazırda Orta Dəhlizin rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması istiqamətində bir sıra layihələr icra olunur. Bu layihələr logistika səmərəliliyinin artırılmasına və xərclərin azaldılmasına təsir edəcək.

Ötən ilin sentyabr ayında Azərbaycan öz suverenliyini tam bərpa etdi. Ermənistan 30 il davam edən işğal dövründə bu ərazilərdə 9 şəhərimizi və yüzlərlə kəndimizi tamamilə məhv edib. İşğaldan azad olunan ərazilərdə indi genişmiqyaslı yenidənqurma və bərpa layihələri həyata keçirilir, eyni zamanda, Böyük Qayıdış Proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlər öz doğma yurdlarına geri dönürlər.

Fürsətdən istifadə edərək, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstanın dövlət və hökumət başçılarına azad olunmuş ərazilərdə qardaşlıq hədiyyəsi olan məktəbə və yaradıcılıq mərkəzinə, eləcə də tikiləcək məktəblərə görə bir daha təşəkkürümü bildirmək istərdim.

Azərbaycan yaxın günlərdə COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir. Keçən ilin dekabrında 200-ə yaxın ölkə Azərbaycanın namizədliyini yekdilliklə dəstəkləmişdir. Bu, beynəlxalq aləmin ölkəmizə böyük hörmətinin və dəstəyinin təzahürüdür.

Əminəm ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcəklər.

Diqqətinizə görə təşəkkür edirəm.

***





Qırğızıstan dövlətinin başçısı Sadır Japarov çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

***

Daha sonra çıxış edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Cənubi Qafqazda yaranan sabitliyin pozulmaması üçün Ermənistanla Azərbaycan arasında sülh razılaşması istiqamətində danışıqların davam etdirilməsinin vacibliyinə toxundu. Türkiyə Prezidenti dedi: "Hörmətli qardaşlarım, Cənubi Qafqazda mövcud olmuş 30 illik münaqişə və qeyri-sabitlikdən sonra sülh və əmin-amanlığa gedən yolun qapıları açılmışdır. Can Azərbaycanın Vətən müharibəsində döyüş meydanında şəhidlər verərək əldə etdiyi tarixi uğurların ən yaxın zamanda sülh müqaviləsinin imzalanması ilə masada da əksini tapmasını ümid və arzu edirik".

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev çıxışında Bakıda keçiriləcək COP29-la bağlı təbriklərini çatdıraraq dedi: "Gələn həftə Bakıda COP29 konfransının başlanması münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi bir daha səmimi-qəlbdən təbrik edir, ona böyük uğurlar arzulayıram".

Macarıstanın Baş naziri Viktor Orban çıxışında Azərbaycanın və Türkiyənin ölkəsinin enerji təhlükəsizliyinə töhfə verdiklərini vurğulayaraq dedi: "Biz qonşumuz olmayan Türkiyədən və Azərbaycandan təbii qaz alırıq. Bütün bunlara görə təşəkkürümü bildirirəm".

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev təşkilata üzv dövlətlər arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsi istiqamətində görülən işlərdən danışdı. Eyni zamanda, TDT qarşısında duran yeni hədəflərə diqqət çəkdi. Qeyd etdi ki, hazırda təşkilata üzv ölkələr arasında həyata keçirilən layihələrdə müasir texnologiyalardan istifadə, süni intellektin tətbiqi, təhlükəsizlik məsələləri, elektron ticarətin təşkili və reallaşdırılması prioritet istiqamətlərdir.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar dili və kökü bir olan türk xalqlarının daha da yaxınlaşması, ölkələr arasında iqtisadi-ticari əlaqələrin inkişafı, tarixi İpək yolunun yenidən canlanması, təhsil sahəsində yeni əməkdaşlıqların yaradılması, strateji layihələrin həyata keçirilməsi istiqamətində Türk Dövlətləri Təşkilatının rolunu xüsusi vurğuladı.

***

Sonda sənədlər imzalandı.

# Azərbaycan Respublikasının Prezidenti Bakıda Zəfər parkının açılışında iştirak edib, Dövlət Bayrağı Meydanında Azərbaycanın üçrəngli Bayrağını ucaldıb









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 8-də Bakıda Zəfər parkının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı burada Azərbaycanın üçrəngli Dövlət Bayrağını ucaldıb.

Sonra parkdakı Zəfər abidəsinin önünə əklil və gül dəstələri qoyulub.

Daha sonra dövlətimizin başçısı xalqa müraciət edib.








## Prezident İlham Əliyevin müraciəti

– Əziz həmvətənlər.

Bu gün Azərbaycan Zəfər bayramını qeyd edir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm, Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm.

Hər birimiz üçün əziz bir gündə Vətən uğrunda öz canlarından keçmiş qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Biz şəhidlərimizin qisasını, qanını döyüş meydanında aldıq. 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir, parlaq Qələbəmizdir. Biz həm Birinci Qarabağ müharibəsinin, həm İkinci Qarabağ müharibəsinin, eləcə də antiterror əməliyyatının şəhidlərinin qanını döyüş meydanında aldıq, öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etdik.

Qırx dörd gün ərzində Azərbaycan Silahlı Qüvvələri ancaq və ancaq irəli gedirdi. Hər gün, hər saat irəli gedərək döyüş meydanında 300-dən çox şəhər və kəndimizi işğalçılardan azad etdik və düşməni kapitulyasiya aktının imzalanmasına məcbur etdik. Qırx dörd gün ərzində şəhərlərimizin, kəndlərimizin azad edilməsi Ordumuzun gücünü, hərbçilərimizin peşəkarlığını, fədakarlığını, xalqımızın əzmini bütün dünyaya nümayiş etdirmişdir. Torpaqlarımız 30 il ərzində işğal

altında olsa da, Azərbaycan xalqı və Azərbaycan rəhbərliyi bu işğalla heç vaxt barışmırdı. Baxmayaraq ki, Ermənistanın arxasında duran bir çox dövlətlər bizim bu işğalla barışmağımız üçün müxtəlif üsullardan istifadə edirdilər. Azərbaycan xalqı yaxşı xatırlayır, böyük dövlətlər, bu məsələni - Ermənistan-Azərbaycan münaqişəsini guya həll etməyə çalışan vasitəçilər dəfələrlə bəyan edirdilər ki, bu münaqişənin hərbi həlli yoxdur. Nəyi demək istəyirdilər Azərbaycan xalqına? Onu demək istəyirdilər ki, biz bu işğalla barışaq. Çünki onların planlarında məhz bu idi. Onların planlarında məsələni həll etmək yox, işğala son qoymaq yox, Azərbaycan torpaqlarını erməni işğalının altında əbədi saxlamaq idi. Biz bunu görürdük, bilirdik. İllər keçdikcə, hər bir danışıqlar dövrü uğursuzluqla başa çatdıqca həm Azərbaycan rəhbərliyi, həm Azərbaycan xalqı bunu əyani şəkildə görürdü. Biz isə bu vəziyyətlə barışa bilməzdik. Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa-olsun, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi danışıqlar mövzusu olmayacaq və həyat bunu göstərdi.




Biz hazırlaşırdıq, güclü ordu yaradırdıq, iqtisadi inkişafı təmin edirdik, çünki Ermənistandan fərqli olaraq heç bir kənar yerdən yardım almırdıq, ancaq öz gücümüzə güvənirdik. İqtisadi inkişaf, siyasi çəkimizin böyük olması, sözümüzü beynəlxalq tribunalarda qətiyyətlə deməyimiz, xalq-iqtidar birliyi, gənc nəslin yetişdirilməsi, cəmiyyətdə vətənpərvərlik ruhunun bərqərar olması – bütün bu amillər bizi Qələbəyə doğru aparırdı. Bütün bu amillərin cəmləşməsi bu Qələbəni mümkün etmişdir. Cəmi 44 gün ərzində düşmənin 6-7 müdafiə xəttini öz sinəsini qabağa verərək, güllə altına qoyaraq yaran bizim qəhrəman övladlarımız, hərbçilərimiz bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu, gücünü, iradəsini bir daha göstərmişdir. Biz düşməni kapitulyasiya aktının imzalanmasına məcbur etdik. Həmin düşmən hələ 2019-cu ildə Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" demişdi. Biz onu məcbur etdik ki, bu gün "Qarabağ Azərbaycandır" deyir və bundan sonra da deyəcək, öz xoşu ilə yox.

İndi Ermənistanın bəzi Qərb havadarları Ermənistandan "sülh göyərçini" düzəltmək istəyirlər. Sanki bu 30 illik işğal olmayıb, dağıntılar olmayıb, vəhşilik olmayıb, Xocalı soyqırımı olmayıb. Məscidlərimizin, qəbirlərimizin dağıdılması, bütün Qarabağın, Şərqi Zəngəzurun viran edilməsi sanki olmayıb. Yəni, bunu unutdurmaq, dünya ictimaiyyətinə unutdurmaq istəyirlər. Amma biz heç vaxt bunu unutmayacağıq və Azərbaycan xalqı heç vaxt bunu unutmamalıdır, bizdən sonra gələn nəsillər bu tarixi bilməlidirlər və heç vaxt unutmamalıdırlar. Necə ki, biz Qarabağı 30 il ərzində unutmamışdıq, necə ki, 30 il ərzində xalqımız bir nöqtəyə vuraraq bu Qələbəni yaxınlaşdırırdı. Bundan sonra da bu tarixi yaddaş heç vaxt yadımızdan çıxmamalıdır.

Müharibə dövründə Ermənistan hərbi cinayətlər törətmişdir, dinc şəhərlərimizi bombalayırdı, "İsgəndər M", "Toçka U", "Elbrus" və digər dağıdıcı silahlarla hər gün şəhər və kəndlərimiz artilleriya atəşi altında idi. Amma bu, Azərbaycan xalqının iradəsinə bir zərrə təsir etmədi. Əksinə, dağıntılardan öz yaxınlarının meyitlərini çıxaran bizim soydaşlarımız bir amalla yaşayırdı ki, təki müharibə dayanmasın. Biz müharibəni vaxtında dayandırdıq və mən müharibənin ilk günündə demişdim ki, düşmən torpaqlarımızdan çıxmaq cədvəlini bizə verməlidir – nə vaxt hansı bölgədən çıxır, ondan sonra biz müharibəni dayandıracağıq. Ancaq bəzi insanlar, – bu, təbiidir, – hesab edirdilər ki, Azərbaycan rəhbərliyi bu beynəlxalq ermənipərəst qüvvələrin təzyiqinə davam gətirə bilməyə bilər və xalqımız narahat idi ki, işimiz yarımçıq qalacaq. Bu, təbiidir, çünki Azərbaycan o qədər də böyük dövlət deyil. Minsk qrupunun bütün həmsədrləri 30 il ərzində Ermənistanın arxasında dayanmışdı, biri pulsuz silah verirdi, biri pul verirdi, biri həm silah, həm pul verirdi, siyasi dəstək verirdi, bir məqsədlə ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlasınlar. Ona görə, təbii olaraq Azərbaycan vətəndaşlarının bəziləri narahat idi ki, müharibə yarımçıq qalacaq, biz öz istədiyimizə nail ola bilməyəcəyik, bizi kimsə dayandıracaq. Amma mən dedim, yox, heç kim bizi dayandıra bilməz, öldü var, döndü yoxdur. Sona qədər vuruşacağıq, ədaləti bərpa edəcəyik, beynəlxalq hüququ bərpa edəcəyik və Ermənistana onun yerini göstərəcəyik.

2020-ci il noyabrın 8-də tarixi Şuşa əməliyyatı demək olar ki, düşmənin belini qırmışdır. Ondan sonra cəmi bir gün keçdi və noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu və biz müharibəni dayandırdıq.



Bugünkü reallıq, bugünkü uğurlarımız onu göstərir ki, o, yeganə düzgün addım idi. Biz bir güllə atılmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmişik. Ondan sonra aparılan məqsədyönlü və düşünülmüş siyasət, qətiyyətli addımlar nəticəsində biz həm siyasi, həm strateji və hərbi-strateji mövqelərimizi böyük dərəcədə gücləndirdik, vacib olan yüksəkliklərə nəzarətimiz təmin olunandan sonra bir qrup separatçının, Qarabağda və Ermənistanda onların arxasında duranların aqibəti bəlli idi – ya Azərbaycan qanunlarına tabe olacaqlar, ya təslim olacaqlar, ya da məhv olacaqlar. Biz onlara seçim verdik və yenə də düzgün qərar qəbul etmədilər. Yenə də hesab edirdilər ki, kimsə onlara kömək edəcək, kimsə Azərbaycanı öz haqq işindən çəkindirəcək. 2023-cü ilin sentyabrında keçirilmiş cəmi bir neçə saat davam edən antiterror əməliyyatı onlara növbəti bir dərs olmuşdur və bununla da separatçılığın kökü kəsildi, kitabı bağlandı. İndi Qarabağ torpağında separatçıların izi-tozu da qalmayıb.

Bütün bu şanlı tarixi Azərbaycan xalqı öz qanı ilə, öz gücü ilə yazmışdır. Biz həm Vətən müharibəsi dövründə, həm ondan sonrakı dövr ərzində, antiterror əməliyyatı zamanı və ondan sonra düşməni məcbur etdik ki, Qazax rayonunun 1990-cı illərin əvvəllərində işğal etdiyi 4 kəndini bizə qaytarsın, bu, öz xoşu ilə olmayıb. Bəli, heç bir güc tətbiq edilməmişdir, ancaq ona ehtiyac da qalmadı. İkinci Qarabağ müharibəsinin, antiterror əməliyyatının nəticələri hesab edirəm ki, Ermənistanın bu günə qədər düzgün addımlar atması üçün kifayətdir. Ancaq bir məsələ var, onu da biz unutmamalıyıq ki, bu gün bu vəziyyətlə barışmaq istəməyən anti-Azərbaycan qüvvələr, bəzi Qərb paytaxtlarında oturan islamofoblar, azərbaycanofoblar Ermənistanı yeni müharibəyə təhrik edirlər. Bu, Ermənistan dövləti üçün tam faciə ola bilər və mən dəfələrlə həm rəsmi çıxışlarımda, həm təmaslar əsnasında Ermənistan tərəfinə izah etməyə çalışırdım ki, bundan uzaq dursunlar, o fitnəyə getməsinlər. Öz maraqlarını təmin etmək üçün, onların dostları sayılan bəzi Qərb dövlətləri onları qurban verməyə hazırdırlar ki, yenə də Cənubi Qafqazda ara qarışsın, yenə də qan tökülsün, yenə də onlar bulanıq suda balıq tuta bilsinlər. Hələ ki, gec deyil, ona görə Ermənistan bu silahlandırma siyasətindən əl çəkməlidir, buna son qoyulmalıdır, mən dəfələrlə bunu demişəm və onlar bilirlər ki, mənim sözümə diqqət yetirmək lazımdır. Hələ ki, gec deyil, bundan əl çəksinlər, onlar heç vaxt bizimlə rəqabət aparmaq gücündə olmayacaqlar. Biz müharibə istəmirik. Biz istədiyimizə nail olduq, ərazi bütövlüyümüzü təmin etdik, dövlət suverenliyimizi təmin etdik. Bütün sərhədlərdə ərazi bütövlüyü təmin edilir və keçmiş məcburi köçkünlər, qaçqınlar öz dədə-baba torpaqlarına qayıdırlar.

Biz indi quruculuq işləri ilə məşğuluq. Bizim üçün əsas məsələ budur. Amma görəndə ki, Ermənistan və onun arxasında duran, Azərbaycana düşmən gözü ilə baxan, bizə soyuq müharibə elan edən qüvvələr Ermənistanı silahlandırır, Ermənistan silahlanır, biz adekvat addım atmağa məcburuq. Otuz illik işğal tarixi bizim yaddaşımızdan silinmir və bayaq dediyim kimi, heç vaxt silinməməlidir. Biz hər an yeni təxribata hazır olmalıyıq və hazırıq. Azərbaycan Silahlı Qüvvələri hər an təxribatı dəf etmək üçün hazır vəziyyətdədir. Əgər kimsə yenidən bizim gücümüzü sınamaq istəyirsə, yenidən məğlub olacaq, yenidən biabır olacaq. Çünki 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı, bizim Zəfərimiz təkcə Ermənistanın məğlubiyyəti deyil, onların arxasında duranların acı və alçaldıcı məğlubiyyətidir. Onu bizə bağışlaya bilmirlər. Ona görə Qərbdə Azərbaycana qarşı geniş, çirkin kampaniya aparılır. Ölkəmizi gözdən salmaq, olmazın iftiralarını uydurmaq, öz əlinin altındakı saxta xəbər mənbəyi olan media resurslarından, qeyri-hökumət təşkilatlarından istifadə edərək Azərbaycanı qaralamaq, şantaj etmək, ləkələmək, təhqir etmək, bax, o özünü alçaldılmış sayan Qərb dövlətlərinin və uğursuz Qərb liderlərinin məqsədidir və onların çirkin üsuludur. Azərbaycan xalqı bunu bilir və Ermənistan xalqı da bunu bilməlidir, kimdir onların əsas düşməni? Biz deyilik. Biz onlara heç bir pislik etməmişdik. Biz

onlara çörək vermişdik. Onlar bizim torpağımızda yaşayıb, özləri üçün həyat qurmuşdular. Baxmayaraq ki, XIX əsrdə ancaq onlar buraya göndərilmişdi. Biz nə pislik etmişdik? Onlar bizə qarşı soyqırımı törətdilər – Xocalı soyqırımı. Otuz il ərzində bütün şəhər və kəndlərimizi dağıtdılar, məscidlərimizi təhqir etdilər, sökdülər. Bütün o bölgəni minalayıblar. Üç yüzdən çox insan artıq minaların qurbanı olub Azərbaycanda. Ona görə biz onların düşməni deyilik, onların düşməni onların arxasında duran və ondan sonra onların arxasından dovşan kimi, siçan kimi qaçan siyasətçilərdir. Mənim sözlərimə onlar yaxşı qulaq assınlar.

Biz isə bundan sonra da güclənəcəyik. Heç bir təzyiq, heç bir hədə-qorxu bizə bu günə qədər təsir etməyib. Bundan sonra da təsir etməyəcək. Xalq-iqtidar birliyi gücümüzün əsas mənbəyidir. İnkişafda olan Azərbaycan qürur mənbəyimizdir, şanlı Qələbəmiz isə bizim tarixi nailiyyətimizdir, tarixi zəfərimizdir.

Bu gün Zəfər Günündə şəhərimizin ən gözəl yerlərindən birində Zəfər parkı açılıb. Gözəl Zəfər tağı, Zəfər abidəsi, ərazisi 10 hektara yaxın olan gözəl park, onun aşağısında Zəfər muzeyi artıq inşa edilib, onun tərtibatı gedir. Gələcəkdə Zəfər muzeyi də olacaq. Bu gözəl yerdə şəhərimizin, yenə də deyirəm, ən gözəl yerlərindən birində bu gün bizim parlaq Zəfərimizi əks etdirən yeni simvolumuz artıq yaradılıb. Şəhərə gedən iki yolun kəsişməsində Zəfər tağı yerləşir. Həm müasir üslubda inşa edilib, həm çox əzəmətlidir. Hündürlüyü də 44 metrdir, sütunlarının da sayı 44-dür. Bu parkda və indi tərtib olunan muzeydə bir çox önəmli rəmzlər var. Bu rəmzlər bizimlə əbədi olacaq. Bu Qələbə bizimlə əbədi olacaq. Azərbaycan xalqı bundan sonra qalib xalq, Azərbaycan dövləti müzəffər dövlət kimi yaşayacaqdır.

Eşq olsun Azərbaycan xalqına, eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə, Qarabağ Azərbaycandır!

***

Qeyd edək ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.

Ötən il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva inşası davam etdirilən Zəfər parkında görülən işlərlə tanış olublar. Bu il iyulun 24-də isə Prezident İlham Əliyev yenidən Zəfər parkında olub və burada aparılan tikinti işlərinin gedişi ilə yaxından maraqlanıb.




Paytaxtın 8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi 10 hektara yaxındır. Parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılıb. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirir. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınıb. Torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə parkın ərazisində Zəfər muzeyi də yaradılır. Qurulmaqda olan Zəfər muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Muzeydə Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini nümayiş etdirəcək.

Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılıb. Yaddaş bağçasının ətrafında istirahət guşələri salınıb. Parkın sonunda Azadlıq Bayrağı Meydanı inşa olunub.







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 8-də Bakıda Dövlət Bayrağı Meydanında olublar.

Dövlətimizin başçısı burada Azərbaycanın üçrəngli Bayrağını ucaldıb.

Sonra Prezident İlham Əliyev meydanda və Dövlət Bayrağı Muzeyində yaradılan şəraitlə tanış olub.

Qeyd edək, ki, Dövlət Bayrağı Muzeyi Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva tərəfindən 2010-cu il noyabrın 9-da açılıb. Muzey fəaliyyəti dövründə Azərbaycanın Dövlət Bayrağı ilə yanaşı, ölkəmizdə müxtəlif dövrlərdə mövcud olan xanlıqların, dövlətlərin bayraqları əyani nümayiş etdirilib və gələn qonaqlara ətraflı məlumatlar verilib. Bundan başqa, muzeydə Azərbaycanın qədim və zəngin dövlətçilik tarixini əks etdirən 400 eksponat sərgilənib. Muzeyə gələn qonaqlara hər bir tarixi nümunə haqqında təfsilatlı məlumatlar verilib.

2017-ci ildə Dövlət Bayrağı Meydanında aparılan yenidənqurma və bərpa işləri ilə əlaqədar Dövlət Bayrağı Muzeyi də təmirə bağlanıb. Təmir-bərpa işlərinin aparıldığı illər ərzində muzeyin əməkdaşları eksponatların qorunması, saxlanılması, daha da zənginləşdirilməsi isti-














qamətində işlər görüb, eksponat sayını 431-ə çatdırıblar.

Təmir-bərpa işlərindən sonra yeni görkəmdə və tərtibatda fəaliyyətə başlayan Dövlət Bayrağı Muzeyində 44 günlük Vətən müharibəsinə həsr olunan "Zəfər qalereyası" adlı ekspozisiya nümayiş olunur. Qalereyada Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərdə Dövlət Bayrağının ucaldılması və Xankəndi şəhərində Vətən müharibəsindəki Qələbənin üçüncü ildönümü ilə bağlı hərbi paradın fotoları sərgilənir.

Muzey altı sərgi salonundan ibarətdir.

A Sərgi salonunda ölkəmizin qədim və orta əsrlər dövrünə aid bayraqlar, bayraq ucluqları, hakimiyyət rəmzləri, sikkələr, silahlar və XIX əsr Azərbaycan şəhərlərinin gerbləri nümayiş olunur.





Vətən müharibəsinə həsr edilən orden və medallar, dünyanın ən hündür zirvələrinə sancılmış Dövlət Bayrağı nümayiş etdirilir. Salonda Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli və "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" 2009-cu il 17 noyabr tarixli sərəncamlar, Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 17 noyabr tarixli Qərarından ibarət stend yerləşdirilib.

B Sərgi salonu Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövrünü əhatə edir. Burada Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində 1918-ci il dekabrın 7-də asılan Dövlət Bayrağı, həmin dövrə aid fotoşəkillər, pul əsginasları, poçt markaları, eləcə də keçmiş Azərbaycan SSR-in bayraqları, gerbləri, müxtəlif illərdə qəbul olunan konstitusiyaları, pul əsginasları və poçt markaları təqdim edilir.

C Sərgi salonundakı eksponatlar isə müstəqillik dövrünü əhatə edir. Burada Ümummilli Lider Heydər Əliyevə həsr edilən xatirə medalları və poçt markaları, Azərbaycan Prezidentinin ştandartı, dövlətimizin orden və medalları, Azərbaycan Konstitusiyası, eləcə də

Azərbaycan Silahlı Qüvvələrinin bayraqları, medalları, emblem və şevronları isə muzeyin D salonunda sərgilənir.

E və F salonlarında Azərbaycanın hərbi qulluqçularının mərasim geyim formaları nümayiş olunur.

Bundan əlavə, Dövlət Bayrağı Muzeyindəki monitorlarda ölkəmizin qədim və orta əsrlər, Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövrünə, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki xidmətlərinə, Prezident İlham Əliyevin ordu quruculuğuna və Ali Baş Komandanlığı ilə Vətən müharibəsindəki tarixi qələbəyə həsr edilən videolar nümayiş olunur.

# Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimi keçirilib




Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş Sammitdə iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladılar.

Qarşılanma mərasimindən sonra birgə foto çəkdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı



– Hörmətli BMT-nin Baş katibi.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Azərbaycanda salamlayıram.

Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanı olacaqdır.

Mən COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürümü bildirmək istərdim. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdaram.

Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük.

Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar,



çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik.

Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi.

Azərbaycan, həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli, mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik. Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq.

BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə biz iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edirik. Multikulturalizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir.

Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

Yaşıl gündəliyimiz, həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır. Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı. Sadəcə, bir informasiya ilə başlamaq istərdim. Dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb. O, buradan uzaq yerdə yerləşmir və həmin yerə 10-15 dəqiqəlik yoldur. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü.




Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.

Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Yaşıl gündəliyimizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, – mən beynəlxalq medianı nəzərdə tuturam, – mənim yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər.

Bu gün isə mən bu auditoriyada, burada təkrar etmək istəyirəm: Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda, biz realist olmalıyıq.

Digər ittiham məsələsinə gəldikdə, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır.

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!

Sağ olun.





Noyabrın 12-də Bakıda, Gülüstan sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə ziyafət verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.



# COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammiti keçirilib

Noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sammitin moderatoru, Millətlər Birliyi təşkilatının (Commonwealth) Baş katibi Patrisia Skotlend tədbiri açaraq dedi:

– Zati-aliləri, hörmətli qonaqlar, xanımlar və cənablar, sizi salamlayıram.

İqlim dəyişmələrinin mənfi təsirinə xüsusən məruz qalan inkişaf etməkdə olan kiçik ada dövlətlərinə həsr olunmuş bu cür mühüm müzakirədə hamınızı salamlamaqdan məmnunam. Biz iqlim dəyişmələrinin ən kəskin təsiri ilə üzləşən ölkələrin rəhbərlərini eşitmək şərəfinə nail olacağıq.

Bugünkü tədbiri Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev ilə açmaqdan şərəf hissi duyuram. Cənab Prezident Azərbaycan iqtisadiyyatının tam və yaddaqalan transformasiyasına nail olub. Biz onun iqlim fəaliyyətində rolunun artmasının, daha güclü beynəlxalq tərəfdaşlığın qurulmasının, xüsusən də BMT, Qoşulmama Hərəkatı və Millətlər Birliyi kimi təşkilatlar vasitəsilə əməkdaşlığı gücləndirdiyinin şahidiyik. Həmin təşkilatlarda Azərbaycan dayanıqlı iqtisadi artım və müqavimət gücünü təşviq edib.

Cənab Prezident, sözü Sizə verirəm.

***

Dövlətimizin başçısı Sammitdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Hörmətli Baş katib.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar, əziz dostlar.

Mən Sammitin bütün iştirakçılarını salamlayıram. Azərbaycan COP29-a ev sahibi olduqdan sonra inkişaf edən kiçik ada dövlətləri ilə münasibətlərimiz yeni, daha yüksək səviyyəyə qalxıb. Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir. Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər. İqlim dəyişmələri hər bir ölkəyə, o cümlədən Azərbaycana təsir göstərir. Görürük ki, Xəzər dənizi ilbəil daha da dayazlaşır. Görürük ki, çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır. Bir sözlə, hər bir ölkə təsirə məruz qalır, lakin kiçik ada dövlətləri üçün bu ekzistensial təhlükədir.

Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Biz, həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik.

Həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Bu ilin mayında COP-la bağlı planlarını müzakirə etmək üçün Baham adalarının, Tonqanın və Tuvalunun rəhbərləri Azərbaycana səfər etdilər. Qəbul olunmuş Bakı Kommünikesində COP29-da mənalı nəticələrin əldə olunmasına çağırış edilir və əlçatan iqlim maliyyəsinin vacibliyi qeyd olunur. Bu ilin sentyabrında İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması ilə bağlı Bakıda ciddi irəliləyiş əldə olunmuşdur. Hazırda proses ehtiyac duyan ölkələrə, xüsusən də kiçik ada dövlətlərinə maliyyənin verilməsi üçün tamamlanmalıdır. Bu yay Azərbaycan Tonqada Millətlər Birliyi ilə Birgə Bəyannamə imzaladı.




Biz Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırırıq. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmos Agentliyi – "Azərkosmos"dan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə Anlaşma Memorandumu imzalanmışdır.

Hörmətli xanımlar və cənablar, fürsətdən istifadə edərək, mən beynəlxalq gündəlikdə mühüm məsələlərdən birini də qaldırmaq istəyirəm – neokolonializm və iqlim dəyişmələri. Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sənt-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları, – gəlin, həmin ərazidəki xalqları alqışlayaq, – bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır.

1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat – Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdır.

Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək.

Çox sağ olun.

***



deyib: "Mən fürsətdən istifadə edərək həm Prezident Əliyevə, həm də Baş katib Antonio Quterreşə bu işlərə sadiqliyə, güclü rəhbərliyə və hərtərəfli dəstəyə görə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirik ki, maliyyə ilə bağlı bu yanaşma sayəsində COP29-da real nəticələrə nail olacağıq. Gəlin, onlara təşəkkürümüzü bildirək".

Millətlər Birliyinin 56 üzvündən 25-nin inkişaf etməkdə olan ada dövləti olduğunu və onların çox gözəl potensialının mövcudluğunu qeyd edən Patrisia Skotlend vurğulayıb: "Onlar böyük çağırışlarla üzləşir. Onlar iqlim dəyişmələrinin intensivləşməsinə yüksək dərəcədə həssasdırlar. Bu, fiziki baxımdan daha az ərazi deməkdir. Bununla belə qlobal maliyyə qaydaları onların işini daha da çətinləşdirir. Bütün bunlar onların müqavimət gücünü zəiflədir. Bu səbəbdən kiçik ada dövlətlərinə verilən prioritet Birlik proqramımızın əsasını və beynəlxalq sistemdə fəaliyyətimizin özəyini təşkil edir".

Sammitdə çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş inkişaf etməkdə olan kiçik ada dövlətlərinin böyük ədalətsizliklərlə üzləşdiyini, iqlim dəyişmələrinin, artan qiymətlərin, COVID-19 pandemiyasının bu ölkələrə ciddi ziyan vurduğunu, onların hökumətlərinin çətin vəziyyətdə olduqlarını vurğulayaraq deyib: "Siz - kiçik ada dövlətləri nümayiş etdirirsiniz ki, iqlim ambisiyaları özünü necə büruzə verir. Siz cavab tədbirlərini görən ilk tərəfsiniz. Dünya sizi dəstəkləməli, ilk növbədə, temperatur artımının 1,5 dərəcədə saxlanılması üçün yorulmadan çalışmalıdır. Bu, o deməkdir ki, 2030-cu ilə qədər qlobal atılmalar illik əsasla 9 faiz azalacaq. Həmçinin ənənəvi yanacaqdan istifadə sürətlə və ədalətli şəkildə azalacaq, COP28-in nəticəsi təmin ediləcək. Bu, həmçinin o deməkdir ki, hər ölkə 1,5 dərəcəyə uyğun olması üçün COP30-a qədər yeni, iqtisadiyyatı əhatə edən milli iqlim fəaliyyəti planlarını və ya Milli səviyyədə müəyyən edilmiş töhfələr sənədini təqdim edəcək".



COP29-da dünya səviyyəli maliyyə arxitekturasının yaradılması istiqamətində mühüm addımların atıldığını qeyd edən Baş katib bildirib: "İş burada və indi başlayır. Bizə inkişaf etməkdə olan ölkələrin ehtiyac duyduğu trilyonlarla dollarlıq vəsaitləri toplayan yeni iqlim maliyyə məqsədi lazımdır və imtiyazlı dövlət vəsaitlərində xeyli artım olmalıdır".

Bu sahədə uğur qazanmaq üçün fəaliyyətin daha da gücləndirilməsinin zəruriliyini qeyd edən Antonio Quterreş deyib: "Bu COP çərçivəsində və ondan sonrakı dövrdə sizi fəaliyyəti tələb etmək üçün öz səlahiyyətlərinizdən istifadə etməyə çağırıram. Ədaləti tələb edin. Çünki yubanmaq olmaz".

***

Millətlər Birliyi təşkilatının (Commonwealth) Baş katibi Patrisia Skotlend iqlim maliyyələşməsi işində uğurlu rəhbərliyə görə Prezident İlham Əliyevə və Baş katib Antonio Quterreşə minnətdarlıq edərək

Patrisia Skotlend COP29 çərçivəsində kiçik ada dövlətləri ilə bağlı xüsusi tədbirin təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək deyib: "COP29-a sədrlik edən tərəfin elan etdiyi iqlim maliyyələşməsinə dair Fondun yaradılması təşəbbüsü mənə böyük təəssürat bağışladı. Resursların açılmasını və paylanmasını təmin etmək üçün icra mexanizmlərinin işlənilməsinə dəstək verməyə hazırıq. Mən bu təklifi ona görə verirəm ki, üzv dövlətlərimiz təcili şəkildə iqlim maliyyəsi ilə bağlı vədlərə ehtiyac duyur. Onlar buna Yaşıl İqlim Fondu, İtki və Zərərlər Fondu xətti ilə nail ola bilər".

***

Sonra COP29-un prezidenti Muxtar Babayev və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 21 il ötür.





Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

***

Azərbaycanın çağdaş tarixində silinməz iz qoymuş Ulu Öndər Heydər Əliyev dahi şəxsiyyətlərdən biridir. Müstəqilliyimizin möhkəmləndirilməsi, milli şüurun inkişafı, iqtisadiyyatın tərəqqisi və ordu quruculuğu Ulu Öndərin hakimiyyətdə olduğu dövrün əsas nailiyyətləridir. Ötən əsrin 90-cı illərinin əvvəllərində xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider tərəfindən dövlətçiliyin əsasları qoyuldu və genişmiqyaslı islahatlara start verildi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb.

Xalqımız Dahi Şəxsiyyətin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. İyirminci əsrin 90-cı illərində çox çətin dönəm yaşamış Azərbaycan xalqı qurtuluşuna, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu hesab edir. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan izdiham Ulu Öndərin xatirəsinə böyük hörmətin əlamətidir. Xalqımız Heydər Əliyevin azərbaycançılıq ideologiyasına sadiqdir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, Azərbaycanı bütöv görmək idi. Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev reallığa çevirdi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi hərbi-siyasi yolla bərpa olundu. İndi üçrəngli Dövlət Bayrağımız bütöv Azərbaycanın hər bir guşəsində qürurla dalğalanır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.










Görkəmli dövlət xadimi Heydər Əliyev cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırır. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün vətənimizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təyyarə qəzası ilə bağlı müşavirə keçirib və qəzada həlak olan ekipaj üzvlərinin vida mərasimində iştirak edib





Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlətimizin başçısı dərhal geri dönmək barədə tapşırıq verib.

Təyyarə endikdən dərhal sonra Prezident İlham Əliyev hadisə ilə bağlı Heydər Əliyev Beynəlxalq Aeroportunda müşavirə keçirib.

Dövlətimizin başçısı müşavirədə çıxış edərək deyib:

– Təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyirəm. Onların ailələrinə, yaxınlarına Allahdan səbir diləyirəm, başsağlığı verirəm. Bu, böyük faciədir, Azərbaycan xalqına böyük facią üz vermişdir.

Mən bu gün səhər MDB Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa təyyarə ilə uçurdum və uçuş zamanı bu qəza ilə, bu faciə ilə bağlı mənə məlumat verildi. Dərhal göstəriş verdim və təyyarə geriyə – Bakıya döndü. Hələ havada ikən mənim tərəfimdən müvafiq göstərişlər verildi, Baş nazirlə danışdım, onun rəhbərliyi ilə komissiya yaradıldı. Eyni zamanda, Azərbaycan nümayəndələrindən ibarət heyət qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilmişdir. Əlavə göstəriş verildi ki, Azərbaycan həkimlərindən ibarət briqadalar da Aktau şəhərinə tezliklə ezam olunsun.

Komissiyanın işi məsələni tam araşdırmaqdır, qəzanın səbəblərini və bütün təfərrüatlarını araşdırıb həm mənə, həm də Azərbaycan ictimaiyyətinə məlumat verməlidir. Mənə verilən məlumata görə, Bakı-Qroznı marşrutu ilə hərəkət edən AZAL şirkətinə məxsus təyyarə havanın pisləşməsi ucbatından istiqamətini dəyişmiş və Aktau hava limanına tərəf uçmağa başlamış, eniş zamanı qəza baş vermişdir. Mediada, sosial şəbəkələrdə təyyarənin qəzaya uğraması anları mövcuddur. Ona görə onu hər kəs görə bilər. Ancaq qəzanın səbəbləri bizə bəlli deyil. Müxtəlif versiyalar var. Hesab edirəm ki, hələ bu barədə danışmaq tezdir. Məsələ tam araşdırılmalıdır. Baş Prokurorluq tərəfindən cinayət işi açılmışdır və təbii olaraq, Azərbaycan ictimaiyyəti

həm komissiyanın işinin nəticələri, həm də cinayət işinin gedişatı ilə bağlı müntəzəm olaraq məlumatlandırılacaq.

Qəzada həlak olanların və onların yaxınlarının acısını çəkərək, həlak olanlara Allahdan bir daha rəhmət, yaralananlara şəfa, həlak olanların, yaralananların yaxınlarına, doğmalarına səbir diləyirəm. Sağ olun.

***



Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı-Qroznı istiqamətində uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvlərinin Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilən vida mərasimində iştirak edib, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı veriblər.





# AZAL-a məxsus təyyarənin Qazaxıstanda baş vermiş qəzası ilə bağlı təxirəsalınmaz istintaq-operativ tədbirlər görülüb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, "Azərbaycan Hava Yolları" aviaşirkətinə (AZAL) məxsus təyyarənin 25.12.2024-cü ildə Aktauda qəzaya uğraması faktı ilə bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 262.3 (hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb.

Baş prokuror Kamran Əliyev hadisə baş verdiyi gündən etibarən Qazaxıstanın Baş prokuroru Berik Asılov, Rusiyanın Baş prokuroru İqor Krasnov, İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin, eləcə də Braziliyanın Baş prokuroru Paulo Qonet ilə intensiv təmasda olub.

Habelə, hadisənin tam, obyektiv və hərtərəfli araşdırılması məqsədilə Azərbaycan, Qazaxıstan, Rusiya və Braziliyadan olan peşəkar müstəntiq və mütəxəssislərin iştirakı ilə hadisə yerində genişmiqyaslı istintaq hərəkətləri həyata keçirilib.

Qazaxıstanlı həmkarı Berik Asılovla müzakirələr zamanı Kamran Əliyev baş vermiş hadisəyə dair toplanmış sübutlara düzgün hüquqi qiymətin verilməsi ilə bağlı fikir mübadiləsi aparıb, hadisə yerinin müayinəsi, iş üzrə ilkin sübutların toplanması və əhəmiyyət kəsb edən digər halların araşdırılması, birgə zəruri istintaq və prosessual hərəkətlərin həyata keçirilməsi, eləcə də, hadisənin təfərrüatlarının tam müəyyən olunması üçün göstərilən hərtərəfli dəstəyə görə təşəkkürünü bildirib.

Rusiyanın Baş prokuroru İqor Krasnovla apardığı danışıq zamanı Baş prokuror Qroznı şəhərinə ezam olunmuş Azərbaycan prokurorluğunun əməkdaşlarına rusiyalı həmkarları tərəfindən lazımi dəstək göstərildiyini qeyd edərək cinayət işinin istintaqının aparılmasında səmərəli əməkdaşlığın və iş üzrə hər iki tərəfin topladığı sübutların mübadiləsinin zəruriliyini vurğulayıb.

Rusiya İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin Baş prokuror Kamran Əliyevə zəng edərək Rusiyada araşdırılan cinayət işinin tam, hərtərəfli və obyektiv istintaq olunması məqsədilə peşəkar müstəntiq və kriminalistlərdən ibarət istintaq qrupunun yaradıldığını, təyyarənin qəzaya uğramasının kənar müdaxilə nəticəsində baş verməsi daxil olmaqla, hadisənin səbəb və şəraitinin hərtərəfli araşdırıldığını, təqsirkar şəxslərin müəyyən olunaraq cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində intensiv istintaq-əməliyyat tədbirlərinin davam etdirildiyi barədə məlumat verib.

Cinayət işinin istintaqı ilə bağlı Baş Prokurorluqda yaradılmış istintaq qrupunun üzvləri Baş prokurorun müavini Elmar Camalovun rəhbərliyi ilə hadisə günü Qazaxıstan Respublikasına ezam olunub. Habelə, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən iş üzrə müvafiq istintaq və digər zəruri prosessual hərəkətlərin icra olunması məqsədilə Qazaxıstan Respublikasının Baş Prokurorluğuna Beynəlxalq hüquqi yardım haqqında vəsatət göndərilib.

Qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumları ilə birgə tədbirlər icra olunub. O cümlədən Baş Prokurorluğun inzibati binasında yaralıların yaxın qohumlarından DNT analizi götürülüb.

Həmçinin Baş Prokurorluğun bir qrup əməkdaşı Qroznı şəhərinə ezam olunaraq Rusiya Federasiyasının Baş Prokurorluğu ilə razılaşmaya əsasən, həmin qurumdan olan həmkarları ilə birgə istintaq və digər prosessual hərəkətlər aparıblar.


#COP29
AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUĞU
COP29 ÇƏRÇİVƏSİNDƏ
YÜKSƏK SƏVİYYƏLİ SESSİYA

## AZƏRTAC-a açıqlamasında Baş prokuror Kamran Əliyev COP29 çərçivəsində iqlim dəyişikliyi ilə hüquqi müstəvidə mübarizəyə həsr edilmiş sessiyanın keçiriləcəyini bildirib



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) hazırda dünyanı ən çox narahat edən mövzular müzakirə olunur.

Bunu noyabrın 12-də AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev deyib.

## Baş prokuror BMT-nin Baş katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Vali ilə görüşüb




Noyabrın 13-də Baş prokuror Kamran Əliyev BMT-nin Baş katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Valinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.








Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olunduğunu bildirib.

Görüşdə COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyası barədə danışan tərəflər birgə əməkdaşlığın əhəmiyyətini, ikitərəfli münasibətlərin möhkəmləndirilməsini qeyd ediblər.

Qada Vali səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdə keçirilən ən böyük iqlim konfransı, COP29-un Azərbaycanın sədrliyi ilə yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

# Baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi – Əsəd Məcid Xan ilə görüşüb




BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilib.

Noyabrın 14-də Baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi – Əsəd Məcid Xanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olduğunu bildirib.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyası barədə danışan tərəflər mütəşəkkil cinayətkarlığın, o cümlədən qanunsuz fəaliyyətlərin iqlim dəyişikliyinə səbəb olması və ətraf mühitə dağıdıcı təsirləri barədə danışıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdə keçirilən ən böyük iqlim konfrans COP29-un Azərbaycanın sədrliyi ilə uğurla davam etdiyini vurğulayıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının iqlim fəaliyyəti və davamlı inkişafa böyük önəm verdiyini qeyd edən Əsəd Məcid Xan Azərbaycanın regional və qlobal miqyasda iqlim problemlərinin həllində mühüm rola malik olduğunu bildirərək birgə əməkdaşlığın əhəmiyyətindən bəhs edib.





# Baş prokuror Kamran Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Baş Prokurorunun müavini Sultan Al-Juwaiedin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb







Noyabrın 14-də Baş prokuror Kamran Əliyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş Prokurorunun müavini Sultan Al-Juwaiedin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycanla BƏƏ arasında möhkəm diplomatik münasibətlər var. Qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələri hər zaman yüksək səviyyəsi, dialoq mühitində inkişaf tempi ilə diqqət çəkib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən bəhs edən Kamran Əliyev qeyd edib ki, bu beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyası barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının çox böyük rolu olduğunu qeyd ediblər.

Birləşmiş Ərəb Əmirliklərinin Baş Prokurorunun müavini Sultan Al-Juwaied səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdə keçirilən ən böyük iqlim konfransı, COP29-un Azərbaycanın sədrliyi ilə uğurla davam etdiyini vurğulayıb.

Sultan Al-Juwaied iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın bütün platformalarda genişlənəcəyinə əminliyini ifadə edib.

Qonaqlar Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyətini əks etdirən müxtəlif guşələrdəki eksponatlarla bağlı ətraflı məlumat verilib.

# Baş prokuror Kamran Əliyev BMT-nin Baş Katibinin Qanunun Aliliyi və Təhlükəsizlik Təsisatlari üzrə köməkçisi Aleksandr Zuyev ilə görüşüb








Noyabrın 14-də Baş prokuror Kamran Əliyev BMT-nin Baş Katibinin Qanunun Aliliyi və Təhlükəsizlik Təsisatlari üzrə köməkçisi Aleksandr Zuyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları səmimi salamlayan Baş prokuror Kamran Əliyev, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olduğunu qeyd edərək tədbirin iqlim dəyişmələrinin mənfi təsirinə qarşı birgə mübarizəyə böyük töhfə olacağını bildirib.

Azərbaycanın BMT ilə sıx əməkdaşlığının olduğunu bildirən Kamran Əliyev Azərbaycanın BMT-nin iqlim, qanunun aliliyi və təhlükəsizliklə bağlı prioritetlərini hər zaman dəstəklədiyini qeyd edib.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyası barədə danışan tərəflər ekoloji cinayətlərin təqibində birgə əməkdaşlığın əhəmiyyətli olduğunu bildiriblər.

Aleksandr Zuyev səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdə keçirilən ən böyük iqlim konfransı, COP29-un Azərbaycanın sədrliyi ilə yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq Azərbaycanın iqlim dəyişmələrinin mənfi təsirinə qarşı apardığı mübarizə işinin BMT tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

# Baş prokuror Kamran Əliyev Moldova Respublikasının Baş prokuroru İon Muntyanu ilə görüşüb






Noyabrın 14-də Baş prokuror Kamran Əliyev Moldova Respublikasının Baş prokuroru İon Muntyanunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluqda keçirilmiş görüşdə qonaqları salamlayan Baş prokuror ölkələrimiz arasında mövcud olan siyasi, iqtisadi, ticarət və digər sahələrdə ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini bildirərək ötən ilin iyul ayında Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Moldova Respublikasının Baş Prokurorluğu arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumunun qurumlararası fəaliyyətə müsbət təsirini qeyd edib.

Görüşdə Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyası barədə danışan tərəflər birgə əməkdaşlığın əhəmiyyəti, ikitərəfli münasibətlərin möhkəmləndirilməsi barədə danışıb.

Moldova Respublikasının Baş prokuroru səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirərək, ölkələrimiz arasında hüquqi əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə edib.

Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbirə hazırlığının ən yüksək səviyyədə olduğunu qeyd edən qonaq COP29-un dünya üçün böyük töhfələr verə biləcəyindən əminliyini vurğulayıb.





# Baş prokuror Kamran Əliyev Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürk ilə görüşüb

Noyabrın 14-də Baş prokuror Kamran Əliyev Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Kamran Əliyev dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasəti nəticəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq orqanları arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olunduğunu bildirib.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyası barədə danışan tərəflər mütəşəkkil cinayətkarlığın, o cümlədən qanunsuz fəaliyyətlərin iqlim dəyişikliyinə səbəb olması və ətraf mühitə dağıdıcı təsirləri barədə danışıb.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən Muhsin Şentürk iki qardaş ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirərək, münasibətlərin bundan sonra da bütün istiqamətlərdə uğurla inkişaf edəcəyindən əminliyini ifadə edib, ölkəmizdə keçirilən ən böyük iqlim konfransı COP29 zamanı mühüm qərarlar veriləcəyinə ümidvar olduğunu bildirib.









Kamran Əliyev həmkarına dəvətini qəbul edərək tədbirdə nümayəndə heyəti ilə iştirakına görə təşəkkürünü ifadə edib.

Görüşdə Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı da iştirak edib.

# Beynəlxalq təşkilatların rəhbər vəzifəli şəxsləri və xarici dövlətlərin Baş prokurorları tərəfindən paytaxt ərazisində ağaclar əkilib





15 noyabr 2024-cü il tarixdə COP29 çərçivəsində "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi"nə həsr olunmuş yüksək səviyyəli sessiyadan öncə Bakı şəhəri, Suraxanı rayonu ərazisində yerləşən Bülbülə gölünün yanındakı yeni salınmış "Eco park"da Baş prokuror Kamran

Əliyevin, İNTERPOL-un rəhbərinin, eləcə də 15 ölkənin, o cümlədən Türkiyə, Moldova və Monqolustan respublikalarının baş prokurorları və digər yüksək vəzifəli şəxslər də daxil olmaqla 90 nəfərin iştirakı ilə 200 ədəd xatirə ağacı əkilmiş, bununla həmin parkda ümumilikdə əkilmiş ağacların sayı 1700-ə çatdırılmışdır.

Bakı şəhəri, Suraxanı rayon sakinlərinin ekoloji şəraitinin yaxşılaşdırılmasına yönəlmiş parkın salınması Baş prokurorun təşəbbüsü ilə Ulu Öndər Heydər Əliyevin 101-ci ildönümü münasibətilə simvolik ağacların əkimi ilə başlayan, 24.06.2024-cü il tarixdə Xankəndi şəhərində keçirilmiş elmi-praktiki konfransda təsis edilən ECOLEAD (Ətraf mühitin gücləndirilməsi: maarifləndirmə və hüquq mühafizə tədbirləri) platformasının tərkib hissəsidir.

Hazırki ağacəkmə tədbiri sayca 5-ci layihədir və bununla Bakı şəhərinin müxtəlif rayonlarında əkilmiş ağacların sayı 2500-ə çatmışdır.











# Bakıda iqlim dəyişikliyi ilə mübarizəyə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi müzakirə olunub



Bakıda keçirilən COP29 çərçivəsində müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarının iştirakı ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiya keçirilib.

Noyabrın 15-də keçirilən tədbirdə Baş prokuror Kamran Əliyev, COP29-un Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş nazirinin müavini, daxili işlər naziri Şeyx Saif bin Zayed əl-Nəhyan və digər rəsmilər iştirak ediblər.

Azərbaycan Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (BMTNCİ) təşkil etdiyi, həmçinin BƏƏ Daxili İşlər Nazirliyinin həmsədri olduğu sessiyada ölkə rəsmiləri ekoloji cinayətlər üzrə aparılan tədbirlər barədə məlumat veriblər.

K.Əliyev və M.Babayev Azərbaycanda hüquq-mühafizə orqanlarının ekoloji cinayətlərə qarşı mübarizəsinə toxunublar.

Rusiyanın Baş prokuroru ölkəsinin ekoloji hadisələrlə bağlı gördüyü işlər barədə məlumat verib, hüquq-mühafizə orqanlarının birgə səylərinin vacibliyi bildirilib.

Braziliyanın Baş prokuroru Hindenburq Çatebriand bildirib ki, ölkəsi də iqlim dəyişikliyindən əziyyət çəkir, ətraf mühitin qorunması, bu məqsədlə təşəbbüslərin irəli sürülməsinə töhfə vermək üçün çağırış edib.









ekoloji cinayətin bir ölkəyə deyil, bütün dünyaya təsir göstərdiyini deyib. Ona görə də qurumların əməkdaşlığı vacibdir.

Kamran Əliyev sonda bütün tədbir iştirakçılarına təşəkkür edib:

"Təşəbbüslərimiz üçün daha da birləşməliyik. Cəmiyyətin qanunlarını da, təbiətin qanunlarını da pozmaq cinayətdir. Qlobal camеə olaraq, Bakıda toplanmağımız önəmlidir".

Keniyanın Baş prokuroru, Afrika Prokurorlar Assosiasiyasının Prezidenti Renson İnqonqa ölkəsində müşahidə edilən iqlim dəyişikliyi ilə bağlı problemlərdən danışıb.

"Interpol"un rəhbəri Əhməd Nasir əl-Rəisi ətraf mühitin qorunması üçün qlobal tədbirləri gücləndirməyə çağırıb, hüquq-mühafizə orqanlarının bu işdəki rolundan bəhs edib.

Avropa Şurasının İnsan hüquqları və qanunun aliliyi üzrə direktoru Gianluka Esposito çıxışında












# COP29 çərçivəsində keçirilmiş “İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması” adlı yüksək səviyyəli sessiyada Baş prokuror çıxış edib



Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində noyabrın 15-də Mavi Zonada keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyada çıxış edib.

Baş prokuror çıxışında "Planeti birgə əməkdaşlıq etməklə ekoloji cinayətlərdən qorumaq olar"– deyib.

Onun sözlərinə görə, Azərbaycanda da öz növbəsində ekoloji cinayətlərə qarşı ciddi sanksiyalar tətbiq olunur: "Ekologiyanın mühafizəsinə qarşı ciddi tədbirlər görülməkdədir. Biz və həmkarlarımız mina ilə çirklənmiş ərazilərə 200-dən çox ağac əkdik. Azərbaycan torpaqlarının 30 illik işğalı dövründə də ekoloji cinayətləri, dəyən zərəri araşdırırıq. İqlim tədbirləri çərçivəsində gələcək nəsillər üçün birgə çalışmaq lazımdır".

Baş prokuror qeyd edib ki, bu tədbir iqlim fəaliyyətinə dair mühüm məsələləri müzakirə etmək və biomüxtəlifliyin qorunması, ekoloji cinayətlərə qarşı mübarizə, karbon emissiyalarının azaldılması üçün hüquq-mühafizə orqanlarının səylərini gücləndirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsləri ölkənin yaşıl enerji təşəbbüslərinə və ətraf mühitin mühafizəsinə bağlılığını nümayiş etdirir. COP29-a ev sahibliyi etməyimiz beynəlxalq ictimaiyyətin bu sahədəki səylərimizi tanımasının göstəricisidir.

Kamran Əliyev çıxışında Birləşmiş Ərəb Əmirliklərinin Baş nazirinin müavini və daxili işlər naziri general-leytenant Şeyx Seyf bin Zayed Əl Nəhyana konfransın həmsədri kimi göstərdiyi liderliyi və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin ekoloji cinayətlərə qarşı mübarizədə dəstəyini yüksək qiymətləndirib.



Baş prokuror çıxışında Azərbaycanın ətraf mühitin qorunması sahəsində mühüm nailiyyətlər əldə etdiyini də vurğulayıb. O, 2024-cü ilin Azərbaycanda “Yaşıl Dünya Naminə Həmrəylik ili” elan edildiyini və ölkənin ekoloji cinayətlərə qarşı sərt cəzalar tətbiq etdiyini qeyd edib.






Kamran Əliyev əlavə edib ki, Baş Prokurorluq iyun ayında Azərbaycanın Xankəndi şəhərində "Ətraf mühitin gücləndirilməsində maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" mövzusunda konfrans təşkil edib.

Baş prokuror Azərbaycanın gələcək hədəflərinin qanunların effektiv icrası, rəqəmsal iş sistemi, ekoloji nəqliyyat, meşə bərpası, dayanıqlı enerji istifadəsi, günəş və külək enerjisindən istifadə ilə bağlı olduğunu açıqlayıb.

Daha sonra Baş prokuror prokurorluq binalarında karbon izlərini azaltmaq və ekoloji cəhətdən təmiz təşəbbüsləri təşviq etmək məqsədilə işlər görüldüyünü qeyd edərək vurğulayıb ki, bu yaxınlarda açılmış prokurorluq binalarında karbon izlərini azaltmaq və ekoloji cəhətdən təmiz təşəbbüsləri təşviq etmək öhdəliyimizi nümayiş etdirən inteqrasiya olunmuş günəş panelləri və elektrik avtomobilləri var.

Prokurorluq Azərbaycanın ərazilərinin bərpasından sonra işğaldan azad edilən ərazilərdə 30 ilə yaxın işğal zamanı törədilmiş ekoloji cinayətləri istintaq edir. Ekoloji pozuntulara hüquqi qiymət verilməsi və meşəbərpa kampaniyalarının başlanması istiqamətində işlər davam etdirilir.

İqlimlə bağlı fəaliyyətin inkişafı ilə bağlı Azərbaycan Prokurorluğunun öhdəliklərindən bəhs edən Kamran Əliyev bildirib ki: elektrikli avtomobil parkımızı 30-a qədər artıraraq, karbon izimizi əhəmiyyətli dərəcədə azaldırıq, bundan əlavə, inzibati binalarımızı enerji ilə təmin etmək üçün günəş və külək enerjisindən istifadə etməyə davam edəcəyik.

"Gəlin, gələcək nəsillər üçün planetimizi qoruyaq", – deyə Kamran Əliyev çıxışını yekunlaşdırıb.





## “İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması” adlı yüksək səviyyəli sessiyada BƏƏ rəsmisi çıxış edib



"Ekoloji cinayətlər ilbəil artır, səmərəli mübarizə vacibdir". Bunu Birləşmiş Ərəb Əmirliklərinin baş nazirinin müavini, daxili işlər naziri Şeyx Saif bin Zayed əl-Nəhyan noyabrın 15-də keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyada deyib.

Onun sözlərinə görə, iqlim dəyişmələrinin yaratdığı fəsadlarla bağlı statistika 2023-cü ildə rekord həddə çatıb, orta temperatur 1.5 dərəcəyə yaxınlaşıb:

"Biz iqlim dəyişikliyi ilə bağlı özümüzə qarşı dürüst olmalıyıq. Bu ekoloji terrorizmi törədənləri tapmalıyıq. Bəzi ölkələr ekoloji sahədə bir-birlərinə qarşı maneələr yaradırlar".

Nazir müavini bildirib ki, dünyada meşə yanğınları ilə havaya 8 milyard dioksid qazı buraxılır, bu isə havaya atılan emissiyaların 20 %-dir:

"İqlim layihələri üçün birgə çalışmaq "onurğa sütunu"dur. Hüquq-mühafizənin gücləndirilməsi ilə daha da səmərəli mübarizə aparmağı vacib edir".

## COP29 çərçivəsində keçirilmiş yüksək səviyyəli sessiyada BMT rəsmisi çıxış edib




BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Vali noyabrın 15-də keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyada çıxışında deyib ki, hüquq-mühafizə orqanları iqlim dəyişmələri ilə bağlı proseslərə daha çox cəlb edilməlidir.

Onun sözlərinə görə, bununla da ekoloji cinayətlərin qarşısının alınması üçün tədbirləri gücləndirmək mümkündür.

BMT rəsmisi Azərbaycanın COP29-a ev sahibliyini yüksək qiymətləndirib.



”Bu gün həm də Transmilli Cinayətkarlıqla Mübarizə günüdür, hamını mütəşəkkil cinayətkarlıqla mübarizəyə çağırırıq”.

Bunu Bakıda COP29 çərçivəsində noyabrın 15-də Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə keçirilən “Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi” mövzusunda konfransda BMT-nin Narkotik Vasitələrin Dövriyyəsi və Cinayətkarlıqla Mübarizə Ofisinin direktoru Ghuda Val deyib.

“Transmilli Cinayətkarlıqla Mübarizə günündə hamını mütəşəkkil cinayətkarlıqla mübarizəyə çağırırıq. Kriminal ədaləti gündəliyə gətirmişik. İlk dəfə COP28-də Əbu-Dabi Çağırış Təşəbbüsü irəli sürmüşdük. Transmilli cinayətkarlıqla mübarizədə dövlətlər tərəfindən ciddi tədbirlər görülüb. Biz hüquq-mühafizə orqanlarına lazımi alət və imkanlar yaratdıqda bu sahədə mübarizə effektiv olacaq. Biz 2000-dən çox hüquq-mühafizə orqanı əməkdaşına təlim keçmişik”, – deyə Ghuda Val vurğulayıb.

## COP29-un Prezidenti ekoloji cinayətlərə qarşı mübarizədə hüquq-mühafizə orqanlarının səlahiyyətlərinin artırılmasına münasibət bildirib



Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev noyabrın 15-də keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyadakı çıxışında qeyd edib ki, hüquq-mühafizə orqanlarının səlahiyyətlərinin artırılması ekoloji cinayətlərə qarşı mübarizəni gücləndirəcək. Onun sözlərinə görə, COP28-də hüquq-mühafizə orqanlarının rolu yüksək qiymətləndirilib:

"Biz COP29-da bunu davam etdirməyə çalışırıq. Missiyamız aydındır. Ekoloji cinayətlər, heyvan və dəniz canlılarına iqlim dəyişikliyinin təsiri, ekosistemlə bağlı tədbirlər aparmaq. Hüquq-mühafizə orqanları olmasa, təbii irsimizi qorumaq çətin olacaq".

## Türkiyə Ali Məhkəməsinin Baş prokuroru dünyanın, insanlığın ən böyük problemlərindən biri olan iqlim dəyişmələri barədə danışıb




COP29-da iştirak edən Türkiyənin Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürk jurnalistlərə müsahibəsində vurğulayıb ki, qardaş Azərbaycanın COP29 çərçivəsində belə bir tədbiri keçirməsi çox qürurvericidir. Bu konfrans qardaş ölkə Azərbaycanın dünyaya tanıdılmasında böyük rol oynayır.

M.Şentürk iqlim dəyişmələrində 50-60 il öncə problemlərin olmadığını deyərək qeyd edib: "Amma indi iqlim dəyişmələri dünyanın, insanlığın ən böyük problemlərindən biridir. Bu günlərdə İspaniyada baş verən sel fəlakəti nəticəsində 300 nəfər dünyasını dəyişdi. Həqiqətən də get-gedə qlobal temperaturu artan, quraqlaşan dünyanı müşahidə edirik. Yağışlar şiddətli və lokal şəkildə yağır. Sel fəlakətləri baş verir. İqlim dəyişmələri insan hüquqları probleminə çevrilib. Bu problemlərin müzakirə olunduğu COP29 konfransının əhəmiyyətini yüksək qiymətləndirirəm. Bu məsələdə hüquq mübarizə metodu kimi istifadə edilə bilər".

## Rusiyada hər il ekoloji sahədə 300 minə yaxın qanun pozuntusunun aşkar olunduğunu Rusiya Federasiyasının Baş prokuroru bildirib



Rusiyanın Baş prokuroru İqor Krasnov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində noyabrın 15-də Mavi Zonada keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyada qeyd edib ki, Rusiya prokurorları hər il ekoloji sahədə 300 minə qədər qanun pozuntusunun qarşısını alır, bu istiqamətdə 15 min cinayət işi üzrə hüquq-mühafizə orqanlarının işi əlaqələndirilir.

"Prokurorlar tərəfindən hər il ekoloji sahədə 300 minə qədər qanun pozuntusunun qarşısı alınır, meşə əkinlərinin qanunsuz kəsilməsi və məhv edilməsi, havanın, su hövzələrinin və yerin təkinin çirkləndirilməsi, həmçinin bioresursların qanunsuz hasilatı ilə bağlı 15 mindən çox cinayət işi üzrə cinayət təqibi və hüquq-mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi həyata keçirilir", – deyə o bildirib.

Onun sözlərinə görə, belə işlərdən 2 mindən çoxu nəzarət yoxlamalarının materialları əsasında başlanılıb.

# Baş prokuror Kamran Əliyev Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb







BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yüksək səviyyəli plenar iclasında iştirak etmək üçün ölkəmizə işgüzar səfərə gələn Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovun rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 15-də Fəxri Xiyabanda xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarını ziyarət ediblər.

Daha sonra Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ilə İqor Krasnovun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.

Qonaqları salamlayan Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərinin dövlət başçılarının birgə səyləri və siyasi iradələri sayəsində uğurla inkişaf etdiyini qeyd edib.

Baş prokuror bildirib ki, iki ölkənin hüquq-mühafizə, o cümlədən prokurorluq orqanları arasında konkret cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, cinayət törətmiş şəxslərin ekstradisiyası, korrupsiyaya qarşı mübarizə, ekoloji hüquqpozmalar, elm-tədris və təcrübə mübadiləsi və sair məsələlər üzrə qarşılıqlı razılaşmaların olması əlaqələrimizi daha da gücləndirib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən bəhs edən Kamran Əliyev qeyd edib ki, ölkəmiz hər zaman qlobal və regional problemlərə qarşı müştərək müdafiə immunitetinin formalaşdırılmasında həlledici rol oynayır.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov, Azərbaycanın hər zaman mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdiyini vurğulayaraq, COP29-un Azərbaycanın sədrliyi ilə keçirilməsinin ölkəmizə olan etimadın təzahürü olduğunu qeyd edib.

Görüşdə Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov da iştirak edib.

Qonaqlar Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyətini əks etdirən müxtəlif guşələrdəki eksponatlarla bağlı ətraflı məlumat verilib.

## Baş prokuror Kamran Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Baş nazirinin müavini, Daxili işlər naziri Saif Bin Zayed Al Nahyanının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb






Noyabrın 15-də Baş prokuror Kamran Əliyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş nazirinin müavini, Daxili işlər naziri Saif Bin Zayed Al Nahyanının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycanla İslam dünyasının önəmli dövlətlərindən olan BƏƏ arasında tarixi köklərə malik olan və mənəvi dəyərlərə, ənənələrə əsaslanan möhkəm dostluq münasibətləri var. Münasibətlərin yüksək səviyyədə olması hər iki ölkə rəhbərliyinin qarşılıqlı siyasi dialoqları nəticəsində mümkün olub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən bəhs edən Kamran Əliyev qeyd edib ki, COP29 iqlim dəyişmələrinin mənfi təsirlərindən ən çox əziyyət çəkən ölkələr, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin problemlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması və həll yollarının müəyyən edilməsi üçün çox mühüm platformadır.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin BƏƏ-nin







Daxili İşlər Nazirliyinin həmsədrliyi ilə baş tutan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyanın uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının genişləndirilməsinin vacibliyini vurğulayıblar.

BƏƏ-nin Baş nazirinin müavini, Daxili işlər naziri Saif Bin Zayed Al Nahyan səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəsində uğurla keçirilmiş COP28-dən sonra COP29-un daha böyük nailiyyətlərlə yadda qalacağına əminliyini ifadə edib.

Saif Bin Zayed Al Nahyan Azərbaycanın hüquq-mühafizə, o cümlədən prokurorluq orqanları ilə sıx əməkdaşlıq əlaqələrinin yaradılmasında ölkəsinin maraqlı olduğunu qeyd edib.

Qonaqlar Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyətini əks etdirən müxtəlif guşələrdəki eksponatlarla bağlı ətraflı məlumat verilib.

## Baş prokuror Kamran Əliyev Gürcüstanın Baş prokuroru Giorgi Qabitaşvili ilə görüşüb








Noyabrın 15-də Baş prokuror Kamran Əliyev Gürcüstanın Baş prokuroru Giorgi Qabitaşvilinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluqda keçirilmiş görüşdə qonaqları salamlayan Baş prokuror digər sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq və hüquq mühafizə orqanları arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya sahələrində son illər ərzində effektiv işbirliyinin olduğunu diqqətə çatdırıb, ölkələrarası təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

Görüşdə Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olduğunu vurğulayıb.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar.

Gürcüstanın Baş prokuroru Giorgi Qabitaşvili səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirərək ölkələrimiz arasında hüquqi sahədə əlaqələrin yüksək səviyyədə inkişaf etməsi və səmərəli əməkdaşlığın həyata keçirildiyini, səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağını qeyd edib.

Ölkəmizdə keçirilən COP29 kimi mötəbər beynəlxalq tədbirin dünya üçün böyük töhfələr verə biləcəyini qeyd edən qonaq tədbir çərçivəsində təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyanın uğurla başa çatması münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib.

Qonaqlar Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyətini əks etdirən müxtəlif guşələrdəki eksponatlarla bağlı ətraflı məlumat verilib.

Görüşdə, həmçinin, Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze də iştirak edib.

# Baş prokuror Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb








Noyabrın 16-da Baş prokuror Kamran Əliyev Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluqda keçirilmiş görüşdə qonaqları salamlayan Baş Prokuror Kamran Əliyev Qoşulmama Hərəkatı təşkilatı çərçivəsində Keniya ilə əməkdaşlığın yüksək səviyyəyə çatdığını bildirərək iki ölkə arasında ortaq prinsiplərə və əməkdaşlığa əsaslanan güclü siyasi əlaqələrin yüksələn xətlə inkişaf etməkdə olduğunu qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən bəhs edən Kamran Əliyev, bunun beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsi olduğunu qeyd edib.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele təmsil etdiyi qurumun Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edərək, iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

Ölkəmizdə keçirilən COP29-un dünya üçün böyük töhfələr verə biləcəyindən əminliyini vurğulayan qonaq tədbir çərçivəsində təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyanın uğurla başa çatması münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib.

Baş prokuror Kamran Əliyev isə COP29 çərçivəsində təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiya zamanı Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın təsirli çıxışını təqdir edib.

Görüşdə Azərbaycan Respublikasının Keniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Sultan Hacıyev də iştirak edib.

# Baş prokuror Kamran Əliyev İnterpolun prezidenti Ahmed Naser Al-Raisi ilə görüşüb








Noyabrın 16-da Baş prokuror Kamran Əliyev İnterpolun prezidenti Ahmed Naser Al-Raisinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluqda keçirilmiş görüşdə Baş prokuror Kamran Əliyev qonaqları səmimi salamlayaraq ən böyük beynəlxalq qurumlardan biri olan və ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyətli rol oynayan İnterpol ilə Azərbaycanın hüquq-mühafizə orqanları arasında qarşılıqlı faydalı əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Görüşdə Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olduğunu vurğulayıb.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar.

İnterpolun prezidenti Ahmed Naser Al-Raisi ölkəmizdə prokurorluq orqanlarında həyata keçirilən islahatları müsbət dəyərləndirərək rəhbərlik etdiyi təşkilatla Azərbaycanın hüquq-mühafizə orqanları arasında qarşılıqlı-faydalı əlaqələrin inkişaf etdirilməsinin perspektivlərindən danışıb.

Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbirə hazırlığının ən yüksək səviyyədə olduğunu qeyd edən qonaq COP29-un dünya üçün böyük töhfələr verə biləcəyindən əminliyini vurğulayıb, COP29 çərçivəsində təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyanın uğurla başa çatması münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib.

Görüş zamanı Azərbaycanın Baş Prokurorluğu ilə İnterpol arasında ikitərəfli əlaqələrin genişləndirilməsi, cinayət törətdiklərinə görə axtarışda olan və xarici dövlətlərin ərazilərində gizlənən şəxslərin tutulması ilə əlaqədar həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması ilə bağlı məsələlər də müzakirə olunub.

# Baş prokuror Kamran Əliyev Braziliya Federativ Respublikası Baş prokurorunun müavini Hindenburq Çatebriandın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb








Noyabrın 16-da Baş prokuror Kamran Əliyev Braziliya Federativ Respublikasının Baş prokurorun müavini Hindenburq Çatebriandın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluqda keçirilmiş görüşdə qonaqları salamlayan Kamran Əliyev ölkələrimiz arasında isti münasibətlərin mövcud olduğunu söyləyib. O, bir sıra sahələrdə uğurlu əməkdaşlıq təcrübəsinin olduğunu qeyd edib və ölkələrimiz arasında hüquqi əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olduğunu vurğulayıb.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar.

Braziliya Federativ Respublikasının Baş prokurorun müavini səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirərək təmsil etdiyi qurumun Azərbaycan Respublikasının Prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edib və bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışıb.

Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbirə hazırlığının ən yüksək səviyyədə olduğunu qeyd edən qonaq COP29-un dünya üçün böyük töhfələr verə biləcəyindən əminliyini vurğulayıb, COP29 çərçivəsində təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyanın uğurla başa çatması münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib.


AZƏRBAYCAN RESPUBLİKASININ
PROKURORLUĞU

## Baş prokuror Türkiyə Respublikasının Ədliyyə naziri ilə görüşüb









Oktyabrın 4-də Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının Ədliyyə naziri Yılmaz Tunçla görüşüb

Görüş zamanı iki dövlət arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın birgə səyləri sayəsində ən yüksək müttəfiqlik səviyyəsinə yüksəldiyi qeyd olunub.

Kamran Əliyev Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən

müharibəsi və ondan sonrakı proseslərdə Türkiyə dövlətinin və xalqının siyasi və mənəvi dəstəyinə görə təşəkkürünü ifadə edib.





Baş prokuror 2021-ci ildə Bakıda təsis olunmuş TDT-nin Baş Prokurorlar Şurasının hüquqi əməkdaşlığımızın genişləndirilməsi üçün səmərəli platforma olduğu vurğulayıb.

2023-cü ildə Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illiyi ərəfəsində Ankara şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Baş Prokurorları Şurasının 2-ci iclasında iştirakını xatırladan Baş prokuror, həmin tədbirin üzv dövlətlərdə qanunçuluğun və hüquq qaydasının təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığın bütün formalarına qarşı mübarizə sahəsində səylərin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Həmçinin, Baş prokuror ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində aparılan köklü islahatlar barədə məlumat verib.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Yılmaz Tunç ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə orqanları arasında əlaqələrin yüksək səviyyədə inkişaf etməsini və səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edib.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, iki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətlərinin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub.

Görüşdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcı da iştirak edib.



# Azərbaycan Respublikası Baş Prokurorluğunun Geniş Kollegiya iclası keçirilib



Oktyabrın 8-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun Geniş Kollegiya iclası keçirilmişdir.



Baş Prokurorluğun Kollegiya üzvləri tərəfindən əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyulmuş, daha sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmini uğurunda aparılmış mübarizədə, "I Qarabağ" və "44 günlük Vətən" müharibələrində, lokal xarakterli antiterror əməliyyatı zamanı şəhid olmuş əsgər və zabitlərimizin, vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, qazilərimizə şəfa arzu edilmişdir.

Geniş Kollegiya İclasında 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 106 illiyi münasibətilə bir qrup prokurorluq işçisinin cənab Prezident İlham Əliyev tərəfindən yüksək dövlət mükafatlarına layiq görülməsi ilə əlaqədar prokurorluq işçiləri adından ölkə rəhbərliyinə təşəkkür və dərin minnətdarlıq bildirildi, bundan sonra da hər bir prokurorluq əməkdaşı tərəfindən fəaliyyətləri ərzində insan vətəndaş hüquq və azadlıqların qorunması, həmçinin cinayətkarlığa qarşı mübarizə sahəsində digər hüquq mühafizə orqanları ilə birgə fəaliyyətin intensiv qaydada davam etdirilməli olduğu, xüsusən əvvəlki illərdən bağlı qalmış cinayətlərin açılması sahəsində səmərəliliyin artırılmasının vacibliyi vurğulandı.

Daha sonra, Baş prokuror Kamran Əliyev tərəfindən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasət sayəsində ölkəmizin beynəlxalq əlaqələrinin daim inkişaf etməsi, ölkəmizin beynəlxalq nüfuzunun günü-gündən artması, ölkəmizin bir sıra regional, eləcə də beynəlxalq tədbirlərə ev sahibliyi etməsi qeyd edildi və bu tədbirlər çərçivəsində ölkəmiz və prokurorluq üçün müstəsna əhəmiyyət kəsb edən, 170-dən çox dövlətin üzv olduğu Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclasının, 29-cu İllik Konfransının və Ümumi Yığıncağının cari ilin 27 sentyabr - 02 oktyabr tarixlərində paytaxt Bakı şəhərində yüksək peşəkarlıq və təşkilatçılıqla keçirildiyi iştirakçıların diqqətinə çatdırıldı.



Tədbir barəsində məlumat verilərkən bildirildi ki, dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağında 88 ölkə, 95 yurisdiksiya, 10 beynəlxalq təşkilatdan ümumilikdə 500-dən artıq şəxs iştirak etmişdir. Həmin tədbirin uğurla keçirilməsinin Azərbaycan Prokurorluğu orqanlarının növbəti uğuru olması xüsusilə vurğulandı.












Tədbir zamanı Baş prokuror Kamran Əliyev tərəfindən peşə bayramı münasibətilə müvafiq əmrlə təltif edilmiş bir qrup prokurorluq əməkdaşına mükafatlar təqdim edildi.

Bundan başqa, Geniş Kollegiya iclasında cari ildə prokurorluq orqanlarına qulluğa qəbulla bağlı elan edilmiş 26-cı müsabiqənin gedişatı barədə məlumat verilərək, prokurorluğun fəaliyyəti ilə əlaqədar bir sıra kadr məsələləri üzrə qərarlar qəbul edildi.





Eyni zamanda çıxışda qeyd olundu ki, bu ilin noyabr ayında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP 29) kimi mötəbər bir tədbirin paytaxtımızda keçirilməsinin 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilməsi dünya ölkələri tərəfindən ölkəmizə olan etimadın və Prezident cənab İlham Əliyevin siyasi səriştə və bacarığına, habelə nüfuzuna olan inamın və rəğbətin göstəricisidir.

Məlumat verildi ki, həmin tədbir çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) ilə birgə noyabr ayının 15-də "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda plenar iclasın keçirilməsi nəzərdə tutulmuşdur.

Bundan əlavə, qeyd edildi ki, cari ilin dekabr ayında Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının birgə təşkilatçılığı və Türk Ədliyyə Təlim Şəbəkəsinə daxil olan ölkələrin nümayəndələrinin iştirakı ilə Bakı şəhərində beynəlxalq konfrans keçiriləcəkdir.

İclas zamanı Kamran Əliyev tərəfindən Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) ilə birgə noyabr ayının 15-də keçiriləcək plenar iclasın, Türk Ədliyyə Təlim Şəbəkəsinə daxil olan ölkələrin nümayəndələrinin iştirakı ilə Bakı şəhərində dekabr ayında keçiriləcək beynəlxalq konfransın təşkili istiqamətində, habelə prokurorluğun fəaliyyətinə aid bir sıra zəruri məsələlərin həlli istiqamətində müvafiq tapşırıqlar verildi.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun qazandığı uğurların ölkə başçısının həm siyasi, hərbi, diplomatik, həm də iqtisadi sahədə apardığı məqsədyönlü fəaliyyətinin nəticələri olduğunu diqqətə çatdırmaqla bu istiqamətdə, habelə qanunun aliliyinin təmin edilməsi və dövlətçilik maraqlarının qorunması ilə bağlı prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə etdi.

Tədbirdən sonra Baş Prokurorluğun rəhbərliyi yenidən layihələndirilmiş Azərbaycan Prokurorluğunun tarix muzeyi ilə tanış olub.

# Baş prokuror Kamran Əliyev İrkutsk Dövlət Universitetinin nümayəndə heyətini qəbul edib





Hüquqşünasların hazırlanması sahəsində Rusiyanın aparıcı təhsil müəssisələrindən hesab edilən və Şərqi Sibirin ən qədim ali təhsil ocağı olan İrkutsk Dövlət Universitetinin tərkibində fəaliyyət göstərən Hüquq institutunun müəllim və tələblərindən ibarət nümayəndə heyəti ölkəmizdə səfərdə olub.

Azərbaycana səfər çərçivəsində oktyabr ayının 14-ü İDU-nun Hüquq institutunun və İrkutsk Vəkillər Palatasının nümayəndə heyəti Baş prokuror Kamran Əliyev tərəfindən qəbul edilib.















Görüş zamanı qonaqlarla hüquqşünas kadrlarının hazırlanmasının xüsusiyyətləri, əməkdaşlığın faydası və perspektivləri, Azərbaycan və Rusiya prokurorluq qurumları arasında formalaşmış işgüzar əlaqələr barədə söhbət aparılıb.

Görüşdən sonra nümayəndə heyəti yenidən layihələndirilmiş Azərbaycan Prokurorluğunun tarix muzeyi ilə tanış olub.

Daha sonra qonaqlar paytaxtın Dərnəgül yaşayış sahəsində yerləşən inzibati binalar kompleksində yaradılmış şəraitlə tanış olub, onlara kitabxanalar, məşğələ auditoriyaları, kriminalistik avadanlıq otaqları və texnikası, konfrans zalı və digər xidməti otaqlar nümayiş etdirilib.

Qonaqlar üçün, həmçinin, Azərbaycan Prokurorluğunun fəaliyyəti, prokurorluq işçilərinin tədris prosesi, hazırlıq və ixtisasartırma kursları və digər təlimlərin keçirilməsi əsasları, habelə tətbiq edilən müasir texnologiyalar barədə təqdimatlar keçirilməklə ətraflı məlumat verilib.

Vətən Müharibəsi qalereyasını ziyarət edən nümayəndə heyəti Heydər Əliyevin büstü qarşısında Ulu Öndərin əziz xatirəsini yad edib.

Təcrübə mübadiləsi zamanı İrkutsk Dövlət Universitetinin Hüquq institutunun və İrkutsk Vəkillər Palatasının nümayəndələri əldə etdikləri məlumatlara və göstərilmiş diqqətə görə minnətdarlığını bildiriblər.

# Baş prokuror Vyanada işgüzar səfərdə olub






Baş Prokurorluq COP29-la bağlı Vyanada təşviqat tədbiri keçirib.

Oktyabrın 17-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vyanaya işgüzar səfər edib.

Azərbaycanın Baş Prokurorluğu və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən "Cinayətin qarşısının alınması və ədalət mühakiməsi yolu ilə insanları və planeti qorumaq – Vyanadan (UNTOC-COP12) Bakıya (UNFCCC- COP29)" adlı xüsusi sessiya keçirilib.

Tədbirdə xarici ölkələrin Vyanada akkreditə olunmuş səfirliklərinin, Avstriya və Taylandın Baş Prokurorluğunun, Beynəlxalq Antikorrupsiya Akademiyasının və Beynəlxalq Prokurorlar Assosiasiyasının rəhbər vəzifəli şəxsləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan BMT-nin Baş katibinin müavini, BMTNCİ-nin İcraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Vali ölkəmizdə noyabr ayında keçiriləcək ən böyük iqlim konfransı, COP29-a hazırlıq çərçivəsində Azərbaycan sədrliyi tərəfindən görülən işləri yüksək qiymətləndirib.

Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-a ən yüksək səviyyədə aparılan hazırlıq işlərinin yekunlaşma ərəfəsində olduğunu bildirib.

Eyni zamanda, COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu və BMTNCİ tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən 15 noyabr tarixində keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiya barədə iştirakçılara məlumat verilib.
















Tədbirdə COP29-un promo çarxı nümayiş etdirilib. Daha sonra Baş Prokurorluğun idarə rəisləri Elnur Musayev və Erkin Əlixanov ölkəmizdə ekoloji cinayətlərlə mübarizədə görülən tədbirlər və müsbət nailiyyətlər, habelə Beynəlxalq Prokurorlar Assosiasiyasının ölkəmizdə keçirilmiş 29-cu illik konfransının nəticələri, eləcə də COP29 çərçivəsində təşkil olunacaq yüksək səviyyəli sessiya barədə məlumat veriblər.

Səfər çərçivəsində Baş prokuror Kamran Əliyev və BMTNCİ-nin İcraçı direktoru Qada Vali arasında ikitərəfli görüş keçirilib. Baş prokuror tərəfindən Azərbaycan hökuməti ilə BMT arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olunaraq ölkəmizin hüquq-mühafizə orqanları ilə BMTNCİ arasında transmilli cinayətkarlığa qarşı mübarizədə əməkdaşlığın uğurla davam etdirildiyi qeyd olunub. Qada Vali COP29 çərçivəsində Azərbaycan Prokurorluğu ilə birgə təşkil olunacaq tədbirlə bağlı görülmüş hazırlıq işlərini yüksək qiymətləndirərək Baş prokurora təşəkkürünü bildirmişdir.

Həmçinin, səfər çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyinin rəhbərliyi ilə görüş keçirilib. BƏƏ-nin Baş nazirinin müavini - daxili işlər naziri şeyx Saif bin Zayed əl Nəhyanın salamları Baş prokuror Kamran Əliyevə çatdırılaraq COP29 çərçivəsində təşkil olunacaq yüksək səviyyəli sessiyada BƏƏ tərəfindən həmsədrlik edilməsinə dair razılıq verilməsinə görə Azərbaycan tərəfinə təşəkkür ifadə olunub.

Görüşlərdə Azərbaycan Respublikasının Avstriyadakı fövqəladə və səlahiyyətli səfiri Rövşən Sadıqbəyli iştirak edib.

# Baş prokuror Çin nümayəndə heyəti ilə görüşüb







Noyabrın 6-da Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Çin Xalq Respublikasının Kommunist Partiyasının İntizam Təftişi üzrə Mərkəzi Komissiyası Katibinin müavini və Milli Nəzarət Komissiyasının sədr müavini Lyu Suesinlə görüşüb.

Qonağı salamlayan Baş prokuror dövlətlər arasında olan dostluq və əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edərək, müstəqilliyin ilk illərində Ulu Öndər Heydər Əliyevin, hazırda isə Prezident cənab İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinin uzaqgörən siyasətləri nəticəsində iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə və uğurla inkişaf etdiyini vurğulayıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Kamran Əliyev, noyabrın 15-də Baş Prokurorluq tərəfindən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksək səviyyəli plenar iclasın təşkil olunacağı barədə qonağa məlumat verib.

Lyu Suesin səmimi qəbula görə minnətdarlığını ifadə edərək korrupsiya ilə mübarizə sahəsində ölkəmizdə həyata keçirilən islahatları yüksək qiymətləndirib, bu sahədə prokurorluğun rolunu xüsusilə qeyd edib. Qonaq Azərbaycan Respublikasının Çinin ərazi bütövlüyünü və "Vahid Çin" siyasətini daim dəstəklədiyini vurğulayaraq təşəkkürünü bildirib.



Daha sonra tərəflər qurumlar arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri, eləcə də əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması barədə fikir mübadiləsi aparıblar.

## Baş Prokurorluqda "Zəfər Günü" münasibətilə tədbir keçirilib





Noyabrın 7-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq əməkdaşları Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün təmini uğurunda şəhid olmuş hərbçilərimizin dəfn olunduğu II Şəhidlər Xiyabanını ziyarət edərək şəhadət zirvəsinə ucalmış şəhidlərimizin xatirələrini dərin ehtiramla yad edib məzarları üzərinə gül dəstələri qoyublar.

Daha sonra Baş Prokurorluğun inzibati binasında Baş Prokurorluğun rəhbərliyi tərəfindən Ümummilli Lider Heydər Əliyevin büstü üzərinə gül dəstələri qoyulub və "8 noyabr Zəfər günü"nə həsr olunmuş tədbir keçirilib.

Tədbir zamanı şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dövlət himni səsləndirildikdən sonra, Baş prokuror Kamran Əliyev çıxış edib.

Prokurorluq əməkdaşlarını və xalqımızı "8 Noyabr – Zəfər Günü" münasibətilə təbrik edən Baş prokuror tariximizin şanlı səhifəsi olan bu qələbəyə aparan yolun əsasının Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayıb, daim vətəninə bağlı olan və onun gələcəyini düşünən dahi dövlət xadimi, dünya səviyyəli siyasətçi Heydər Əliyevin ölkəmizin bu günləri üçün gördüyü işlərdən bəhs edib.








Qeyd edilib ki, Ulu Öndərin layiqli davamçısı, onun prinsip və siyasi kurslarına sadiq qalan Prezident cənab İlham Əliyev tərəfindən Azərbaycan daha da inkişaf etdirilib və nəticədə beynəlxalq aləmdə aparıcı mövqeyə sahib, iqtisadi və siyasi sferada sadiq və əqidəli tərəfdaş olmaqla yanaşı, eyni zamanda qüdrətli orduya sahib olan dövlət kimi nüfuz qazanıb.

Vurğulanıb ki, 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri torpaqlarımızın işğaldan azad edilməsi üçün əməliyyatlara başlayıb və "44 günlük Vətən müharibəsi" nəticəsində işğal altında olmuş torpaqlarımızın böyük hissəsi azad edilməklə yanaşı Ermənistan Respublikasının məğlub tərəf qismində Üç tərəfli bəyanatı imzalamaq məcburiyyətində qalıb.

Ermənistan Respublikasının təsiri altında ölkəmizin ərazisində erməni separatçılarının qeyri-adekvat hərəkətlər etməsi isə 23 saatlıq bir müddətdə lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi ilə nəticələnib və bununla da Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi tamamilə təmin edilib.

Baş prokuror artıq yeni reallığın mövcud olmasını vurğulayaraq torpaqlarımızın işğaldan azad edilməsi ilə Azərbaycanın yeni bir mərhələyə qədəm qoyduğunu bildirib.

Eyni zamanda Baş prokuror "44 günlük Vətən müharibəsi" və lokal xarakterli antiterror tədbirləri zamanı prokurorluq əməkdaşlarının hərbi əməliyyatların aparıldığı ərazilərdə xidməti vəzifələrini layiqincə yetirdiklərini, bəzi prokurorluq əməkdaşlarının "I Qarabağ" və "44 günülük Vətən" müharibələri zamanı bilavasitə döyüşlərdə iştirak etməsini, hətta şəhid prokurorluq əməkdaşlarının olduğunu, habelə "44 günlük Vətən" müharibəsində iştirak etmiş və yüksək savad, bilikləri ilə seçilən gənclərin prokurorluq orqanlarında qulluğa keçirilən müsabiqədə uğur qazanaraq işə qəbul olunmasını və hazırda xidmət etmələrini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə həmçinin, Prokurorluğun veteranı - Böyükağa Panəliyev, Vətən müharibəsi iştirakçısı – Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin Kriminalistika şöbəsinin prokuroru Coşqun Zamanlı çıxış edib.

Sonda isə "Səbrin sonu" adlı sənədli film nümayiş etdirilib.

## Baş prokuror Qətərə işgüzar səfər edib



Noyabrın 26-27-si tarixlərində Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının ikinci yüksək səviyyəli görüşündə iştirak üçün Qətər Dövlətinə işgüzar səfər edib.

Nümayəndə heyəti ölkəmizin Dohadakı səfirliyinə gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünü ziyarət edib, Ulu Öndərin əziz xatirəsi ehtiramla yad olunub.

İƏT üzvü olan 57 ölkənin baş prokurorları, ədliyyə, daxili işlər nazirləri, müstəqil antikorrupsiya qurumlarının və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdiyi korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının görüşünü giriş sözü ilə açan ev sahibi – Qətər Dövlətinin İnzibati Nəzarət və Şəffaflıq Təşkilatının sədri Hamad Ben Nasser Al Misnad tədbirin işinin tərəf dövlətlərin korrupsiyaya qarşı mübarizə sahəsində birgə səylərinə verəcəyi töhfədən danışıb, gələcək fəaliyyətdə təşkilatın korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Məkkə Konvensiyasının tətbiqi mexanizmi və icra perspektivindən söz açıb.








Yüksək səviyyəli iclasda çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin milli prioritetlərindən olan korrupsiyaya qarşı mübarizə sahəsində aparılmış ardıcıl islahatlar, hüquqi və institusional tədbirlər barədə xarici həmkarlarına məlumat verib, İslam ölkələri ilə əməkdaşlığa ayrılan xüsusi diqqətin çoxsaylı nümunələrindən biri kimi Məkkə Konvensiyasının qəbul edilməsi təşəbbüsünün ilkin mərhələdən etibarən Azərbaycan tərəfindən dəstəkləndiyini vurğulayıb.

Çıxışında habelə, ölkəmizin prokurorluq orqanlarının qlobal və regional anti-korrupsiya təşəbbüslərində fəal iştirakına dair məsələlərə də yer verən Kamran Əliyev cari ildə ölkəmizdə keçirilmiş dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri kimi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası – COP29, həmin tədbir çərçivəsində Azərbaycan Prokurorluğunun xarici tərəfdaşlarla birgə təşkil etdiyi yüksək səviyyəli plenar sessiya, həmçinin Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağın uğurlarına töhfə vermiş İslam ölkələrinin nümayəndə heyətlərinə bir daha təşəkkürünü ifadə edib.

Mütərəqqi beynəlxalq təşəbbüslərə daim açıq olmaqla bu sahədə etibarlı platforma rolu oynayan ölkəmizdə aktual mövzu üzrə keçiriləcək tədbirlərə də toxunan Baş prokuror Kamran Əliyev BMT-nin "GlobE" Antikorrupsiya Şəbəkəsinin altıncı plenar sessiyasının 2025-ci ilin may ayında Bakıda keçiriləcəyini qeyd etməklə həmkarlarını həmin tədbirə dəvət edib, İƏT-ə üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının üçüncü yüksək səviyyəli görüşünə 2026-cı ildə ev sahibliyinə ölkəmizin namizədliyinə göstərilən dəstəyə görə həmkarlarına minnətdarlığını bildirib.

Tədbirdə ölkəmiz İƏT-ə Üzv Dövlətlərin antikorrupsiya qurum rəhbərlərinin Bürosunun sədr müavini seçilib.

Səfər çərçivəsində Baş prokuror tərəfindən xarici həmkarlarla bir sıra ikitərəfli görüşlər keçirilib.

Belə ki, Qətər dövlətinin nümayəndə heyəti ilə keçirilmiş ikitərəfli görüşdə İnzibati Nəzarət və Şəffaflıq Təşkilatının sədri Hamad Ben Nasser Al Misnad ortaq dini və mədəni dəyərləri paylaşan ölkələrimiz arasında



müxtəlif istiqamətlərdə mövcud olan sıx tərəfdaşlıq əlaqələrinin daim inkişaf etməsindən məmnunluğunu bildirib, öz növbəsində bu əlaqələrin korrupsiyaya qarşı mübarizə sahəsində qurumlararası əməkdaşlığa da töhfə verdiyini qeyd edib.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Kamran Əliyev Azərbaycan və Qətər prokurorluqları arasında əməkdaşlıq təcrübəsinə dair müsbət nümunələrə istinad edərək İnzibati Nəzarət və Şəffaflıq Təşkilatı ilə də uğurla inkişaf etməkdə olan ikitərəfli əlaqələrin əhatə dairəsinin genişləndirilməsinin vacibliyini vurğulayıb.

Səfər zamanı Kamran Əliyevlə Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya qarşı Mübarizə üzrə Qurumunun (Nazaha) Prezidenti Mazin bin İbrahim Əl Kahmus arasında keçirilmiş ikitərəfli görüşdə 2023-cü ilin noyabr ayında ölkəmizin Baş Prokurorluğu ilə Krallığın Nazaha Qurumu arasında imzalanmış Əməkdaşlıq haqqında memorandumun icra vəziyyəti müzakirə olunub, eləcə də qarşılıqlı əlaqələrin növbəti inkişaf perspektivləri müəyyən edilib.

Həmçinin, Baş prokuror Pakistan İslam Respublikasının ədliyyə naziri Azam Nazir Tararla görüşüb. Dərin tarixi bağlara malik qardaş ölkələrimiz arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əlaqələrin iqtisadi, hərbi, humanitar və digər istiqamətlərlə yanaşı hüquqi sahədə də dayanıqlı xarakter alması təqdirəlayiq hal kimi vurğulanıb. Görüşdə transmilli təzahür olan korrupsiyaya qarşı mübarizə üzrə qarşılıqlı əməkdaşlıq potensialının daha da gücləndirilməsi məsələləri müzakirə edilib.

İraq Respublikasının Federal Dürüstlük Komitəsinin sədri Məhəmməd Əli Əl-Lami arasına keçirilmiş ikitərəfli görüşdə ölkələrimiz arasında mövcud olan tarixi dostluq münasibətlərindən bəhs edilib, qurumlararası əməkdaşlıq əlaqələrinin korrupsiyaya qarşı mübarizə sahəsində imzalanması nəzərdə tutulan anlaşma memorandumunun imzalanması ilə yeni və daha intensiv müstəviyə qədəm qoyacağına dair qarşılıqlı inam ifadə edilib.

İkitərəfli görüşlərdə cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, ekstradisiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, korrupsiya cinayətləri və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

Bundan başqa, səfər çərçivəsində Kamran Əliyevlə İƏT-in Baş katibi Hüseyn İbrahim Taha arasında ikitərəfli görüş keçirilib. Görüşdə Təşkilatın İslam ölkələrinin həmrəyliyi və tərəqqisində müstəsna əhəmiyyəti vurğulanmaqla, eyni zamanda üzv dövlətlərin cinayətkarlığa qarşı effektiv mübarizə fəaliyyətində də təşviqedici rolu qeyd olunub.

Görüşdə Baş prokuror tərəfindən İƏT-in istər torpaqlarımızın otuz ilə yaxın müddət ərzində işğal altında saxlanıldığı dövrdə, istərsə də növbəti mərhələdə işğal faktına son qoyulması ilə bağlı ölkəmizin haqq işinə qəbul etdiyi qətnamə və bəyanatlarla daim yaxından dəstək olduğunu minnətdarlıq hissi ilə xatırladıb.

Baş katib öz növbəsində Azərbaycan Respublikasının İƏT-in işində göstərdiyi fəal və təşəbbüskar mövqeyə görə təşəkkürünü bildirib, ölkəmizin işğaldan azad edilmiş ərazilərinə etdiyi səfərlərlə şahidi olduğu bərpa-quruculuq işlərini təqdirəlayiq bir hal kimi vurğulamaqla, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi faktının İslam dünyası tərəfindən böyük sevinclə qarşılandığını bildirib.

Tədbirlərdə ölkəmizin Qətər Dövlətindəki fövqəladə və səlahiyyətli səfiri Mahir Əliyev iştirak edib.



# Baş prokuror yanında Elmi-Məsləhət Şurasının iclasında hüquq ictimaiyyəti üçün aktual olan məsələlər müzakirə edilib






Dekabrın 10-da müxtəlif dövlət qurumlarının təcrübəli əməkdaşlarının, tanınmış hüquqşünasların, o cümlədən aparıcı ali təhsil və hüquq üzrə ixtisaslaşmış müəssisələrin professor-müəllim heyətinin, hakim və vəkillərin, habelə qeyri-hökumət təşkilatların nümayəndələrinin iştirakı ilə aktual mövzulara həsr olunan Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.

Giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev qeyd edib ki, mötəbər beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı xarici siyasətin, dövlətimizin tərəqqi yolu ilə inkişaf etməsinin, qabaqcıl ölkələr sırasında layiqli yer tutmasının məntiqli nəticəsidir.

Vurğulanıb ki, dünyanın ən aktual bəşəri problemlərinin müzakirə edildiyi mühüm beynəlxalq platforma olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının məhz Azərbaycanda keçirilməsi ölkəmiz üçün çox əhəmiyyətli olub.

İclasda Şura üzvlərinə noyabrın 15-də Azərbaycan Prokurorluğunun təşkilatçılığı ilə COP29 çərçivəsində 200-dən artıq xarici və ölkədaxili qonaqların iştirakı







ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda keçirilmiş yüksək səviyyəli sessiyanın mahiyyəti barədə geniş məlumat verilib.

Həmçinin iclasda dünya prokurorlarının yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının 110 yurisdiksiyadan və beynəlxalq təşkilatlardan 470-dən artıq xarici prokurorların qatıldığı İllik Konfransının və digər tədbirlərinin sentyabrın 28-dən oktyabrın 2-dək paytaxtımızda keçirildiyi, həmin tədbirlərdə dünya ictimaiyyəti üçün önəmli məsələlərin müzakirəyə çıxarılması ətrafında söhbət aparılıb.

Elmi-Məsləhət Şurasının iclası çərçivəsində prokurorluq orqanlarında kriminalistikanın nailiyyətlərindən istifadənin səmərəliliyinin artırılması müzakirəyə çıxarılaraq, hüquq mühafizə orqanlarının fəaliyyəti üçün kriminalistik biliklərinin vacibliyi, ali və ixtisaslaşmış təhsil müəssisələrində Kriminalistika fənninin tədrisinin təkmilləşdirilməsi, bu sahədə tədris planlarına rəqəmsal kriminalistika, penitensiar psixologiya, kriminoloji genetika kimi yeni fənn proqramlarının əlavə olunması, eləcə də, kibercinayətlərin müəyyən edilməsi və açılmasında kriminalistikanın rolu vurğulanıb.

Daha sonra tədbir iştirakçıları tərəfindən iclasda təqdimatları keçirilmiş Baş Prokurorluğun "Kriminalistika fənninin tədrisi və kriminalistik biliklərin tətbiqi vəziyyəti", "Azərbaycan Prokurorluğunun qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində fəaliyyəti", "Prokurorluq orqanlarının peşə hazırlığı, elmi-tədqiqat və metodiki iş sahəsində beynəlxalq əməkdaşlıq təcrübəsi: 2020 – 2024" adlı vəsaitlər böyük maraqla qarşılanıb.

Baş Prokurorluq gənc hüquqşünasların ixtisaslı kadr kimi formalaşmasına xüsusi diqqət yetirdiyi üçün ali təhsil ocaqları ilə sıx əməkdaşlıq edir. Bundan başqa, prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünün qeyd edilməsi ərəfəsində 10 ali təhsil və hüquq üzrə ixtisaslaşmış müəssisələrinin 200-dən artıq tələbə və kursantın, eləcə də müəllim heyətinin nümayəndələrinin iştirakı ilə maraqlı və rəqabət şəraitində keçirilmiş ekoloji hüquqpozmalarla mübarizə mövzusunda interaktiv yarışın qaliblərinə Şuranın iclasında təntənəli şəkildə kuboklar və sertifikatlar təqdim edilib.

Sonda Baş prokuror yanında Elmi-Məsləhət Şurasının iclasında qaldırılan məsələlərə dair ətraflı müzakirələr aparılıb, Şura üzvlərinin rəy və təklifləri dinlənilib.

# Baş Prokurorluqda Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunan tədbir keçirilib






Dekabrın 11-də Baş Prokurorluqda müstəqil və müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.

Əvvəlcə Baş Prokurorluğun rəhbərliyi Ümummilli Liderin büstünü ziyarət edib, önünə gül dəstələri qoymuşdur.

Tədbirin açılışında Ulu Öndər Heydər Əliyev və şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib və Dövlət Himni səsləndirilib.

Çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycanın qurucusu, dövlətçilik salnaməsinin banisi, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının, dövlətinin tarixində və talehində silinməz izlər buraxıb, ölkəmizin müstəqilliyini təmin edərək, xalqımıza böyük gələcək perspektivləri açıb.

Heydər Əliyev fəaliyyəti dövründə daim dərin hisslərlə bağlı olduğu vətəni Azərbaycanın, özünə dayaq bildiyi xalqının gələcəyi və rifahı naminə çalışıb. Onun siyasi fəaliyyətinin ən mühüm məqamlarından biri, Sovet İttifaqı dövründə yüksək vəzifələrdə olmasına baxmayaraq, Azərbaycan xalqının milli maraqlarını, tarixini və adət-ənənələrini qorumaq məqsədilə göstərdiyi mübarizə olub. 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Birinci Katibi vəzifəsində fəaliyyəti zamanı Heydər Əliyev, ölkəmizin inkişaf tarixində yeni bir dövr başlatmış və məhz onun rəhbərliyi altında, Azərbaycanın sosial-iqtisadi inkişafında müsbət dəyişikliklər baş verib, bütün bölgələrdə, o cümlədən Naxçıvanda böyük infrastruktur layihələri həyata keçirilib.





Xüsusilə qeyd edilib ki, Heydər Əliyevin qətiyyəti və ağır əməyi sayəsində Sovetlər Birliyi dönəmində sosial-iqtisadi böhran keçirən Azərbaycan 1970-1980-ci illərdə İttifaqın ən qabaqcıl respublikalarından biri olub. Ümumilikdə 1969-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində ölkəmizdə yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradılıb, 250-dən çox İttifaq miqyaslı sənaye müəssisələri fəaliyyətə başlayıb.

Həmçinin vurğulanıb ki, həmin illərdə, Ulu Öndərin fəaliyyəti nəticəsində xalqın milli mənlik şüurunun, mədəniyyətinin və dilinin inkişafına güclü təkan verən silsilə tədbirlərin icrası sayəsində milli oyanışın, eləcə də Azərbaycanın gələcək müstəqilliyinin təmininə yönələn milli mübarizə ruhunun əsası qoyulub.

Tarixin bütün çağlarında müdrik və dahi rəhbərlərin mövcudluğuna ehtiyac duyulduğunu çıxışında qeyd edən Baş prokuror, dünya siyasətində aparıcı mövqeyə malik olmuş dövlət rəhbərlərinin Ulu Öndər haqqında səsləndirdikləri fikirlərdən sitat gətirib.

Daha sonra çıxışda bildirilib ki, Heydər Əliyev dahi siyasətçi olmaqla yanaşı, uzaq görən və müdrik dövlət rəhbəri idi. Vaxtilə onun tərəfindən atılmış addımlar bəzi bədxahlar tərəfindən qəbul edilməsə də və bu tədbirlərin əsl mahiyyətinin təhrif edilməsinə cəhdlər edilsə də, zaman bütün həqiqətləri ortaya çıxarıb. Atılmış hər bir addımın, o dönəmdə verilmiş hər bir qərarın məhz Azərbaycan xalqının mənafeyinə xidmət etməsini sübut edib.

Belə ki, torpaqlarının 20%-i işğal altında olan Azərbaycanla Ermənistan arasında atəşkəsə nail olmaq məqsədi ilə 1994-cü il mayında imzalanmış Bişkek protokolu həmin dövrdə bir mənalı qarşılanmasa da, tarix sübut etdiki müəyyən məsələlərin həllində müsbət nəticənin əldə edilməsi üçün uzaq görənlik və qətiyyətlə addım atılmalı və məsuliyyətə sahiblənmək lazımdır.

Ulu Öndərin simasında biz bu qətiyyətin və uzaq görənliyin şahidi olduq. Artıq Azərbaycan dünya əhəmiyyətli tədbirlərə ev sahibliyi edən, regional və dünya siyasətində aparıcı mövqeyə malik, torpaqlarını öz qüvvəsi hesabına işğaldan azad etmiş qüdrətli bir dövlətdir.

Tədbirdə həmçinin Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova “Heydər Əliyev: qanunvericiliyin inkişafında tarixi missiya” mövzusunda çıxış edib, Ümummilli liderin xatirəsinə həsr olunmuş “Müstəqil Azərbaycanın böyük uğurlarında Heydər Əliyevin rolu” sənədli filmə baxılıb.

## Prokurorluq əməkdaşları anım günü ilə bağlı Fəxri Xiyabanı ziyarət edib







Müasir Azərbaycan dövlətinin qurucusu və memarı, dünya şöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə bağlı dekabrın 12-də Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri Xiyabanı ziyarət edib.

Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri qoyulub.

# Baş Prokurorluqda Kollegiya iclası keçirilib



Dekabrın 28-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə cari il ərzində görülmüş işlər, qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilib.

Kollegiya iclası 25.12.2024-cü il tarixdə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində həyatını itirmiş şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edilməklə başlanaraq qəzada həyatını itirənlərə Allahdan rəhmət, yaxınlarına səbr dilənib, xəsarət alan şəxslərə isə tezliklə şəfa tapmaları arzu edilib.

Baş prokuror Kamran Əliyev çıxışında bildirib ki, başa vurmaqda olduğumuz 2024-cü il Azərbaycan xalqı və dövlətimiz üçün mühüm hadisələrlə zəngin, yadda qalan bir il olmuşdur. Bu hadisələrin əksəriyyəti ölkəmiz üçün uğurlu hesab edilə biləcək qəbildən olsa da, yaşanan təyyarə qəzası ilə bağlı baş vermiş faciə qəlbimizdə dərin izlər buraxmışdır.

Qeyd edilib ki, təyyarə qəzasının baş verməsindən dərhal sonra Prezident cənab İlham Əliyevin göstərişi əsasında hadisə yerinə Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının yüksək vəzifəli şəxsləri və qəza nəticəsində xəsarət almış vətəndaşlarımıza təxirəsalınmaz və ixtisaslaşmış tibbi, habelə psixoloji yardımın göstərilməsinin təmini məqsədilə zəruri tibbi avadanlıqlarla təchiz olunmuş həkim heyəti ezam olunmuş, hadisənin araşdırılması ilə bağlı Dövlət Komissiyası yaradılmış, bundan əlavə ölkə rəhbəri tərəfindən xəsarət almış vətəndaşlarımızın ölkəmizə təxliyə edilməsi, onların ölkəmizdə müalicəsinin davam etdirilməsi məqsədilə zəruri şəraitin yaradılması, həlak olmuş şəxslərin nəşlərinin gətirilməsi, zərərçəkmiş şəxslərə və onların ailə üzvlərinə xüsusi diqqət və qayğı göstərilməsi barədə müvafiq tapşırıqlar verilmişdir.

Eyni zamanda məlumat verilib ki, hadisə baş verdikdən sonra Baş Prokurorluq tərəfindən dərhal cinayət işi başlanılmış və hazırda İstintaq idarəsi tərəfindən genişmiqyaslı istintaq tədbirləri həyata keçirilir. Bundan əlavə aidiyyəti dövlət qurumları, habelə Qazaxıstan Respublikası, Rusiya Federasiyası, Braziliya Federativ Respublikasının prokurorluq orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində hadisənin baş verməsinin əsl səbəblərinin müəyyən edilməsi istiqamətində araşdırmalar aparılır və qısa müddət ərzində bu istiqamətdə konkret nəticələrin əldə edilməsi təmin olunacaqdır.

Daha sonra vurğulanıb ki, 2024-cü ildə müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində cari ilin 07 fevral tarixində növbədənkənar Azərbaycan Respublikası Prezidenti, cari ilin 01 sentyabr tarixində isə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkiləri keçirilmişdir.

Uğurla keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində cənab Prezident İlham Əliyevin mütləq səs çoxluğu ilə (92,12%) Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqımız tərəfindən onun şəxsinə bəslənilən rəğbətin, etimadın bariz nümunəsi olmuşdur.

Ulu Öndər Heydər Əliyev əqidəsinə və prinsiplərinə daim sadiq qalmış ölkə başçısının rəhbərliyi altında ölkəmizdə bütün sahələr üzrə əldə edilmiş inkişaf, torpaqlarımızın işğaldan azad edilməsi, qısa müddət ərzində həmin ərazilərin əksər hissəsində infrastrukturun bərpası və sakinlərimizin öz doğma el-obalarına köçürülməsi, beynəlxalq aləmdə Azərbaycanın həll edici mövqeyə malik bir dövlət kimi qərarlaşması və əldə edilmiş digər uğurlar xalqımızın sərbəst iradə ifadəsinin düzgün istiqamətdə olduğunu bir daha təsdiq edir.

Diqqətə çatdırılıb ki, cari ildə də Prezident cənab İlham Əliyevin rəhbərliyi və onun xanımı, Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri də davam etdirilib, Ağdam, Cəbrayıl, Zəngilan və Şuşa rayonlarında ölkə rəhbəri tərəfindən kəndlərin və qəsəbələrin təməli qoyulub, çoxsaylı ictimai, iaşə, yaşayış, kommunikasiya obyektlərinin, o cümlədən Qarabağ Universitetinin açılışı olmuşdur.

Sevindirici haldır ki, bütün bu işlər dövlətimizin öz maddi imkanları hesabına həyata keçirilmişdir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində Laçın, Füzuli, Şuşa, Cəbrayıl və Zəngilan rayonlarına sakinlərin bir qisminin köçürülməsi və onların yaşayış evləri, mənzillərlə təmin edilməsi uğurla həyata keçirilmişdir.




Daha sonra vurğulanıb ki, 2024-cü il ərzində ölkəmiz həmçinin bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir.

Belə ki, cari ilin noyabr ayında Bakı şəhərində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29-un) yüksək təşkilatçılıqla keçirilməsi təmin olunmuş, illərdən bəri qəbulu uzanan bir sıra mühüm qərarların, o cümlədən iqtisadiyyatı zəif dövlətlərə iqlim dəyişikliyi ilə bağlı mübarizəyə dəstək verilməsi üçün 2030-cu ilədək 300 milyard vəsaitin ayrılması ilə bağlı qərarın yekdilliklə qəbul edilməsi isə keçirilən tədbirə tarixi əhəmiyyət bəxş etmişdir.

Həmin tədbir çərçivəsində noyabr ayının 15-də Azərbaycan Respublikasının Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyinin həmsədrliyi ilə COP29 Sədrliyinin təşəbbüslərindən (Presidency initiative) biri olan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda yüksək səviyyəli iclas keçirilmişdir.

Bundan əlavə Azərbaycan Respublikası Prokurorluğu tərəfindən cari ilin 27 sentyabr - 02 oktyabr tarixlərində 170-dən çox dövlətin üzv olduğu Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclasının, 29-cu İllik Konfransının və Ümumi Yığıncağının ümumilikdə 500-dən artıq şəxsin iştirakı ilə Bakı şəhərində yüksək peşəkarlıqla təşkili və keçirilməsi təmin edilmişdir.

Çıxışda həmçinin ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsində Azərbaycan prokurorluğu tərəfindən digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə zəruri tədbirlərin görüldüyü bildirilib.

Xüsusilə əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə cinayətlərinin daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılmasının təmin edildiyi qeyd edilib.

Bundan əlavə Kamran Əliyev qeyd edib ki, Azərbaycan Respublikası və xalqına qarşı törədilən təcavüz aktı, işğal, soyqırım, sülh və insanlıq əleyhinə digər cinayətlər, müharibə cinayətləri, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsində ümumilikdə 2548 epizod üzrə ittham olunan Qukasyan Arkadi Arşaviri, Harutyunyan Arayik Vladimiri, Sahakyan Bako Sahaki və qeyriləri olmaqla 15 nəfər barəsində istintaq olunmuş cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq aidiyyəti üzrə baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilmişdir və həmin iş üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı tədbirlərin icrası qanunla müəyyən edilmiş qaydada icra olunacaqdır.

Eyni zamanda Baş prokuror tərəfindən Kollegiya iclasında 2025-ci ildə Azərbaycan Respublikası Prokurorluğu orqanlarının qarşısında duran digər mühüm məsələlər, o cümlədən 2025-ci ilin 19-23 may tarixlərində Bakı şəhərində keçirilməsi nəzərdə tutulan Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsinin Korrupsiyaya qarşı mübarizə üzrə Qlobal Əməliyyat Şəbəkəsinin (GLoBE) rəhbər komitəsinin iclasının və altıncı plenar sessiyasına hazırlıq işlərinin görülməsi və həmin beynəlxalq tədbirin yüksək səviyyədə keçirilməsinin təşkili barədə müvafiq tapşırıqlar verilib.

İclasda həmçinin Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na əlavə və dəyişikliklərin edilməsi müzakirəsi və təsdiqi məsələsi ilə bağlı Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov, 2024-cü ildə keçirilmiş beynəlxalq tədbirlərlə bağlı görülmüş işlər və növbəti ildə keçiriləcək beynəlxalq tədbirlərlə əlaqədar qarşıda duran vəzifələr barədə Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov məruzələrlə çıxış ediblər.

Aparılmış müzakirələr ətrafında Kollegiya üzvləri çıxış edərək təkliflərini bildirib, sonda Kollegiyanın qərarı ilə bir sıra məsələ üzrə qərarlar qəbul olunub.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikası Prokurorluğu orqanlarının bundan sonrakı fəaliyyəti zamanı da dövlət və xalqımızın mənafeyi naminə qanunla üzərinə qoyulmuş vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

## Baş prokurorun yerlərdə qəbulları

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

### GƏNCƏ

Oktyabrın 11-də Baş prokuror Kamran Əliyev Gəncə şəhər prokurorluğunun inzibati binasında Gəncə şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Daha sonra Baş prokuror Gəncə şəhər Gülüstan qəsəbəsində "İstiqlal" parkında yerləşən "Memorial Abidə Kompleksi"ni ziyarət edib, önünə gül dəstələri qoyub.





Qəbulda iştirak edən 149 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.





## SUMQAYIT





Dekabrın 6-da Baş prokuror Kamran Əliyev Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri, Qubadlı rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 41 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

**Qəbullardan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.**



# Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilib



Oktyabrın 16-da Baş Prokurorluqda Fövqəladə Hallar Nazirliyi ilə birgə "Rəhbər heyətin mülki müdafiə məşqi"nə dair tədbir keçirilib.





Tədbirdə çıxış edən Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəis müavini Rövşən Əhmədov mülki müdafiə sahəsində bilik və vərdişlərə yiyələnmənin əhəmiyyətini vurğulayaraq, prokurorluq orqanlarında bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərdən bəhs edib.

Məşğələdə FHN-in Mülki müdafiə işinin təşkili baş idarəsinin əməkdaşları Kərim Rəhimov və İlham Söhbətov çıxış edərək tədbirin keçirilməsində əsas məqsədin Mülki müdafiə planının dəqiqləşdirilməsi və təkmilləşdirilməsi, rəhbər heyətin bacarıqlarının artırılması olduğunu qeyd edib.

Tədbir zamanı səmərəli fikir mübadiləsi aparılıb, birgə fəaliyyətin əhəmiyyəti vurğulanıb.

# "Dövlət xidmətləri üzrə məlumatların əlçatanlığı və şəffaflıq" üzrə yeni xidmətlərin və imkanların təqdimatı keçirilib






Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Baş Prokurorluğun rəhbərlik etdiyi "Korrupsiya və şəffaflıq" işçi qrupunun 16 oktyabr 2024-cü il tarixdə Baş Prokurorluğun yeni inzibati binasında "Dövlət xidmətləri üzrə məlumatların əlçatanlığı və şəffaflıq" mövzusuna həsr olunmuş iclası keçirilmişdir.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyası, Baş Prokurorluq, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, özəl sektor subyektləri, vətəndaş cəmiyyəti institutları və digər aidiyyəti qurumların nümayəndələri iştirak etmişlər.

İşçi qrupunun rəhbəri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Asəf Sarıkişiyev, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, işçi qrupun üzvləri və digərlərinin çıxışlar etdiyi genişətərkibli tədbirdə "Dövlət Xidmətlərinin Elektron Reyestri" üzrə aparılmış təkmilləşmə işləri barədə təqdimat həyata keçirilmişdir.









Bildirilmişdir ki, dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanması və sistemləşdirilməsi, xüsusilə daim yenilənməsi vətəndaşların və maraqlı tərəflərin dövlət xidmətləri haqqında ətraflı məlumat əldəetmə imkanlarını və şəffaflığı təmin edir. Dövlət Xidmətləri reyestrində toplanmış xidmətlərin sayı 4 mindən çoxdur ki, burada G2B xidmətləri 740-dan yuxarıdır (https://dxr.az/dxr?lang=az). DXR-də dövlət xidmətləri barədə ingilis dilində də məlumatları əldə olunması imkanları yaradılmışdır.

Eyni zamanda, iclasda 2024-cü ilin III rübü ərzində "Korrupsiya və şəffaflıq" işçi qrupunun üzvləri tərəfindən "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrasına dair görülmüş işlər, növbəti dövr üzrə qarşıda duran vəzifələr və digər mühüm məsələlərlə bağlı geniş müzakirələr aparılmışdır.

İclasın davamında vətəndaş cəmiyyəti institutları və özəl sektor nümayəndələri tərəfindən dövlət-biznes-vətəndaş cəmiyyəti dialoqunun genişləndirilməsi məsələləri ilə bağlı zəruri təkliflər irəli sürülmüşdür.

Xüsusi vurğulanmalıdır ki, Biznes mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Korrupsiya və şəffaflıq" işçi qrupuna rəhbərlik Baş Prokurorluq tərəfindən həyata keçirilir (https://azranking.az/working-groups ).









# Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində antikorrupsiya davranış modelinin formalaşdırılması mövzusunda təlim keçirilib





Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nına uyğun olaraq, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərə və büdcə təşkilatlarının işçilərində antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı işlərin gücləndirilməsi, cəmiyyətdə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirmə, tədris və digər tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə tədbirlərin görülməsi nəzərdə tutulub.

Bu çərçivədə Medianın İnkişafı Agentliyində 17 oktyabr 2024-cü il tarixində antikorrupsiya davranış modelinin yaradılması və antikorrupsiya mədəniyyətinin formalaşdırılması üzrə işçilərin nəzəri biliklərinin artırılması, həmçinin maraqların toqquşmasının qarşısının alınması və nəticələrinin aradan qaldırılması, korrupsiya ilə əlaqədar hüquqpozmalara görə məsuliyyət tədbirləri barədə məlumatlılığın artırılması məqsədilə təlim təşkil olunub.

Təlimdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Nicat Nağıyev və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin böyük prokuroru İradə Xəlilova mühazirəçi qismində iştirak edib.

Onlar çıxışlarında antikorrupsiya davranış modellərinin spesifik cəhətləri, korrupsiya risklərin müəyyən edilməsinin əhəmiyyəti, korrupsiyaya qarşı mübarizə sahəsində preventiv tədbirlərin, o cümlədən maraqlar toqquşmasının idarə edilməsi fromaları və etik davranış qaydaları mövzuları ətrafında geniş məlumat verib.

Təlimin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılmaqla mövzular ətrafında qarşılıqlı fikir mübadiləsi aparılıb.






# Baş Prokurorluq Qarabağ Universitetinin tələbləri ilə görüş keçirib

Oktyabrın 22-də Azərbaycan Respublikasının Baş Prokurorluğu və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Qarabağ Universitetində Humanitar və sosial elmlər fakültəsinin tələbələri ilə görüş keçirilib.









Görüşdə Baş Prokurorluğun, habelə Elm və Təhsil Nazirliyinin bir sıra rəhbər şəxslərindən ibarət nümayəndə heyəti iştirak edib, çıxışlar edilib, tələbələri maraqlandıran sualların cavablandırılması təmin olunub.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov açılış nitqi ilə çıxış edərək tədbir iştirakçılarını salamlayıb və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən universitet qarşısında qoyulan prioritetləri diqqətə çatdırıb.

Daha sonra Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli hüquq təhsilinin inkişafı təşəbbüsləri mövzusunda tələbələr qarşısında çıxış edib. Hüquq sahəsinin daim inkişafda olmasını vurğulayan Mətin Kərimli tələbələrə müasir tələblərə adaptasiya olunmasını, peşəkar mütəxəssis kimi yetişmələri üçün elmi-nəzəri biliklərlə yanaşı, təcrübi biliklərə və müvafiq kommunikasiya bacarıqlarına da yiyələnmələrini tövsiyə edib.

Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov çıxış edərək Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən elm-təhsil müəssisələrinə daim qayğı ilə yanaşılmasını, Baş Prokurorluqla bir sıra bir sıra yerli və xarici elm-təhsil ocaqları arasında sıx əməkdaşlığın mövcud olması diqqətə çatdırıb, həmçinin, Baş Prokurorluqla həmin təhsil müəssisələri arasında qurulmuş əməkdaşlıq, həyata keçirilən birgə layihələr barədə görüş iştirakçıları məlumatlandırıb.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşkilatçılığı ilə cari ilin iyun ayının 24-də Xankəndi şəhərində "Ətraf Mühitin Gücləndirilməsində Maarifləndirmə və Hüquq Mühafizə Tədbirlərinin rolu" mövzusunda Elmi-Praktiki Konfrans keçirilib. Həmin tədbirdə birgə imzalanmış memoranduma əsasən hazırda Azərbaycan Respublikası Baş Prokurorluğu, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti ilə birlikdə "Ətraf mühitin gücləndirilməsi: maarifləndirmə və hüquq mühafizə tədbirləri" (ECOLEAD) layihəsinin birgə həyata keçirilir.

Cari ilin avqust ayının 16-da isə həmin layihəyə Naxçıvan Dövlət Universiteti də qoşulmuşdur.

Eyni zamanda, hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə Prokurorluq orqanlarına işə qəbulun prosedurları və bu prosesin Ümummilli Lider Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq













edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə" əsasında həyata keçirilməsi barədə məlumat verilib.



Azərbaycan Respublikasının Baş Prokurorluğunun Qarabağ Universitetinə tədrisin təşkili məqsədilə əməkdaşların tədris prosesinə cəlb edilməsi, tədris proqramının hazırlanması, maddi-texniki bazasının təkmilləşdirilməsi, xüsusən kriminalistika sahəsində avadanlıqlarla təchiz edilməsi, bu sahədə, habelə dövlət ittihamının həyata keçirilməsi sahəsində təcrübə mübadiləsi, nəzəri və təcrübi biliklərin aşılanması, həmçinin Universitetin Hüquq fakültəsinin tələbələrinin prokurorluq orqanlarında təcrübə keçmələri və ictimai köməkçi institutlarında iştirakları ilə bağlı hərtərəfli dəstək verməyə hazır olduğunu görüş iştirakçılarının diqqətinə çatdırılıb.

Yekunda Baş Prokurorluq, Elm və Təhsil Nazirliyi və Qarabağ Universiteti arasında üçtərəfli görüş formatında Hüquqşünaslıq ixtisası üzrə peşəkar kadrların hazırlanması istiqamətində əməkdaşlıq perspektivləri müzakirə edilib.

# Gəncə şəhər və Lənkəran rayon prokurorları kollektivlərə təqdim olunublar
















Oktyabrın 23-də Baş prokurorun birinci müavini Elçin Məmmədov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, həmçinin Gəncə şəhər prokurorluğunun əməkdaşlarının iştirakı ilə Baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən şəhər prokuroru vəzifəsinə təyin olunmuş Rauf Gözəlov kollektivə təqdim edilib.

Çıxış edən Elçin Məmmədov ölkə Prezidentinin rəhbərliyi ilə aparılan ardıcıl hüquq islahatlarının prokurorluq orqanlarında uğurla davam etdirildiyini qeyd edərək, Gəncə şəhər prokurorluğunun rəhbərliyində aparılan kadr dəyişikliyinin qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsini, nöqsan və çatışmazlıqların aradan qaldırılmasını təmin edəcəyinə əmin olduğunu bildirib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək, şəhər prokurorluğunun digər hüquq-mühafizə orqanları və aidiyyəti dövlət qurumları ilə birgə dövlət və dövlətçiliyin qorunması naminə koordinasiyalı fəaliyyətin bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

Müşavirədə çıxış edən Gəncə şəhər prokuroru Rauf Gözəlov prokurorluq orqanlarının inkişafına göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını bildirərək, rəhbərlik etdiyi kollektivin yüksək etimadı doğruldacağını, qarşıya qoyulan vəzifələrin dönmədən icrasına nail olunması üçün səylə çalışacaqlarını, vətəndaşların qəbuluna və müraciətlərinə həssaslıqla yanaşılmaqla məmnuniyyətin əldə olunması naminə səfərbər olacaqlarını qeyd edib.

Həmçinin, Baş prokurorun digər müvafiq əmrləri ilə Lənkəran rayon prokuroru təyin edilmiş Azad Qarayev və Qazax rayon prokuroru təyin edilmiş Rövşən Əliyev də həmin gün kollektivə təqdim olunub.

## Nərimanov rayon prokurorluğunda "Açıq qapı günü" təşkil edilib












İctimaiyyətin prokurorluq orqanlarının fəaliyyətinə marağı nəzərə alınaraq, oktyabrın 25-də növbəti "Açıq qapı günü" təşkil edilib.

Nərimanov rayon prokurorluğunun yeni inzibati binasında keçirilmiş tədbirdə məqsəd prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, istifadədə olan kriminalistik texnika, habelə prokurorluğun tarixi keçmişi ilə media və qeyri-hökumət təşkilatlarının nümayəndələrini tanış etmək olub.

Qonaqlara prokurorluq orqanlarında aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, habelə ictimaiyyətlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər barədə danışılıb, habelə Azərbaycan Respublikasının Prokurorluğunda müvafiq olaraq həyata keçirilmiş hüquqi-institusional islahatlarla bağlı iştirakçılara məlumat verilib.

Tədbir zamanı Nərimanov rayon prokuroru Hidayət Nurəlibəyov, Baş Prokurorluğun əməkdaşı Kənan Zeynalov və digər prokurorluq əməkdaşları qurumun fəaliyyəti barədə dinləyicilərə ətraflı danışıb.

İştirakçılar inzibati bina, eləcə də kriminalistik texnika ilə əyani olaraq tanış olub, onlara "Elektron prokurorluq" informasiya sistemi əyani olaraq nümayiş olunub.

Sonda xatirə fotoşəkli çəkdirilib.



# Nərimanov rayon prokurorluğunda “Yaşıl dünya üçün hüquqi yeniliklər” adlı tədbir keçirilib









Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, oktyabrın 25-də Nərimanov rayon prokurorluğunun inzibati binasında “Yaşıl dünya üçün hüquqi yeniliklər” adlı seminar keçirilib.

Tədbirdə media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edib.

Ətraf mühitin mühafizəsi, habelə prokurorluq orqanlarının ekoloji təhlükəsizliklə bağlı fəaliyyəti barədə məlumatlılığın artırılması məqsədilə təşkil olunmuş tədbir zamanı açılış nitqi ilə çıxış edən Nərimanov rayon prokuroru Hidayət Nurəlibəyov qonaqları salamlayaraq, rayon prokurorluğunun ekoloji təhlükəsizliklə bağlı fəaliyyəti, cinayətkarlığa qarşı aparılan mübarizə tədbirləri, habelə insan hüquq və azadlıqlarının müdafiəsi naminə görülən işlər barədə danışıb.

Bakı şəhər prokurorunun köməkçisi Famil Axundov çıxışında prokurorluq orqanlarının digər dövlət qurumları ilə birgə ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın bərpa edilməsi istiqamətində gördüyü kompleks işlər barədə məlumat verib, yaşıl dünya naminə beynəlxalq əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxış zamanı yaşıl dünya üçün hüquqi tənzimləmələrdən bəhs edərək təbii resursların və bioloji çeşidliliyin qorunması, tullantıların idarə olunması, enerji effektliliyi və alternativ enerji istehsalı, zərərli kimyəvi maddələrin idarə edilməsi kimi sahələrdə formalaşmış hüquqi strukturlar, normativ əsaslar və hüquqi məsuliyyət tədbirləri barədə məlumat verib.

Tədbir zamanı faydalı fikir mübadiləsi aparılıb, suallar ətraflı cavablandırılıb.

# Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə həsr olunmuş növbəti təlim keçirilib









Baş Prokurorluğun Elm-Tədris Mərkəzində oktyabrın 29-30-u tarixlərində "Cinayət yolu ilə əldə edilmiş gəlirlərin, cinayət alətlərinin və ya onların dəyərinə ekvivalent əmlakın, terrorçuluğun maliyyələşdirilməsində istifadə olunan vəsaitlərin həbs və müsadirəsi" mövzusunda təlim keçirilib.

Təlim iştirakçıları prokurorluq və vergi orqanlarının 49 əməkdaşından ibarət olmaqla, tədris prosesinə təlimçi qismində Baş Prokurorluq və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin işçiləri ilə yanaşı, Maliyyə Monitorinqi Xidmətinin əməkdaşları cəlb olunub.

Təlim çərçivəsində CM-in 193-1 maddəsi ilə nəzərdə tutulmuş əməlin ictimai təhlükəliliyi, tərkib elementləri və tövsifi aspektləri; cinayət yolu ilə əldə edilmiş əmlakın və ya terrorçuluğun maliyyələşdirilməsində istifadə olunan vəsaitlərin müəyyən edilməsi və izlənilməsi üsulları; bu cür əmlakın və vəsaitlərin üzərinə həbs qoyulması, qiymətləndirilməsi və müsadirə edilməsi qaydaları; qeyd olunan cinayət üzrə məhkəmə təcrübəsinin xüsusiyyətləri, eləcə də digər aktual mövzular üzrə tədris keçirilib. Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

# Baş Prokurorluqda Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının Bakı İctimai Birliyinin "Şahid Dindirmə Müsabiqəsi" keçirilib





Gələcək hüquqşünasların prokurorluq orqanlarının fəaliyyətinə olan marağını nəzərə alaraq, onların prokurorluq orqanlarında işləmələrinin təşviqi məqsədilə Baş Prokurorluğun Kadrlar idarəsinin və Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə Baş Prokurorluqda 15 və 24 oktyabr, habelə 1 noyabr tarixlərində Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) Bakı İctimai Birliyinin "Şahid Dindirmə Müsabiqəsi" keçirilib.

Aparıcı ali təhsil müəssisələrinin hüquq sahəsində ixtisas alan 60 tələbəsinin iştirakı ilə keçirilən bu tədbirdə Baş Prokurorluğun müxtəlif idarələrinin təcrübəli əməkdaşları dindirmə istintaq hərəkətinin taktikasına və rəsmiləşdirilməsinə dair çıxışlar ediblər, eləcə də səhnələşdirilmiş tədbirin yarımfinal və final mərhələlərində isə hakim qismində iştirak ediblər.

Müsabiqənin sonunda qalib olan komandanın üzvləri mükafatlandırılıb, iştirakçılara müvafiq sertifikatlar, təlimçilərə isə təşəkkürnamələr təqdim olunub.





# Prokurorluq əməkdaşları tərəfindən təhsil işçiləri üçün maarifləndirici təlimlər keçirilib



Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022 – 2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə tədbirlər uğurla davam etdirilir.



Tədbirlərin davamı olaraq, oktyabrın 30 və 31-i Baş Prokurorluqda, noyabrın 4-ü isə Elm və Təhsil Nazirliyinin Bakı şəhəri üzrə Təhsil İdarəsində təhsil işçiləri üçün "Antikorrupsiya davranış modelinin formalaşdırılması" mövzusunda təlim keçirilib.

Təcrübəli prokurorluq əməkdaşlarının təlimçi qismində iştirak etdiyi təlim zamanı dinləyicilərə korrupsiya hüquqpozmalarının mahiyyəti, bu hüquqpozmalara görə məsuliyyətin növləri, korrupsiyaya qarşı aparılan mübarizə və digər aktual məsələlər tədris olunub.

Dinləyicilər tədris edilmiş mövzulara maraq göstərib, onları maraqlandırılan suallar ətraflı cavablandırılıb.

Tədbirlə əlaqədar Elm və Təhsil Nazirliyinin nümayəndə heyəti Baş Prokurorluğun inzibati binalar kompleksində yaradılmış şərait və tətbiq edilən informasiya sistemləri ilə tanış edilib, tədrisin təşkili sahəsində təcrübə mübadiləsi aparılıb.



## “Qanunsuz miqrasiyanın təşkili ilə bağlı məlumatlar üzrə istintaq-araşdırma təcrübəsi” mövzusunda kurs təşkil edilib



Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən 2024-cü ilin oktyabr ayının 31-dən noyabr ayının 7-dək prokurorluq işçilər üçün “Qanunsuz miqrasiyanın təşkili ilə bağlı məlumatlar üzrə istintaq-araşdırma təcrübəsi” mövzusunda kurs təşkil edilib.

Tədbir Mərkəzin “Distant tədris” platforması vasitəsi ilə distant formada sərbəst rejimdə həyata keçirilib.

Kursda Elm-Tədris Mərkəzinin əməkdaşları təlimçi qismində iştirak edib, elektron mühazirə formatında keçirilmiş məşğələlərdə qanunsuz miqrasiyanın qarşısının alınması sahəsində tədbirlər, miqrasiyanın təşkilinin qanunverici əsasları, bu sahədə beynəlxalq münasibətlər, qanunsuz miqrasiyanın təşkili cinayətinin tərkib elementləri, istintaq təcrübəsi və digər aktual məsələlər, həmçinin ətraf mühitin mühafizəsinin hüquqi əsasları tədris obyekti olub.

Dinləyici kimi iştirak edən 83 nəfər platformada qurulan şəxsi kabinetdən tədris materiallarını öyrənib mövzu üzrə sualları cavablandırmaqla bütün mərhələləri müvəffəqiyyətlə bitirib.

## Prokurorluğun işçilərinin hakim vəzifələrinə təyin edilməsi ilə əlaqədar tədbir keçirilib









Hakimlik vəzifələrinə seçilməklə bağlı müsabiqədə müvəffəqiyyət əldə etmiş, Azərbaycan Respublikasının Prezidentinin 19 noyabr 2024-cü il tarixli sərəncamı ilə prokurorluq işçiləri Elvin Ələsgərovun Lənkəran Rayon Məhkəməsinin hakimi, Nazlı Heydərovanın isə Şəmkir Rayon Məhkəməsinin hakimi vəzifələrinə təyin edilməsi ilə əlaqədar tədbir keçirilib.

Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Elçin Məmmədovun rəhbərliyi ilə keçirilən tədbirdə qeyd olunan prokurorluq əməkdaşları təbrik edilib.

Baş prokurorun birinci müavini səmərəli fəaliyyətlərinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdikləri nailiyyətlərə görə Baş prokuror Kamran Əliyev tərəfindən verilmiş prokurorluğun fəxri fərmanını onlara təqdim edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşüb, səmimi söhbətlər edib və sonda xatirə şəkli çəkilib.

# Kibercinayətlərin istintaq metodikası Baş Prokurorluqda növbəti təlimin mövzusu olub



Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik sahəsində mübarizə potensialının artırılması və hüquq mühafizə orqanlarının fəaliyyətinin effektivliyinin təmin olunması məqsədilə kompleks tədbirlər həyata keçirilir.







Tədbirlərin davamı kimi, noyabrın 27-dən 29-dək Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq işçiləri üçün “Kibercinayətlərin aşkar edilməsi və istintaq metodikası” mövzusunda əyani və distant formada təlim keçirilib.

Təlim çərçivəsində rəqəmsal sübutların toplanılması, təhlili və qorunması; açıq mənbəli kəşfiyyat üsulları (OSİNT); kibərməkanda dələduzluq cinayətlərinin ibtidai istintaq metodikası; kompüter sistemlərinə və məlumatlarına qanunsuz müdaxilə hallarının hüquqi tənzimlənməsi; kibərməkanda maddi cinayət hüquq normalarının beynəlxalq hüquqda tənzimlənməsi; süni intellekt və maşın öyrənmə alətlərinin kibercinayətkarlıqla mübarizədə tətbiqi və sair mövzular tədris edilib.

Tədbirdə təlimçi qismində bu sahə üzrə peşəkar prokurorluq işçiləri ilə yanaşı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının rəhbəri və Vəkillər Kollegiyasının nümayəndəsi iştirak etməklə, qurumların əməkdaşları arasında təcrübə mübadiləsi aparılıb.

# Ekoloji hüquqpozmalara dair Baş Prokurorluğun təqdimatı aidiyyəti vəzifəli şəxslərin iştirakı ilə geniş tərkibdə müzakirə edilib



Dekabrın 6-da İmişli rayon İcra Hakimiyyətində Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən ekoloji hüquqpozmalarla bağlı qanun pozuntularını doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə verilmiş təqdimatın geniş tərkibdə müzakirəsi keçirilib.

Müzakirələrdə rayon İcra hakimiyyətinin başçısı Elçin Rzayev, İmişli









rayon prokuroru Valeh Səmədov, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin prokuroru Kamran Ağayev, rayon prokurorluğu və regional ekologiya və təbii sərvətlər idarəsinin əməkdaşları, yerli icra hakimiyyəti qurumlarının və bələdiyyələrin nümayəndələri iştirak edib.

İmişli rayon prokuroru Valeh Səmədov çıxış edərək ekoloji hüquqpozmalar sahəsində qanunvericiliyin tələblərini tədbir iştirakçılarının diqqətinə çatdırıb, bu sahədə pozuntuların aradan qaldırılması məqsədilə tədbirlər görülməsinin, "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl olunmasının zəruriliyini vurğulayıb.

Kamran Ağayev tərəfindən Baş Prokurorluqda aparılmış genişmiqyaslı islahatlar, eləcə də ekoloji hüquqpozmalar sahəsində görülən tədbirlər, Cinayət təqibindən kənar icraatlar idarəsinin fəaliyyəti, ECOLEAD layihəsi barədə tədbir iştirakçılarına məlumat verilib, daha sonra təqdimatda qoyulan məsələlərlə bağlı konkret təkliflər irəli sürülüb, yaşıllıqların uçot, kadastr və monitorinqinin vaxtında aparılaraq məlumatların təqdim edilməsi, hüquqpozmaların qarşısının alınması məqsədilə vaxtında tədbirlər görülməsinin vacibliyi iştirakçıların diqqətinə çatdırılıb.

Tədbir zamanı iştirakçıların ekoloji hüquqpozmalarla bağlı sualları cavablandırılıb, müzakirə sual-cavab və fikir mübadiləsi ilə başa çatıb.

## Baş Prokurorluqda “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində növbəti tədbir keçirilib




Cari ilin noyabr ayının 25-dən dekabrın 6-dək Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin “Distant tədris” platforması üzərindən təşkil edilmiş “Ətraf mühitin mühafizəsi və ekoloji hüquqpozmalarla mübarizə” mövzusunda təlimin dinləyiciləri onun bütün tədris mərhələlərini müvəffəqiyyətlə bitiriblər.

Elektron mühazirə formatında keçirilmiş tədbir çərçivəsində ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan xətalara görə inzibati icraatın xüsusiyyətləri və ekoloji cinayətlərə görə cinayət təqibinin metodikası tədris edilib, dinləyicilərə qeyd olunan sahədə ölkəmizdə görülmüş geniş miqyaslı tədbirlər və xüsusi mühafizə olunan təbiət əraziləri, habelə fəaliyyət göstərən beynəlxalq və yerli təşkilatlar barədə məlumat verilib.

## Baş Prokurorluqda seminarlar interaktiv diskussiya formatında keçirilib








Azərbaycan Respublikası Baş prokurorunun müvafiq Sərəncamına uyğun olaraq, 2024-cü ilin dekabr ayının 13, 20 və 27-i tabe rayon (şəhər) prokurorlarının iştirakı ilə “Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarının fəaliyyətində tətbiqi” mövzusunda interaktiv diskussiya formatında seminarlar təşkil edilib.

Virtual studiyada keçirilən tədbirdə ekspert qismində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin əməkdaşları iştirak ediblər.

Zoom proqramı vasitəsi ilə tabe rayon (şəhər) prokurorlarının qoşulduğu interaktiv diskussiyada Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ, Avropa Şurasının və Avropa prokurorların məşvərətçi şurasının (CCPE) fəaliyyəti, eləcə də inzibati hüquqda süni intellektin mahiyyəti, AİHK-nın 2, 3, 5, 8, 9 və 10-cu maddələrinin pozulması halları və onların qarşısının alınması üzrə təkliflər müzakirə obyekti olub.

# Respublikanın Hərbi prokuroru ölkənin ictimai-siyasi həyatında baş vermiş əhəmiyyətli hadisələrlə əlaqədar keçirilmiş tədbirlərdə iştirak edib







Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü, ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, Bakıda COP29 keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Baş prokurorunun müavini – Respublika Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev bir sıra tədbirlərdə iştirak edib.

Belə ki, Hərbi prokuror Xanlar Vəliyev 24 oktyabr 2024-cü il tarixində Zəfər Günü ərəfəsində Müdafiə Nazirliyinin hərbi hissəsində hərbi qulluqçularla görüş keçirib. Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçularının birgə keçirdikləri tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb, Dövlət Himni səsləndirilib.

Tədbirdə ədliyyə general-leytenantı Xanlar Vəliyev, general-mayor Müşfiq Məmmədov, general-mayor Akif Pirverdiyev çıxışlarında istiqlal yolumuzu və firavan istiqbalımızı nurlandıran nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 21 il müddətində ölkəmizdə görülmüş müstəsna işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış misilsiz uğurların əldə edilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm əhəmiyyət kəsb etməsindən söz açıblar. Eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından bəhs edilib.

Habelə ölkə rəhbərinin uğurlu xarici siyasəti sayəsində dövlətimizin beynəlxalq aləmdə durmadan artan nüfuzundan, o cümlədən COP29-un mahiyyətindən və əhəmiyyətindən, eyni zamanda, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub. Onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin məişət və xidmət şəraiti, həmçinin, qayğı və problemləri ilə maraqlanılıb.





11 noyabr 2024-cü il tarixində Respublikanın Hərbi prokuroru Xanlar Vəliyev Dövlət Sərhəd Xidmətinin hərbi hissəsində hərbi qulluqçularla görüş keçirib.

Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və DSX-nin yüksəkrütbəli hərbi qulluqçularının Xaçmazda rayon rəhbərliyi ilə birgə keçirdikləri tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi və şəhidlər guşəsi önünə gül dəstələri düzülərək, əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb, Dövlət Himni səsləndirilib.

Tədbirdə Respublika Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev, Dövlət Sərhəd Xidməti rəisinin müavini, general-leytenant Rəsul Tağıyev, Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev müvafiq mövzularda çıxışlar ediblər.

Tədbir çərçivəsində hərbçilərin məişət və xidmət şəraiti, həmçinin, qayğı və problemləri ilə maraqlanılıb.



Növbəti görüş 22 noyabr 2024-cü il tarixində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissəsində baş tutub.

Azərbaycan Respublikası Baş prokurorunun müavini – Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyevin, Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxslərinin, DİN-in Daxili Qoşunlarının yüksək rütbəli hərbi qulluqçularının, eləcə də Quba rayon rəhbərliyinin iştirakı ilə birgə keçirilmiş tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin abidələri önünə gül dəstələri düzülərək, onların əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Tədbirdə Respublika Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev, Daxili Qoşunlar komandanının müavini, general-mayor İnqilab Muradov, Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov çıxış ediblər.

Daha sonra hərbi qulluqçular üçün hüquqi maarifləndirici məzmunlu tədbir keçirilib, onları maraqlandıran suallar cavablandırılıb.

Tədbirlərdən sonra ağaclar əkilib.







# Respublika Hərbi Prokurorluğu tərəfindən silsilə tədbirlər keçirilib







10 oktyabr 2024-cü il tarixində Ümummilli Lider Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçuları Xocavənddə rayon rəhbərliyinin iştirakı ilə birgə tədbir keçiriblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, onlara rəhmət, qazilərə isə şəfa arzulanıb.

Tədbirdə Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Füzuli hərbi prokuroru Elçin Hacıyev, Respublika Hərbi prokurorunun böyük köməkçisi Firad Əliyev və başqaları çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən, onun siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 21 ildə ölkəmizdə həyata keçirilən köklü islahatlardan, müxtəlif sahələrdə qazanılan uğurlardan, o cümlədən Silahlı Qüvvələrimizin formalaşdırılması, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılması və etibarlı qorunmasından bəhs ediblər. Əldə edilən uğurlarda Birinci vitse-prezident Mehriban Əliyevanın göstərdiyi dəstək və xalq-dövlət birliyi xüsusi qeyd edilib. Həmçinin tədbirdə Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Dövlət Sərhəd Xidməti ilə əməkdaşlığı vurğulanıb.

Daha sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb. Tədbirdə hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, eləcə də onların qayğı və problemləri ilə maraqlanılıb.

***







Növbəti tədbir Dövlət Sərhəd Xidmətinin yüksək rütbəli hərbi qulluqçuları, eləcə də Lənkəran rayon rəhbərliyinin iştirakı ilə 18 oktyabr 2024-cü il tarixində baş tutub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib, onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi – Mətbuat xidmətinin rəhbəri Firad Əliyev Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin tövsiyələrini şəxsi heyətə çatdırıb.

Tədbirdə Hərbi Prokurorluğun idarə rəisi Natiq Həsənov, Lənkəran hərbi prokuroru Elşən Əli-Məmmədov, polkovnik Əli Əliyev, polkovnik Anar Ağabəyov və digər şəxslər çıxış ediblər. Çıxışlarda həmçinin Bakıda təşkil edilmiş COP29-un mahiyyəti və əhəmiyyətindən danışılıb.

***







Yuxarıda qeyd olunan mövzular ətrafında 24 oktyabr 2024-cü il tarixində Hacıqabul rayonunda Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti ilə keçirilmiş görüşdə söhbət aparılıb.

Xüsusən də bu mövzularda Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Hərbi Prokurorluğun idarə rəisi Natiq Həsənov, hərbi hissə komandiri Vaqif Umudəliyev, eləcə də digər şəxslər çıxış ediblər.

Görüş zamanı hərbi qulluqçular qarşısında həmçinin hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, onları maraqlandıran suallar cavablandırılıb.

***







Növbəti tədbir 27 noyabr 2024-cü il tarixində Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə birgə Qəbələ rayonunda yerləşən hərbi hissəsində təşkil edilib.

Qeyd olunan tədbir çərçivəsində tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin və şəhidlərin abidələri önünə gül dəstələri qoyublar, onların əziz və unudulmaz xatirələri yad edilib.

Tədbir zamanı Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Firad Əliyev, Zaqatala hərbi prokuroru Emin Quliyev, hərbiçi zabitlər Zamin Rəsulov və Rüstəm Dəmirov, eləcə də Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev çıxış ediblər.

Çıxışlar ölkənin ictimai-siyasi həyatında baş vermiş əhəmiyyətli hadisələrə bəhs edilib, hüquqi maarifləndirici xarakter daşıyıb.

Tədbirlərdən sonra ağaclar əkilib.

# Hərbi Prokurorluqda Ulu Öndər Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib



Dekabrın 9-da Hərbi Prokurorluqda dünyaşöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib. Hərbi Prokurorluğun inzibati binasındakı "Heydər Əliyev guşəsi"ndə, Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, böyük insanın parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən əvvəl mərasim iştirakçıları nəhəng şəxsiyyətin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda edən bütün şəhidlərimizin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla anıb, qazilərə şəfa diləyiblər.

Mərasimdə çıxış edən Baş prokurorun müavini – Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev qəlbi daim Vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxaran, istiqlal yolumuzu və istiqbalımızı işıqlandıran Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən ətraflı danışıb. Xanlar Vəliyev bildirib ki, şərəfli ömrünü ölkəmizin hərtərəfli inkişafına və millətimizin parlaq gələcəyinə həsr edən Ümummilli Lider Heydər Əliyev dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb: "Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ Ulu Öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə işlənib hazırlanıb. Dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin xalqın israrlı tələbi ilə qayıdışından sonra vəziyyət müsbətə doğru dəyişib. Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən bu böyük qayıdışdan sonra vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alınıb, cinayətkar dəstələr zərərsizləşdirilib, separatçı meyillərə son qoyulub, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görülüb. Bununla da Azərbaycan tərəqqi yoluna qədəm qoyub. Bu il Ulu Öndər Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümüdür. Dahi insanın müqəddəs vətənpərvərlik missiyası ilə bağlı maarifləndirmə ilə əlaqədar Hərbi Prokurorluq tərəfindən Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları, eləcə də müxtəlif dövlət qurumları, şəhər və rayon rəhbərlikləri ilə birlikdə 20-dən artıq tədbir keçirilib".

Hərbi prokuror qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə son 21 il ərzində ölkəmizdə misilsiz işlər görülüb, çoxşaxəli köklü islahatlar həyata keçirilib, bütün istiqamətlərdə misli görünməmiş uğurlar əldə olunub: "Ölkəmizdə bu il keçirilən COP29 dövlətimizin gücünün və ölkə rəhbərinin nüfuzunun bariz nümunələrindən biridir. Prezident İlham Əliyevin dərin zəkası, mükəmməl rəhbərliyi və xalqın müdrikliyi, əzmkarlığı, eləcə də hakimiyyətlə xalq arasında





olan sıx bağlılığın sayəsində iqtisadiyyatımız daha da güclənib, ölkəmiz hərtərəfli inkişaf edib, qüdrətli Silahlı Qüvvələrimiz formalaşıb. Eyni zamanda, dövlətimizin beynəlxalq nüfuzu daha da artmaqla, dünya ölkələri sırasında mövqeyi hərtərəfli möhkəmlənib. Bütün bunlar isə Vətən müharibəsindəki möhtəşəm qələbəmizi də şərtləndirib, nəticədə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə düşmən tapdağında olan dədə-baba torpaqlarımız işğaldan azad edilib. Bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən postpandemiya dövrünə, eləcə də müharibədən çıxmış ölkə olmağımıza rağmən Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin eyni templə hərtərəfli qüdrətlənməsi və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı bu gün də uğurla təmin edilir. Əldə olunan uğurlarda, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində zəngin biliklərə, iti düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan, sadəliyi, səmimiliyi və insanpərvərliyi ilə xalq məhəbbəti qazanmış Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna fəaliyyəti mühüm əhəmiyyət kəsb edir".

Daha sonra Milli Məclisin deputatları Vasif Qafarov, Səbinə Salmanova, Tural Gəncəliyev, Nigar Məmmədova, Pərvanə Vəliyeva və digər çıxışçılar Ümummilli Lider Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan, o cümlədən zəngin və çoxşaxəli fəaliyyətindən bəhs ediblər.

Prezident İlham Əliyevə xalqda olan sonsuz inamdan irəli gələn bənzərsiz sevgidən bəhs etməklə çıxışını yekunlaşdıran Hərbi prokuror Xanlar Vəliyev vurğulayıb ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən Ulu Öndər siyasətinin Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, qanunun aliliyinin təmin edilməsində, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə Azərbaycanın firavan gələcəyinin təminatı olan siyasəti daim dəstəkləyəcək.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu hərbi vətənpərvərlik mövzusunda tədbirlər keçirib





Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi ilə birlikdə 07.10.2024-cü ildə Naxçıvan Müəllimlər İnstitutunda, 08.10.2024-cü ildə Naxçıvan Dövlət Universitetində, 09.10.2024-cü ildə Universitetin Texniki Kollecində, 10.10.2024-cü ildə Universitetin Musiqi Kollecində, 11.10.2024-cü ildə isə Universitetin Tibb Kollecində "Hərbi vətənpərvərlik: Vətəndaşlıq borcumuz, konstitusion vəzifələrimiz və məsuliyyətimiz" mövzusunda maarifləndirmə tədbirlər keçirilib.

Tədbirlərdə Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri, Azərbaycan Respublikasının Müharibə veteranı Faiq Səfərov qeyd etdi ki, Vətənə xidmət etmək hamımızın vətəndaşlıq borcudur. Hər birimiz Vətənin keşiyində dayanırıq. Bizim müqəddəs borcumuz Vətənə, onun çiçəklənməsinə xidmət etmək, hər qarış torpağına sinəmizi sipər edərək onu qorumaqdır. Hər dövlətin









ərazi bütövlüyünün, təhlükəsizliyinin qarantı güclü ordusudur. Xalq ordunun ordu xalqın dayağıdırsa, onda dövlətin qüdrəti, özünümüdafiə bacarığı daha da yüksəkdir. Bu gün Azərbaycan əsgəri Vətənə və xalqa sədaqətli xidməti ilə öz övladlıq missiyasını layiqincə yerinə yetirir. Əbəs yerə deyilməyir: "Vətəni qorumaq – onun varlığı üçün hər şeyini qurban verməkdir".

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin şöbə rəisi, polkovnik-leytenant Vüsal Əliyev ilkin hərbi qeydiyyata alınma, hərbi uçot, hərbi qeydiyyat, səfərbərlik qaydaları əleyhinə olan inzibati xətalar və cinayət məsuliyyəti barədə məlumat verdi.

Naxçıvan Muxtar Respublikasının tabe rayon (şəhər) prokurorluqları tərəfindən rayon (şəhər) orta ümumtəhsil məktəblərində hərbi vətənpərvərlik mövzusunda keçirilən maarifləndirici tədbirlərdə qeyd olundu ki, Vətənin müdafiəsində iştirak etmək və hərbi xidmət keçmə hər bir vətəndaşın hüquqi vəzifəsi olmaqla bərabər, həm də onun müqəddəs borcudur. Ona görə də hər bir şəxs bu konstitusion vəzifəsinə əməl etməli, Vətən qarşısındakı müqəddəs borcunu yerinə yetirməlidir.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən ekologiya ilə bağlı maarifləndirmə tədbirləri keçirilib

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Naxçıvan Dövlət Universiteti ilə birlikdə cari il oktyabr ayının 14–17-də Naxçıvan Dövlət Universitetində və Universitetin Texniki, Musiqi və Tibb kolleclərində, oktyabr ayının 22-də isə Naxçıvan Müəllimlər İnstitutunda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Yaşıl dünya yaşıl təfəkkürdən başlayır" mövzusunda müvafiq maarifləndirmə tədbirləri keçirilmişdir.







Tədbirlərdə Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi baş ədliyyə müşaviri Faiq Səfərov və Cinayət təqibindən kənar icraatlar şöbəsinin rəisi ədliyyə müşaviri İsfəndiyar Qasımov qeyd etdilər ki, hər bir cəmiyyətin iqtisadi və mədəni inkişafı üçün zəruri olan bütün təbii ehtiyatların rasional istifadəsi kimi onların mühafizə olunması və bərpası da həyati vacib məsələlərdən olub, öz əhəmiyyətini getdikcə daha qabarıq şəkildə göstərir. Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyevin bu müdrik kəlamı daim yaddaşlardadır: "Bəlkə də, toya, yasa və digər mərasimlərə yubanmaq olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır". Ulu Öndər Heydər Əliyev də yaşıllıqların salınmasına, ağacların qorunmasına hər zaman çox diqqət yetirirdi. Azərbaycana rəhbərlik etdiyi ilk illərdən etibarən o, Bakıda və ölkənin bütün bölgələrində təbiəti mühafizə istiqamətində çox işlərə imza atdı, çox yeniliyin əsasını qoydu. Ulu Öndər Heydər Əliyev Azərbaycana









rəhbərlik etdiyi 1969–1982-ci illərdə respublikada həyata keçirilən irimiqyaslı təbiəti mühafizə tədbirlərinin təşəbbüskarı və təşkilatçısı olub. Ölkə başçısı cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizin beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verməyə həmişə hazır olduğunu, özünün, bilavasitə, qlobal ekoloji problemlərdən və ekosiddən əziyyət çəkdiyi halda belə məsələlərin yalnız planetar miqyasda həllinə çalışdığının əyani sübutudur. Bu qərar elə bir vacib zamanda verilmişdir ki, artıq ekoloji vəziyyət bəşəriyyətin müasir inkişaf mərhələsində onun varlığı üçün ən mühüm problem dərəcəsinə çatmış, yaşamaq üçün təkcə təmiz ərzaq məhsulları deyil, hətta təmiz hava, su belə ən qıt nemətə çevrilmişdir. Buna görə də insan ayağının dəydiyi hər yerdə müəyyən dərəcədə ekoloji böhranın mövcud olduğunu nəzərə alsaq, dünyada hər kəsin yaşıl gələcək üçün məsuliyyət daşıdığını göstərmək mümkündür.

Tədbirlərdə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən "Azərbaycanda ekoloji siyasət" mövzusunda hazırlanmış videoçarx nümayiş etdirilib, tələbələrə mövzu ilə bağlı kitabçalar paylanılıb.

# Naxçıvanın tabe prokurorluqlarında yetkinlik yaşına çatmayanlar barəsində cinayət təqibinin xüsusiyyətlərinə həsr edilmiş seminarlar keçirilib







Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi tərəfindən 01.11.2024-cü il tarixdə Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarında, 05.11.2024-cü il tarixdə Babək, Culfa və Ordubad rayon prokurorluqlarında, 07.11.2024-cü il tarixdə isə Naxçıvan şəhər və Şahbuz rayon prokurorluqlarında rayon (şəhər) prokurorluqları və polis şöbəsi (idarəsi) müstəntiqlərinin, cinayət təqibinin həyata keçirilməsi zamanı iştirak edən psixoloqlarların və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaları əməkdaşlarının iştirakı ilə "Yetkinlik yaşına çatmayanlar barəsində cinayət təqibinin xüsusiyyətləri" mövzusunda seminarlar keçirilib.

Seminarlarda Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi baş ədliyyə müşaviri Faiq Səfərov qeyd edib ki, Azərbaycan Respublikası CPM-nin 428-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan şəxslər barəsində məhkəməyədək icraatın, həmçinin birinci, apellyasiya və kassasiya instansiyaları icraatının aparılma qaydası CPM-də nəzərdə tutulmuş ümumi qaydalarla, habelə CPM-nin 428-435-ci maddələri ilə müəyyən edilir. Cinayət prosesində yetkinlik yaşına çatmayanlar dedikdə, cinayətin törədilməsi anınadək on səkkiz yaşına çatmamış şəxslər başa düşülür. Yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlər üzrə məhkəməyədək icraat yalnız ibtidai istintaq şəklində aparılır.

Yetkinlik yaşına çatmayan şəxs cinayətin törədilməsində digər şəxslərlə birlikdə iştirak etdiyi halda məhkəməyədək icraat mərhələsində onun barəsində cinayət işi imkan daxilində ayrıca icraata ayrılmalıdır. Həmin şəxs barəsində cinayət işinin ayrıca icraata ayrılması işin hallarının hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün əhəmiyyətli maneələr yaratdıqda həmin işin ayrıca icraata ayrılmasına yol verilmir.

Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona ağır və ya xüsusilə ağır cinayətin, 16 yaşına çatmış təqsirləndirilən şəxslərə isə həmçinin az ağır cinayətin zorakı üsulla və ya iki dəfədən çox törədilməsi istinad edildikdə yol verilir. Yetkinlik yaşına çatmayan şəxs barəsində həbs qətimkan tədbirinin müstəsna tədbir kimi və mümkün qədər qısa müddət ərzində tətbiq edilməsinə yol verilir. Həbsdə saxlanılan yetkinlik yaşına çatmayan şəxslər digər şəxslərdən ayrı saxlanılmalıdırlar. Onlar yaşının, cinsinin və şəxsiyyətinin xüsusiyyətlərinə görə tələb olunan qulluq, müdafiə və digər fərdi yardımla təmin edilməlidirlər.

Seminarlarda rayon (şəhər) prokurorları, psixoloqlar və digər iştirakçılar öz fikirlərini bildiriblər, suallar cavablandırılıb.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Zəfər abidəsini ziyarət edib



"8 Noyabr – Zəfər Günü" münasibətilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi noyabr ayının 7-də Naxçıvan şəhərində yerləşən və tarixi qələbəmizin rəmzi olan Zəfər abidəsini ziyarət edərək qəhrəman şəhidlərimizə öz ehtiramlarını ifadə ediblər.



# Baş Prokurorluğun idarə rəisi Albaniya tərəfindən BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının tətbiqini qiymətləndirib



Cari il 8-11 oktyabr tarixlərində BMT-nin Korrupsiya əleyhinə Konvensiyanın Albaniya Respublikası tərəfindən implementasiyasının II mərhələ dəyərləndirilməsində BMT-nin Narkotilər və Cinayətkarlıq əleyhinə Ofisinin Katibliyinin dəstəyi ilə həmüzv ölkələr - Azərbaycan və Liberiya tərəfindən qiymətləndirmə həyata keçirilib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatar idarəsinin rəisi Elnur Musayev dəyərləndirici ekspert qismində nümayəndə heyətinin tərkibində Albaniya Respublikasının Dövlət İdarəçiliyi və Korrupsiyaya qarşı mübarizə üzrə naziri xanım Adea Pirdeni tərəfindən qəbul edilib.

Qəbuldan sonra azərbaycanlı ekspertin daxil olduğu nümayəndə heyəti həmin ölkənin Ədliyyə Nazirliyi, Baş Prokurorluğu, Daxili İşlər, Təhsil və Maliyyə nazirlikləri, Korrupsiyanın Qarşısının Alınması üzrə Baş Direktorluğu, İnformasiya və Data Mühafizəsi üzrə Müvəkkil, Dövlət Xidmətləri üzrə Agentlik, Dövlət Qulluğu üzrə Agentlik, Maliyyə Kəşfiyyatı və digər qurumlarının rəhbər şəxsləri ilə görüşlər keçirib.

Həmin görüşlərdə dəyərləndirici ekspertlərin korrupsiyanın qarşısının alınması, o cümlədən korrupsiya əleyhinə dövlət və institusional strategiya proqramlarının icrası, antikorrupsiya qurumlarının gücləndirilməsi, dövlət və özəl sektorunda işləyən şəxslərin dürüstlüyünün təmin edilməsi üzrə etik davranış, hədiyyələr, maraqlar toqquşmasının qarşısının alınması qaydaları və digər məsələlər dair ekspertlərin sualları cavablandırılıb.

Əlavə olaraq Albaniya tərəfi korrupsiya yolu ilə əldə edilmiş vəsaitlərin qaytarılması ilə bağlı üzərinə götürdüyü öhdəliklərin icrası barədə məlumat verib.

Görüşün nəticələri üzrə Azərbaycan və Liberiya ekspertlərinin birgə hesabatı hazırlanaraq BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının üzv dövlətlərinin iclasına çıxarılacaq.



# Baş Prokurorluğun əməkdaşı BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasına tərəf dövlətlərin Konfransının 12-ci sessiyasında iştirak edib




Oktyabrın 14-18-də Avstriyanın Vyana şəhərində BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı"Konvensiyasına tərəf dövlətlərin Konfransının 12-ci sessiyası keçirilib.



Sessiyada insan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı mübarizə, odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanması və dövriyyəsinin qarşısının alınması kimi əhəmiyyətli məsələlər müzakirə olunub.

Bundan başqa, sessiyada transmilli mütəşəkkil cinayətkarlığın yeni formaları, bu kimi cinayətlərə qarşı mübarizə imkanlarının təkmilləşdirilməsi istiqamətində, eləcə də mütəşəkkil cinayətlər ilə bağlı ayrı-ayrı qətnamə layihələri üzrə müzakirələr aparılıb, tərəf dövlətlərin nümayəndələrinin çıxışları dinlənilib.

Baş Prokurorluğun nümayəndəsi - Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini Günay Əyyubova sessiyada və bir neçə qətnamə layihələri üzrə müzakirələrdə iştirak edib.

BMT-nin Baş katibinin müavini, BMTNCİ-nin İcraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Vali bütün iştirakçılar qarşısında çıxış edərək, Azərbaycanın Baş prokuroru ilə görüşdüyünü və Bakıda keçiriləcək İqlim Konfransı - COP29 ilə bağlı aparılan müzakirələrdə iştirak məqsədilə növbəti ay Bakıya səfər edəcəyini bildirib.

Həmçinin, qeyd edilib ki, COP29-da bu müzakirələr növbəti səviyyəyə çıxarılaraq ətraf mühit və cinayət mühakiməsi sahəsində Azərbaycanın Baş Prokurorluğu ilə əməkdaşlıq ediləcək.

Tədbirin sonunda müvafiq müzakirə olunan sahələr üzrə dörd qətnamə və sessiyanın hesabatı qəbul edilib.

## Beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq uğurla davam etdirilir

Cari ilin 23-25 oktyabr tarixlərində Latviya Respublikasının Riqa şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə Anti-Korrupsiya Şəbəkəsinə üzv ölkələrin hüquq mühafizə orqanlarının 14-cü iclası keçirilmişdir.




Birləşmiş Millətlər Təşkilatının, OECD-nin və digər təşkilatların, habelə 30-dan çox müxtəlif ölkənin hüquq-mühafizə orqanlarının nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi Ziyafət Quliyev və mühüm işlər üzrə müstəntiqi Bədir Abdullayev təmsil etmişlər.

Tədbir dövründə ölkələr arasında korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin gücləndirilməsi, korrupsiya hüquqpozmalarının müəyyən edilməsində müxtəlif mənbələrin, o cümlədən analitik təhlilləri rolu, yüksək vəzifəli şəxslər tərəfindən törədilmiş korrupsiya hüquqpozmaları ilə bağlı aparılmış cinayət işlərinin istintaq metodikası, müasir praktiki yanaşmalar, xarici ölkələr ilə əlaqəli korrupsiya faktlarının istintaqı zamanı qurumlararası əməkdaşlıq, əmlakın bərpası və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Müzakirələr zamanı çıxış edən nümayəndələrimiz ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş islahatlar, bu sahədə ixtisaslaşmış qurumlarımızın fəaliyyəti və görülmüş işlər, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla qəbul edilmiş müvafiq qanunvericilik aktları və digər mühüm məsələlər barədə tədbir iştirakçılarını məlumatlandırmışlar.

Bundan başqa, tədbir zamanı iştirakçı dövlətlərin korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumlarının nümayəndələri tərəfindən istintaq təcrübələri bölüşülməklə müvafiq mövzular ilə bağlı hazırlanmış kazuslar üzrə birgə qrup işi həyata keçirilmiş, həmçinin beynəlxalq ekspertlər tərəfindən iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.






# Azərbaycan Respublikası Prokurorluğunun nümayəndələri Beynəlxalq Anti-Korrupsiya Akademiyasının (IACA) Tərəflər Assambleyasının Sessiyasında iştirak edib





Cari ilin 30 oktyabr tarixində Birləşmiş Millətlər Təşkilatının Vyanadakı Ofisində 2010-cu ildə imzalanmış Saziş əsasında beynəlxalq təşkilat qismində təsis edilməklə Azərbaycan Respublikasının 2012-ci ildən etibarən Tərəf Dövlət qismində qoşulduğu Beynəlxalq Anti-Korrupsiya Akademiyasının (IACA) Tərəflər Assambleyasının 13-cü Sessiyası keçirilib.

Sessiyada ölkəmizi Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi İlqar Səfərov, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov, habelə Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyinin və BMT-nin Vyanada yerləşən beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin müşaviri Fərid Vəliyev təmsil edib.

Nümayəndələrimiz çıxış edərək Azərbaycanın IACA ilə sıx əməkdaşlığı və bu beynəlxalq təsisatın fəaliyyətinə verdiyi ayrı-ayrı istiqamətlər üzrə töhfələri konkret göstəricilərlə iştirakçıların diqqətinə çatdırıb, eləcə də cari ilin noyabr ayında ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29), habelə həmin tədbir çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğunun BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC) ilə birgə təşkil edəcəyi "İqlim Fəaliyyətinin Gücləndirilməsi üçün Hüquq Mühafizə Orqanlarının Səfərbər Edilməsi" adlı Yüksək Səviyyəli Forum"un məqsədləri barədə geniş məlumat veriblər.

Sessiya çərçivəsində, həmçinin "Korrupsiyanın qarşısının alınmasında mövcud tendensiya və çətinliklər" mövzusunda təşkil edilmiş dəyirmi masada IACA ilə BMT-nin İnkişaf Proqramının (UNDP) Korrupsiyanın Ölçülməsi üzrə Qlobal Təşəbbüsü layihəsinin gələcək tətbiqi imkanları, elmi və praktiki aspektləri müzakirə edilib.

Tədbirdə keçirilmiş səsvermə ilə beynəlxalq təşkilatın İdarə Heyətinə 3 yeni üzv seçilib, 2021-2024-cü illər üzrə fəaliyyətinə dair hesabat, 2025-2028-ci illər üzrə İş Planı, 2025-ci il üzrə büdcə layihələrinə dair qətnamələr müzakirə edilərək qəbul olunub, ötən fəaliyyət dövründə Akademiyanın fəaliyyətinə vermiş olduqları töhfələrə görə Azərbaycan Respublikasına və aktiv mövqe sərgiləmiş digər Tərəf Dövlətlərə xüsusi minnətdarlıq ifadə edilib.

Təşkilatın Ümumi Məsələlər üzrə qəbul edilən yekun Qətnaməsində Azərbaycanın COP29-a sədrliyi çərçivəsində görülən işlərə dəstək ifadə edən müddəa öz əksini tapıb.



# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir








5-7 noyabr tarixlərində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Mübarizə İdarəsi tərəfindən “Qadın liderlərin səlahiyyətləndirilməsi: çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı beynəlxalq mübarizədə gender perspektivlərinin nəzərə alınması” mövzusunda panel müzakirələri keçirilmişdir.

Korrupsiyaya qarşı mübarizə aparan 40-dan çox ölkəni təmsil edən prokurorluq, istintaq, habelə digər ixtisaslaşdırılmış qurumların və özəl sektorun 80-dən çox təmsil olunan yüksək vəzifəli şəxslərin, habelə beynəlxalq təşkilatların nümayəndələri və ekspertlərinin təmsil olunduğu tədbir UNODC tərəfindən qadın mentorluğunun, gender əsaslandırma səylərinin inkişafında təsiri haqqında məlumatlılığı artırmaq, habelə çirkli pulların yuyulmasına, terrorçuluğun maliyyələşdirilməsi və dələduzluğa qarşı mübarizədə qadınların iştirakını artırmaq və bu növ cinayətlərin qarşısının alınması üçün preventiv tədbirlərin həyata keçirilməsində əsas strateji məqamları müəyyən etmək məqsədilə keçirilmişdir.

Tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş idarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Pirayə Səmədzadə-Əliyeva iştirak etmişdir.

Tədbirdə Pirayə Səmədzadə-Əliyeva ML/TF (çirkli pulların yuyulması/terrorizmin maliyyələşdirilməsi) cinayətləri ilə əlaqəli qadınları hədəf alan onlayn fırıldaqların effektiv təqibi, bununla əlaqədar kriminoloji və sosioloji araşdırmaların nəticələri, habelə bu sahədə hökumət tərəfindən aparılan qanunvericiliyə dair islahatlar, əldə olunmuş müsbət təcrübə və nəticələr, bundan başqa mövzu üzrə mövcud qanunvericilik, aparılan islahatlar, preventiv tədbirlər və dövlət sahəsində görülən işlər barədə ətraflı məlumat vermiş, təqdimatla bağlı sessiya iştirakçıları tərəfindən verilmiş sualları cavablandırmışdır.

# BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının Tətbiqinin təftişi Qrupunun növbəti iclası keçirilib










4-8 noyabr tarixlərində Avstriyanın Vyana şəhərində Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının Tətbiqinin təftişi Qrupunun 15-ci sessiyası keçirilib.

Sessiyada BMT-nin konvensiyasına qoşulmuş dövlətlərin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri tərəfindən effektiv təcrübə mübadiləsi həyata keçirilib, ölkələrin korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi nailiyyətlər təqdim olunub.

Tədbir çərçivəsində Konvensiyanın implementasiyası ilə bağlı çətinliklərin və müsbət təcrübələrin nəzərdən keçirilməsi, eləcə də gələcək fəaliyyət üçün prioritetlərin müəyyənləşdirilməsi məqsədilə faydalı müzakirələr aparılıb.

Tədbirdə ölkəmizi Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin rəisi Əmir Ocaqverdiyev təmsil edib.

Azərbaycanın nümayəndəsi ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və qətiyyəti ilə korrupsiyaya qarşı aparılan ardıcıl və sistemli mübarizə haqqında ətraflı məlumat verib.

Müzakirələr zamanı Əmir Ocaqverdiyev qanunvericilik və praktiki sahələrdə hansı addımlarla korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirildiyini vurğulayıb, bu sahədə ixtisaslaşmış qurumların fəaliyyəti, korrupsiya ilə mübarizədə ən müasir texnologiyaların tətbiqi, eləcə də korrupsiya risklərinin müəyyən olunması və qarşısının alınması istiqamətində görülən işlər barədə də iştirakçılara məlumat verib.

Eyni zamanda, nümayəndəmiz Konvensiyanın icrasının təftiş mexanizminin təkmilləşdirilməsi və effektivliyinin artırılması üzrə təkliflər irəli sürüb.

# Prokurorluq əməkdaşları Beynəlxalq Prokurorlar Assosiasiyasının 18-ci Avropa Regional konfransında iştirak edib







6-8 noyabr tarixlərində Malta Respublikasının San-Djilyan şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 18-ci Avropa Regional konfransı keçirilmişdir.

Tədbirdə ölkəmizi Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və İnformasiya Təminatı idarəsinin rəis müavini İsfəndiyar Hacıyev və həmin idarənin prokuroru Elşən Orucov təmsil etmişlər.

Tədbirin ilk günü Assosiasiyanın 29-cu illik Konfransını və Ümumi yığıncağını yüksək səviyyədə təşkil etmiş Azərbaycan Respublikası Prokurorluğuna və Baş Prokuror cənab Kamran Əliyevə xüsusi təşəkkür edilmişdir.

Tədbirdə Elşən Orucov süni intellektin artan istifadəsi fonunda cinayətkarlıqla mübarizə, bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyəti, Baş İdarənin fəaliyyəti, ölkəmizin beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığı, eləcə də, Baş İdarə tərəfindən istintaq olunmuş, mürəkkəb xarakterli bir cinayət işi barədə ətraflı məlumat vermiş, təqdimatla bağlı iştirakçılar tərəfindən verilmiş sualları cavablandırmışdır.



## Beynəlxalq təşkilatlarla əməkdaşlıq uğurla davam etdirilir



Prokurorluq orqanları tərəfindən cinayət təqibi ilə bağlı xarici təcrübənin öyrənilməsi, bu sahədə fəaliyyətin səmərəliliyinin artırılması və əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır.

Cari ilin 14-15 noyabr tarixlərində Avstriya Respublikasının paytaxtı Vyana şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu tərəfindən Beynəlxalq Tolerantlıq Günü ilə bağlı illik Nifrət Cinayəti Hesabatı təqdim olunmuşdur.

ATƏT-in üzvü olan 40-dan çox ölkənin milli əlaqələndirici şəxslərinin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun böyük köməkçisi Vüsal Əliyev təmsil etmişdir.

Tədbirdə nifrət cinayətləri qanunvericiliyi, nifrət cinayətlərinə qarşı mübarizə və bu sahədə məlumatların toplanması ilə bağlı mövcud təcrübə barədə geniş məlumat verilmiş, digər ölkələrin müvafiq sahədə təcrübəsi öyrənilmiş və mövzu ətrafında müzakirələr aparılmışdır.

## Prokurorluq əməkdaşı beynəlxalq elmi-praktiki konfransda iştirak edib







Noyabrın 15-də Moskva şəhərində Patris Lumumba adına Rusiya Xalqlar Dostluğu Universiteti tərəfindən "Hüquq-mühafizə fəaliyyəti və vətəndaş cəmiyyəti" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Tədbirdə hüquq-mühafizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, qanunsuz miqrasiya ilə mübarizədə qabaqcıl yanaşmalar, əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi və digər əhəmiyyətli mövzular müzakirə olunub.

Hakimlər, hüquq-mühafizə orqanları nümayəndələri, notariuslar, dövlət rəsmiləri və alimlərin iştirakı ilə keçirilən konfransda Azərbaycan Respublikasının Baş Prokurorluğunu Elm-Tədris Mərkəzinin prokuroru Məhərrəm Əzizbəyov təmsil edib.

Baş Prokurorluğun nümayəndəsi "Azərbaycan prokurorluğunun qanunsuz miqrasiya ilə mübarizə sahəsində fəaliyyəti" mövzusunda çıxış edib.

# Ümumrusiya Dövlət Ədliyyə Universitetinin beynəlxalq elmi-praktiki konfransında Baş Prokurorluğun əməkdaşları iştirak edib







Prokurorluq orqanlarında peşə hazırlığının təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədi ilə digər ölkələrin hüquq üzrə ali və ixtisaslaşmış təhsil müəssisələri, eləcə də hüquq mühafizə orqanları ilə qarşılıqlı əməkdaşlıq uğurla davam etdirilir.

Bu tədbirlərin davamı olaraq Ümumrusiya Dövlət Ədliyyə Universitetinin dəvətinə əsasən Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Talıb Cəfərov və şöbə rəisi Ramin Camalov Moskva şəhərinə ezam olunaraq, cari ilin noyabr ayının 19-dan 21-dək keçirilmiş "Derjavin oxunuşları" adlı XVIII beynəlxalq elmi-praktiki konfransda iştirak ediblər.

Rusiya Federasiyasının Ədliyyə Nazirliyində və Universitetin müxtəlif korpuslarında baş tutmuş konfransın hədəfi hüquq-mühafizə təcrübəsinin aktual problemlərinin, qanunvericilikdəki yeniliklərin, hüquq sisteminin inkişafının prioritet istiqamətlərinin, dövlətin və vətəndaş cəmiyyətinin əsas institutlarının və dövrümüzün digər aktual problemlərinin müzakirəsi olub.




Rusiya Federasiyasının Ədliyyə naziri Konstantin Çuyçenko tərəfindən açılışı edilmiş konfransda yerli dövlət, məhkəmə və hüquq mühafizə orqanlarının nümayəndələri, ali təhsil müəssisələrinin müəllim və tələbələri, eləcə də 10 dövləti təmsil edən xarici qonaqlar iştirak edib.

Min nəfərdən artıq iştirakçısı olan bu tədbirin "Miqrasiya və milli təhlükəsizlik: təhlükəsizlik və insan hüquqları arasındakı balans" mövzusu üzrə sessiyasında Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən rus dilində hazırlanmış "Azərbaycan Prokurorluğunun qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində fəaliyyəti" adlı vəsaitin təqdimatı keçirilib, xarici tərəfdaşlarla təcrübə mübadiləsi aparılıb, tədris prosesində tətbiq olunan yeniliklər diqqətə çatdırılıb, yeni nəşrlər mübadilə edilib.

## Beynəlxalq elmi-praktiki konfransda Azərbaycan Prokurorluğu təmsil olunub



21 və 22 noyabr tarixlərində Özbəkistan Respublikasının Hüquq-mühafizə Akademiyası tərəfindən "Hüquq mühafizə fəaliyyəti sahəsində qlobal çağırışlar və təhlükələr: müasir strategiyalar və həll yolları" mövzusunda beynəlxalq elmi-praktiki konfrans təşkil edilib.

Konfransda Azərbaycan Respublikasının Baş Prokurorluğunu Elm-Tədris Mərkəzinin şöbə rəisi Əmir Ocaqverdiyev və şöbə prokuroru Məhərrəm Əzizbəyov təmsil edib.

Konfransda Özbəkistan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Rusiya və digər ölkələrin hüquq mühafizə orqanlarının, elmi müəssisələrinin və beynəlxalq təşkilatların nümayəndələri iştirak edib.

Konfransın plenar iclasında çıxış edən Əmir Ocaqverdiyev tərəfindən Azərbaycan Prokurorluğunun fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Konfrans zamanı beynəlxalq hüquq əməkdaşlığının gücləndirilməsi və qabaqcıl təcrübələrin paylaşılması müzakirə olunub.

## Azərbaycan Respublikasının Prokurorluğunun beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirilir












Cari ilin 26-27 noyabr tarixlərində Rumıniya Respublikasının paytaxtı Buxarest şəhərində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) 23-cü illik Peşəkar Konfransı və Baş Assambleyasının İclası keçirilib.

EPAC/EACN-a tərəfdaş olan 30 ölkənin 100-dən çox korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumlarının 170-dən artıq nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəis müavini İsfəndiyar Hacıyev və Baş İdarənin böyük prokuroru Ziya Hacıyev təmsil edib.

Yüksək səviyyəli tədbirin açılış mərasimində konfransa ev sahibliyi edən qurum - Rumıniyanın Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin (DGA) direktoru Ovidiu-Kiprian Antohe, Avropa Prokurorluq Ofisinin Baş prokuroru Laura Kovesi, EPAC/EACN-nin Prezidenti və BMT-nin rəsmiləri qonaqları salamlamış, daha sonra konfransın işini açıq elan edərək qarşıya qoyulan məqsəd və vəzifələr barədə danışıb.

Tədbirdə çıxış edən nümayəndələrimiz ölkəmizdə aparılmış transmilli xarakterli cinayət işinin istintaqı ilə bağlı nümunə üzrə təqdimat həyata keçirmiş, habelə, həmin qəbildən olan halların araşdırılması zamanı ortaya çıxan çətinliklər barədə danışaraq tədbir iştirakçıları tərəfindən verilən sualları cavablandırıb.

Tədbirin sonunda Qurumun Baş Assambleyasının iclası çərçivəsində yeni 5 qurumun təşkilatın üzvlüyünə qəbul edilməsi, eləcə də 2025-ci ilin birinci rübündə Avstriyanın Anti-Korrupsiya Bürosunun təşəbbüsü ilə "Korrupsiya barədə məlumat verənlər"in müdafiəsini gücləndirmək məqsədilə Vyana şəhərində EPAC/EACN tərəfindən yaradılacaq işçi qrupunun ilk iclasının keçirilməsi qərara alınıb.

# BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) ilə əməkdaşlıq uğurla davam etdirilir



Ölkəmiz sülh və təhlükəsizliyə dair tematik məsələlərin təşviq edilməsi üçün Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurumları, o cümlədən terrorçuluğa, mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin yayılmasına qarşı mübarizə və digər müvafiq sahələrdə həmin təşkilatın Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) ilə səmərəli əməkdaşlıq edir.

Cari ilin 27-29 noyabr tarixlərində Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) Mərkəzi Asiya və Cənubi Qafqaz regionu üzrə hüquqi əməkdaşlıq şəbəkəsi (CASC) ilə Qazaxıstan Respublikası Baş Prokurorluğu yanında Hüquq mühafizə orqanlarının Akademiyası tərəfindən "Cinayət işləri üzrə elektron sübutların işlənməsi sahəsində beynəlxalq əməkdaşlıq" mövzusunda Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində beynəlxalq seminar keçirilib.

"Meta", "Tiktok" və bir sıra internet provayderlərin nümayəndələrinin iştirak etdiyi seminarda ekspert qismində çıxış edən Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Murad Bayramlı ölkəmizin cinayət işləri üzrə beynəlxalq əməkdaşlıq və elektron sübutların əldə edilməsi sahəsindəki müsbət təcrübəsi barədə danışaraq, prokurorluğun bütün fəaliyyət istiqamətlərini vahid elektron platformada birləşdirən "Elektron prokurorluq informasiya sistemi"nin fəaliyyəti, eləcə də həmin sistemin hüquqi yardım haqqında sorğuların icra və tərtibindəki rolu barədə geniş məlumat verib.



## Prokurorluq əməkdaşları Beynəlxalq Prokurorlar Assosiasiyasının 11-ci Asiya və Sakit Okean üzrə Regional konfransında iştirak edib

27-29 noyabr tarixlərində Çin Xalq Respublikasının Honq Konq Xüsusi İnzibati Bölgəsində Beynəlxalq Prokurorlar Assosiasiyasının 11-ci Asiya və Sakit Okean üzrə Regional konfransı keçirilib.

Tədbirdə ölkəmizi Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Samirə Nəcəfzadə və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat təminatı şöbəsinin rəisi Teymur Novruzlu təmsil edib.









İclasda Assosiasiyanın 29-cu illik Konfransını və Ümumi yığıncağının 29 sentyabr - 02 oktyabr tarixlərində Bakıda yüksək səviyyədə təşkil edilməsi vurğulanıb və Azərbaycan Respublikasının Baş Prokurorluğuna xüsusi təşəkkür ifadə edilib.

"Texnoloji dövrdə prokurorluğun səmərəli fəaliyyəti" mövzusunda keçirilən konfransda texnoloji əsrdə qloballaşmanın yaratdığı problemlər və digər aktual mövzular üzrə fikir və təcrübə mübadiləsi aparılıb.

## Prokurorluq əməkdaşı BMT-nin Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədaləti üzrə Komissiyasının (CCPCJ) 33-cü sessiyasında iştirak edib

Vyana şəhərində cari ilin 5-6 dekabr tarixlərində BMT-nin Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədaləti üzrə Komissiyasının (CCPCJ) təkrar çağırılmış 33-cü sessiyası keçirilib.




Tədbirdə cinayətkarlığın qarşısının alınması, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə, beynəlxalq əməkdaşlıq və cinayət ədaləti sahəsində strateji idarəetmə məsələləri müzakirə olunub. Həmçinin, Dayanıqlı İnkişaf Məqsədlərinin icrası, cinayətkarlığın yeni formaları ilə mübarizə və digər aktual mövzular ətrafında fikir mübadiləsi aparılıb.

İclas zamanı BMT-nin Narkotiklər və Cinayət üzrə İdarəsinin (UNODC) və Birləşmiş Ərəb Əmirliklərinin nümayəndələri Azərbaycan Respublikasının Baş Prokurorluğuna BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) yüksək səviyyəli plenar sessiyasını uğurla təşkil etdiyinə görə minnətdarlıq ifadə ediblər.

Sessiyada Azərbaycan Respublikasının Baş Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Mələk Əliyeva təmsil edib.

Sessiyanın yekununda qəbul edilən tövsiyələr, UNODC-nin gələcək strategiyasının formalaşdırılmasına və 2030-cu il Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə əhəmiyyətli töhfə verəcəkdir.

# Azərbaycan və Qazaxıstan hüquq-mühafizə orqanları arasında təcrübə mübadiləsi genişlənir



Qazaxıstan Respublikası Prezidentinin Administrasiyası, Baş Prokurorluğu və Maliyyə Nazirliyinin rəhbər vəzifəli şəxslərindən ibarət nümayəndə heyəti cinayətkarlığa, xüsusilə də narkotiklərə qarşı mübarizə sahəsində təcrübə mübadiləsinin aparılması məqsədilə ölkəmizə səfərdə olub.

Dekabrın 9-da Baş prokurorun müavini Elmar Camalov nümayəndə heyəti ilə görüşərək bütün sahələrdə olduğu kimi ölkələrimizin dövlət orqanları arasında







əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib, tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini vurğulayıb.

Nümayəndə heyətinin rəhbəri, Qazaxıstan Baş Prokurorluğunun Hüquqi statistika və hesablama Komitəsinin sədri Sabit Nurlıbay yüksək qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlığını ifadə edərək səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağını qeyd edib.

Qonaqlar Baş Prokurorluğun yeni inzibati binası, həmçinin Zəfər muzeyi ilə tanış olublar.

# Prokurorluq əməkdaşı regionlararası təlimdə iştirak edib



Cari il 10-12 dekabr tarixlərində Qırğızıstanın paytaxtı Bişkek şəhərində BMT-nin Narkotiklər və Cinayət üzrə İdarəsi (UNODC) Cinayət Şəbəkəsinin Qarşısının alınması üzrə Qlobal Proqramı (GPCD) və Sərhəd İdarəetmə Sektorunun Sərnişin və Yük Daşımalara Nəzarət Qlobal Proqramının (PCCP) birgə təşkilatçılığı ilə təlim keçirilib.

Sərnişin və Yük Sərhəd Komandası Qlobal Konteyner Nəzarət Proqramı (PCBT CCP) tərəfindən Gömrük Orqanları və Liman Nəzarət Bölmələrinin Regionlararası Şəbəkəsində (İREN) iştirak edən ölkələrin (Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkmənistan, Ukrayna və Özbəkistan) səlahiyyətli qurumları (gömrük, hüquq mühafizə və prokurorluq) üçün keçirilən ikinci regionlararası təlim "Narkotiklərin dövriyyəsi şəbəkələrinin planlaşdırılmasının qarşısının alınması" mövzusunda olub.

Təlimdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu qurumun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Məmməd Məmmədov təmsil edib.

Təlimdə beynəlxalq narkotrafiklə məşğul olan mütəşəkkil cinayətkar qrupların fəaliyyəti, istifadə etdikləri üsul, alət və vasitələr, həmçinin gömrük və digər əlaqəli dövlət xidmətlərinin preventiv imkanları, o cümlədən beynəlxalq məlumat mübadiləsi sistemləri təhlil edilib, bu sahədə mübarizənin effektivliyinin artırılmasına kömək edə biləcək nəzəri analitik yanaşma metodları nümayiş olunub və müvafiq praktiki məşğələlər keçirilib.






# Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub



Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov arasında 15 iyun 2023-cü tarixdə Sankt-Peterburq şəhərində imzalanmış "2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı"ndan irəli gələn müddəaların icrası məqsədilə dekabrın 10-12-si tarixlərində Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizə işgüzar səfərdə olub.

Baş Prokurorluqda nümayəndə heyəti ilə keçirilmiş görüş zamanı Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov qonaqları salamlayaraq prokurorluqlarımız arasında əlaqələrin yüksək səviyyədə olmasını məmnunluqla qeyd edib, seminar zamanı müzakirə ediləcək mövzuların aktuallığını vurğulayıb.

Rusiya Baş Prokurorluğunun nümayəndələri yüksək qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlıqlarını ifadə edərək, səfərin təcrübə mübadiləsi və qarşılıqlı münasibətlərin inkişafı üçün faydalı olacağını qeyd ediblər.





Görüş zamanı, o cümlədən ekstradisiya və cinayət işləri üzrə hüquqi yardım sahələrində mövcud vəziyyət və qarşıda duran perspektivlər müzakirə edilib.

Daha sonra Əməkdaşlıq Proqramı çərçivəsində "Prokurorun elektron sübutlarla işi. Müasir texnologiyalardan istifadə və prokurorların fəaliyyətinin rəqəmsallaşdırılması", "Kibercinayətkarlıq" və "Cinayət yolu ilə əldə olunmuş aktivlərin bərpası" mövzulara həsr olunmuş seminarlar keçirilərək faydalı təcrübə mübadiləsi aparılıb.









Səfər çərçivəsində həmçinin, nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binası və Zəfər muzeyi ilə tanış olublar. Rusiyalı prokurorlar, o cümlədən Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyəti barədə, həmçinin, Mərkəzdə yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat alıblar. Qonaqlar "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu ziyarət edərək, Şirvanşahlar Sarayı Kompleksi və Qız Qalası, həmçinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş digər tarixi-memarlıq abidələri ilə tanış olublar.

## Azərbaycan və Tacikistan korrupsiyaya qarşı mübarizə sahəsində birgə əməkdaşlığı davam etdirir





2023-cü il noyabrın 23-də Bakı şəhərində Baş prokuror Kamran Əliyev və Tacikistanın Dövlət Maliyyə Nəzarəti və Korrupsiyaya qarşı Mübarizə Agentliyinin Direktoru Suleymon Sultonzoda arasında imzalanmış “2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı”nın icrası çərçivəsində virtual formatda “Korrupsiya ilə mübarizə: preventiv tədbirlərin əhəmiyyəti” mövzusunda dəyirmi masa təşkil edilib.

Tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Ziya Hacıyev və Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Orxan Hüseynovdan ibarət heyət iştirak edib.

Baş idarənin fəaliyyəti və ölkəmizdə korrupsiya ilə mübarizə sahəsində əldə edilmiş nəticələr barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Tacikistanın Dövlət Maliyyə Nəzarəti və Korrupsiyaya qarşı Mübarizə Agentliyinin nümayəndələri çıxış edərək, ölkəmizin müsbət təcrübəsindən faydalanaraq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161 - Qaynar xətt" əlaqə mərkəzinin analoqunun yaradıldığını qeyd ediblər.

Daha sonra əməkdaşlar mövzu ətrafında təqdimatlarla çıxış edərək, faydalı fikir mübadiləsi aparıblar.

## Xarici dövlətlərin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq uğurla davam etdirilir







11-13 dekabr tarixlərində Tacikistan Respublikası Baş Prokurorluğu tərəfindən Düşənbə şəhərində “Məhkəmələrdə işlərə baxılması zamanı prokurorun iştirakı” mövzusunda seminar təşkil edilmişdir.

Seminarda Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarənin Apellyasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Murad Vəliyev, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Babək Əliyev, Cinayət təqibindən kənar icraatlar idarəsinin prokuroru Hikmət Verdiyev və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuroru Emil Xankişiyevdən ibarət nümayəndə heyəti iştirak etmişdir.

Seminarda hər iki ölkədə məhkəmədə cinayət işlərinə baxılması qaydaları ilə bağlı çıxışlar edilmiş, müzakirələr aparılmış və təcrübə mübadiləsi həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Baş Prokurorluğunun nümayəndə heyətindən Murad Vəliyev məhkəmələrdə cinayət işlərinə baxılması zamanı prokurorun iştirakı mövzusunda çıxış etmişdir.


TÜRK DEVLETLERİ TEŞKİLATI
ORGANIZATION OF TURKIC STATES
TÜRK ƏDLİYYƏ TƏLİM ŞƏBƏKƏSİ
ÇƏRÇİVƏSİNDƏ KONFRANS
BAKI, 17-18 DEKABR

## Bakı şəhəri Türk Ədliyyə Təlim Şəbəkəsinin konfransına ev sahibliyi edib







Azərbaycan Respublikası Baş Prokurorluğunun və Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə 2024-cü ilin dekabr ayının 17-dən 18-dək Bakı şəhərində özündə üzv statusunda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan dövlətlərinin ədliyyə və prokurorluq təlim-tədris mərkəzlərini və akademiyalarını, eləcə də müşahidəçi statusunda Macarıstan və Şimali Kiprin müvafiq qurumlarını birləşdirən Türk Ədliyyə Təlim Şəbəkəsinin konfransı keçirilib.

Qeyd edilməlidir ki, Türk Ədliyyə Təlim Şəbəkəsi 11.12.2022-ci ildə İstanbul şəhərində təsis edilib və Azərbaycan tərəfini həmin Şəbəkədə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi təmsil edir. 2024-cü il Şəbəkəyə sədrlik Azərbaycan tərəfi həyata keçirib, bu çərçivədə artıq ikinci beynəlxalq konfrans baş tutub.

Konfransda iştirak etmək məqsədi ilə Türkiyə Ədliyyə Akademiyasının, Qazaxıstanın Ali Məhkəməsi yanında Ədliyyə Akademiyasının və Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyasının, Özbəkistanın Ali Məhkəmə Şurası yanında Ali Hakimlər Məktəbinin və Hüquq-mühafizə Akademiyasının, Qırğızıstanın Ali Məhkəməsi yanında Ali Ədliyyə Məktəbinin və Baş Prokurorluğunun Hüquq Akademiya-



sının, eləcə də Şimali Kiprin Ali Məhkəməsinin və Baş Prokurorluğunun nümayəndə heyətləri Bakı şəhərinə səfər ediblər.

Nümayəndə heyətləri tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin məzarını, Türk Əsgəri monumentini və Şəhidlər xiyabanını ziyarət edərək və əklik qoyaraq əziz və unudulmaz xatirələrini yad ediblər.



## Türk Ədliyyə Təlim Şəbəkəsinin Bakı şəhərində keçirilən konfransının açılışı olub





2024-cü ilin dekabr ayının 17-də Baku Marriott Boulevard otelində "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda keçirilmiş beynəlxalq konfransın açılışında salamla nitqi ilə Azərbaycanın Respublikasının Baş prokuroru Kamran Əliyev, Ədliyyə naziri Fərid Əhmədov və Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış ediblər.

Baş prokuror Kamran Əliyev bildirib ki, 2009-cu ildə Naxçıvan şəhərində imzalanan müqavilə ilə Türk Dövlətlərinin Əməkdaşlıq Şurasının təsis edilməsi, daha sonra isə həmin təsisatın təkmilləşdirilərək Türk Dövlətləri Təşkilatına çevrilməsi qardaş xalqlar arasında inteqrasiya proseslərinin yeni müstəviyə qədəm qoyub. Müzəffər Ali Baş Komandan, dövlət başçısı İlham Əliyevin qətiyyətinin, dahi Sərkərdə qabiliyyətinin, ölkəmizdə mövcud olan birlik və vəhdətin, müzəffər Azərbaycan Ordusunun rəşadət və peşəkarlığının təzahürü ilə əldə etdiyimiz parlaq qələbəni bütün Türk Dünyası Azərbaycan xalqı ilə birlikdə xüsusi sevinclə qeyd edib.

Baş prokuror qeyd edib ki, bu birlik hüquq-mühafizə orqanlarının fəaliyyətinə çox müsbət təsir etmiş, qurumlar arasında faydalı əməkdaşlıq yaranıb. "2021-ci ildə Bakı şəhərində əsası qoyulmuş Türk Dövlətləri Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının fəaliyyəti xüsusi qeyd edilməlidir".

Baş prokurorun sözlərinə görə, qardaş türk dövlətlərinin hüquq-mühafizə orqanları, məhkəmə akademiyaları və təlim mərkəzləri ilə mövcud əməkdaşlıq əlaqələrinin institusionallaşması ilə bağlı əməli addımlar atılıb.





















Kamran Əliyev çıxışında vurğulayıb ki, bizim üçün qardaş ölkələrin təcrübəsinin öyrənilməsi, öz müsbət təcrübəmizlə bölüşmək çox əhəmiyyətlidir. Əminəm ki, hakim və prokurorların peşə hazırlığında da müasir texnologiyaların, proqram təminatlarının tətbiqi ilə bağlı müzakirələr xüsusi əhəmiyyətə sahib olacaq.

## Beynəlxalq konfransda transmilli cinayətkarlığa qarşı mübarizənin effektiv vasitəsi kimi aktivlərin bərpasına diqqət yetirilib









Plenar iclaslar və panel sessiyalar formatında təşkil edilmiş Türk Ədliyyə Təlim Şəbəkəsinin "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda konfransda aktivlərin bərpası prosesinin səmərəliyinin artırılması, ekoloji hüquqpozmalara qarşı mübarizə, transmilli hüquqpozmaların qurbanlarının mülki-hüquqi müdafiəsi, türkdilli ölkələrin kommersiya hüququ sahəsində qanunvericilik bazasının inkişafı kimi məsələlər müzakirə edilib.










Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Talıb Cəfərovun moderatorluğu ilə keçirilmiş "Aktivlərin bərpası transmilli cinayətkarlığa qarşı mübarizənin effektiv vasitəsi kimi" mövzusunda 1-ci panel sessiyada Türkiyə Ədalət Akademiyasının müəllimi, hakim Eray Temizkan, Qazaxıstan Baş Prokurorluğunun şöbə müdiri Zhakiyalin Aidos Jandırbayeviç, Şimali Kiprin Baş Prokurorluğunun əməkdaşı Behrat Mavioğlu, Azərbaycan Baş Prokurorluğunun idarə rəisi Vüqar Əliyev, eləcə də Elm-Tədris Mərkəzinin şöbə rəisi Əmir Ocaqverdiyev təqdimatla çıxış ediblər.

Mövzu üzrə aparılan müzakirələrdə isə Baş Prokurorluğun rəhbər işçiləri Tural Aslanov, Erkin Əlixanov, Saleh Hacıyev, Rövşən Abdullayev, Vüsal Əliyev, İlqar Səfərov, Rail Bayramlı və Ceyhun Hümbətov iştirak ediblər.

Xarici qonaqlarla yanaşı konfransda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin sektor müdiri Araz Poladov, Hüquq mühafizə orqanları ilə iş şöbəsində sektorun böyük məsləhətçisi Samir Nəcəfov, Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və Hüquq kafedrasının müdiri, professor İsaxan Vəliyev, Ali Məhkəmənin nümayəndəsi Anar Nüseynov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü Vüqar Babayev, İnsan hüquqları üzrə müvəkkilin müşaviri Rəşad Novruzov iştirak ediblər.

# Ekoloji hüquqpozmalara qarşı mübarizə və transmilli hüquqpozmaların qurbanlarının müdafiəsi beynəlxalq konfransın müzakirə obyekti olub







Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində keçirilmiş konfransın "Ekoloji hüquqpozmalara qarşı mübarizədə ölkədaxili və beynəlxalq mexanizmlər" adlanan 2-ci panel sessiyasına moderatorluğu Qazaxıstan Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyasının rektoru Marat Seksembayev edib. Həmin sessiyada Türkiyə Ədalət Akademiyasının müəllimi, prokuror Utku Salih, Qazaxıstan Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyasının baş elmi işçisi Kulmukhanbetova Bibigul, Qırğızıstan Baş Prokurorluğunun idarə prokuroru İmanaliyeva Aynura, Özbəkistan Ali Məhkəmə Şurası yanında Ali Hakimlər Məktəbinin baş mütəxəssisi Haniyev Karimberdi, Şimali Kiprin Ali Məhkəməsinin hakimi Dilşah Karayel, Azərbaycan Baş Prokurorluğunun idarə rəisi Elnur Musayev, Elm-Tədris Mərkəzinin böyük prokuroru İradə Xəlilova və Ədliyyə Akademiyasının baş müəllimi Mətanət Əsgərova çıxış ediblər.

Mövzu üzrə aparılan müzakirələrdə isə Baş Prokurorluğun idarə rəisləri Mahir Abbasov və Sahib İsmayılov iştirak ediblər. Xarici qonaqlarla yanaşı konfransın bu sessiyasında Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının müdiri Sahil Hüseynov, habelə ADA Universitetinin və Dövlət Sərhəd Xidməti Akademiyasının müəllim heyəti iştirak edib.

Türkiyə Ədalət Akademiyasının rektoru Mühittin Özdemirin moderatorluğu ilə keçirilən 3-cü panel sessiya transmilli cinayətlərin qurbanları və onların mülki-hüquqi müdafiə vasitələrinə həsr olunub. Sessiya çərçivəsində Türkiyə Ədalət Akademiyasının müəllimi, prokuror İbrahim Altinok, Qazaxıstan Ali Məhkəmə Şurası yanında Ədliyyə Aka-








demiyasının professoru Biyebayeva Ardak Alimxanova, Özbəkistan Hüquq-mühafizə Akademiyasının baş müəllimi Mustafaev Shukhratjon Burieviç, Qırğızıstan Ali Məhkəməsi yanında Ali Ədliyyə Məktəbinin müəllimi Duyşenbekova Qulnara Sultanbekovna, Şimali Kiprin Baş Prokurorluğunun əməkdaşı Volkan Kayabash, Azərbaycan Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin böyük prokuroru Nigar Əskərova və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının müəllimi Fərdin Xəlilov çıxış ediblər. Mövzu üzrə aparılan müzakirələrə həmçinin Baş Prokurorluğun idarə rəisləri Fazil Həsənəliyev və Natiq Abdullayev qoşulublar.






Konfransın bu sessiyasında isə Daxili İşlər Nazirliyinin Polis Akademiyasının rəisi Canpolad Daanov, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov və rəis müavini Azər İsmayılov, Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi Qulu Novruzov və Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi Baba Salayev iştirak ediblər.

# Bakıda kommersiya hüququ sahəsində Türk dövlətlərinin qanunvericilik bazasının inkişafı müzakirə edilib



Qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Baş Prokurorluğunun və Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Bakıda 2024-cü ilin dekabr ayının 17-dən 18-dək özündə üzv statusunda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan dövlətlərinin ədliyyə və prokurorluq təlim-tədris mərkəzlərini və akademiyalarını, eləcə də müşahidəçi statusunda Macarıstan və Şimali Kiprin müvafiq qurumlarını birləşdirən Türk Ədliyyə Təlim Şəbəkəsinin konfransı keçirilib.







"Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda plenar iclaslar və panel sessiyalar formatında təşkil edilmiş konfransda peşəkar hüquqşünaslar türkdilli ölkələrin kommersiya hüququ sahəsində qanunvericilik bazasının inkişafı kimi məsələləri müzakirə ediblər.




Azərbaycan Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının prorektoru Elçin Xələfovun moderatorluğu ilə keçirilmiş 4-cü panel sessiyada həmin mövzu ilə bağlı Akademiyanın rektoru Şahin Əliyev, Türkiyə Ədalət Akademiyasinin müəllimi, hakim Seda Duysak, Qazaxıstan Ali Məhkəmə Şurası yanında Ədliyyə Akademiyasının mərkəz direktoru Abilova Maigul, Özbəkistan Hüquq-mühafizə Akademiyasının kafedra müdiri Azizov Nasimbek və Şimali Kiprin Ali Məhkəməsinin hakimi Umut İnan çıxış ediblər.

Konfrans gedişatında xarici qonaqları Qarabağ Universitetinin rektoru Şahin Bayramov, Naxçıvan Dövlət







Universitetinin rektoru Elbrus İsayev və Bakı Dövlət Universitetinin prorektoru Fərda İmanov salamlayaraq, tədbirin əhəmiyyətindən söz açıblar. Konfransda həmçinin Baş Prokurorluğun idarə rəisləri Ceyhun Kazımov, Aynur Osmanova, Murad Dadaşov və Qarabağ Universitetinin Humanitar-sosial elmlər fakültəsinin dekanı Elmar Mustafayev iştirak ediblər.

## Qarabağ Universiteti və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb




Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda keçirilən beynəlxalq konfransda Qarabağ Universitetinin rektoru Şahin Bayramov və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Talıb Cəfərov tərəfindən qurumlar arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

Tədbir iştirakçılarına Beynəlxalq Prokurorlar Assosiasiyası və COP29 çərçivəsində 2024-cü ildə Bakı şəhərində keçirilmiş tədbirlər barədə videoçarxlar müşayiəti ilə ətraflı məlumat verilib.






Türk Ədliyyə Təlim Şəbəkəsinin 2025-ci il üzrə sədrliyinin Qazaxıstan tərəfində ötürülməsi mərasimi keçirilib, suvenirlərin mübadiləsi və xatirə fotoların çəkilişi olub.

Xarici qonaqlarla yanaşı, Azərbaycanın dövlət qurumlarının vəzifəli şəxslərinin, ali təhsil ocaqların professor heyətinin, ümumilikdə 90-dan artıq görkəmli hüquqşünasın iştirak etdiyi konfrans 18.12.2024-cü ildə öz işini başa çatdırıb.

Türk Ədliyyə Təlim Şəbəkəsinin Bakı şəhərində baş tutmuş konfransı üzv dövlətlərin media vasitələrində geniş şəkildə işıqlandırılıb.



## Baş prokuror Kamran Əliyev Türk Ədliyyə Təlim Şəbəkəsinin konfrans iştirakçılarını qəbul edib






Özündə üzv statusunda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan dövlətlərinin ədliyyə və prokurorluq təlim-tədris mərkəzlərini və akademiyalarını, eləcə də müşahidəçi statusunda Macarıstan və Şimali Kiprin müvafiq qurumlarını birləşdirən Türk Ədliyyə Təlim Şəbəkəsinin Bakı şəhərində keçirilmiş konfrans iştirakçılarını 2024-cü ilin dekabr ayının 18-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev qəbul edib.













Görüş zamanı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə Baş prokuror qonaqları məlumatlandırıb.

Görüşdə Kamran Əliyev böyük coğrafiyanı əhatə edən türk dünyasının hüquq mühafizə orqanlarının akademik dairələri arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırmaqla, keçirilmiş konfransın müasir zamanın tələblərinə uyğun hüquq tətbiqetmə sahəsində rəqəmsallaşma üçün çağırışlara tutarlı cavab verməyə xidmət edəcəyini, mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacağını bildirib.

Konfrans iştirakçıları göstərilmiş qonaqpərvərliyə görə təşəkkür ifadə edərək dövlətlərimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinə böyük önəm verdiklərini qeyd etmiş, peşəkar platformada, o cümlədən elm-tədris sahəsində əməkdaşlığın vacibliyini qeyd ediblər.



Görüş çərçivəsində qonaqlar Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.

## Beynəlxalq konfransın iştirakçıları Bakı şəhərinin abidələri və muzeyləri ilə tanış olublar

Türk Ədliyyə Təlim Şəbəkəsinin fəaliyyəti çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun və Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə 2024-cü ilin dekabr ayının 17-dən 18-dək Bakı şəhərində "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda keçirilmiş konfransın xarici iştirakçıları üçün mədəni tədbirlər təşkil edilib.

Xüsusən də qonaqlar Bakı şəhərinin gəzinti yerləri, parkları, abidələri və muzeyləri ilə tanış edilib, onların şərəfinə rəsmi şam yeməyi və vida ziyafəti təşkil olunub.







Həmçinin konfransın xarici iştirakçıları Mərkəzi parkda, Nizami küçəsində və Fəvvarələr meydanında gəziblər, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olublar, orada qədim memarlıq abidəsi olan Qız qalasını və Şirvanşahlar sarayını ziyarət ediblər.

Qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edərək buradakı sərgilərlə tanışlıqdan təəccüb olublar, binanın quruluşuna heyrət ediblər.



Bakı bulvarında (Dənizkənarı Milli Park) gəzərkən konfrans iştirakçıları üçün Suraxanı Gəmi Muzeyinə ekskursiya təşkil edilib.

Zəfər və Hərbi Qənimətlər parklarının seyr edilməsi isə onlarda unudulmaz hisslərə səbəb olub.

Konfransın xarici iştirakçıları göstərilmiş qonaqpərvərliyə görə təşəkkürlərini ifadə edərək dövlətimizin daha da inkişaf etməsini və xalqımızın daha da zəngin olmasını arzu ediblər.

# Mətbuat xidmətinin məlumatı

**#sorğuyacavab – Araik Arutyunyan, Davit Babayan və digərlərinin həbs müddəti uzadılıb**
**11.10.2024**




Azərbaycan Respublikasının Qarabağ bölgəsinin və digər suveren ərazilərinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunduqdan sonra yaradılmış qondarma qurumun “prezidentləri” olmuş Arkadi Gukasyan, Bako Sahakyan, Arayik Harutyunyan, sabiq "xarici işlər naziri" Davit Babayan, eləcə də “parlament sədri” David İşxanyan, generallar David Manukyan və digərlərinin barəsində seçilmiş həbs qətimkan tədbirlərinin müddətinin uzadılması ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsinin vəsatətlərinə və Azərbaycan Respublikasının Baş prokurorunun təqdimatlarına Bakı şəhəri Binəqədi rayon məhkəməsində baxılıb.

İstintaqı Baş Prokurorluğun rəhbərlik etdiyi, Hərbi prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi və digər istintaq qurumlarının peşəkar əməkdaşlarından ibarət birgə istintaq qrupu tərəfindən aparılan cinayət işi üzrə separatçı rejimin ümumilikdə 14 nəfər üzvü Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə məsuliyyətə cəlb olunub.

Məhkəmənin qərarına əsasən, qeyd olunan şəxslərin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti uzadılıb.

**Səhlənkarlıq nəticəsində külli miqdarda dövlət əmlakının məhv olması faktına görə cinayət işi başlanıb**
**11.10.2024**




Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılmış, Şərur rayonunda yerləşən “Şərur Sənaye Mərkəzi” publik hüquqi şəxsin bitki yağları istehsalı müəssisəsinin anbarında sentyabrın 25-də baş vermiş yanğınla bağlı Naxçıvan Muxtar Respublikası Prokurorluğunda araşdırma aparılıb.

Araşdırmalarla müəyyən edilib ki, külli miqdarda dövlət vəsaiti hesabına alınan bitki yağları xammalı qüvvədə olan normativ sənədlərin tələblərinə riayət edilmədən anbara toplanıb, saxlanma şəraitinin düzgün təmin edilməməsi və digər pozuntular nəticəsində xammal qida məhsulu kimi yararsız hala düşüb, sonrakı mərhələdə isə tüstülənmə və yanmaya məruz qalıb, nəticədə isə külli miqdarda dövlət əmlakı məhv olub.

Baş vermiş hadisə ilə əlaqədar vəzifəli şəxslərin işə vicdansız və laqeyd münasibətləri nəticəsində dövlətin qanunla qorunan mənafelərinə külli miqdarda zərər vurulmasına əsaslı şübhələr əldə edildiyindən fakt üzrə Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətin törədilməsində təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində istintaq davam etdirilir.

**Qəsdən adam öldürməkdə təqsirləndirilən şəxs barəsində cinayət işi məhkəməyə göndərilib**
**14.10.2024**




Carı ilin iyunun 24-də Daşkəsən rayon sakini 1985-ci il təvəllüdlü Atlas Ocaqverdiyevanın öldürülməsinə dair rayon prokurorluğunda başlanmış cinayət işi üzrə istintaq tamamlanıb.

İbtidai istintaq zamanı 1971-ci il təvəllüdlü Teymur Ocaqverdiyevin Daşkəsən rayonu, Əmirvar kəndində yerləşən fərdi yaşayış evində heç bir əsaslı səbəb olmadan, xuliqanlıq niyyəti ilə aşkar surətdə köməksiz vəziyyətdə olan arvadı

Atlas Ocaqverdiyevaya balta ilə çoxsaylı xəsarətlər yetirərək qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Teymur Ocaqverdiyevə Cinayət Məcəlləsinin 120.2.2, 120.2.4, 120.2.9 (xüsusi amansızlıqla aşkar surətdə köməksiz şəxsi xuliqanlıq niyyəti ilə öldürmə) maddələrilə yekun ittiham elan edilərək barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi aidiyyəti üzrə baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

**Hərbi xidmətə çağırışdan boyun qaçırma hallarına qarşı mübarizə davam etdirilir**
**14.10.2024**




Hərbi xidmətə çağırışla bağlı yol verilən qanun pozuntularının aşkar olunaraq qarşısının alınması və profilaktikası, habelə bu sahədə korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması istiqamətində Baş Prokurorluq tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə davamlı olaraq kompleks tədbirlər həyata keçirilir.

Həyata keçirilən kəsərli tədbirlər çərçivəsində, 2024-cü ilin oktyabr ayınadək olan dövr ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi (Baş İdarə), eləcə də tabe rayon (şəhər) prokurorluqları tərəfindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) ayrı-ayrı vəzifəli şəxsləri və vətəndaşlar barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işlərinin ibtidai istintaqı aparılıb və həmin şəxslər məhkəmə məsuliyyətinə verilib.

Belə ki, Baş İdarədə qeyd olunan sahədə qanunvericiliyin tələblərinin pozulması faktları üzrə SHXÇDX-dən daxil olmuş 29 material üzrə araşdırma aparılıb.

Bundan başqa, Baş İdarənin "161 Qaynar xətt" əlaqə mərkəzindən daxil olmuş məlumatlar və vətəndaş müraciətləri əsasında 33 material üzrə araşdırma aparılıb

Həmin materiallardan 8-i üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır, digər materiallar üzrə isə araşdırma davam etdirilir. Habelə, 2 material üzrə digər prokuror təsir tədbirləri tətbiq olunmuşdur.

Qeyd olunan dövr ərzində aşkar olunmuş qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə isə qurumun 5 əməkdaşı barəsində təqdimat verilmişdir.

Baş İdarə tərəfindən qeyd olunan sahədə qanunvericiliyin tələblərinin pozulması faktları ilə bağlı 2 əməliyyat-axtarış tədbiri keçirilmiş və bunun nəticəsində 2 cinayət işi başlanaraq istintaqı tamamlanmaqla aidiyyəti üzrə məhkəmələrə göndərilməsi təmin edilmişdir.

Bundan başqa, qeyd olunan dövr ərzində müddətli həqiqi hərbi xidmətə çağırışdan boyun qaçırma halları ilə bağlı tabe rayon (şəhər) prokurorluqlarında araşdırmalar aparılıb, nəticədə 56 cinayət işi başlanıb, 448 nəfər hərbi xidmətə göndərilməsi üçün aidiyyəti üzrə SHXÇDX-yə təqdim edilib.

Həmçinin, 2024-cü ilin oktyabr ayınadək olan müddət ərzində Hərbi prokurorluq tərəfindən aparılan araşdırmalar nəticəsində SHXÇDX-nin ayrı-ayrı vəzifəli şəxsləri və əməkdaşları barəsində 3 cinayət işi başlanaraq ibtidai istintaq aparılır, aşkarlanan qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə isə qurumun 5 əməkdaşı barəsində təqdimat verilmişdir.

Hərbi xidmətə çağırış sahəsində qanunsuzluqlara qarşı mübarizə tədbirləri bundan sonra da aidiyyəti dövlət orqanları ilə birgə davam etdirilərək nəticəsi barədə ictimaiyyətə məlumatın verilməsi təmin olunacaqdır.

**Cinayətkarlığa qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir**
**15.10.2024**




Lüksemburq Böyük Hersoqluğunun səlahiyyətli orqanları tərəfindən iqtisadi sahədə cinayətlər törətməkdə təqsirləndirilərək beynəlxalq axtarışa elan edilmiş 1987-ci il təvəllüdlü Fransa Respublikasının vətəndaşı Cedric Michelin və Rumıniyanın səlahiyyətli orqanları tərəfindən mütəşəkkil cinayətkar qrup yaradılmaqla miqrantların qanunsuz daşınmasında təqsirləndirilərək beynəlxalq axtarışa elan edilmiş 1975-ci il təvəllüdlü Türkiyə Respublikasının vətəndaşı Oğuz Atalayın verilməsinə

dair həmin ölkələrin səlahiyyətli orqanlarının vəsatətləri baxılması üçün Baş Prokurorluq tərəfindən Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Qeyd olunan şəxslər cari il ərzində ölkəmizdə müəyyən edilərək barələrində həbs qətimkan tədbiri seçilib.

"Ekstradisiya haqqında" Avropa Konvensiyasına və ona Əlavə Protokollara əsasən adıçəkilən şəxslər haqqında qərar qəbul edilərək Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Rumıniyanın və Lüksemburqun səlahiyyətli orqanlarına təhvil verilib.

**#hüquqimaarifləndirmə - Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinin I hissəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 412.7-ci maddəsinin "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 17.1.7-ci maddəsi ilə əlaqəli şəkildə şərh etmişdir**
**18.10.2024**




Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 15.10.2024-cü il tarixli qərarına əsasən, "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 17.1.7-ci maddəsi mülki məhkəmə icraatının xüsusiyyətlərindən irəli gələrək məhz mülki icraat zamanı icra sənədi üzrə icraatın məcburi olaraq dayandırılması halını müəyyən edir.

Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I və III hissələrinin tələblərinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq, cinayət mühakimə icraatı zamanı apellyasiya instansiyası məhkəməsinin qanuni qüvvəyə minmiş hökm və ya digər qərarının mülki iddiaya aid hissəsindən kassasiya şikayətinin verildiyi halda onun icrasının dayandırılması məsələsinin tənzimlənməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilmişdir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

**Kənd təsərrüfatı məhsulu və tikinti materiallarının ixracından əldə olunan 140 milyon manatdan artıq vəsaiti ölkəyə qaytarmayan vəzifəli şəxslər məsuliyyətə cəlb edilib**
**01.11.2024**




Xarici iqtisadi fəaliyyətlə məşğul olan bəzi sahibkarlıq subyektləri tərəfindən müvafiq valyutada olan pul vəsaitlərinin Azərbaycan Respublikasına qaytarılmamasına dair Dövlət Gömrük Komitəsindən daxil olmuş materiallar əsasında Azərbaycan Respublikasının prokurorluq orqanlarında cinayət işləri başlanaraq ibtidai istintaq aparılır.

İstintaq tədbirləri ilə Azərbaycan Respublikasında qeydə alınan hüquqi şəxslərlə xarici ölkələrdəki şirkətlər arasında kənd təsərrüfatı məhsullarının alqı-satqısına dair müxtəlif vaxtlarda müqavilələrin bağlanması və həmin fəaliyyət nəticəsində əldə olunan külli miqdarda gəlirlərin ölkəmizdə müvəkkil edilmiş bank hesablarına qaytarılmamasına əsaslı şübhələr müəyyən edildiyindən bir sıra vəzifəli şəxs cinayət məsuliyyətinə cəlb edilib.

Belə ki, Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda xarici valyuta vəsaitini xaricdən qaytarmama), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və digər maddələri ilə başlanmış cinayət işi üzrə "Foresta", "Gold Plant", "Alyans Aqro" və "Shemkir Fruit" MMC tərəfindən ümumilikdə 31 milyon ABŞ dollarından artıq (müvafiq dövrün məzənnəsi ilə 52 milyon manatdan artıq) pul vəsaitinin Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmaması müəyyən edildiyindən Qurbanov Rüstəm Bayram oğlu və Rüstəmov Elçin Ənvər oğlu iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq qeyd olunan maddələrlə ona ittiham elan edilib və Rüstəm Qurbanovun barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Bakı şəhəri Binəqədi rayon

Məhkəməsinin qərarı ilə ev dustaqlığı, Elçin Rüstəmovun barəsində isə istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 və digər maddələri ilə başlanmış cinayət işi üzrə “Critical Fruit” MMC, “Local Garden” MMC tərəfindən ümumilikdə 33.5 milyon ABŞ dollarından artıq (müvafiq dövrün məzənnəsi ilə 57 milyon manatdan artıq) pul vəsaitinin Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmaması müəyyən edildiyindən Xalıqov Fuad Elşad oğlu, Abbaszadə Elnur Hidayət oğlu, Əsgərov Kahin Muxtar oğlu iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq qeyd olunan maddələrlə onlara ittiham elan edilib, Elnur Abbaszadə və Fuad Xalıqov barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Bakı şəhəri, Binəqədi rayon Məhkəməsinin qərarı ilə ev dustaqlığı qətimkan tədbiri seçilib, Kahin Əsgərov isə cinayət təqibini həyata keçirən orqandan gizləndiyi üçün barəsində axtarış elan edilib.

Bundan başqa, Bakı şəhəri Binəqədi rayon prokurorluğunda Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 və 308.2-ci maddələri ilə başlanmış cinayət işi üzrə “Paradise Fruits” MMC tərəfindən ümumilikdə 14 milyon ABŞ dollarından artıq (müvafiq dövrün məzənnəsi ilə 23 milyon manatdan artıq) pul vəsaitinin Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmaması müəyyən edildiyindən Hüseynov İlkin Elmik oğlu iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq qeyd olunan maddələrlə ona ittiham elan edilib və barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin qərarı ilə ev dustaqlığı qətimkan tədbiri seçilib.

Bundan başqa, Bakı şəhəri Nizami rayon prokurorluğunda Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 və 308.2-ci maddələri ilə başlanmış cinayət işi üzrə vətəndaş Qəbilov Saleh Rza oğlunun ümumilikdə 22 milyon ABŞ dollarından artıq pul vəsaitinin (müvafiq dövrün məzənnəsi ilə 38 milyon manatdan artıq) Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmaması müəyyən edildiyindən o, iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq qeyd olunan maddələrlə ona ittiham elan edilib və barəsində istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Bakı şəhəri Nəsimi rayon prokurorluğunda Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 və 308.2-ci maddələri ilə başlanmış cinayət işi üzrə “Aqroinnova” MMC tərəfindən ümumilikdə 1,6 milyon ABŞ dollarından artıq pul vəsaitinin (müvafiq dövrün məzənnəsi ilə 2,7 milyon manatdan artıq) Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmaması müəyyən edildiyindən Cəbrayılov Mehman Caylı oğlu iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq qeyd olunan maddələrlə ona ittiham elan edilib və barəsində istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Hazırda Dövlət Gömrük Komitəsindən daxil olmuş digər bu kateqoriya materiallar üzrə, yəni mal və məhsul ixrac etməklə əldə edilən pul vəsaitini Azərbaycan Respublikasının müvəkkil bank hesablarına qaytarmamış şəxslər barəsində prokurorluq orqanlarında cinayət işləri başlanaraq ibtidai istintaq aparılır və zəruri tədbirlər icra olunur.

### 31 il əvvəl törədilmiş qəsdən adam öldürmə cinayətinin üstü açılıb
### 25.11.2024




Ötən illərdən bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin açılması istiqamətində prokurorluq və daxili işlər orqanlarının səmərəli fəaliyyəti davam etdirilir.

Bakı şəhərinin Nizami rayon prokurorluğu və rayon polis idarəsinin əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 31 il əvvəl, 1993-cü il fevralın 14-də sahibkarlıq fəaliyyəti ilə məşğul olan 1956-cı il təvəllüdlü Babayev Əli-İskəndər Hacıbala oğlunun idarə etdiyi avtomobilin içində odlu silahdan açılmış atəşlə qəsdən öldürülməsi cinayətinin üstünün açılması təmin olunub.

Toplanmış sübutlarla 1973-cü il təvəllüdlü, Azərbaycan Respublikasının vətəndaşı Qililov Aydın Şauloviçin həmin gün saat 22 radələrində əvvəllər tanıdığı Əli-İskəndər Babayevlə Bakı şəhəri, Nizami rayonu, Şərifli küçəsi 84 nömrəli binanın qarşısında görüşüb, sonuncuya məxsus “Qaz-24” markalı avtomaşının salonunda söhbət edərkən şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı qanunsuz olaraq əldə edib üstündə gəzdirdiyi odlu silah olan

“Naqan” tipli tapançadan 2 dəfə atəş açaraq Əli-İskəndər Babayevi qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Aydın Qililov 22 noyabr 2024-cü il tarixdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.1 (qəsdən adam öldürmə) və 228.1-ci (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq, ona həmin maddələrdə nəzərdə tutulan ittihamlar elan edilib.

Ötən illərdə qeyri-aşkar şəraitdə törədilməklə bağlı qalan şəxsiyyət əleyhinə cinayətlərin açılması, törədilmiş cinayətə görə cinayət məsuliyyətinin və cəzanın labüdlüyü prinsipinin təmin olunması istiqamətində prokurorluq və digər hüquq-mühafizə orqanları tərəfindən zəruri tədbirlərin icrası davam etdirilir.

**#hüquqibilikləriniartır #insanhüquqları #uşaqhüquqları – Uşaqyönümlü hüquqi yardıma dair Rəhbər Prinsiplər (UNİCEF ECARO)**
**27.11.2024**




**1-ci Rəhbər Prinsip:** Uşaqlara hüquqi yardımın göstərilməsi zamanı səriştəlilik

Uşaqlara hüquqi yardım göstərən hüquqşünaslar müvafiq milli qanunvericilik və prosedurlar, uşaq hüquqları, uşaqların inkişaf mərhələləri və uşaqlarla ünsiyyət qaydaları barədə biliklərə malik olmalıdır. Onlar davamlı peşəkar inkişaf təlimi vasitəsilə öz bacarıqlarını daim təkmilləşdirməli və yeniləməlidir.

**2-ci Rəhbər Prinsip:** Uşaqların mənafelərinə uyğun hərəkət etmək

Uşaqlar qanunla təmasda olduqda bütün hərəkətlərdə uşaqların mənafeləri üstün tutulmalıdır. Hüquqşünaslar bu öhdəlikdən xəbərdar olmalı və bu öhdəliyə əməl edərək hüquqları müdafiə olunan uşaqların mənafelərini qiymətləndirməli və onlara uyğun hərəkət etməlidir.

**3-cü Rəhbər Prinsip:** Səmərəli iştirak

Hüquqşünaslar hüquqi proses boyunca uşağın baxışlarının və fikirlərinin dinlənilməsini və onlara lazımınca diqqət yetirilməsini təmin etməlidir.

**4-cü Rəhbər Prinsip:** Münasibətin qurulması

Hüquqşünas hüquqlarını müdafiə etdiyi uşaqla inam və dəstəyə əsaslanan münasibət qurmalıdır.

**5-ci Rəhbər Prinsip:** Uşaqlarla həssas yanaşmaya əsaslanan ünsiyyət

Hüquqşünaslar uşaqlarla həssas yanaşma ilə ünsiyyət qurmazsa, onlar proseslərdə faydalı şəkildə iştirak edə bilməz.

**6-cı Rəhbər Prinsip:** Etibarlı və uyğun məlumatın verilməsi

Hüquqşünaslar uşaqların qərarların qəbulunda faydalı iştirakını təmin etmək üçün onları etibarlı və uyğun məlumatlarla təmin etməlidir.

**7-ci Rəhbər Prinsip:** Məhkəmə baxışında səmərəli iştirak

Hüquqşünaslar uşaqların məhkəmə baxışında adekvat və prosessual təminatlarla müşayiət olunmaqla səmərəli və faydalı şəkildə iştirak etməsini təmin etməlidir.

**8-ci Rəhbər Prinsip:** Ailə üzvləri və uşağa dəstək göstərən digər yaşlılarla iş

Hüquqşünas uşağın ailə üzvlərinin deyil, uşağın təlimatlarına və mənafelərinə uyğun hərəkət etməlidir.

**9-cu Rəhbər Prinsip:** Məxfilik və konfidensiallıq

Hüquqşünaslar hüquqi proseslər zamanı uşağın məxfilik hüququnu qorumalı və hüquqları müdafiə olunan şəxslə aparılan bütün ünsiyyətin peşəkar etik davranış kodeksinə uyğun olaraq konfidensial saxlanmasını təmin etməlidir.

**10-cu Rəhbər Prinsip:** Uşaqların ayrı-seçkilikdən qorunması

Hüquqşünaslar uşaqlarla ədalətli rəftar edilməsini və onların yaş, gender, etnik mənsubiyyət, əlillik və ya digər vəziyyətinə görə ayrı-seçkiliyə məruz qalmamasını təmin etməlidir.

**11-ci Rəhbər Prinsip:** Uşaqların təhlükəsizliyinin təmin edilməsi

Hüquqşünaslar uşaqların təhlükəsizliyini təmin etməli və onların ikinci dərəcəli viktimizasiya riski olmadan hüquqi prosesdə iştirakına imkan yaratmalıdır.

**12-ci Rəhbər Prinsip:** Digərləri ilə iş

Hüquqşünas digər təşkilatlarla əməkdaşlıq etməlidir, o şərtlə ki, bu, uşağın mənafelərinə uyğun olsun.

**#hüquqimaarifləndirmə - Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququ baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsində əks olunmuş "mənzil" anlayışını şərh etmişdir**
**03.12.2024**




25 noyabr 2024-cü il tarixli qərarında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, yaşayış sahəsinə daxil olmanın səbəbi, məqsədi və işin faktiki halları nəzərə alınmaqla hüquq tətbiqedən orqanlar tərəfindən şəxsin şəxsi və ailə həyatının toxunulmazlığına təhlükənin yaranmış olub-olmaması baxımından hər bir əmələ hüquqi qiymət verilməlidir.

Həmin qərara əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququnun mahiyyəti və təyinatından irəli gələrək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsi baxımından "mənzil" dedikdə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq daimi və ya müvəqqəti yaşanmasından və mülkiyyət formasından asılı olmayaraq, bir və ya bir neçə şəxs tərəfindən yaşamaq üçün istifadə edilən, şəxsi həyatı (onun məxfiliyini) təmin edən və digər sahələrdən təcrid olunan yaşayış yeri başa düşülür.

Həyətyanı torpaq sahəsi, eləcə də təyinatı yaşayış sahəsi olmasa da yaşayış üçün uyğunlaşdırılmış sahələr Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş meyarlara uyğun olaraq şəxsi və ailə həyatının yaşandığı yer kimi istifadə edildiyi halda, həmin sahəyə şəxsin iradəsi ziddinə daxil olma Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsi üzrə cinayət məsuliyyətinə səbəb ola bilər.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

**Ermənistan Respublikası və onun Silahlı Qüvvələri, Ermənistan Respublikasının bilavasitə hərtərəfli dəstəyi ilə Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ Respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycan Respublikasına qarşı törədilmiş qanunsuz əməllərinə dair cinayət işi məhkəməyə göndərilib**
**17.12.2024**




Azərbaycan Respublikası və xalqına qarşı törədilən təcavüz aktı, işğal, soyqırım, sülh və insanlıq əleyhinə digər cinayətlər, müharibə cinayətləri, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsində cinayət işinin istintaqı aparılıb.

2 may 2024-cü il tarixində Azərbaycan Respublikasının Baş prokurorunun qərarı ilə 1987-ci ilin oktyabr ayından 22 aprel 2024-cü il tarixədək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və Respublikanın ayrı-ayrı istintaq qurumlarında istintaq edilən 1389 cinayət işi bir icraatda birləşdirilib və Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərlik etdiyi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Hərbi Prokurorluğun müstəntiqlərindən ibarət tərkibdə istintaq olunub.

Toplanmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan Respublikası Silahlı Qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittham olunan 15 nəfər - Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan

Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robertiyə cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhv etmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə yenidən təqsirləndirilən şəxs qismində cəlb olunub, hər birinin müdafiə, bildiyi dilindən istifadə etmək və digər prosessual hüquqları təmin edilib. Təqsirləndirilən şəxslər vəkillə təmin edilib.

Habelə, istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Həm ibtidai istintaqın gedişində, həm də ibtidai istintaq tamamlandıqdan sonra təqsirləndirilən şəxslər tərəfindən verilmiş vəsatət və şikayətlərə cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilib, iş üzrə təqsirləndirilən şəxslərə və cinayət prosesinin digər iştirakçılarına ibtidai istintaqın qurtarması barədə məlumat verilib, onlar cinayət işinin bütün materialları ilə tanış edilib.

Eyni zamanda çoxsaylı cinayətlər törətməkdə ittiham olunan digər şəxslər barəsində cinayət işi ayrıca icraata ayrılaraq ibtidai istintaq davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu istintaq işi ilə əlaqədar qeyd olunan epizodlar üzrə şübhəli bilinən, eləcə də şahid qismində bir çox şəxslərin Ermənistan Respublikasının ərazisində olmasına ciddi əsasları rəhbər tutaraq, Ermənistan Respublikasının aidiyyəti orqanlarını əməkdaşlığa dəvət edir.

Cinayət işi üzrə ittiham aktı Azərbaycan Respublikasının Baş Prokuroru tərəfindən 16 dekabr 2024-cü il tarixdə təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilib.

**Sərnişin təyyarəsinin qəzaya uğraması faktı ilə bağlı cinayət işi başlanıb**
**25.12.2024**




"Azərbaycan Hava Yolları" aviaşirkətinə (AZAL) məxsus təyyarənin Aktauda qəzaya uğraması faktı ilə bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 262.3 (hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb.

Cinayət işinin istintaqı ilə bağlı Baş Prokurorluqda yaradılmış istintaq qrupunun üzvləri Baş prokurorun müavini Elmar Camalovun rəhbərliyi ilə Qazaxıstan Respublikasına ezam olunub. Habelə, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən iş üzrə müvafiq istintaq və digər zəruri prosessual hərəkətlərin icra olunması məqsədilə Qazaxıstan Respublikasının Baş Prokurorluğuna Beynəlxalq hüquqi yardım haqqında vəsatət göndərilib.

Qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumları ilə birgə tədbirlər icra olunur.

Azərbaycan Respublikasının Baş Prokurorluğu təyyarə qəzası nəticəsində həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə şəfa tapmasını arzulayır

# Azərbaycan hüquq elminə töhfə verən təsisatlar

*(birinci hissə)*

Qeyd etmək lazımdır ki, hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amillərindən biri elmdir. Elmin dili eynidir, elm hadisələrin və gerçəkliyin mahiyyəti haqqında obyektiv biliklərin və informasiyaların əldə edilməsindən, toplanmasından, sistemləşdirilməsindən, işlənməsindən, yayılmasından və tətbiqindən ibarət olmaqla əsasında təhsilin, mütaliənin və zəhmətin dayandığı kosmik bir fəzadır. Elmə doğru gedən yol əsasən təhsildən keçir.

Azərbaycanda elm və təhsilin tarixi qədim zamanlaradək uzanır. Ən qədim sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanda elmin zəngin tarixi və ənənələri vardır. Azərbaycan alimləri əsrlər boyu antik dünya elmi irsinin müasir Avropaya çatdırılmasında yaxından iştirak edərək Şərqlə Qərb arasında elmin varislik əlaqələrinin qorunub saxlanması işinə dəyərli töhfələr vermiş, elmi təfəkkürün müxtəlif sahələrində meydana gətirdikləri dəyərli əsərlərlə bəşəriyyətin elmi-mədəni yüksəlişinə böyük xidmətlər göstərmişlər.

Elmin və təhsilin inkişafı bu gün də Azərbaycanda dövlət siyasətinin mühüm prioritetlərindən biridir. Son illər dostların köməyi ilə dinamik inkişaf yolunda olan və qələbələrə imza atan Azərbaycan Respublikası regionun lider dövlətinə çevrilmişdir. Azərbaycanın uğurlarının davam etdirilməsi, sürətli sosial-iqtisadi və mədəni-mənəvi inkişafı üçün Prezident İlham Əliyevin elm və təhsil sahəsinə böyük diqqət və qayğısı ilə bir sıra layihələr həyata keçirilmiş, “Təhsilin inkişafı üzrə Dövlət Strategiyası” və “Elmin inkişafı üzrə Milli Strategiya” adlı əhəmiyyətli dövlət proqramları qəbul edilmişdir. Belə strategiyaların əsas xəttini onların məqsədləri müəyyən edir. Başlıca məqsədlər sırasına ölkənin iqtisadi, siyasi, hüquqi, sosial inkişafında elmin rolunun artırılması, xalqımıza məxsus milli-mənəvi dəyərlərlə bağlı istiqamətlərdə bir çox məsələlərin yenidən tədqiqi, elmi potensialdan ölkənin milli təhlükəsizliyinin qorunmasında və cinayətkarlıqla mübarizədə səmərəli istifadə edilməsi, ölkənin texnoloji cəhətdən modernləşdirilməsi, fundamental elmlər üzrə tədqiqatların və innovativ üsulların tətbiqinin genişləndirilməsi, elmi tədqiqat problemləri ilə məşğul olan mütəxəssislərin və peşəkar idarəçilərin yetişdirilməsi, beynəlxalq elmi əlaqələrin dərinləşdirilməsi və səmərəli istifadə edilməsi, Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının gücləndirilməsi daxildir.

Ölkədə elmin inkişafına töhfə verən strategiyalardan biri də Azərbaycan Elm Fondudur. Azərbaycan Respublikasının Prezidenti yanında yaradılmış Elmin İnkişafı Fondunun hüquqi varisi olan Azərbaycan Elm Fondunun yaradılmasında məqsəd ölkədə elmin inkişafına dəstək, gənc nəslin elmi potensialının kəşf edilməsi və elmi fəaliyyətin stimullaşdırılması olmuşdur. Dövlətin sosial-iqtisadi inkişafı, ölkənin müdafiə qabiliyyəti və milli təhlükəsizliyi, cəmiyyətin mədəni-mənəvi tərəqqisi və xalqın rifahı elmin inkişaf səviyyəsi ilə əlaqəli olduğundan belə strategiyaların məqsədləri ölkə üçün önəmlidir. Fond müxtəlif sahələr üzrə fundamental, tətbiqi və eksperimental tədqiqatların və digər elmi tədbirlərin qrant şəklində məqsədli maliyyələşdirilməsi sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir. Qeyd edim ki, Fond tərəfindən həyata keçirilən və hazırda da davam edən qrant müsabiqələrdən biri də 3-cü Azərbaycan-Türkiyə (“AzTürk-3”) birgə beynəlxalq qrant müsabiqəsidir.

Azərbaycan Respublikasının inkişaf konsepsiyasında təhsil sisteminin institusional əsaslarının, infrastrukturunun, bilikli, bacarıqlı və inkişafa meylli insan resurslarının inkişaf etdirilməsi prioritetdir, çünki təhsil insanlara sağlam həyat tərzi, texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək, ölkə üçün faydalı vətəndaş olmaq imkanı verir. Elm və təhsilin qarşılıqlı əlaqədə inkişafı, fərdlərin rifah səviyyəsi və ümumilikdə cəmiyyətə təsiri nəzərə alınaraq dövlət tərəfindən ölkəmizdə təhsilin səviyyəsinə xüsusi önəm verilir. Son illərdə dinamik şəkildə ümumtəhsil müəssisələrinin yenilənməsinə ayrılan vəsait, yeni ali təhsil müəssisələrinin yaradılması, həmçinin müxtəlif təhsil strategiyaları və təhsil proqramları buna əyani sübutdur. “Təhsilin inkişafı üzrə Dövlət Strategiyası” ilə elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində təhsilin praktiki bilik və vərdişlərlə zənginləşməsi hədəflənmiş, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022 – 2026-cı illər üçün Dövlət Proqramı” ilə qoyulan hədəflərə çatmaq məqsədilə insan resurslarının yetişdirilməsi üçün 2000 nəfərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil almaları planlaşdırılmışdır.

Təhsilə dəstək çərçivəsində, həmçinin Təhsil Nazirliyinin tərkibində publik hüquqi şəxslər yaradılmışdır. 2022-ci ildə yaradılmış Təhsilin İnkişafı Fondu belə hüquqi şəxslərdən biridir. Fond təhsilin inkişafı ilə bağlı dövlət siyasətinin formalaşdırılmasında, təhsilin inteqrasiyasının gücləndirilməsində, Azərbaycan Respublikasında təhsil sisteminin inkişafına yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən proqram və layihələrin həyata keçirilməsində, dövlət təhsil müəssisələrinin müasir tələblərə uyğunlaşdırılmasında, təhsilin inkişafını

təşviq edən mexanizmlərin hazırlanmasında və həyata keçirilməsində, təhsil işçilərinin sosial müdafiəsinin gücləndirilməsində iştirak edir.

Hörmətli həmkarlar, qeyd edim ki, türk dövlətləri arasında Azərbaycan ilk universitetin yaranma tarixinə görə ön yerlərdən birini tutur. Azərbaycanda ilk universitet 1919-cu ilin 1 sentyabrında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi "Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında" Qanuna əsasən yaradılmışdır. Qeyd edim ki, universitetin yaradılması haqqında qərar qəbul edilən ən maarifpərvər qərarlardan biridir. Eyni zamanda bir nüansa diqqət çəkmək istəyirəm, belə ki, Qafqaz canişinliyi nəzdində Xüsusi Baş Komitənin sədri, sonralar isə Bakı Dövlət Universitetin ilk rektoru olmuş Vasili İvanoviç Razumovskinin Zaqafqaziya Demokratik Federativ Respublikasının Maarif naziri, Cümhuriyyət dönəmində isə müxtəlif önəmli postları tutmuş Fətəli xan Xoyski ilə Qafqazda – Tiflisdə universitetin açılmasına dəstəklə bağlı görüşü zamanı Xoyski təklifə rəğbətini bildirməklə yanaşı, universitetin Bakıda açılmasını təklif etmişdir. Sonrakı tarixi hadisələr cərəyanında – Zaqafqaziya Demokratik Federativ Respublikasının ləğv edilməsi və Azərbaycanın öz dövlətini qurması sayəsində Bakıda möhtəşəm tarixi maarif hadisəsi yaşana bildi. Qeyd edim ki, bu, türk və müsəlman dünyasının ilk dünyəvi demokratik respublikası olan Azərbaycan Cümhuriyyətinin ilk universiteti idi. Mən bu məsələdə "bir millət iki dövlət" dediyimiz türk qardaşlarımızın fəaliyyətindən bəhs etmək istəyirəm. Belə ki, 1918-ci ildə Azərbaycanda siyasi və ictimai vəziyyət qarışıq idi, dünyada baş verən Birinci Dünya müharibəsi nəticəsində ölkədə sürətlə bir-birini əvəz edən qarışıq daşnak, bolşevik, menşevik hökumətləri quruculuqla deyil, müdaxilələrlə, dağıdıcılıqla, milli, irqi, dini nifrət və düşmənçiliyin salınması ilə məşğul idilər. Batum müqaviləsinin nəticələri əsasında bağlanmış 4 iyun Osmanlı-Azərbaycan Anlaşmasına əsasən Qafqaz İslam Ordusunun Azərbaycana köməyi ilə bu təfriqələrə son qoyuldu və Cümhuriyyət yaradıldı, bu da bir sıra sahələrdə olduğu kimi maarif sahəsində də geniş miqyaslı tədbirlərin həyata keçirilməsinə şərait yaratdı və Bakı Dövlət Universitetinin yaradılması reallaşdırıldı.

Bəşər sivilizasiyasının bütün tarixi mərhələlərində dövlət və hüquq müxtəlif formalarda insanların, sinif və cəmiyyətlərin talelərini idarə edən fəal qüvvə olmuşdur. Bu qüvvə istənilən cəmiyyətdə mühüm əhəmiyyətə malik olmuş, hətta keçmiş dövrün bir sıra mütəfəkkirləri dövlət və hüququ cəmiyyətlə eyniləşdirmişlər. Bütün dünyada idarəetmədən tutmuş məişətdə baş verən ən kiçik hüquqpozmalarda belə hüquqi tənzimetmənin vacibliyi aparıcı elmlərdən olan hüquq elminin tədrisi zərurətini yaradırdı. Hüquq elminin tarixinə diqqət yetirdikdə bir neçə mərhələni fərqləndirmək vacibdir:

- ✓ e.ə. 3000-ci ildən eramızın V əsrinin sonunadək – qədim dövrdə hüquqi biliklər;
- ✓ V əsrinin sonundan XVI əsrin əvvəlinədək – orta əsr dövründə hüquqi biliklər;
- ✓ XVI əsrin əvvəlinədək XIX əsrin sonunadək – yeni dövrdə hüquq elmi;
- ✓ XX-XXI əsrlər – müasir dövrdə hüquq elmi.

Qədim və orta əsrlərdə Azərbaycan hüquq tarixində hüquqi tənzimləmə ilə bağlı bir çox hüquqi sənədlərə rast gəlinir. Bununla yanaşı, Azərbaycan cəmiyyətindəki hüquq, XIX əsrədək o cəmiyyətdəki adət-ənənənin inkişafı ilə bir yerdə inkişaf edirdi. Cəmiyyətin, insanların həyatı dəyişdikcə hüquq da dəyişirdi. Müasir dövrdə dəyişməyən hüququn prinsipləridir, prinsiplərlə bağlı dəyişən isə o prinsiplərə olan münasibətdir. İctimai münasibətlərin tənzimlənməsində, bu münasibətlərdə hüququn aliliyinin müəyyən olunmasında isə dövlətin rolu danılmazdır. Beləliklə, həyatın istənilən sferasında hüquq elmi nəzəri və ya praktiki mövcuddur, belə ki, cəmiyyət inkişaf etdikdcə hadisələrin faktiki tərəfi ilə bağlı halların hüquq normaları ilə tənzimlənməsini tələb edirdi, bu isə hüquqi təfəkkürə malik kadrların tələbatını yaradırdı. Azərbaycanın ilk hüquqşünasları hüquq təhsilini XVIII, XIX əsrlərdə xarici ölkələrdə almışlar. XX əsrdə isə Azərbaycanın ilk milli universitetində yaradılması nəzərdə tutulan fakültələrdən biri də hüquq fakültəsi olmuşdur. Belə ki, hüquq fakültəsinin açılmasının zəruriliyi Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi "Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında" 1 sentyabr 1919-cu il tarixli Qanunda da öz əksini tapmışdır. Qanun Bakıda dörd fakültədən – Şərq şöbəsi olan tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət dövlət universitetinin yaradılmasını nəzərdə tutmuşdur. Bununla belə, yalnız iki fakültə – dörd kursdan ibarət tibb fakültəsi və bir kursdan ibarət tarix-filologiya fakültəsi üçün müvəqqəti ştat və smeta müəyyən edilmişdir. Həmin dövrdə hüquq və fizika-riyaziyyat fakültələrini sırf hüquqşünas kadrların çatışmazlığı və maddi-texniki səbəblərdən yaratmaq mümkün olmamışdır.

Təəssüf ki, yalnız 1927-28-ci dərs ilində Şərq fakültəsinin nəzdində ilk dəfə hüquq şöbəsi fəaliyyətə başlaya bilmişdir. Bu, Azərbaycan xalqının tarixində ilk dəfə olaraq ədliyyə və inzibati-dövlət aparatı orqanlarında çalışa bilən milli hüquqşünas kadrların hazırlanmasının başlanğıcı idi. Müstəqil fakültə isə 1928-ci ildə təşkil edilmişdir. Hüquq fakültəsi müstəqil fakültə kimi fəaliyyətə başlayanda onun on bir kafedrası olmuşdur: hüquq və dövlət nəzəriyyəsi, tarixi və dialektik materializm, hüquq fəlsəfəsi, dövlət hüququ, cinayət hüququ, mülki hüquq, beynəlxalq hüquq, təsərrüfat məişəti tarixi, təsərrüfat hüququ, ticarət-sənaye hüququ və statistika. Hüquq fakültəsinin təşkili məsələsində universitetin ilk azərbaycanlı rektoru Tağı Şahbazinin xidmətlərini xüsusilə qeyd etmək vacibdir. Burada bir

məqamı da qeyd etmək istəyirəm ki, universitet yarandığı gündən əsas tədris dilinin rus dili olmasına, universitetin rəhbərliyinin əksəriyyətin rus millətindən olan maarif nümayəndələrindən təşkil olunmasına baxmayaraq, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində çalışan Azərbaycanın böyük oğlu Heydər Əliyev 1969-cu il noyabrın 1-də universitetin yaradılmasının 50 illiyi münasibəti ilə keçirilən yubiley tədbirində ana dilində nitq söyləyir: "Azərbaycan universitetinin yaranması maarifçi qüvvələrin qələbəsi idi, doğma xalqı maarifləndirmək uğrunda, dünya mədəniyyəti və elm xəzinəsinin qapılarını Azərbaycanın üzünə açmaq uğrunda Azərbaycan oğullarının bir çox illər ərzində apardıqları mübarizənin yekunları idi". Universitetin 1919-cu ildə Cümhuriyyət dönəmində yaradılmasını nəzərə alsaq, bu barədə səsləndirdiyi fikirlərin isə 1969-cu ildə Sovet hakimiyyəti dönəmində, həm də doğma ana dilində səsləndirməsi Ulu Öndərin siyasi xadim kimi fitri istedadının, dövlət xadimi kimi cəsarətinin, ölkəsini qoruyan bir insan kimi sevgisinin birbaşa göstəricisidir. Müdrik bir deyim var: "Siyasətçi insanların bu gününü, dövlət xadimi isə gələcəyini düşünür". Həmin anda doğma dilində çıxış etməklə Ulu Öndər ölkəsinin o gününə, səsləndirdiyi fikirlərlə ölkəsinin keçmişinin qorunmasına, qurub-yaratmaqla gələcəyinə xidmət etmişdir. Tək bir insan neçə zaman kəsiyində bütöv bir amal olmuşdur. Burada, həmçinin qeyd etməliyəm ki, Ulu Öndər ittifaqın müxtəlif ölkələrindən olan hüquqşünas alimlərin Bakı Dövlət Universitetində tədrisə cəlb edilməsinə nail olmaqla Azərbaycanda beynəlxalq hüquq fakültəsinin yaradılmasının əsasını qoymuşdur. Bu, həmin dövrlərdə, eləcə də müstəqillikdən sonra Azərbaycana Bakıda təhsil almış dostlar qazandırmışdır.

Ulu Öndərin hüquq təhsilinə verdiyi töhfələrdən biri də hüquq fakültəsinə qəbulun bütün siniflər üçün əlçatan olması ilə bağlı verdiyi qərardır. Heydər Əliyev özü sonralar bu qərarının obyektiv zərurətdən irəli gəldiyini vurğulayaraq demişdir: "Mən vəzifədə olan şəxslərin, xüsusən hüquq mühafizə orqanlarında çalışan şəxslərin uşaqlarının Azərbaycanda hüquq fakültəsinə qəbul olunmasını məhdudlaşdırdım. İndi mən prokurorluqda, polisdə çalışan bəzi işçilərlə görüşürəm. Onlar deyirlər ki, "Bilirsiniz, biz o vaxt Sizin sayənizdə hüquq fakültəsinə daxil ola bildik. Yoxsa bu fakültəyə girə bilməzdik." Bununla biz həm də xarici ölkələrdə təhsil alıb, müxtəlif dönəmlərdə Azərbaycanı təmsil edən kadrlar yetişdirdik". Ulu Öndər, həmçinin Azərbaycandan kənarda təhsil alan və çalışan həmvətənləri barədə məlumat əldə edir, həm də onları koordinasiya edə bilirdi, bununla da 1918-ci ildən də əvvəl cücərmiş Azərbaycançılıq məfkurəsini yaşadırdı.

Ulu Öndər başda olmaqla bir çox məşhur insanların məzun olduğu Azərbaycanın ilk universiteti olan Bakı Dövlət Universiteti artıq bir əsrlik tarixə malikdir. Hazırda müvafiq səviyyələr üzrə ali təhsil, habelə orta ixtisas və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi-tədqiqatlar aparan hüquqi şəxsdir. Universitetin fəaliyyətinin məqsədi cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla, yüksək ixtisaslı mütəxəssislərin, elmi və elmi-pedaqoji kadrların hazırlanmasını təmin etməkdir.

Universitetin strukturuna rektor və prorektorlar, 17 fakültə, 127 kafedra, 5 mərkəz, 2 sektor, 5 şöbə, laboratoriyalar, mühasibatlıq, mətbəə və nəşriyyat daxildir. BDU-da ali təhsilin hər üç səviyyəsində – bakalavriat, magistratura və doktorantura səviyyələrində kadr hazırlığı Avropa kredit transfer sisteminə uyğun həyata keçirilir. Hazırda universitetin 17 fakültəsində müxtəlif elmi istiqamətlərdə bakalavriaturada 60 ixtisas, magistraturada 197 ixtisaslaşma, doktorantura səviyyəsində 70 ixtisas üzrə 20 minə yaxın tələbə, magistrant və doktorant təhsil alır.

İxtisaslar üzrə tədris prosesinin təşkili ali təhsil pilləsinin dövlət təhsil standartlarına uyğun hazırlanmış və rektor tərəfindən təsdiq edilmiş tədris planları əsasında həyata keçirilir. Təhsil 3 dildə – Azərbaycan, rus və ingilis dillərində aparılır. Universitetdə dünyanın bir çox ölkələrindən 1000-ə yaxın xarici tələbə də təhsil alır. Tədris prosesinə 1500-ə yaxın professor-müəllim heyəti cəlb edilmişdir. Bununla yanaşı, BDU-da Tətbiqi Riyaziyyat və Fizika Problemləri elmi-tədqiqat institutları, Azərbaycan dili, ədəbiyyatı və tarixinin klassik məsələlərini, genetika, nanotexnologiya, nanomateriallarının alınması problemlərini ehtiva edən çox geniş spektrdə mövzular üzrə elmi araşdırmalar aparan 30 elmi-tədqiqat laboratoriyası və mərkəz fəaliyyət göstərir.

Universitetin fəaliyyət istiqamətlərinə bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə genişprofilli ali təhsilli mütəxəssislərin hazırlanması, magistratura təhsil səviyyəsində ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi-tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsi, doktorantura təhsil səviyyəsində yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması, ixtisas və elmi dərəcələrin yüksəldilməsi, orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi, elmin müxtəlif sahələri və istiqamətləri üzrə tədqiqatlar aparılması daxildir.

Universitetin vəzifələrinə ali təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, təhsilalanların zəruri biliyə və həyati bacarıqlara yiyələnməsini təmin etmək, hər bir təhsilalanın intellektual, mədəni və mənəvi inkişafı, təhsilalma tələblərini ödəmək, təlim-tərbiyə prosesini yüksək səviyyədə təşkil etmək və onun monitorinqini həyata keçirmək, təlim-tərbiyə prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə etmək, ali təhsilin müvafiq səviyyələri üzrə yüksəkixtisaslı mütəxəssislər, elmi və elmi-pedaqoji kadrlar hazırlanmasını həyata keçirmək,

dövlət təhsil standartlarına və ayrı-ayrı pillələr və ixtisaslar (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun tədris sənədlərini və tədris prosesinin təşkilinə aid digər sənədləri səlahiyyətləri çərçivəsində hazırlamaq və qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyalar daxildir.

2014–2015-ci tədris ilindən başlayaraq, BDU Elmi Şurasının 09.07.2014-cü il tarixli iclasının qərarı ilə universitetin nəzdində Əlavə Təhsil Mərkəzi yaradılıb. Mərkəzdə əlavə təhsilin bütün istiqamətləri (ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar ali təhsil, dərəcələrin yüksəldilməsi və yaşlıların təhsili) üzrə təhsilin fasiləsizliyini təmin etmək, peşə hazırlığının səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi məqsədi ilə kadr hazırlığının həyata keçirilməsi nəzərdə tutulur.

Avropa ali təhsil məkanına inteqrasiya prosesinin sürətləndirilməsi, ali təhsil sənədlərinin və ixtisasların qarşılıqlı tanınması, təhsilin keyfiyyətinin və tələbələrin akademik mobilliyinin Boloniya Bəyannaməsinin tələblərinə uyğun artırılması istiqamətində universitetin bir çox fakültələrində ingilisdilli qruplar yaradılıb.

Qeyd edim ki, universitet həmçinin birgə elmi əlaqələrinin qurulduğu xarici dövlətlərin aparıcı ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir və türkdilli ölkələrin ali təhsil müəssissələri ilə əməkdaşlığa xüsusi önəm verilir.

Təbii ki, Azərbaycanda elm və təhsil, xüsusən hüquq elminin tədrisi ilə bağlı fəaliyyət hər zaman dinamik inkişaf səviyyəsində olmuş və Bakı Dövlət Universitetindən başqa müxtəlif dövrlərdə yaradılmış daha dörd universitetdə: Dövlət İdarəçilik Akademiyasında, Naxçıvan Dövlət Universitetində, Milli Aviasiya Akademiyasında və “ADA” Universitetində hüquq elmi tədris edilir.

Bundan başqa, hüquq mühafizə orqanlarının nəzdində olan elm-tədris müəssisələrində – Baş Prokurorluğun Elm-Tədris Mərkəzində, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında, Daxili İşlər Nazirliyinin Polis Akademiyasında, Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyasında, Dövlət Sərhəd Xidmətinin Akademiyasında, Dövlət Gömrük Komitəsinin Akademiyasında, Fövqəladə Hallar Nazirliyinin Akademiyasında, Dövlət Vergi Xidmətinin Tədris Mərkəzində aidiyyəti istiqamətlər üzrə hüquq elmi inkişaf etdirilir, ixtisasartırma və elmi-tədqiqat fəaliyyəti həyata keçirilir, həmçinin fəaliyyət istiqamətləri üzrə digər məsələlərin icrası tənzimlənir.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 01.10.2009-cu il tarixli 507 nömrəli Sərəncamına əsasən təsis edilmişdir. Elm-Tədris Mərkəzi Baş Prokurorluğun müstəqil struktur qurumudur.

Mərkəz ali hüquq təhsili almış şəxslərin ixtisasları üzrə müəyyən vəzifələrə təyin edilmələri üçün peşə səviyyəsinin yüksəldilməsini, prokurorluq işçilərinin, həmçinin digər hüquq mühafizə orqanları işçilərinin peşə hazırlığının artırılmasını və qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş digər funksiyaların həyata keçirilməsini təmin edən hüquqi şəxsdir, dövlət əmlakına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, rəsmi emblemə, müvafiq ştamplara və blanklara malikdir. Mərkəzin strukturuna Rəhbərlik, Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili, Strateji planlaşdırma və risklərin müəyyən edilməsi və Elmi-tədqiqat işinin təşkili şöbələri, həmçinin İnformasiya texnologiyaları və tədrisin texniki vasitələri sektoru daxildir. Mərkəzin rəisi Baş prokurorun təqdimatına əsasən Prezident tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunur. Mərkəzin fəaliyyətinə ümumi rəhbərlik Baş prokuror tərəfindən, bilavasitə rəhbərlik Mərkəzin rəisi tərəfindən həyata keçirilir.

Mərkəzin əsas vəzifə və funksiyalarına prokurorluq işçilərinin nəzəri biliklərinin və peşə hazırlığının artırılması məqsədilə tədrisin təşkili funksiyasını həyata keçirmək, prokurorluq orqanlarına işə qəbul olunanları və ilk dəfə qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədləri zəruri peşə bilik və bacarıqlarının, həmçinin nəzəri biliklərinin və peşə hazırlıqlarının artırılması üçün müvafiq tədris təlimlərinə və kurslarına cəlb etmək, prokurorluq işçilərinin attestasiyasının keçirilməsində iştirak etmək, hüquq mühafizə orqanlarının və xarici tərəfdaşların əməkdaşlarının peşə hazırlığının artırılması üçün təlimlər təşkil etmək, xüsusi rütbə nəzərdə tutulmayan vəzifələrdə çalışan işçilərin peşə hazırlığının artırılması işini təşkil etmək, elmi-nəzəri praktiki tədqiqatların aparılması funksiyasını həyata keçirmək, tədris-metodiki ədəbiyyatın hazırlanmasını təmin etmək, həmçinin prokurorluğun digər struktur və müstəqil qurumlarına metodiki ədəbiyyatın hazırlanmasında köməklik etmək, Elmi-Məsləhət Şurasının, Etik Davranış Komissiyasının, “İlin ən yaxşı prokuroru”, “İlin ən yaxşı müstəntiqi” və “İlin ən yaxşı dövlət ittihamçısı” müsabiqə komissiyalarının katibliyi funksiyalarını həyata keçirmək, dövri elmi-praktiki jurnalların dərc olunmasını təmin etmək və qanunvericiliklə nəzərdə tutulmuş digər səlahiyyətlər daxildir.

Elmi-məsləhət Şurası Baş prokurorun yanında məşvərətçi orqan olmaqla prokurorluğun fəaliyyət istiqamətləri, o cümlədən ibtidai araşdırmanın aparılması və dövlət ittihamının müdafiəsi üzrə vahid təcrübənin formalaşdırılmasının, qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin, hüquq yaradıcı və hüquq tətbiqedici fəaliyyətin elmi-nəzəri əsaslarını müəyyən etməklə, Azərbaycan Respublikasının Konstitusiyası və “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu ilə prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə elmi-metodiki köməklik göstərir. Şuraya Baş prokuror sədrlik edir. Baş prokuror şuranın tərkibini - sədrin müavinini, məsul katibini və

üzvlərini – təsdiq edir. Baş prokuror şuranın üzvlərini hüquqşünas alimlərin, nüfuzlu hüquqşünasların, prokurorluğun və digər hüquq mühafizə orqanlarının yüksək ixtisaslı və təcrübəli işçilərinin sırasından seçir. Şuranın qərarları tövsiyə xarakteri daşıyır və iclaslarda iştirak edən şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Şuranın qərarlarının təcrübədə istifadə edilməsi və prokuror nəzarəti təcrübəsinin təkmilləşdirilməsi məqsədilə zəruri hallarda Baş Prokurorluğun struktur qurumlarına və tabe prokurorluqlara göndərilməsi nəzərdə tutulmuşdur.

Etik Davranış Komissiyası etik davranış, maraqlar toqquşmasının qarşısının alınması, şəffaflıq və korrupsiyaya qarşı mübarizə qaydalarının pozulmasına dair məlumata və ya xidməti yoxlamaya dair toplanmış materiala etik davranış icraatında baxaraq intizam tənbehinin tətbiq olmasına dair rəy verməklə prokurorluq işçilərinin qeyri-etik davranışına görə intizam məsuliyyətinə cəlb edilməsi məqsədilə təsis olunmuş ad hoc qurumdur. Baş prokuror Komissiyanın yeddi üzvünü Baş Prokurorluğun Kollegiyasında seçilmiş namizədlər sırasından təyin edir. Komissiyaya Baş prokurorun müavini sədrlik edir, sədrin müavini isə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisidir. Komissiya prokurorluq işçisi barəsində müvafiq məlumata və ya xidməti yoxlama üzrə toplanmış materiala qanunçuluq, kollegiallıq, ədalət, qərəzsizlik və obyektivlik prinsipləri əsasında etik davranış icraatında baxaraq nəticəsi üzrə Baş prokurora təqdimat verir. Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksinin təcrübədə tətbiqi vəziyyəti, o cümlədən Etik Davranış Komissiyasının qəbul etdiyi qərarlar dövri olaraq Mərkəzdə ümumiləşdirilməklə risk kateqoriyaları müəyyən edilir. Bunun nəticəsində müəyyən edilmiş presedentlər nəzərə alınaraq, Mərkəz tərəfindən Etik Davranış Kodeksinin tətbiqinə dair praktiki təlimatlar və etik dilemma nümunələrinin hazırlanması və Baş prokurorun razılığı ilə bu sənədlərin prokurorluq işçilərinə elan edilməsi nəzərdə tutulmuşdur.

"İlin ən yaxşı prokuroru", "İlin ən yaxşı müstəntiqi" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqə Komissiyaları prosessual nəzarətin, ibtidai istintaq fəaliyyətinin, eləcə də məhkəmələrdə dövlət ittihamının müdafiəsi və məhkəmə qərarlarının icrası qaydasında icraatda iştirak üzrə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətinin daha da yaxşılaşdırılması, işin səmərəliliyinin artırılması, prokurorluq işçilərinin peşəkarlıqlarının, motivasiyalarının yüksəldilməsi, müsbət iş təcrübəsinin yayılması, kadr ehtiyatının formalaşdırılması məqsədilə yaradılmış ad hoc qurumlardır. Baş prokuror komissiyaların üzvlərini Baş Prokurorluğun Kollegiyasında seçilmiş namizədlər sırasından təyin edir. Komissiyalara Baş prokurorun müavini sədrlik edir. Müsabiqə komissiyaları hər ilin yekunlarına əsasən keçirilir və müsabiqə qaliblərinə müvafiq diplomlar təqdim edilir. Müsabiqələrin keçirilməsi ilə əlaqədar Mərkəzə təqdim edilmiş məlumatlar ümumiləşdirilərək Müsabiqə Komissiyalarına təqdim edilir.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən, həmçinin "Baş Prokurorluğun Elektron Kitabxanası" elektron informasiya sistemi yaradılmışdır. Bu kitabxananın yaradılması prokurorluq işçilərinin kitabxana fondunda olan nəşrlərlə asanlıqla tanış olmasına, lazımi məlumatların dərhal və çevik əldə olunmasına xidmət etməklə yanaşı işin keyfiyyətinə müsbət təsir göstərməsini hədəfləmişdir. Elektron Kitabxanada hal-hazırda 1000-ə yaxın nəşrin və hüquq ədəbiyyatının elektron versiyası mövcuddur.

Mərkəz tərəfindən, həmçinin elm və təhsilin inkişafı məqsədilə ölkə daxili və ölkə xarici tərəfdaşlarla Əməkdaşlıq haqqında memorandumlar imzalanmışdır. Ölkə daxili tərəfdaşlar arasında belə memorandumlar hüquq mühafizə orqanlarının tədris mərkəzləri və hüquq təhsili verən ali təhsil müəssisələri ilə bağlanır. Xüsusilə qeyd edilməlidir ki, xarici tərəfdaşlar sırasında türk dövlətləri üstünlük təşkil edir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu.
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu.
3. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası.
4. "Elmin inkişafı üzrə Milli Strategiya".
5. "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası".
6. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022 – 2026-cı illər üçün Dövlət Proqramı".
7. Baş Prokurorluğun "İşin Təşkili Qaydaları".
8. "Heydər Əliyev və Azərbaycanın hüquq-mühafizə orqanları" kitabı. Şəmsəddin Əliyev, Emil Nəsirli, Fikrət Nağıyev. Bakı, 2019, 776 səhifə.
9. "Heydər Əliyev Azərbaycan elminin keşiyində: sənədlər və materiallar" II cild. AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu. Bakı, 2013, 637 səhifə.
10. "Təqdim edirik: Elm-Tədris Mərkəzi" Baş Prokurorluğun Elm-Tədris Mərkəzi. Bakı, 2017, 184 səhifə.
11. "Prokurorluq orqanlarında peşə hazırlığı" metodiki vəsaiti" Baş Prokurorluğun Elm-Tədris Mərkəzi. Bakı, 2022, 157 səhifə.


**İradə Xəlilova,**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin**
**böyük prokuroru, ədliyyə müşaviri**

# Hərbi münaqişələr zamanı insan hüquqlarının müdafiəsi problemləri

İnsan yer üzünün əşrəfi, cəmiyyətin ali dəyəridir. İnsan hüquqları isə ayrılmazdır. Heç kim insanı onun təbii hüquqlarından məhrum edə bilməz. Yaşamaq hüququ da insanın ayrılmaz və təbii hüququdur. Bəlkə də, təbiətin insana verdiyi ən yüksək hüquq onun yaşamaq hüququdur. Digər hüquqlar isə təbiətin bizə verdiyi bu ali hüququn əsasında inkişaf edir. İnsan yaranışından ölümünə qədər ona məxsus olan hüquq və azadlıqları ilə yaşayır. İrqindən, dinindən, yaşından və cinsindən asılı olmayaraq yer üzündə hər bir insanın yaşamaq hüququ var. Demək, insan hüquqlarının təməlində yaşamaq hüququ dayanır. Əgər insanın yaşamaq hüququ pozularsa, onun bütün hüquqları pozulmuş olur. Həyatda olmayan insanın hüquqlarının yalnız bir qismi onun varislərinə, vərəsələrinə ötürülür.

Bəli, yaranışından kamil olan insanın hüquq və azadlıqları bütövdür, toxunulmazdır, sərbəstdir. Hətta hər hansı səbəbdən cinayət törədərək həbsxanaya düşən insanın da öz hüquqları var. Bəs, təbiətin insana bəxş etdiyi yaşamaq hüququ və bu hüquq üzərində bərqərar olan digər hüquqları müharibələr və hərbi münaqişələr zamanı necə qorunur?

Bütün beynəlxalq sənədlər, dövlətlərin konstitusiya və milli qanunvericilikləri insan hüquqlarına, xüsusən də onun yaşamaq hüququna böyük önəm verir.

BMT-nin "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməsində bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqət hissinin, onların bərabər və ayrılmaz hüquqlarının tanınmasının azadlıq, ədalət və ümumi sülhün əsası olduğunu nəzərə alır. Ümumi Bəyannamədə qeyd edilir ki, bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar. Onların şüurları və vicdanları var və bir-birlərinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar. Hər bir şəxs irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və ya sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq, bu Bəyannamədə elan olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır. Bundan əlavə, həmin şəxsin mənsub olduğu ölkənin və ya ərazinin siyasi, hüquqi və beynəlxalq statusuna görə, həmin ərazinin müstəqilliyindən, qəyyumluq altında olmasından, özünü idarə edib-etməməsindən və ya suverenliyinin hər hansı şəkildə məhdudluğundan asılı olmayaraq heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Hər bir şəxsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var.

Göründüyü kimi, insan hüquqlarının müdafiəsinə dair ən yüksək beynəlxalq sənəd olan "İnsan hüquqları haqqında" Ümumi Bəyannamə hər bir şəxsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququnu özünün 3-cü maddəsində təsbit etmişdir. Bütün xalqların və dövlətlərin üzərinə isə Ümumi Bəyannaməyə əməl edilməsi öhdəlik kimi qoyulmuşdur. Ancaq, bütün hallarda dövlət təkcə öz vətəndaşlarının deyil, bütün insanların hüquqlarına, o cümlədən yaşamaq hüququna hörmətlə yanaşmalı və onu təmin etməlidir. İnsanlıq naminə edilmiş bu hərəkəti isə beynəlxalq humanitar hüququn əsas prinsipi hesab etmək olar.

"İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasında insan hüquqlarına hörmət olunması öhdəliyindən bəhs edilərək qeyd edilir ki, Razılığa gələn Yüksək Tərəflər onların yurisdiksiyasında olan hər kəs üçün bu Konvensiyanın I bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər. Qeyd edilən Konvensiyanın ikinci maddəsində isə yaşamaq hüququndan bəhs edilir; Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa, həyatından məhrum edilə bilməz. İnsanların yaşamaq hüququnun təmin edilməsinin təkcə dövlətin yurisdiksiyası ilə məhdudlaşdırmaq olmaz. Çünki, hərbi münaqişələr zamanı insanların hüquqlarına yönələn ictimai-təhlükəli əməllər sülh və insanlıq əleyhinə yönələn əməllər hesab olunur. Azərbaycan Respublikası da bu Konvensiyaya 25 dekabr 2001-ci il tarixdə qoşulub.

BMT-nin Baş Məclisinin 16.12.1966-cı il tarixli Qətnaməsi ilə qəbul edilmiş "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 6-cı maddəsində də qeyd edilir ki, *"Yaşamaq hüququ hər bir insanın alınmaz hüququdur. Bu hüquq qanunla qorunur. Heç kim özbaşınalıqla həyatdan məhrum edilə bilməz".* Azərbaycan Respublikası isə bu Pakta 29 iyun 2001-ci il tarixdə qoşulub.

Yuxarıda qeyd etdiyim hər üç beynəlxalq sənəd bütün dövlətlər qarşısında hər bir şəxsin irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və ya sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq ən ali hüquq olan yaşamaq hüququnu dövlətlər üzərində öhdəlik kimi qoyur. İnsan hüquqları sahəsində beynəlxalq öhdəliklər isə, əsas etibarı ilə, müqavilə mənşəlidir.

Biz, dövlətlər üzərinə qoyulan bu öhdəlikləri həmin dövlətlərin xalqları və onların yurisdiksiyası altında olan ərazilərin xalqlarına şamil etməklə kifayətlənsək, yer üzərində yaşayan bütün xalqlara şamil etməsək, yuxarıda qeyd olunan beynəlxalq sənədlərdə təsbit olunan insan hüquqlarından və onun yaşamaq hüququndan necə bəhs edə bilərik? Yəni, insan həyatının ali sosial dəyəri təkcə onun qurduğu dövlət tərəfindən deyil, bütün dövlətlər tərəfindən təmin edilməlidir.

Avropa İnsan Hüquqları Konvensiyasının "Fövqəladə hallar zamanı məhdudlaşdırma" adlanan 15-ci maddəsində qeyd edilir ki, müharibə və ya millətin həyatını

təhdid edən digər fövqəladə hallar zamanı Razılığa gələn Yüksək Tərəflərdən hər hansı biri onun beynəlxalq hüquqa müvafiq digər öhdəliklərinə zidd olmamaq şərti ilə, yalnız vəziyyətin fövqəladəliyinin şərtləndirə biləcəyi səviyyədə bu Konvensiya üzrə öhdəliklərindən geri çəkilən tədbirlər görə bilər. Bu müddəa, qanuni müharibə əməliyyatları nəticəsində ölüm halları istisna olmaqla, 2-ci maddənin (Yaşamaq hüququ) və ya 3-cü maddənin (İşgəncələrin qadağan olunması) müddəalarından, 4-cü maddənin (Köləliyin və məcburi əməyin qadağan olunması) 1-ci bəndinin və 7-ci maddənin (Qanunda nəzərdə tutulmamış cəzanın yolverilməzliyi) müddəalarından geri çəkilməyə əsas vermir. Bu geri çəkilmə hüququndan istifadə edən Razılığa gələn hər hansı Yüksək Tərəf gördüyü tədbirlər və onların səbəbləri haqqında Avropa Şurasının Baş katibini tam məlumatlandırır. O, həmçinin belə tədbirlərin dayandırılması və Konvensiyanın müddəalarının yenidən tam həyata keçirilməyə başlanması haqqında Avropa Şurasının Baş katibinə məlumat verir.

Konvensiyanın 15-ci maddəsinə əsasən qeyd edə bilərik ki, söhbət burada "qanuni müharibə əməliyyatları"ndan, yəni müdafiə əməliyyatlarından, Vətənin və dövlətin müdafiəsindən, Vətən müharibəsindən gedir, işğalçı və istilaçı müharibədən deyil.

Beynəlxalq münaqişələrin dinc yolla həll edilməsinin təsbit edildiyi beynəlxalq sənədlər kimi "Beynəlxalq toqquşmaların dinc yolla həlli haqqında" 1907-ci il tarixli Haaqa Konvensiyası (1 – 2 maddə), "Müharibədən milli siyasət aləti kimi imtina haqqında" 1928-ci il tarixli Brian-Kelloq Paktı, "Beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yarada bilən mübahisə və şəraitlərin qarşısının alınması və aradan qaldırılması və bu sahədə BMT-nin rolu haqqında" 1998-ci il tarixli Bəyannamə və sair xüsusilə əhəmiyyətlidir.

Sülh, barış bəşəriyyətin ehtiyac duyduğu ən qiymətli vasitə olmaqla yanaşı, həm də Birləşmiş Millətlər Təşkilatının ali vəzifəsidir. BMT-nin Bəyannaməsində deyilir ki, *"Sülh danışıqlarımızın aparıcı qüvvəsidir. Sülh, həm də sülhməramlı fəaliyyət və preventiv diplomatiyadan tutmuş insan haqları və inkişafın genişləndirilməsinə qədər dünyanın hər yerində gördüyümüz bütün işləri birləşdirən bir məfhumdur"*. Sülh hər bir cəmiyyətin, ümumiyyətlə, bəşəriyyətin ən çox arzu etdiyi dəyərlərdən biridir. Azərbaycan Respublikası da bu anlayışı hər zaman üstün tutmuşdur. Bəs, Birləşmiş Millətlər Təşkilatı dünyada sülhün bərqərar olması üçün hansı təsirli tədbirlər görə bilir? Təəssüf ki, son 30 ildə biz bunun heç bir real nəticəsini görə bilmədik.

Əgər, bütün qanunlar insanların layiqli həyat yaşamasına xidmət edirsə, beynəlxalq sənədlər də həm sülh, həm də müharibə dövründə insanların hüquq və azadlıqlarının müdafiəsinə xidmət etməlidir. Yaşamaq hüququnu təkcə dövlət sərhədləri daxilində yox, hərbi münaqişələr zamanı da təmin etmək lazımdır. Əgər dövlətin yurisdiksiyası altında olan bir neçə insanın müəyyən qanunazidd əməllər nəticəsində hüququ pozulursa, hərbi münaqişələr zamanı bu minlərlə, milyonlarla insana şamil edilir. Təəssüf ki, insan hüquqlarına dair beynəlxalq sənədlərə imza ataraq müəyyən öhdəliklər götürən dövlətlər amansız müharibələr nəticəsində milyonlarla günahsız insanın yaşamaq və digər hüquqlarına zərbə vurur. İlk növbədə hərbi münaqişələr zamanı insan hüquqlarının müdafiəsi bu gün bəşəriyyəti düşündürməlidir. Çünki, mövcud beynəlxalq sənədlər hərbi münaqişələr zamanı insan hüquqlarının müdafiəsinə təsirli tədbirlər görə bilmir. Beynəlxalq Konvensiyalar hərbi münaqişələr zamanı insan hüquqlarını təmin edə bilmir. Bu gün insanların yaşamaq hüququnu qeyd-şərtsiz təmin edəcək yeni və imperativ beynəlxalq Konvensiyalara ehtiyac var.

Sülhün, barışın və əmin-amanlığın əksi olan müharibə, dövlətlər, tayfalar, siyasi qruplaşmalar və sairə arasında mütəşəkkil silahlı qarşıdurma, hərbi əməliyyatlar forması almış münaqişədir. Ərəb mənşəli olan "müharibə" sözü savaş, dava, hərb, vuruşmaq və döyüşmək mənasını ifadə edir.

Dəhşətli müharibələr bəşəriyyət tərəfindən nə qədər pislənilsə də, tarixdə elə bir ilə rast gəlmək olmaz ki, həmin il yaşadığımız dünya müharibəsiz ötüşsün. Dünyada sayı bilinməyən müharibələrdən bəziləri insanlıq tarixi üçün dəhşətlərlə xatırlanır. Çünki bu müharibələrin nəticələri milyonlarla insanın taleyini və dövlətlərin gələcəyini dəyişir, tarixə unudulmaz hadisələr olaraq yazılır. Bu müharibələr zamanı həm də milyonlarla insan həlak olur. Aparılan müharibələr isə özlüyündə zaman-zaman müəyyən müharibə adətləri, müharibə qanunları müəyyən edib. Müharibənin də öz qanunları var! Hər birimiz bu sözü son otuz ildə daha çox eşitmişik.

Bəs, milyonlarla insanın həyatına son qoyan bu müharibələrin qanunları və adətləri nədən ibarətdir? Müharibə adətlərinə əməl edilərsə, insanların hüquqları hansı həddə qoruna bilər?

Müharibə dövründə belə döyüşən tərəflərin hərəkətlərinə, məsələn, müharibə əsirləri ilə rəftar, mülki əhalinin hədəf seçilməsi və yaralılara tibbi yardım göstərilməsi ilə bağlı məhdudiyyətlər qoyan müəyyən qanunlar mövcuddur. Yəni, ancaq sizinlə vuruşanlarla vuruşun!

Bir sözlə, müharibə qanunları və adətləri, müharibə aparılması ilə əlaqədar olaraq dövlətlər arasında münasibətləri tənzimləyən beynəlxalq hüquq normaları və prinsiplərinin məcmusudur. Bu qanun və adətlər isə ən qədim dövrlərdən təşəkkül tapmışdır.

Beynəlxalq humanitar hüququn ən ciddi pozuntuları müharibə cinayətləri hesab edilir. Müharibə cinayətləri fərdi şəxslərin cinayət məsuliyyətinə cəlb edilə biləcəyi cinayət növləridir. XIX yüzillikdə isə müharibə aparmaq qaydaları haqqında beynəlxalq aktlar qəbul edilmişdir.

12.08.1949-cu il tarixli Cenevrə Konvensiyaları və onlara 1977 və 2005-ci illərdə əlavə edilmiş üç pro-

tokol Beynəlxalq Humanitar Hüququn əsas sənədləri sayılır. Silahlı münaqişələr hüququ kimi tanınan beynəlxalq humanitar hüquq da, öz növbəsində, iki qola ayrılır ki, buna Cenevrə hüququ və Haaqa hüququ aid edilir. Azərbaycan hökuməti də 1993-cü ildən bu Konvensiyalara qoşulmuşdur.

Cenevrə Konvensiyası döyüşdə artıq iştirak etməyən hərbçilərin və döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərin, yəni mülki əhalinin mühafizəsinə yönəlir. 1949-cu ildə İsveçrənin Cenevrə şəhərində keçirilən konfransda qurudakı silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında, dənizdəki silahlı qüvvələrdə yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların vəziyyətinin yaxşılaşdırılması haqqında, hərbi əsirlərlə rəftar haqqında və müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında 4 Konvensiya qəbul edilmişdir

Bütövlükdə isə, bu Konvensiyalar və onlara əlavə edilmiş protokollar silahlı münaqişələr zamanı yaralı, xəstə və gəmi qəzasına uğramış hərbçilərin vəziyyətini yaxşılaşdırmaq, hərbi əsirlərə baş çəkmək, mülki əhaliyə köməklik göstərmək və ümumilikdə, humanitar hüquq ilə mühafizə edilən şəxslərə qarşı müvafiq rəftarı təmin etmək hüququnu müəyyən edir. 23 aprel 1993-cü ildən Azərbaycan Respublikası da 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına qoşulmuşdur.

BMT-nin Baş Məclisinin 14.12.1974-cü il tarixli Qətnaməsi ilə qəbul edilmiş “Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında bəyannamə”də qeyd edilir ki, hamılıqla və şəksiz məhkum olunmasına baxmayaraq, bir çox xalqların hələ də milli azadlıq hərəkatlarını qəddarcasına yatıran, qadınlar və uşaqlar da daxil olmaqla, ağalıqları altında olan əhaliyə ağır itkilər və saysız-hesabsız iztirablar gətirən müstəmləkəçilik, irqçilik, yadelli və əcnəbi ağalığı boyunduruğu altında olması faktından dərindən narahat olaraq, əsas azadlıqların və insan şəxsiyyəti ləyaqətinin əvvəlki kimi ciddi pozuntulara məruz qalması, eləcə də, əcnəbi müstəmləkə ağalığını və irqi ağalığı həyata keçirən dövlətlərin əvvəlki kimi beynəlxalq humanitar hüququ pozmaları ilə bağlı dərindən təəssüfləndiyini bildirərək, fövqəladə vəziyyətlərdə və silahlı münaqişələr dövründə qadınların və uşaqların müdafiəsi haqqında bu Bəyannaməni təntənəli surətdə elan edir və təşkilatın bütün üzv dövlətlərini bu Bəyannaməyə ciddi əməl etməyə çağırır. Mülki əhaliyə, xüsusilə, onun ən müdafiəsiz hissəsi olan qadınlara və uşaqlara, saysız-hesabsız əzab-əziyyət gətirən hücum edilməsi və onun bombardman olunması qadağandır və belə hərəkətlər pislənməlidir.

Hərbi əməliyyatların gedişində kimyəvi və bakterioloji silahdan istifadə edilməsi 1925-ci il Cenevrə protokolunun, 1949-cu il Cenevrə konvensiyalarının və beynəlxalq humanitar hüquq prinsiplərinin ən biabırçı şəkildə pozulması deməkdir və müdafiəsiz qadın və uşaqlar daxil olmaqla, mülki əhali arasında ən böyük itkilərə səbəb olur və qətiyyətlə pislənməlidir.

Bütün dövlətlər qadınların və uşaqların müdafiəsi üçün mühüm təminatlar verən 1925-ci il Cenevrə protokoluna və 1949-cu il Cenevrə konvensiyalarına, həmçinin, silahlı münaqişələr dövründə insan hüquqlarına hörmət edilməsinə aid digər beynəlxalq hüquq aktlarına müvafiq öhdəliklərini tam yerinə yetirməlidirlər.

Silahlı münaqişələrdə, əcnəbi ərazilərdəki hərbi əməliyyatlarda və ya hələ də müstəmləkə ağalığı altında olan ərazilərdəki hərbi əməliyyatlarda iştirak edən dövlətlər qadınları və uşaqları müharibənin dağıdıcı nəticələrindən qorumaq üçün bütün səyləri göstərməlidirlər. Təqib, işgəncə, cəza tədbirləri, alçaldıcı davranış və zorakılıq, o cümlədən, əhalinin qadınlardan və uşaqlardan ibarət hissəsinə qarşı bu kimi tədbirlərin qadağan edilməsinə nail olmaq üçün bütün zəruri addımlar atılmalıdır.

Müharibə edən tərəflərin hərbi əməliyyatların gedişində və ya işğal edilmiş ərazilərdə, həbsxanaya salma, işgəncə vermə, güllələmə, kütləvi həbsə alma, kollektiv cəzalandırma, mənzilləri dağıtma və yaşayış yerindən zorla qovma da daxil olmaqla, qadınlara və uşaqlara qarşı törətdikləri bütün repressiya və qəddarlıq, insanlıqdan kənar davranış formaları cinayətkar hərəkətlər sayılır.

Mülki əhaliyə mənsub olan və sülh, öz müqəddəratını təyin etmə, milli azadlıq və istiqlaliyyət uğrunda mübarizədə fövqəladə vəziyyətlər və hərbi münaqişələr şəraitinə düşən və ya işğal olunmuş ərazilərdə yaşayan qadınlar və uşaqlar, ev-eşikdən, qidadan, tibbi yardımdan, yaxud insan hüquqları haqqında ümumi bəyannamənin, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın, İqtisadi Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın, Uşaq Hüquqları Bəyannaməsinin, yaxud beynəlxalq hüququn digər aktlarının müddəalarına müvafiq olaraq digər ayrılmaz hüquqlardan məhrum edilməməlidirlər.

Ancaq tarixi reallıqlar göstərdi ki, Cenevrə Konvensiyalarının tələbləri hərbi münaqişələr zamanı heç də insan hüquqlarını təmin edə bilmir. Ermənistan dövlət tərəfindən xalqımıza qarşı qadağan olunan bu tədbirlər çox amansızla həyata keçirildi. Bu Konvensiyaların da təkmilləşməyə ehtiyacı var.

1954-cü ildə Haaqa konfransında qəbul edilmiş konvensiya hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunması, arxitektura, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin müdafiə edilməsini iştirakçı dövlətlərin qarşısında vəzifə kimi qoyur. Konvensiyanın iştirakçıları özlərinin qanunvericiliyində elə qanunlar qəbul etməlidir ki, bu konvensiya onun şərtlərini pozan və pozmağa göstəriş verənləri cəzalandıra bilsin. Haaqa Konvensiyasında bu Konvensiyanın tətbiq edilməsi qaydalarını müəyyən edən icraedici reqlament və işğal edilmiş ərazilərdən mədəni dəyərlərin çıxarılmasını qadağan edən protokol qəbul edilmişdir. Haaqa Konvensiyası

eyni zamanda, hərbi əməliyyatlar zamanı döyüşən tərəflərin hüquq və vəzifələrini müəyyən edir və düşmənə qarşı istifadə edilən vasitələri məhdudlaşdırır. ***Ermənistan tərəfindən bu Konvensiyanın tələbləri də kobud surətdə pozulmuşdur.***

Həmçinin silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normaları BMT-nin 12.08.1949-cu il tarixli "Döyüşən orduda yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" Konvensiyası və bu Konvensiyanın əlavə protokolları, "Hərbi əsirlərlə rəftar haqqında" Konvensiyası və bu Konvensiyanın əlavə protokolları, "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" Konvensiyası və bu Konvensiyanın əlavə protokolları, BMT-nin 14.05.1954-cü il tarixli "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" Konvensiyası ilə tənzimlənir. Azərbaycan Respublikası 21 aprel 1993-cü ildə bu Konvensiyalara qoşulub.

***Sülh və insanlıq əleyhinə olan cinayətlərin demək olar ki, əksər hissəsi mənfur qonşumuz tərəfindən xalqımıza qarşı törədilmişdir.*** Son 200 ildə Azərbaycan xalqına qarşı ermənilər və onların havadarları tərəfindən məqsədyönlü siyasət həyata keçirilməklə, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və siyasi müstəqilliyi əleyhinə təcavüz cinayətləri, qədim və tarixi torpaqlarımızda bütövlükdə XX və XXI əsrlərdə yerli əhaliyə qarşı soyqırımı, insanlıq əleyhinə cinayətlər, müharibə və terror cinayətləri törədilmişdir. Ən acı həqiqət isə bundan ibarətdir ki, bütün bu beynəlxalq hüquqazidd əməllər Ermənistan dövləti tərəfindən 30 il davam etdirildi, törədilən cinayətlər cəzasız qaldı.

Xalqımıza qarşı törədilən cinayətlər ilk növbədə beynəlxalq hüquq elmi müstəvisində araşdırılmalı, baş verən cinayətlər üzrə ədalətli məsuliyyət tədbirləri tətbiq olunmalı, bir sözlə baş verən cinayətlərə görə siyasi və ya hüquqi formada məsuliyyət labüd olmalıdır. Lakin, çox təəssüf ki, yuxarıda qeyd olunan beynəlxalq sənədlər hərbi münaqişələr zamanı insan hüquqlarını qorumağa qadir deyil.

2020-ci il 27 sentyabr tarixdən başlayaraq Ermənistana qarşı aparılan əks-hücum əməliyyatları zamanı beynəlxalq humanitar hüququn yuxarıda sadaladığımız bütün tələbləri təcavüzkar Ermənistan tərəfindən pozulub.

Bu bir tarixi həqiqətdir ki, terror, soyqırımı törətmə, başqalarının torpağını işğal etmə, mədəni xalqların mədəniyyətini, incəsənətini, süfrəsindən oğurlamaq ermənilər üçün həyat tərzidir.

Ötən əsrin 80-ci illərinin sonları 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20 % işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Birinci Qarabağ müharibəsinin iştirakçısı kimi Ermənistan tərəfindən aparılan təcavüzkar müharibəyə qarşı mən də döyüşmüşəm.

Bu gün Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında erməni vətəndaşları tərəfindən törədilmiş cinayət hadisələri ilə bağlı keçmiş illərdə başlanıb icraatı dayandırılmış onlarla cinayət işi mövcuddur. Həmin işlər isə 1988-ci ildən başlayaraq Azərbaycan vətəndaşlarına qarşı törədilmiş sülh və insanlıq əleyhinə olan ən ağır cinayətlərdir.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822 (30.04.1993-cü il), 853 (29.07.1993-cü il), 874 (14.10.1993-cü il) və 884 (12.11.1993-cü il) saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir. Bu qətnamələrin zəif cəhətləri isə həmin sənədlərin çağırış xarakterli olması, mövcud vəziyyəti pisləməklə kifayətlənməsi idi.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutdular. Törətdikləri növbəti hərbi təxribat nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olduğu, ölkəmizin milli təhlükəsizliyinə qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlamışdır.

Azərbaycan Respublikasının Hərbi doktrinasına əsasən, Ermənistanın Azərbaycan Respublikası ərazisinin bir hissəsini işğal altında saxlaması və problemin siyasi yolla tənzimlənməsi çərçivəsində işğal etdiyi əraziləri azad etməkdən imtina etməsi səbəbindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla bütün lazımi vasitələrdən istifadə etmək hüququnu Azərbaycan Respublikası özündə saxlayır. Azərbaycan Respublikası xalqın və ölkənin milli maraqlarını təmin etməyə qadir müstəqil, demokratik, hüquqi, dünyəvi, unitar dövlət olaraq, öz inkişafı na-

minə milli təhlükəsizlik siyasətini müəyyən edir və həyata keçirir.

Torpaqlarımızı işğaldan azad edən Müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistanın silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuşdur. Düşmən ordusu döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar.

Ancaq, Azərbaycan əsgəri erməni sivil vətəndaşlarına heç bir qeyri-qanuni hərəkət göstərmədi, əksinə bəzən onlara humanitar mövqeyini nümayiş etdirdi. İnancımız və vicdanımızla bu müharibədə dünyaya insanlıq dərsi keçdik. Kilsə oğruları olan ermənilərdən fərqli olaraq, nə dini abidələrə, nə də dini ocaqlara toxunduq. Nə əsir düşənlərə, nə yaşlıya, nə qadına, nə də köməksiz insanlara silah tuşladıq. Müharibə bölgəsində qalmış yaşlı erməniləri belə özlərinə təhvil verdik. Ermənilərdən fərqli olaraq biz köməksiz insanların iztirablarından zövq almadıq. Azərbaycan əsgəri təkcə torpaqlarını işğaldan azad etmədi, həm də minlərlə körpənin, qocanın, qadının qisasını aldı, pozulan hüquqlarımızı bərpa etdi. Biz Xocalı kimi soyqırımı yaşamağımıza baxmayaraq qisas hissimizi yalnız döyüş meydanına saxladıq. Xocalıdakı körpələrin, Bərdəyə, Gəncəyə atılan raketlərin, orda vəhşicəsinə ölən körpələrin qisasını erməni ordusunu darmadağın edərək aldıq.

Müharibədən bir məqamı xatırlayaq. Ermənilər Şuşada körpə uşağı qoyub qaçmışdılar. O uşağı tapan Azərbaycan əsgəri ona mərmi yox, şirniyyat yedirtdi. Düşmən körpəsi olsa belə onu bağrına basdı. Beləcə, dünya birliyi bir daha anladı ki, Azərbaycan xalqı sülhün, ədalətin və insanlığın əsgəridir. Müharibə zamanı biz bütün hərbi qanunlara da əməl etdik, döyüşün ən qızğın vaxtlarında humanitar atəşkəsin olmasını irəli sürdük ki, ermənilər itkilərini döyüş meydanlarından çıxartsınlar. Ancaq, mənfur düşmən öz ölüsünə belə sahib çıxmadı, əksinə işğal altında olan evlərimizi yandırdı, təbiəti məhv etdi, ərazilərdə minaların sayını artırdı. Bu da ermənilərin hətta ekoloji hüquqları belə pozduğunu bir daha göstərdi.

30 ilə yaxın davam etmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair bir çox beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələrdə Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunun açıq şəkildə təsdiq edilməsinə baxmayaraq, beynəlxalq hüquq normalarının siyasi konyunktura və subyektiv maraqlar qarşısında acizliyinin şahidi olmuşuq. Azərbaycanın işğal olunmuş ərazilərindən erməni qoşunlarının dərhal çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrini Ermənistan tərəfi könüllü olaraq icra etməkdən boyun qaçırsa da, Rəşadətli Azərbaycan Ordusu 44 gün davam edən Vətən Müharibəsində bu qətnamələrin icrasını təmin edərək ərazi bütövlüyünü bərpa etdi. İşğal olunmuş torpaqların azad edilməsi həm də vətəndaşların konstitusiya hüquqlarının bərpa edilməsini təmin etdi. Və otuz ildə pozulan hüquqlarımızı 44 gündə ədalətlə bərpa etdik. Apardığımız lokal xarakterli antiterror əməliyyatı nəticəsində isə ərazi bütövlüyümüz tam bərpa olundu. Azərbaycan Respublikasının Konstitusiyası bu gün bütöv Azərbaycan ərazisində ali hüquqi qüvvəyə malikdir!

Bəli, Ermənistan dövlətinin və ya ayrı-ayrı şəxslərin törətdiyi müharibə cinayətlərinin beynəlxalq hüquq çərçivəsində bir-bir hesabı soruşulacaq. Azərbaycanın ərazi bütövlüyü pozulduğu zaman Ermənistan dövlət əmlakına, şəxsi əmlaklara ciddi zərər vurmaqla yanaşı, Azərbaycanın tarixi-mədəni abidələrinin məhvində, qətllərdə, terrorlarda da cinayət məsuliyyəti daşıyır. Beynəlxalq hüquq isə illərlə susdu.

Bu gün dünyada baş verən ədalətsiz müharibələr, hərbi münaqişələr zamanı insanların hüquqları, ələlxüsus da yaşamaq hüququ kütləvi surətdə pozulur. Yuxarıda sadalanan beynəlxalq sənədlər isə hərbi münaqişələr zamanı insanların hüquqlarını qoruya bilmir. Hərbi münaqişələr zamanı insanların hüquqlarını təmin etmək üçün daha mükəmməl beynəlxalq hüquqi sənədlərə, Konvensiyalara ehtiyac var.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. "İnsan Hüquqları haqqında" Ümumi Bəyannamə. "Hüquq ədəbiyyatı". Bakı. 2016
2. "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası. "Hüquq ədəbiyyatı". Bakı. 2018
3. "Mülki və siyası hüquqlar haqqında" Beynəlxalq pakt. "Hüquq ədəbiyyatı". Bakı. 2013
4. Avropa İnsan Hüquqları Məhkəməsi: Şərhlər və normativ aktlar. Hüquq Maarifçiliyi Cəmiyyəti. Bakı 2006.
5. "İnsan hüquqları". Əmir Əliyev. "Hüquq ədəbiyyatı". Bakı. 2013
6. "Hüquqi dövlət və beynəlxalq hüquq: Cenevrə konvensiyaları". Vahid Ömərov, "Səs". 17.11.2011.



**Faiq Səfərov,**
**Azərbaycan Respublikasının Müharibə veteranı, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri.**

# Korrupsiyaya qarşı mübarizədə qadınların rolu

Prokurorluq orqanlarında aparılan davamlı islahatlar çərçivəsində gender bərabərliyinə xüsusi əhəmiyyət verilməsi son illər peşəkar və savadlı qadın hüquqşünasların bu mühüm dövlət təsisatına maraq və diqqətini daha da artırmış, bu şərəfli peşəni seçən qadınların sayı əhəmiyyətli dərəcədə artmışdır. Gündəlik iş fəaliyyətində gender siyasətinin effektiv tətbiqinin müsbət nəticəsi kimi kadrların komplektləşdirilməsi qadın və ya kişi amilləri əsasında deyil, əmək fəaliyyəti, təhsil, şəxsi inkişaf, təşəbbüskarlıq və təcrübə kimi meyarlar əsasında qiymətləndirilməkdədir.

Mövzu korrupsiyanın qarşısının alınmasına və korrupsiyanın aradan qaldırılmasında qadınların roluna gəldikdə, qadınların kişilərdən daha yaxşı və daha az korrupsiya cinayətləri törədən olduqlarına dair nəzəriyyələr şübhəli və ironik görünə bilər. Lakin qadınların kişilər ilə müqayisədə daha az korrupsiya cinayətlərini törəmələrinə dair bir sıra nəzəriyyələr və araşdırmalar mövcuddur. Bununla belə, gender və korrupsiya ilə bağlı müxtəlif nəzəriyyələri və araşdırmaları tədqiq və təhlil etməzdən əvvəl qeyd etmək lazımdır ki, bu məqalənin əsas məqsədi korrupsiyanın kişilər və qadınlar arasında əlaqəsi deyil, qadınların korrupsiyaya qarşı mübarizə imkanlarının dərk edilməsindən ibarətdir.

Le Moines Kolleci və Virciniya Politexnik Universitetinin amerikalı iqtisadçıları tərəfindən aparılan araşdırma göstərir ki, bir ölkədə qərar qəbuletmə proseslərində və siyasi hakimiyyətdə nə qədər çox qadın iştirak edirsə, ölkədə korrupsiya bir o qədər az inkişaf edir (Salkova, 2018). Bu araşdırma qadınların səlahiyyətlərinin artırılmasının, onların rəhbər vəzifələrdə və hökumətdə iştirakının vacibliyini vurğulayır (Jha və Sarangi, 2015).

UNODC-nin (2020) nümayiş etdirdiyi statistik məlumatlara görə, bir çox respondent (50 faiz kişi və 50 faiz qadın) bu bəyanatla razılaşaraq "hə" cavabı vermişlər. Belə ki, bəzi müəlliflər qadınların kişilərdən daha az korrupsiya cinayətləri törətdiklərini düşünürlər (Dollar et al., 2001; Swamy et al., 2001; Sung, 2003; Esarey və Chirillo, 2013; Goetz, 2007; Jha və Sarangi, 2015), əksinə, digərləri bu fenomenin yanlış olduğunu və qadınların kişilərdən daha az korrupsiya cinayəti törətdiklərini sadəcə bir mif hesab edirlər (Goetz, 2007; Alhassaan-Alolo, 2007). Sonuncu müəlliflərin fikrincə, statistikalara əsasən qadınların daha az korrupsiya cinayətləri törətməklərinin əsas səbəbi idarəçilikdə bir çox ölkələrdə qadınların daha az faiz nisbətində təmsil olunmalarıdır. Korrupsiya cinayətlərinin viktimologiyasına gəldikdə isə, qadınların kişilərə nisbətən daha çox korrupsiya cinayətlərinin qurbanlarının olduqlarına rast gəlirik.

Belə ki, araşdırmalara görə korrupsiya daha çox maliyyə müstəqilliyi baxımından daha az imtiyazlı cins kimi uşaqlar, qocalar, yoxsullar və qadınlar olan həssas qruplara təsir göstərir. Beynəlxalq Millətlər Təşkilatının araşdırmalarına əsasən, dünyanın yoxsul insanlarının 70% qadınlardır (Fiorina, 2014; Sustainable Development Goals (SDG) Action (Davamlı İnkişaf Məqsədləri (SDG) Fəaliyyəti), 2024). Beləliklə, qadınların yoxsulluqdan (və beləliklə, korrupsiyadan) əziyyət çəkmə ehtimalı daha yüksəkdir, lakin, eyni miqyasda deyil: qadınların yoxsulluq içində yaşaması kişilərə nisbətən 13% daha çoxdur (xüsusən də aztəminatlı və münaqişələrdən təsirlənən regionlarda (SDG Action, 2024)). Qadınlar ümumiyyətlə kişilərə nisbətən daha yüksək iş yoxsulluğu ilə üzləşirlər, ən çox nəzərə çarpan gender fərqi ən az inkişaf etmiş ölkələrdə müşahidə olunur. (BMT Yoxsulluq Statistikası, 2024). İlk baxışdan görünə bilər ki, maliyyəyə qeyri-bərabər çıxışla üzləşən cinslərin korrupsiyada iştirakı bərabər olmaya bilər və daha çox maliyyə cəhətdən əziyyət çəkmiş fərdlər daha çox korrupsiya, dələduzluq kimi cinayətlər törətməyə meyli olurlar. Lakin nəzəriyyə və araşdırmalar tam əksini göstərir.

Buna görə də, bir sıra müəlliflər və nəzəriyyəçilər gender və korrupsiyanın bir-biri ilə sıx bağlı olduğunu və həm kişilərdə, həm də qadınlarda fərqli əsaslanan bəzi fərqli xüsusiyyətlər və amillərin olduğunu iddia edirlər. Bu xüsusiyyətlərdən və amillərdən bəziləri aşağıdakılardır.

**Genderlər arasında psixoloji fərqlər**

Kişi və qadınların psixologiyasındakı fərqlər məsələsi daha mürəkkəb və qeyri-müəyyəndir, baxmayaraq ki, bu fərqləri etibarlı şəkildə ölçmək o qədər də asan deyil. Psixoloqlar bu cür fərqləri dərk etməyə müvəffəq olduqda, bir qayda olaraq, onların anadangəlmə, yəni bioloji, yoxsa qazanılmış – sosial-mədəni olması ilə bağlı mübahisələr edirlər (Mathers et al., 2019). Bu müəlliflər qadınların kişilərə nisbətən korrupsiya ilə daha az məşğul olduğuna inanırlar (Dollar et al., 2001; Swamy et al., 2001).

"Riskli istəksizlik" ("risk reluctance") gender və korrupsiyaya dair ədəbiyyatda daha çox tanınan nəzəriyyədir. Eyni şəkildə, qadınların hər hansı sanksiyalara məruz qalma riskindən çəkinməri (institusional və ya ictimai qınaq formasında sanksiyalar) qadınların niyə daha az korrupsiya cinayətləri törətmələri kimi başa düşülməsinin başqa bir arqumenti ola bilər. Watson və McNaughton (2007) bu fenomeni qadınların sanksiyaya məruz qalması qorxusu və cəzada gender fərqləri ilə əlaqələndirmişdirlər. Eyni şəkildə, bu müəlliflərin fikrincə, qadınlar kişilərdən daha ədalətli, ehtiyatlı və ya az risk edənlərdirlər. Qadınların risk götürməkdə kişilərə nisbətən daha çox istəksiz olması və bunun gender və korrupsiya arasında həlledici bir bağ olduğuna dair nəzəriyyə etibarlı görünə bilər. Bu nəzəriyyə bir sıra riskli vəziyyətlərdə bir neçə təcrübə ilə dəstəklənir və burada qadınların kişilərə nisbətən riskdən daha istəksiz olduqları müşahidə olunur. Üstəlik, bəzi eksperimentlərə görə, qadınların kişilərlə müqayisədə cəza və sosial qınaq qorxusunun daha çox olduğu aşkar edilmişdir (Stensöta, 2018).

**Qadınlar daha dürüst hesab edilirlər**

Breen et al. tərəfindən hazırlanmış bir araşdırma (2015) iş qadınlarının kişilərə nisbətən daha az korrupsiyaya uğradığını aşkar etmişdir. Beləliklə, biznes sahibi olan qadınlar daha az rüşvət verməyə və rüşvət almağa meyllidirlər, eləcə də qadın menecerlər korrupsiyanı azaltmağa meyllidirlər, çünki onlar daha çox korrupsiyanın şirkətin düzgün fəaliyyətinə maneə olduğunu düşünürlər. Bundan əlavə, bu nəzəriyyə bioloji xüsusiyyətlə də izah oluna bilər ki, xarakterik olaraq uşaq böyütməklə daha çox məşğul olan qadınlar daha dürüst olmağa meylidirlər (Swamy et al., 2001).

Tarixən və mədəni baxımdan qadınların korrupsiya cinayətləri törətmək üçün kifayət qədər imkanları olmayıb.

Bir neçə onilliklərdən sonra Goetz (2007) vurğulamışdır ki, tarixən qadınların qayğı göstərən kimi ənənəvi rolu onları kişilərə nisbətən favoritizm, qohumbazlıq və korrupsiyanın digər formalarına daha az meylli olurlar. Əksinə,

Sung (2006) qadınların kişilər nisbətən daha az korrupsiya cinayətləri törətmələri onların kişilərlə müqayisədə cins kimi daha çox ayrı-seçkiliyə məruz qalmaları, mədəni, dini və tarixi baxımdan lazımınca qiymətləndirilməmələri, kifayət qədər təmsil olunmamaları və qərar qəbuletmə proseslərindən və siyasi arenadan kənarlaşdırılmalarını bildirmişdir.

Jha və Sarangi (2015) 17 Avropa ölkəsinin 155 regionunda korrupsiya və qadın və kişilərin faizi ilə bağlı məlumatları təhlil ediblər. Onlar instrumental dəyişənlər metodundan, nəticəyə təsir edən bir neçə dolayı faktoru nəzərə alan təhlil metodundan istifadə etmişlər. Onlar həmçinin qadınların hakimiyyətdə oynaya biləcəyi müxtəlif rolları nəzərə alıblar (qanunların qəbulundan tutmuş kargüzarlığa qədər). Analoji olaraq, hakimiyyətdə olan qadınların sayı ilə bağlı məlumat Beynəlxalq Əmək Təşkilatı (International Labour Organization) tərəfindən verilib. Məlum olduğu kimi, ölkədə korrupsiyanın azalmasına təsir edən siyasətlə bağlı hakimiyyətdə qadınların olmasıdır. Əksinə, kargüzarlıq işlərində qadınların sayının korrupsiya ilə əlaqəsi olmadığı aşkar edilmişdir (Jha və Sarangi, 2015). Məsələn, müəyyən ölkələrdə yerli özünüidarəetmə orqanlarında çalışan qadınlar büdcənin daha çox hissəsini ictimai və infrastruktur məsələlərinə ayırırlar və buna bənzər şəkildə, müəyyən subsidiyaların korrupsiya cinayəti törədə biləcək məmurların əlinə keçməməsi üçün daha diqqətli olurlar (Jha və Sarangi, 2015). Üstəlik, müəlliflərin fikrincə, qadınların qanunverici orqanlarda olması çox vaxt səhiyyə və təhsilə ayrılan xərclərin artması ilə əlaqələndirilir. Təhsil də öz növbəsində korrupsiyanın azaldılmasına kömək edir – ölkədə təhsilin keyfiyyəti nə qədər yüksək olarsa, korrupsiyaya uğramış siyasətçilər bir o qədər az olar (Jha və Sarangi, 2015).

Azərbaycan hökuməti öz növbəsində siyasətini gender bərabərliyi ilə bağlı beynəlxalq standartlara uyğunlaşdırmaq üçün addımlar atıb. Məsələn:

– Beynəlxalq Konvensiyaların ratifikasiyası: Azərbaycan qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya (CEDAW) kimi əsas beynəlxalq müqavilələri imzalamışdır. Bu dövlətin gender bərabərsizliyinin qanunvericilik səviyyəsində həllinə sadiqliyini nümayiş etdirir.

– Milli Fəaliyyət Planları: Hökumət qadınların vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş, xüsusən də iqtisadi iştirak, təhsil və siyasi iştirakla bağlı bir neçə milli fəaliyyət planı qəbul etmişdir.

– Qadın Sahibkarlığının Təşviqi: Xüsusilə kənd yerlərində qadın sahibkarlığını təşviq etmək üçün qrantlar və təlim təşəbbüsləri kimi müxtəlif dövlət proqramları tətbiq edilmişdir.

– Kiçik və Orta Müəssisələrə Dəstək: Qadınları iqtisadi cəhətdən gücləndirmək üçün dövlət tərəfindən dəstəklənən maliyyə stimulları və təlim proqramları ilə, qadınlar kiçik və orta müəssisələrdə iştirak etməyə təşviq edilmişdir.

Ölkəmizdə qadınların təhsil almaq imkanları kişilərlə bərabərdir və qadınların savadlılıq səviyyəsi yüksəkdir. Ümumiyyətlə, qeyri-korrupsiya ölkəsinin qurulmasına ilk töhfə həm kişilərə, həm də qadınlara eyni hüquq və imkanlar verən hökumət yaratmaqdır. Bu, şübhəsiz ki, yaxşı idarəçiliyi artıracaq və korrupsiyanın qarşısını alacaq. Gender bərabərliyi, həqiqətən də, qadınların kifayət qədər hüquqlara, imkanlara malik olması ilə bağlıdır və nəticədə yaxşı idarəçiliyə təsir göstərir. Demokratiya və qanunun aliliyi nə qədər çox olarsa, müəyyən bir ölkədə gender bərabərliyinin səviyyəsi bir o qədər yüksək olar. Üstəlik, tarixi nöqteyi-nəzərdən gender bərabərliyi həm də yaxşı idarəçiliyin əsas "kök səbəbidir".

**İstifadə edilmiş ədəbiyyat**


1. Alhassan-Alolo, N., 2007. Gender and corruption: testing the new consensus. Public Administration, 27(1), pp.227–237.
1. BMT Yoxsulluq Statistikası. Department of Economic and Social Affairs Statistics. 2024. Available at: <https://unstats.un.org/sdgs/report/2024/Goal-01/?utm_source=chatgpt.com>
1. Breen, M., Gillanders, R., McNulty, G. and Suzuki, A., 2015. Gender and corruption in business. Helsinki Center of Economic Research. Available at: <https://helda.helsinki.fi/bitstream/handle/10138/154192/HECER-DP391.pdf?sequence=1>
1. Esarey, J. and Chirillo, G., 2013. 'Fairer sex' or purity myth? Corruption, gender, and institutional context. Politics and Gender, 9(4), pp.361–389.
1. Fiorina, C., 2014. Seventy percent of the people living in abject poverty are women. The Poynter Institute. [online] Available at: <https://www.politifact.com/factchecks/2014/jan/15/carly-fiorina/carly-fiorina-70-worlds-poor-are-women/>
1. Goetz, M., 2007. Political cleaners: women as the new anti-corruption force? Development and Change, 38(1), pp.87–105.
1. Jha, K. and Sarangi, S., 2015. Women and corruption. What positions must they hold to make a difference? Available at: <file:///C:/Users/p.semedova/Downloads/SSRN-id2434912.pdf>
1. Mathers, E., Khalapyan, P. and Gorgodze, S., 2019. What is it like to be a man in the Caucasus? BBC News. Available at: <https://www.bbc.com/azeri/azerbaijan-48528889>
1. Salkova, A., 2018. Gender power: how women affect corruption. Gazeta News. Available at: <https://www.gazeta.ru/science/2018/06/17_a_11805025.shtml>
1. Stensöta, H. and Wängnerud, L., 2018. Gender and Corruption: Historical Roots and New Avenues for Research. New York: Routledge.
1. Sung, H., 2003. Fairer sex or fairer system? Gender and corruption revisited. Social Forces, 82(2), pp.703–723.
1. Sustainable Development Goals Action), 2024. Available at: <https://unstats.un.org/sdgs/report/2024/>
1. Swamy, A., Knack, S., Lee, Y. and Azfar, O., 2001. Gender and corruption. Journal of Development Economics, 64(1), pp.25–55.
1. United Nations, 2020. The time is now. Addressing the gender dimensions of corruption. United Nations Office on Drugs and Crime, Vienna.
1. Watson, J. and McNaughton, M., 2007. Gender Differences in Risk Aversion and Expected Retirement Benefits. Financial Analysts Journal 63(4), pp.52-62.


**Pirayə Səmədzadə-Əliyeva**
**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru, kiçik ədliyyə müşaviri**

# Cinayət tətbiqi üzrə qiyabi icraatın tətbiqi məsələləri

*(II hissə)*

**3. Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi**

Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi məsələləri CPM-nin 467-14-cü maddəsində öz əksini tapmışdır.

Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsinin müəyyən xarakterik xüsusiyyətləri vardır.

Cinayət prosessual qanunvericiliyinin *(CPM-nin 467-14-cü maddəsinin)* izah və tələblərinə əsasən, məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsinin xüsusiyyətləri aşağıdakılardır:

– ittiham aktı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə müstəntiq dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir və bu barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir;

– prokuror tərəfindən ittiham aktına baxılanadək təqsirləndirilən şəxs könüllü gəldikdə *və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə* ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam vermək və ibtidai istintaqın aparılması üçün cinayət işini öz göstərişləri ilə müstəntiqə qaytarmaq barədə qəbul edir.

– həmin qərarlar çıxarıldığı vaxtdan isə cinayət təqibi üzrə icraat CPM ilə müəyyən edilmiş ümumi qaydada davam etdirilir;

– təqsirləndirilən şəxs könüllü gəldiyi və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildiyi gün müstəntiq təqsirləndirilən şəxsə CPM-in 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən CPM-nin 467-14.4-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir. Müstəntiq bu barədə protokol tərtib edir və təqsirləndirilən şəxsi CPM-nin 284 – 286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış edir;

– qeyd olunan vəsatətə CPM-nin 287.2-ci maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə baxılır. Yəni, “vəsatətin tam və ya qismən rədd edilməsi haqqında müstəntiq əsaslandırılmış qərar çıxarır və həmin qərarın surətini vəsatətin verildiyi andan 48 saatdan gec olmayaraq vəsatəti vermiş şəxsə təqdim edir. Vəsatət həll edilməyənədək cinayət işi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilə bilməz”;

– vəsatət əsasında və ya müstəntiqin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, habelə əlavə istintaq və digər prosessual hərəkətlər aparıla bilər.

Beləliklə, CPM-nin 467-14-cü maddəsinə əsasən müstəntiq tərəfindən ittiham aktı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə müstəntiq dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir və bu barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir.

Cinayət işinə ittiham aktı ilə birlikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən baxılarkən təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə prokuror dərhal bu Məcəllənin 290.3.3-1-ci maddəsində nəzərdə tutulmuş qərarı *(cinayət təqibi üzrə qiyabi icraata xitam vermək və ibtidai istintaqın aparılması üçün cinayət işini öz göstərişləri ilə müstəntiqə qaytarmaq barədə)* qəbul edir *(CPM-nin 467-14.1-ci maddəsi).* Həmin qərar çıxarıldığı vaxtdan isə cinayət təqibi üzrə icraat CPM ilə müəyyən edilmiş ümumi qaydada davam etdirilir *(CPM-nin 467-14.2-ci maddəsi).*

Belə ki, CPM-nin “cinayət təqibi üzrə qiyabi icraatın xüsusiyyətləri”ndən bəhs edən 467-12-ci maddəsinə əsasən cinayət təqibi üzrə qiyabi icraat LIV-II fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, CPM-də nəzərdə tutulmuş ümumi qaydalara uyğun olaraq aparılır *(CPM-nin 467-12.1-ci maddəsi).* Prokuror cinayət təqibi üzrə qiyabi icraata xitam vermək və cinayət işini öz göstərişləri ilə müstəntiqə qaytarmaq barədə qərar qəbul etdikdən sonra isə artıq nəzərə alınmalı olan həmin xüsusiyyətlər öz qüvvəsini itirmiş olur. Odur ki, cinayət təqibi üzrə icraatın CPM ilə müəyyən edilmiş ümumi qaydada davam etdirilməsi daha məntiqlidir.

Təqsirləndirilən şəxs könüllü gəldiyi və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildiyi gün müstəntiq təqsirləndirilən şəxsə CPM-nin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən CPM-in 467-14.4-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir. Müstəntiq bu barədə protokol tərtib edir və təqsirləndirilən şəxsi CPM-nin 284–286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış edir *(CPM-nin 467-14.3-cü maddəsi).*

Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxs və onun müdafiəçisi təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi barədə vəsatət verə bilər. Vəsatətə CPM-nin 287.2-ci maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə baxılır *(CPM-nin 467-14.4-cü maddəsi).*

CPM-nin 467-14.4-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya müstəntiqin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, habelə əlavə istintaq və digər prosessual hərəkətlər aparıla bilər *(CPM-nin 467-14.5-ci maddəsi).*

**4. Məhkəmə icraatı zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi**

"Məhkəmə icraatı zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi"ndən CPM-nin 467-15-ci maddəsinin təhlili məhkəmə icraatı zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsinin xarakterik xüsusiyyətləri, cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin təkrar keçirilə bilməsi, həmçinin əlavə istintaq və digər prosessual hərəkətlər aparıla bilməsi, məhkəmənin hansı halda cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması haqqında qərar qəbul etməsi ilə bağlı suallara cavab verir.

Cinayət prosessual qanunvericiliyin izah və tələblərinə əsasən, məhkəmə hökm və ya digər yekun qərar çıxarmaq üçün müşavirə otağına gedənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya məhkəmənin sərəncamına verildikdə məhkəmə dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir. Həmin qərar qəbul edildikdən sonra məhkəmə icraatı CPM ilə müəyyən edilmiş ümumi qaydada aparılır *(CPM-nin 467-15.1-ci maddəsi).*

Belə ki, CPM-in "cinayət təqibi üzrə qiyabi icraatın xüsusiyyətləri"ndən bəhs edən 467-12-ci maddəsinə əsasən cinayət təqibi üzrə qiyabi icraat LIV-II fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, CPM-də nəzərdə tutulmuş ümumi qaydalara uyğun olaraq aparılır *(CPM-nin 467-12.1-ci maddəsi).* Məhkəmə hökm və ya digər yekun qərar çıxarmaq üçün müşavirə otağına gedənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya məhkəmənin sərəncamına verildikdə məhkəmə cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul etdiyinə görə bundan sonrakı məhkəmə icraatı da CPM ilə müəyyən edilmiş ümumi qaydalar üzrə aparılmalıdır.

Cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar çıxarıldıqdan sonra məhkəmə təqsirləndirilən şəxsə CPM-nin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən CPM-nin 467-15.3-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir *(Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxsin, onun müdafiəçisinin və dövlət ittihamçısının məhkəməyə aşağıdakılar barədə vəsatət vermək hüququ vardır:*

*– təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi;*

*– cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması.*

Məhkəmə bu hərəkətləri məhkəmə iclasının protokoluna daxil edir və təqsirləndirilən şəxsin CPM-nin 284–286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış olmasını təmin edir *(CPM-nin 467-15.2-ci maddəsi).*

CPM-nin 467-15.4-cü maddəsinə əsasən həmin vəsatətlər əsasında və ya məhkəmənin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, əlavə istintaq və digər prosessual hərəkətlər aparıla, habelə cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması haqqında qərar qəbul edilə bilər *(CPM-nin 467-15.4-ci maddəsi).*

**5. Qiyabi hökm və ya digər yekun qərarın çıxarılması**

"Qiyabi hökm və ya digər yekun qərarın çıxarılması"ndan CPM-nin 467-16-cı maddəsində bəhs olunur. Həmin maddəyə əsasən, qiyabi hökm və ya digər yekun qərar CPM ilə nəzərdə tutulmuş ümumi qaydada çıxarılır və icra edilir *(CPM-nin 467-16.1-ci maddəsi).*

Məsələn, qiyabi hökm çıxarılarkən, CPM-nin "məhkəmənin hökmünə dair irəli sürülən ümumi tələblər"ə dair 349-cu maddənin tələblərinə əməl edilməlidir. Belə ki, məhkəmənin qiyabi hökmü Azərbaycan Respublikasının adından çıxarılmalıdır. Məhkəmənin qiyabi hökmü ittihamedici, yaxud bəraətverici ola bilər. Məhkəmənin qiyabi hökmü qanuni və əsaslı olmalıdır. Məhkəmənin qiyabi hökmü Azərbaycan Respublikası Konstitusiyasının, CPM-in, Azərbaycan Respublikasının cinayət və digər qanunlarının tələblərinə riayət edilməklə çıxarıldıqda qanuni hesab edilir.

Qiyabi məhkəmə hökmünün tərtib edilməsi həyata keçirilərkən, həmçinin CPM-in məhkəmə hökmünün tərtib edilməsindən bəhs edən 352-ci maddəsinin tələblərinə dəqiq əməl edilməlidir: *"Bütün zəruri məsələləri həll etdikdən sonra məhkəmə hökmün tərtib edilməsinə başlayır. Məhkəmənin hökmü məhkəmə baxışının aparıldığı dildə, aydın, anlaşılan ifadələrlə tərtib edilməlidir. Məhkəmənin hökmü giriş, təsviri-əsaslandırıcı və nəticəvi hissələrdən ibarətdir. Məhkəmənin hökmü hakimlərdən biri tərəfindən əllə yazılmalı və ya çap makinasında, yaxud kompüterdə hazırlanmalıdır. Məhkəmə hökmünün hər səhifəsi onun lehinə səs vermiş hakimlər tərəfindən imzalanmalıdır. Bu hökmlə razılaşmayan hakim hər səhifəsi özü tərəfindən imzalanmış yazılı xüsusi rəyini möhürlənmiş zərfdə məhkəmə icraatının materiallarına əlavə edir. Məhkəmənin hökmünə düzəlişlər hökm elan olunanadək müşavirə otağında edilməli və onun lehinə səs vermiş hakimlərin imzaları ilə təsdiq olunmalıdır".*

Beləliklə, qiyabi məhkəmə hökmü də məhkəmə baxışının aparıldığı dildə, aydın, anlaşılan ifadələrlə tərtib edilməlidir. Məhkəmənin hökmü giriş, təsviri-əsaslandırıcı və nəticəvi hissələrdən ibarət olmalıdır. Məhkəmə hökmünün hər səhifəsi onun lehinə səs vermiş hakimlər tərəfindən imzalanmalıdır. Bu hökmlə razılaşmayan hakim hər səhifəsi özü tərəfindən imzalanmış yazılı xüsusi rəyini möhürlənmiş zərfdə məhkəmə icraatının materiallarına əlavə etməlidir. Məhkəmənin hökmünə düzəlişlər hökm elan olunanadək müşavirə otağında edilməli və onun lehinə səs vermiş hakimlərin imzaları ilə təsdiq olunmalıdır və s..

Bundan əlavə, qiyabi məhkəmə hökmünün məzmunu CPM-nin "məhkəmə hökmünün məzmunu"ndan bəhs edən 353-cü maddəsinin tələblərinə uyğun olmalıdır.

CPM-in "məhkəmənin hökmündə mülki iddianın həlli"ndən bəhs edən 354-cü maddəsinə əsasən qiyabi

məhkəmə hökmündə mülki iddianın əsaslarının və məbləğinin sübuta yetirilməsindən asılı olaraq iddianın tam və ya qismən təmin edilməsi, iddianın rədd edilməsi, iddianın baxılmamış saxlanması haqqında qərarlardan biri qəbul olunur.

Mülki iddia təmin edildiyi halda hökm qanuni qüvvəyə minənədək iddianın təmin edilməsi üzrə tədbirlər görülməmişdirsə, məhkəmə həmin tədbirləri görmək hüququna malikdir.

CPM-nin 355-ci maddəsinin tələblərinə uyğun olaraq məhkəmə, məhkəmə baxışının nəticələrinə dair xüsusi qərar da çıxara bilər.

CPM-nin "məhkəmənin yekun qərarının elan edilməsi"ndən bəhs edən 356-cı maddəsinə əsasən, məhkəmə baxışının nəticələrinə dair məhkəmənin yekun qərarı *(qiyabi hökm və ya digər yekun qərarı)* imzalandıqdan sonra məhkəmə iclas zalına qayıdır və məhkəmə iclasında sədrlik edən, həcmi böyük olduqda isə məhkəmə tərkibində olan digər hakimlər növbə ilə həmin qərarın giriş və nəticəvi hissəsini elan edirlər *(CPM-nin 356.1-ci maddəsi).*

Məhkəmə tərkibi daxil olmaqla məhkəmənin iclas zalında olan şəxslər məhkəmənin yekun qərarını ayaq üstə dinləyirlər *(CPM-nin 356.2-ci maddəsi).*

Məhkəmə iclasında sədrlik edən təqsirləndirilən şəxsin müdafiəçisinə, habelə cinayət prosesi tərəflərinin nümayəndələrinə məhkəmənin yekun qərarından şikayət etmə qaydasını və müddətini izah edir *(CPM-nin 356.4-cü maddəsi).*

Bəraət almış şəxsə onun qanunsuz tutulması, təqsirləndirilən şəxs qismində cəlb edilməsi, qətimkan tədbirinin tətbiqi, qanunsuz məhkəməyə verilməsi nəticəsində vurulmuş zərərin ödənilməsi hüququ və həmin hüququn həyata keçirilməsi qaydası izah edilməlidir *(CPM-nin 356.5-ci maddəsi).*

Təqsirləndirilən şəxs ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edildikdə, onun müdafiəçisinə, nümayəndəsinə əfv haqqında vəsatət qaldırmaq hüququ izah edilir *(CPM-nin 356.6-cı maddəsi).*

Məhkəmənin yekun qərarını elan və izah etdikdən sonra məhkəmə, həmçinin çıxardığı xüsusi qərarı elan edir *(CPM-nin 356.7-ci maddəsi).*

Məhkəmənin yekun qərarının surətinin verilməsi və onun qanuni qüvvəyə minməsi CPM-nin 358-ci maddəsinin tələblərinə uyğun həyata keçirilir. Həmin maddəyə əsasən, məhkəmənin yekun qərarı elan edildiyi vaxtdan 3 (üç) gündən gec olmayaraq aşağıdakı hərəkətlər yerinə yetirilməlidir:

*– məhkəmə hökmün surətini müvafiq olaraq məhkum edilmiş və ya bəraət verilmiş şəxsə, onun müdafiəçisinə, qanuni nümayəndəsinə, dövlət ittihamçısına, zərər çəkmiş şəxsə (xüsusi ittihamçıya), mülki iddiaçıya, mülki cavabdehə və onların nümayəndələrinə verməlidir;*

*– məhkəmə cinayət prosesi iştirakçılarının vəsatəti əsasında onlara məhkəmənin yekun qərarının digər surətini verməlidir.*

Məhkəmə baxışının nəticələrinə dair məhkəmənin yekun qərarı ondan apellyasiya qaydasında protest və ya şikayət verilməmişsə, CPM-nin 384.1-ci maddəsində nəzərdə tutulmuş müddətin başa çatdığı vaxtdan sonrakı gün qanuni qüvvəyə minir.

Məhkəmə baxışının nəticələrinə dair məhkəmənin yekun qərarı bir neçə təqsirləndirilən şəxs barəsində çıxarıldıqda, həmin yekun qərar barəsində apellyasiya qaydasında protest və ya şikayət verilməmiş şəxsə münasibətdə və yalnız ona aid hissədə Məcəllənin 384.1-ci maddəsində nəzərdə tutulmuş müddətin başa çatdığı vaxtdan sonrakı gün qanuni qüvvəyə minir (CPM-nin 358.3-cü maddəsi).

Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda, qiyabi hökmün və ya digər yekun qərarın icra olunması üçün CPM-də və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş tədbirlər görülür *(CPM-nin 467-16.2-ci maddəsi).*

Bəzi hallarda qiyabi hökm və ya digər yekun qərar ümumi qaydada icra olunur.

Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verməzsə, hakim qiyabi hökmün və ya digər yekun qərarın icrası barədə göstəriş verir və qiyabi hökm və ya digər yekun qərar ümumi qaydada icra olunur *(CPM-nin 467-17.4-cü maddəsi).*

Bir məsələni də qeyd edə ki, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin "Cəzaların İcrası Məcəlləsi və beynəlxalq hüquqi aktlar"dan bəhs edən 3-cü maddəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə Cəzaların İcrası Məcəlləsinin müddəalarından fərqli normalar müəyyən edilərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir *(CİM-nin 3.2-ci maddəsi).*

### 6. Qanuni qüvvəyə minmiş qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi

"Qanuni qüvvəyə minmiş qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi"ndən CPM-in 467-16-cı maddəsində bəhs olunur. Həmin maddəyə əsasən, barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə, cəzanı icra edən orqan dərhal qiyabi hökm və ya digər yekun qərarı çıxarmış məhkəməyə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə məsələlərə baxılması üçün təqdimat verir *(CPM-nin 467-17.1-ci maddəsi).*

Təqdimatın daxil olduğu vaxtdan 10 gün müddətində məhkəmə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında iclas təyin edir. Məhkəmənin iclasında barəsində qiyabi hökm və ya digər yekun qə-

rar çıxarılmış şəxs, müdafiəçi və prokurorun iştirakı məcburidir *(CPM-nin 467-17.2-ci maddəsi).*

Məhkəmə barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir, barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə və onun müdafiəçisinə 10 gün müddətində cinayət işinin materialları ilə tanış olmaq üçün şərait yaradır. Cinayət işinin həcminin böyüklüyü ilə əlaqədar barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsin və ya onun müdafiəçisinin vəsatəti əsasında həmin müddət 30 günədək uzadılır *(CPM-nin 467-17.3-cü maddəsi).*

***Qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi nəzərdə tutulmuşdur.***

CPM-in tələblərinə əsasən, qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs könüllü gəldikdə qiyabi hökm və ya digər yekun qərar çıxarmış məhkəmə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi məsələsinə baxır.

Bundan əlavə, qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs cəzanı icra edən orqanın sərəncamına verildikdə, qiyabi hökm və ya digər yekun qərar çıxarmış məhkəmə cəzanı icra edən orqanın təqdimatı əsasında qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi məsələsinə baxır. Belə ki, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" 22 dekabr 2023-cü il tarixli Qanun ilə CPM-in "cəzaları icra edən müəssisə və ya orqanların, habelə tibbi xarakterli məcburi tədbirləri həyata keçirən müəssisələrin təqdimatı *(vəsatəti)* əsasında hökmün və ya məhkəmənin digər yekun qərarının icrasına dair başqa məsələlərin həll edilməsi"ndən bəhs edən 519-cu maddəsinə aşağıdakı məzmunda 519.4-cü maddə əlavə edilmişdir: *"Qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə, qiyabi hökm və ya digər yekun qərar çıxarmış məhkəmə cəzanı icra edən orqanın təqdimatı əsasında qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi məsələsinə baxır."*

Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verdikdə isə həmin qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi barədə qərar qəbul edilir və yeni məhkəmə baxışının keçirilməsi məqsədilə CPM-in 298–307-ci maddələrində nəzərdə tutulmuş tədbirlər görülür." *(CPM-nin 467-17.5-ci maddəsi).*

Başqa sözlə, CPM-in "cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara və xüsusi ittiham qaydasında şikayətlərə ilkin baxılması"ndan bəhs edən XL fəsildə nəzərdə tutulmuş tədbirlər görülür.

Azərbaycan qanunvericiliyində cinayət işləri üzrə qiyabi icraat müstəsna hallarda tətbiq edilir, təcrübədə çox da tətbiq edilmir. Ancaq onun tətbiqi bu müstəsna hallarda ədalət mühakiməsinin son məqsədlərinin həyata keçirilməsinə, cinayətlərin açılmasına, təqsirləndirilən şəxslərin cəzalandırılmasına, cəzanın labüdlüyünə və ədalət mühakiməsi ilə bağlı bir sıra vəzifələrin həyata keçirilməsinə, məsələn zərərçəkmişə dəymiş ziyanın ödənilməsinə, əmlakların həbsi ilə bağlı və s. məsələlərin həllinə kömək edir. Ancaq bütün hallarda prosesdə iştirak etməyən təqsirləndirilən şəxsin hüquqları və ədalət mühakiməsinin ümumi məqsədləri arasında balans gözlənilməli, təqsirləndirilən şəxsin vəsatəti üzrə qiyabi çıxarılmış hökmün ləğv edilməsi və təkrar məhkəmə baxışı hüquqlarına hörmət edilməlidir.

**İstifadə olunmuş normativ aktlar və ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.
4. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi.
5. Azərbaycan Respublikası ilə Hindistan arasında Təslimetmə haqqında 4 aprel 2013-cü il tarixli Müqavilə. Azərbaycan Respublikasının hüquqi yardım sahəsində ikitərəfli beynəlxalq müqavilələrinin toplusu. Bakı, Ədliyyə Nazirliyi, 2021. s.413.
6. Ekstradisiya haqqında Avropa Konvensiyasına II Əlavə protokolu.
7. İnsan Hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası və əlavə protokollar.
8. Mülki və siyasi hüquqlar haqında Beynəlxalq pakt (1966).
9. Colozza v. Italy (Application no. 9024/80). Judgement, 12 February 1985.
10. Chapter of the İnternational Military Tribunal (Nuremberg).
11. İnternational Military Tribunal (Nuremberg) Judgment of 1 October 1946.
12. Mbenge v. Zaire, Human Rights Committee views, Eighteenth Session? 21 March – 8 April 1983.
13. Rome Statute of the International Criminal Court. URL:
14. Stanford v. The United Kingdom (Application no. 16757/90). Judgement, 23 February 1994.
15. Vaudelle v. France (Application no. 35683/97). JUDGMENT, 05/09/2001.



**Mayıl Bayramov,**
**Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının Məhkəmə hüququ, prokuror və vəkillik fəaliyyəti kafedrasının müəllimi;**

**Mətanət Əsgərova,**
**Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası kafedrasının baş müəllimi, hüquq elmləri doktoru, dosent.**

# Müsadirə anlayışı ətrafında diskussiyalar

Müasir Azərbaycan Respublikasının Cinayət Məcəlləsi 1999-cu ildə qəbul olunmuşdur. Məcəllənin Cəza haqqında üçüncü bölməsində, 51-ci maddəsində müsadirə əlavə cəza növü kimi müəyyən edilirdi. Həmin maddəyə əsasən, əmlak müsadirəsi məhkumun cinayət törədərkən istifadə etdiyi alət və vasitələrin, cinayətin predmetlərinin, habelə cinayət yolu ilə əldə etdiyi əmlakın məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınmasından ibarət idi. Müsadirə yalnız məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində qeyd edilən hallarda təyin olunurdu. Bəzi səbəblərə görə müsadirə oluna bilməyən əmlakın əvəzinə təqsirli şəxsin digər əmlakı (hətta qanuni yolla əldə olunmuş) müsadirə oluna bilərdi.

2012-ci ildə Cinayət Məcəlləsinin həmin 51-ci maddəsi qüvvədən düşmüş, VI bölmə **“Cinayət-hüquqi xarakterli digər tədbirlər”** adı ilə yeni redaksiyada verilmiş, bölməyə “Xüsusi müsadirə” adlı 15-1 fəsli əlavə edilmişdir. Burada "xüsusi müsadirə olunan əmlak" anlayışı daha geniş acıqlanır. Həmçinin qeyd olunur ki, cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlak mülki-hüquqi əqdlərin bağlanması nəticəsində tam və ya qismən digər əmlaka çevrildiyi halda, sonuncu müsadirə olunur. Əvvəllər belə hallarda özgəninkiləşdirilmiş əmlakın əvəzinə təqsirkar şəxsin istənilən digər əmlakı müsadirə edilə bilərdi. Hazırda mülkiyyət hüququnun mühafizəsi məqsədi ilə məhz qeyri-qanuni yolla əldə edilmiş əmlak müsadirə edilir. Həmçinin terrorçuluğun maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak anlayışı əlavə olunmuşdur. Müsadirə edilməli əmlakın olub-olmaması barədə qərarın qəbul edilməsi ancaq məhkəmənin səlahiyyətindədir. Əmlakın müsadirəsi ilə əlaqədar olaraq "vicdanlı sahib/alıcı" anlayışı da daxil edilir. Əgər şəxs əmlakın cinayət yolu ilə əldə olunmasını bilib onu əldə etmişdirsə və ya bu əmlakı hədiyyə kimi və ya bazar dəyərindən əhəmiyyətli dərəcədə aşağı qiymətə əldə etmişdirsə, vicdanlı alıcı sayılmır və əldə etdiyi həmin əmlak müsadirə olunur.

Bununla belə, müsadirənin "yeni simada" təklif edilməsi əmlakın müsadirəsinin hüquqi mahiyyəti ilə əlaqədar diskussiyalara start vermişdir, çünki "cinayət-hüquqi xarakterli digər tədbirlər" bəlkə də, cinayət hüququnun ən mübahisəli kateqoriyasıdır. Burada əsas çətinlik ondan ibarətdir ki, qanunverici orqan nə cinayət-hüquqi xarakterli digər tədbirlər anlayışının, nə də belə tədbirləri Cinayət Məcəlləsində nəzərdə tutulan bütün digər tədbirlərdən fərqli edən əlamətlərin tərifini verməmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 2-ci maddəsində qeyd edilir ki, Məcəllə cinayət qanunvericiliyinin qarşısında duran məsələlərin həlli üçün cəzaların növlərini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir. Bununla da, qanunverici cinayətə görə cəzanı cinayət-hüquqi xarakterli tədbirlərə aid edir. Cinayət hüququ nəzəriyyəsində belə rəy üstünlük təşkil edir ki, cinayət-hüquqi xarakterli digər tədbirlər ən azı cinayətə görə cəzanın məqsədlərinə çatmağa kömək edir, bəzi hallarda isə məhz bu məqsədləri güdür. Lakin mənbələrdə cinayət-hüquqi xarakterli digər tədbirlərin cinayət məsuliyyətinin reallaşdırılmasının bir forması olub-olmadığı sualına birmənalı cavab verilmir. Axı bu, qeyd edildiyi kimi, cinayət hüququnun demək olar ki, ən mübahisəli kateqoriyasıdır.

Hazırda elmi ədəbiyyatda cinayət-hüquqi tədbirlər anlayışına iki fərqli yanaşma tərzi formalaşmışdır: "geniş" və "dar" əhatəli. Birinci yanaşma tərzinin tərəfdarları cinayət törətmiş şəxslərə tətbiq edilən və cinayət qanunvericiliyinin nəzərdə tutduğu tədbirləri həmin “tədbir” anlayışa aid edir. Onlar hesab edir ki, cinayət-hüquqi tədbirlərə ancaq öz-özlüyündə cinayət-hüquqi xarakter daşıyan tədbirləri aid etmək lazımdır. Bunlar, tətbiq edildikdə şəxsin cinayət-hüquqi statusunu dəyişdirən tədbirlərdir.

İkinci yanaşma tərzinin tərəfdarları cinayət-hüquqi xarakterli tədbirlərə **ancaq cinayət məsuliyyətinin reallaşdırılma formalarını** aid edir. Belə ki, onların zənnincə, ancaq öz hüquqi mahiyyəti baxımından cinayət hüququnun bu və ya digər metodu ilə əlaqəli olan, necə deyərlər cinayət hüququnda öz "daimi yaşayış ünvanı" olan tədbirlər cinayət-hüquqi xarakterli tədbirlərə aid edilə bilər. Cinayət-hüquqi xarakterli tədbirlərə cəza, şərti məhkumetmə və şərti olaraq vaxtından əvvəl azad etmə aid edilir. "Cinayət məsuliyyəti", "cəza, "cinayət-hüquqi xarakterli digər tədbirlər" anlayışları arasındakı əlaqə haqqında suala cavab axtarılan tədqiqatın nəticələrinə görə, respondentlərin sadəcə 14,3 faizi cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri cinayət məsuliyyətinin reallaşdırılma formalarına aid edir. Respondentlərin əksəriyyəti isə, yəni 65,7 faizi hesab edir ki, ancaq cəza cinayət məsuliyyətinin reallaşdırılma formasıdır, cinayət-hüquqi xarakterli digər tədbirlər isə cəzanın alternativləridir ya da cəzanı tamamlayıcı xarakter daşıyır.

Həmçinin bəzi müəlliflər cinayət-hüquqi xarakterli digər tədbirlərin "cəzanın cəzalandırıcı təsir mexanizmindən prinsipial olaraq fərqlənən" müstəqil cinayət-hüquqi təsir mexanizminə malik olduğunu qeyd edir. Buradan belə nəticə çıxır ki, hazırda qüvvədə olan Azərbaycan Respublikası Cinayət Məcəlləsinə görə əmlakın müsadirəsi cəza deyil, müəyyən xarakterli cinayət əməli törətmiş şəxsə tətbiq olunan və həmin şəxs, yaxud da digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinə imkan verə biləcək şərtlərin aradan qaldırılması məqsədini güdən cinayət-hüquqi xarakterli tədbirdir.

Bunun əksini iddia edən nöqteyi-nəzəri müdafiə edənlər də var. Onlar əmlakın müsadirəsini cinayət-hüquqi xarakterli digər tədbir hesab etmir. Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 8-ci

maddəsinə əsasən, "Cinayət törətmiş şəxs haqqında tətbiq edilən ***cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər*** ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır". Bununla belə, müsadirə törədilmiş əmələ görə deyil, əmlakın yeni cinayət əməllərinin törədilməsində istifadəsinin qarşısını almaq üçün təyin edilir, yəni sırf profilaktik tədbir qismindədir. Bu, cinayətin xarakterinin və ictimaiyyət üçün təhlükəlilik dərəcəsinin, habelə cinayət əməlini törətmiş şəxsin şəxsiyyətinin nəzərə alınması imkanını şübhə altına ala bilər. Bəzi alimlər hesab edir ki, həm mahiyyətini, həm də formal əsaslarını nəzərə aldıqda əmlakın müsadirəsi "cinayət-hüquqi xarakterli digər tədbir" ola bilməz.

Mənbələrdə həmçinin belə rəy bildirilir ki, bərpa edilməsinə baxmayaraq, əmlakın müsadirəsi hələ də cinayətə görə cəza mahiyyətindədir. Cinayətə görə cəzanın əlamətlərini əmlakın müsadirəsinin əlamətləri müqayisə edən hüquqşünas alimlər belə nəticəyə gəlir ki, bütün bu əlamətlər heç bir məhdudiyyət olmadan əmlakın müsadirəsində də tam şəkildə təzahür edir: istər əmlakın müsadirəsinə cinayətə görə cəza, istər də cinayət-hüquqi xarakterli digər tədbir adı verilsin. Əmlakın müsadirəsinin məqsədlərinin müəyyən edilməsini əlavə olaraq belə bir fakt çətinləşdirir ki, qanunverici orqan məqsədləri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 94-cü maddəsində müəyyən edilən tibbi xarakterli məcburi tədbirlərdən fərqli olaraq, onun hansı məqsədləri güddüyünü göstərmir. Ancaq müsadirənin məqsədlərini müəyyən edə bilmək üçün birinci növbədə cinayətə görə cəzanın mahiyyət xarakteristikaları rəhbər tutulmalıdır. Bunlara misal olaraq göstərmək olar: cəzanın obyektivləşdirilməsi, dövlət tədbiri mahiyyətində olması, qarşılıq/əvəz mahiyyətində olması, əziyyət vermək və əziyyət verməyə yönəlmək xüsusiyyəti, ittihamı ifadə etmək və məhrum etmək, məhdudlaşdırmaq xüsusiyyəti. Müsadirəyə cəzanın bəzi əlamətləri xasdır: o, müəyyən formada ifadə edilir və dövlət tədbiri xarakterini daşıyır. Lakin, cəzanın digər əlamətləri onun üçün səciyyəvi deyil. Məsələn, o, qarşılıq/əvəz mahiyyətində deyil, yəni törədilmiş cinayətə görə təyin edilmir. Müsadirənin "cinayət-hüquqi xarakterli digər tədbir" qismində tətbiqi nə törədilmiş əməlin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, nə də təqsirkar şəxsin şəxsiyyətini nəzərə almır. Bu tədbir cinayətə qarşılıq olaraq deyil, onun törədilməsi ilə əlaqədar təyin olunur.

Əmlakın müsadirəsinin cəzalandırıcı xarakterdə olub-olmadığı də kifayət qədər mübahisəli məsələ kimi qalır. Qüvvədə olan cinayət qanunvericiliyinə görə əmlakın müsadirəsi məhz cəzalandırıcı məzmununa görə ən ciddi cəza növləri ilə müqayisə oluna bilər. Bəzi müəlliflər isə əksinə, hesab edirlər ki, əmlakın müsadirəsi cinayətə görə cəza qismində həqiqətən də cəzalandırıcı təsirlə xarakterizə olunduğu halda, cinayət-hüquqi xarakterli digər tədbir qismində cəzalandırıcı elementə malik olmur, kompensasiya edici (bərpaedici) və profilaktik təsirli vasitə funksiyasını yerinə yetirir.

Əmlakın müsadirəsinin hansı konkret sahəyə aid olması da kifayət qədər mübahisəli məsələ kimi qalır, çünki müsadirəni reqlamentləşdirən normalara bir çox qanunvericilik aktında rast gəlmək mümkündür. Digər tərəfdən bu məsələ beynəlxalq hüquq aktlarında da tənzimlənmir ki, bu da müəyyən çətinliklər yaradır.

Tarixi boyunca müsadirə institutu onun qarşısında duran məsələlərə, habelə müsadirə edilən əmlakın taleyinə aidiyyəti olan mühüm dəyişikliklərə məruz qalmışdır. Sovet dövründə əmlakın müsadirəsi əlavə cəzanın ayrıca növlərindən biri hesab edilirdi və özünəməxsus məqsədlər güdürdü. Tarix və məhkəmə praktikası göstərir ki, həmin dövrdə müsadirənin tətbiqi siyasi rəqiblərlə mübarizə vasitəsi hesab edilirdi. Avropa maarifçilərinin də müəyyən qaydada təsirinə məruz qalmış dövlətin, ictimaiyyətin bu cəza növünə münasibəti birmənalı deyildi. 2012-ci ildə qanunverici orqan müsadirəni cəza növü qismində ləğv edərək digər anlayış, yəni "cinayət-hüquqi xarakterli digər tədbir" anlayışı təyin edərək onu xüsusiləşdirdi.

Bununla qanunverici orqan müsadirənin hüquqi mahiyyəti ətrafında intensiv diskussiyaların yaranmasına səbəb oldu. Lakin həm mahiyyətini, həm də formal əsaslarını nəzərə aldıqda əmlakın müsadirəsi "cinayət-hüquqi xarakterli digər tədbir" ola bilməz. Bundan başqa, hazırda mövcud olduğu formada müsadirə cinayətə görə cəza qismində də nəzərdən keçirilə bilməz, çünki onun mahiyyət xarakteristikalarının tələblərinə cavab vermir. Beləliklə, müsadirənin hüquqi mahiyyəti məsələsi hələ də həll edilməmiş qalır.

Müsadirənin cinayət-prosessual hüququna aid olması fikri hüquq ədəbiyyatında dəfələrlə ifadə edilmişdir və buna görə də, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1 maddəsi (Xüsusi müsadirə) ilə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 132-ci maddəsi arasında əlaqə müəyyən olunmalıdır. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 132-ci maddəsində (Cinayət təqibi üzrə icraat başa çatdıqda maddi sübutlar barədə qəbul edilən qərarlar) qeyd edilir ki, məhkum edilmiş şəxslərə məxsus cinayətin alətləri, həmçinin dövriyyəsi qadağan edilmiş əşyalar müsadirə olunmalı və müvafiq təşkilatlara verilməli, onların qiyməti olmadıqda isə məhv edilməlidir. Bu norma Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1 maddəsinə də daxil edilmişdir və bununla da cinayət-prosessual hüququna aid müddəanın təkrarlanması baş verir. Nəticədə bunu deyə bilərik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin əmlakın müsadirəsinə aid məsələləri reqlamentləşdirən normaları arasında müəyyən rəqabət mövcuddur. Ancaq yenə də, müsadirəni məhz cinayət-prosessual hüququ institutu qismində nəzərdən keçirmək məqsə-

dəuyğundur, çünki Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1-ci maddəsində müsadirənin tətbiq edilə biləcəyi cinayət əməllərinin siyahısı göstərilmir. Prosessual tədbir qismində müsadirə mütləqdir ki, eyni şeyi "cinayət-hüquqi xarakterli digər tədbir" haqqında demək olmaz.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 132-ci maddəsi ancaq istintaqın və məhkəmənin maddi sübut kimi tanıdığı və işə baxılan müddət ərzində ona daxil edilmiş maddi sübutların taleyini müəyyən edir. Digər tərəfdən cinayət-prosessual hüququ cinayət işinin başlanması, istintaqı, baxılması və həlli prosesində həmin prosesin iştirakçıları arasında formalaşan ictimai münasibətləri tənzimləyir və prosessual hüquqlar ilə prosessual öhdəliklərin yaranması ilə təzahür edir. Bu zaman müsadirə cinayət prosesində iştirak edən şəxslərin qanunla müəyyən edilmiş hüquqlarının müdafiəsinə şərait yaradır, çünki cinayət prosesi həm də maddi sübut kimi qəbul edilmiş əmlakın qanuni sahiblərinə qaytarılması ilə əlaqədar münasibətləri tənzimləyir. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 132-ci maddəsində nəzərdə tutulan prosessual müsadirə daha geniş məzmunlu anlayışdır, çünki bütün növ cinayətləri əhatə edir. Lakin belə müsadirə əsas etibarı ilə sübutların müsadirə yolu ilə əldə edilməsinə yönəlir.

Nəticə etibarı ilə, əmlakın cinayət-hüquqi və cinayət-prosessual əsasda müsadirəsi arasındakı fərq onun tətbiqinin məqsədləri ilə müəyyən olunur. Bunlardan birincisi cinayətin zərərli təsirlərinin aradan qaldırmağa, yeni cinayətlərin törədilməsinin qarşısını almağa yönəldiyi halda ikincisi cinayət mühakimə icraatının məqsədlərinə nail olmaq üçün, xüsusilə də cinayətdən zərər çəkmiş şəxslərin və təşkilatların hüquqlarının, qanuni maraqlarının müdafiəsi üçün vasitə funksiyasını yerinə yetirir.

Əmlakın müsadirəsi Azərbaycan Respublikası Mülki Məcəlləsinə də daxil edilmiş, həmin Məcəllədə mülkiyyət hüququnun itirilməsi xüsusi fəsil bölmə həsr edilmişdir. Mülkiyyət hüququnun ləğvi üçün əsaslardan biri müsadirədir. Müsadirə mülki qanunvericilikdə əsas etibarı ilə deklarativ xarakter daşıyır, çünki yeni müddəalar müəyyən etmir, sadəcə cinayətin törədilməsinə və ya digər hüquq pozuntusuna görə tətbiq edilən müsadirənin hüquqi nəticələrini təsbit edir.

Müsadirəni reqlamentləşdirən normalara digər qanunvericilik aktlarında da rast gəlinir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsini inzibati tənbeh növlərindən biri kimi müəyyən edir.

Beləliklə, özünün ən geniş mənası ilə əmlakın müsadirəsi sahələrarası institut olub əmlakın müəyyən məqsədlərə nail olmaq üçün məcburiyyət qaydasında dövlətin nəfinə alınmasında təzahür edir.

Hələ Qədim Romalılar deyirdi ki, cinayəti ən güclü təşviq edən şey cəzasızlıqdır. Öz növbəsində cəzasızlıq cinayətkarlığı artıran amillərdən biridir. Belə olan halda müsadirə cinayətkarlığın nəzarətdən çıxmasını alan amil rolunu oynaya və məhz özündə cinayətə görə güclü cəzalandırıcı potensial ehtiva edən cəza tədbiri qismində daha çox fayda verə bilər. Bu gün ölkəmizdə penitensiar müəssisələrin doluluq dərəcəsinin həddən artıq olması kifayət qədər aktual məsələdir və həmin müəssisələrin idarə olunmasını çətinləşdirən ciddi problemə çevrilmişdir. Bir çox hüquqşünas alim bununla əlaqədar olaraq azadlıqdan məhrumetməyə alternativlər axtarıb tapmağa çalışır və əmlakın müsadirəsini məhz belə alternativ qismində nəzərdən keçirir.

Yekun olaraq qeyd edə bilərik ki, hazırda hüququn müxtəlif sahələrində müsadirəyə bu və ya digər şəkildə yer verilir və həmin sahələrin müsadirə anlayışları əmlakın müsadirəsində qarşıya qoyulan məqsədlərə görə bir-birindən fərqlənir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müsadirə "cinayət-hüquqi xarakterli digər tədbir" kimi nəzərdən keçirilsə də, mahiyyətini əsas götürsək və tətbiqi üçün formal əsasları nəzərə alsaq, müsadirə belə tədbir deyil. Bundan başqa, hazırda mövcud olduğu formada müsadirə cinayətə görə cəza qismində nəzərdən keçirilə bilməz, çünki onun mahiyyət xarakteristikalarının tələblərinə cavab vermir. Nəticədə əmlakın müsadirəsinin hüquqi mahiyyəti məsələsi hələ də həll edilməmiş qalır. Bununla belə, bir çox əsrlər ərzində əmlakın müsadirəsi cinayətkarlığa qarşı ən təsirli mübarizə tədbirlərindən biri hesab edilmişdir ki, bu gün də həmin məsələ öz kəskin aktuallığını qoruyub saxlayır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan Respublikası Cinayət Məcəlləsi.
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi.
3. Безбородов Д.А. "Иные меры уголовно-правового характера: понятие, признаки и виды". Учебное пособие.
4. Борченко Д.Ю. "Конфискация имущества как мера уголовно-правового характера: понятие, природа, социальное предназначение и порядок применения".
5. Макаров А.В. "Некоторые законодательные особенности конфискации имущества как иной меры уголовно-правового характера по устранению корыстной мотивации совершения преступлений".
6. Понятовская Т.Г. "Иные меры уголовно-правового характера".
7. Уткин В.А. "Новый облик конфискации". Институт конфискации имущества в законодательстве государств – членов Совета Европы и в российском законодательстве: материалы международного семинара.


**Fərizə Mirzəyeva,**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin prokuroru,**
**ədliyyə müşaviri.**

# Çili Respublikasının İllapel şəhər prokurorunun müsahibəsi

***Cənab Squella, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***



Bakıya səfərim qeyri-adi təcrübə oldu. Şəxsi baxışımda Azərbaycanı əhəmiyyətli iqtisadi inkişafı uğurla təmin etmiş, eyni zamanda mədəni irsinə qürurla sahib çıxan bir ölkə kimi görürəm. Şəhəri gəzməyə başladığın ilk anlardan bu ab-havanı hiss etmək mümkündür. Səfərimin peşəkar tərəflərinə gəlincə, mənim Azərbaycanın Baş Prokurorluğundan həmkarlarla söhbət etmək və cinayət təqibi sistemi, xüsusilə də təbii resursların və biomüxtəlifliyin mühafizəsi vasitəsi kimi ətraf mühit cinayətlərinin təqibi haqqında ümumi məlumat əldə etməyə fürsətim oldu.

***COP29 çərçivəsində "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" mövzusunda Bakıda sessiyanın keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

Beynəlxalq ətraf mühit hüququnun əsas problemi "yumşaq hüquq" anlayışıdır. Bu, məcburi sazişlərin tətbiqi üçün imkanların olmaması deməkdir. Bu reallıq fonunda, hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizəyə səfərbər edilməsi təşəbbüsü cinayət təqibi yolu ilə ətraf mühitin səmərəli mühafizəsinin təmin edilməsi üçün güclü və konkret fəaliyyətdir. Bu xüsusda, dünyanın hər bir yanından prokurorların bu mövzu üzrə öz təcrübə və biliklərini bölüşmək üçün bir araya toplanması böyük əhəmiyyət kəsb edir. Sessiya zamanı ekoloji cinayətlərlə bağlı işlərdə uğurlu təcrübələrlə yanaşı, araşdırma məlumat vasitələri, texnologiyaların və yaxşı təcrübələrin paylaşılması kimi mühüm mövzulardan bəhs etmək imkanımız oldu. Mən, xüsusilə, Çili Prokurorluğu üçün əhəmiyyət kəsb edən ətraf mühit cinayətlərinin əsas sahələri olan meşə yanğınları və su ehtiyatlarının mühafizəsi ilə bağlı cinayətlərin təqibindən bəhs edən Rusiya və Braziliya nümayəndələrinin çıxışlarını qeyd etmək istərdim. Sessiya zamanı, eləcə də ondan əvvəl və sonra həyata keçirilən bütün tədbirlər çoxtərəfli münasibətlərin uğurlu inkişafının təzahürü idi.

***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

Çili bu mövzuda, həm ətraf mühitin ümumi mühafizəsi, həm də cinayətlərdən qorunması sahəsində mühüm addımlar atmışdır. Ümumən, 2010-cu ildə Çili OECD-yə üzv olmaq üçün müqaviləyə qoşulmuş və bu da Çilinin ekoloji fəaliyyətini yaxşılaşdırmaq üçün bir çox, o cümlədən ətraf mühitin mühafizəsi üzrə milli qanunvericilik çərçivəsini müasirləşdirməklə bağlı öhdəliklər doğurmuşdur. Ətraf Mühitin Tənzimlənməsində Uyğunluq Agentliyi ilə yanaşı, Ekologiya Nazirliyi və Xüsusi Ekoloji Hüquq Məhkəmələri təsis edilmişdir. Ətraf mühitin mühafizəsinin əsas aləti kimi Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi sistemi də dəyişdirilmişdir. 2023-cü ildə cinayət məcəlləsinə ekoloji cinayət hüququ ilə bağlı mühüm dəyişiklik edilmişdir. Ətraf mühitin mühafizəsini yaxşılaşdırmaq üçün tamamilə yeni ekoloji cinayətlər fəsli əlavə edilmişdir ki, burada əsas mühafizə obyekti düzəlişdən əvvəl olduğu kimi, insan sağlamlığı və ya ətraf mühitin iqtisadi aspektləri deyil, ətraf mühitin özü olan



yeni cinayətlər nəzərdə tutulmuşdur. Bu yeni cinayətlər iqtisadi fəaliyyətlərinə və ətraf mühitə vura biləcəkləri zərərlərə görə məsuliyyət daşıyan şəxslər kimi sənaye subyektlərinə vurğu edir, yalnız qəsdən deyil, həm də ehtiyatsız davranışları cəzalandırır.

***Hüquq-mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Ekoloji cinayətlərin təqibi təkcə istintaqın özü ilə bağlı deyil, həm də ətraf mühit elmi və qanunları ilə bağlı xüsusi biliklər tələb edir. Müvafiq akademik biliklərə və əməli təcrübə əldə etmək üçün hər iki sahədə çox çalışmışam. 2004-cü ildə Çili Universitetində hüquq dərəcəsi, 2009-cu ildə isə Çilinin Şimali Katolik Universitetində təbii ehtiyatlar hüququ üzrə diplom əldə etmişəm. 2011-ci ildə mən Çili Prokurorluğu

tərəfindən ətraf mühit, ictimai sağlamlıq və mədəni irs cinayətləri üzrə ixtisaslaşmış prokuror vəzifəsinə təyin olunmuşam. 2011-ci ilin noyabrında İtaliya polisi tərəfindən ətraf mühit, ictimai sağlamlıq və mədəni irs cinayətlərinin araşdırılması ilə bağlı iki həftəlik kursda iştirak etmək üçün Romaya dəvət olunmuşam. 2013-cü ildə Çilinin Valparaiso Katolik Universitetində Ətraf Mühit hüququ üzrə diploma yiyələnmişəm. 2014-cü ildə mən prokurorluq fəaliyyətimə fasilə verərək Nyu York Universitetinin Hüquq Məktəbində ətraf mühit hüququ üzrə magistr dərəcəsi (LLM) almaq üçün Amerika Birləşmiş Ştatlarına getmişəm və ən yaxşı tələbə kimi ətraf mühit hüququ üzrə mükafata layiq görülmüşəm. 2015-ci ildə Çiliyə qayıdaraq prokuror kimi fəaliyyətimi bərpa etmişəm. 2016-cı ildən 2019-cu ilə qədər Çilinin Santo Tomas Universitetinin hüquq fakültəsində ətraf mühit hüququ üzrə professor olaraq çalışmışam. 2018-ci ilin sentyabr ayında İtaliyanın Ostia şəhərində OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) tərəfindən təşkil edilən üç həftəlik maliyyə araşdırmaları kursuna getdim və bu mənə ekoloji cinayətlərin iqtisadi aspektləri haqqında daha geniş anlayışa malik olmağa imkan verdi. Əməli fəaliyyətimə gəlincə, 2007-ci ildən başlayaraq mən ekoloji cinayətlər, xüsusilə kontinental suların çirklənməsi, təhlükəli maddələrin dağılması, su ehtiyatlarının qanunsuz çıxarılması və meşə yanğınları ilə bağlı bir sıra araşdırmalar aparmışam.

***Hörmətli Andres Villalobos, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!!!***

Məni COP29 kimi mötəbər tədbirə dəvət etdiyinə görə Azərbaycan Respublikasının Baş prokuroruna təşəkkür etmək istərdim. İqlim fəaliyyəti naminə hüquq-mühafizəyə həsr olunmuş xüsusi sessiyada iştirak etməkdən şərəf duyuram. Qonaqpərvərliyə görə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin bütün kollektivinə xüsusi təşəkkürlərimi bildirirəm.

## Rusiya Federasiyasının İrkutsk Dövlət Universitetinin prorektorunun müsahibəsi

***Cənab Qaqarov, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***



İrkutsk Dövlət Universitetinin nümayəndə heyətinin BMT-nın COP29 konfransında iştirakı məqsədilə Bakıya gəlməsi Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin dəvəti sayəsində mümkün olmuşdur.

Sözsüz ki, COP29 kimi mühüm hadisə heç bir mütəxəssisi biganə qoya bilməzdi. Bu gün dərrakəli bəşəriyyət yer kürəsində labüd nəticələrə səbəb ola biləcək iqlim dəyişikliklərinə maraqsız qala bilmir. Bu tam olaraq hamiya aiddir. COP29 konfransı bəşəriyyətin gözlənilən təhdidlərdən konstruktiv şəkildə qarşısını almaq üçün necə səy göstərdiyinə bir nümunədir. Ən yüksək səviyyədə təşkil olunmuş belə bir dialoq platforması dünyanın əksər ölkələrin mənfi iqlim dəyişikliyi sahəsində mümkün olan bütün səyləri göstərilməsində tərəfdaş olduğunu təsdiqləyir. Bu gün müxtəlif sahələr üzrə mütəxəssislər tərəfindən müxtəlif mexanizmlərin təklif edildiyini görmək sevindirici haldır. Şübhəsiz ki, bu ruhlandırır və ən aktual problemlərin tezliklə həllinə ümid verir.

***COP29 çərçivəsində "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" mövzusunda Bakıda sessiyanın keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

"İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" sessiya ərzində əsas spikerlərin məruzələrini dinləməsi, sonra problemlərin panel müzakirəsi bu sahədə iki və çox tərəfli münasibətlərinin inkişafının və gücləndirilməsinin davam etməsinin ehtiyacını aydın edir. Burda rus atalar sözünü "Tarlada bir nəfər əsgər deyil" tətbiq etmək olar. Birinci növbədə, bu ölkələrimizin səlahiyyətli orqanlarının su obyektlərinin mühafizəsi sahəsində qarşılıqlı əlaqələrin gücləndirilməsində görünür. Burda əldə olunmuş təcrübənin saxlanılması və çoxaltması vacibdir.

***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

Bu gün Rusiyanın ekoloji gündəliyi aktiv olaraq formalaşır. Bu məsələyə maraq müxtəlif tərəflərdən (həm dövlət, həm də ictimaiyyət) göstərilir. Ətraf mühitin mühafizəsi sahəsində Rusiyanın prioritet fəaliyyət sahələri daim inkişaf edir. Hazırda aşağıdakı əsas istiqamətləri qeyd etmək olar: istixana qazları

emissiyalarının azaldılması, meşələrin idarə edilməsi, biomüxtəlifliyin mühafizəsi, suların idarə edilməsi, tullantıların idarə edilməsi və ətraf mühitin monitorinqi.

Eyni zamanda qeyd etmək vacibdir ki, bu prioritetlərin həyata keçirilməsi bir sıra çətinliklərlə üzləşir. O cümlədən: iqtisadi amillər (ekoloji cəhətdən təmiz texnologiyalara və infrastruktura investisiya ehtiyacı), inzibati maneələr (ekoloji qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət və nəzarət sistemi həmişə effektiv olması), coğrafi amillər (Rusiyanın geniş ərazisi və belə miqyasda təbii ehtiyatların idarə edilməsinin mürəkkəbliyi).



Ümumiyyətlə, ətraf mühitinin mühafizəsi sahəsində Rusiyanın prioritetləri həm qlobal ekoloji çağırışları (iqlimin dəyişməsi), həm də ölkənin böyük təbiət potensiyalı və onun rasional istifadə edilməsinin zərurəti ilə bağlı xüsusi milli məqsədlərini əks etdirir. Lakin, qoyulmuş məqsədlərin nail olması mühüm cəhdləri və təbiət resursların idarəsində yanaşmanın dəyişdirilməsini tələb edir. Bu gedişdə hüquq mühafizə, həmçinin prokurorluq orqanlarının rolunu həddindən artıq qiymətləndirmək çətindir.

***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

İrkutsk Dövlət Universitetinin hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması barədə deyincə, qeyd etmək vacibdir ki, 2015-ci ildən, yani 10 ilə yaxın, universitetimiz praktiki hüquqşünasların, həmçinin hüquq mühafizə sahəsini təmsil edən əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsində regionalarası elm-tədris qovşağı kimi çıxış edir.

Praktiki işçilərlə işləməyin özəlliyi pedaqoji biliklərin daim təkmilləşdirilməsini tələb edir. Bu fikri dərk etmək zəruridir. Çünki peşəkarlara tədris aparılması – məktəb skamyasından sonra tələbələrə təhsil verilməsi ilə eyni deyil. Burda tam olaraq andraqoqikanı (redaksiyadan: təhsil fəaliyyətinin yetkin subyekti tərəfindən bilik və bacarıqların mənimsənilməsinin spesifik qanunauyğunluqlarını, habelə bu fəaliyyətin peşəkar müəllim tərəfindən idarə edilməsinin xüsusiyyətlərini ortaya qoyan təlim nəzəriyyəsi) bilmək lazımdır.

Fikrimizcə, dinləyicilər arasında mövcud təcrübənin maksimum dərəcədə mübadiləsini təmin etmək üçün əsas diqqətin qrup işinə yönəldilməsi vacibdir. Həmçinin, böyük yaradıcılıq sərbəstliyin verilməsi peşədə novasiyaların yüksək səmərəli ilə dərk edilməsində kömək edir.

***Hörmətli Andrey Aleksandroviç, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!!!***

## Türkiyə Ədliyyə Akademiyasının rəhbərinin müsahibəsi

***Hörmətli Muhittin Özdemir, “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***



Səfərim zamanı Bakının valehedici atmosferi məni dərin təsirləndirdi. Şəhərin tarixi toxuması ilə müasir memarlığı arasında qurulan tarazlıq həqiqətən görməyə dəyərdir. İçərişəhərdə keçmişin izlərini hiss edərkən, müasir göydələnlərin silueti gələcəyi göz önünə sərir. Azərbaycan türkü qardaşlarımızın qonaqpərvərliyi, mədəni zənginlikləri və Xəzər dənizinin bəxş etdiyi sakitlik Bakının yaddaşımda və qəlbimdə xüsusi bir yer tutmasını təmin etdi. Bundan başqa, Bakının gecə işıqları altındakı mənzərəsi mənə bu şəhərin həm keçmişini, həm də gələcəyini təcəssüm etdirən bir şəhər olduğunu hiss etdirdi.



Bunu da xüsusi vurğulamaq istəyirəm ki, tarix boyu Qafqazın ən əhəmiyyətli şəhərlərindən biri olan Bakı, türk dünyasının müxtəlif coğrafiyalarını birləşdirən bir körpü funksiyasını daşıması baxımından həm tarixi, həm də mədəni baxımdan böyük əhəmiyyət kəsb edir. Coğrafi mövqeyi ilə Bakı, Anadolu ilə Türküstan arasında mədəni, ticari və siyasi əlaqələrin güclənməsinə töhfə verməyə davam edəcəyinə inanıram.

Bakının, Azərbaycan Respublikasının paytaxtı olaraq türk dünyasının ortaq dəyərlərini əks etdirən bir şəhər olması mənim üçün xüsusi əhəmiyyətə malikdir. Türk dilinin, musiqisinin, ədəbiyyatının və incəsənətinin qorunduğu bu "xüsusi" şəhərin, eyni zamanda türk dünyasının ortaq tarixi irsinə ev sahibliyi etdiyini görməkdən böyük məmnunluq duydum. Bakının Türk Şurası kimi türk dövlətlərini bir araya gətirən təşkilatlarda fəal rol oynaması və türk dünyasının birliyini və həmrəyliyini gücləndirmək baxımından strateji mövqeyə sahib olması məni olduqca sevindirir.

***Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda beynəlxalq konfransın Bakıda keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

Türk Ədliyyə Təlim Şəbəkəsi (TƏTŞ) türk dünyası ölkələri arasında hüquq sahəsində əməkdaşlığı möhkəmləndirərək, ədalət sistemlərinin modernləşdirilməsi və gücləndirilməsinə əhəmiyyətli töhfələr verməyi qarşısına məqsəd qoymuşdur. Bakıda keçirilən bu konfrans, türk dövlətlərinin ümumi hüquqi hədəflər və çağırışlar qarşısında həmrəyliyini artırmaqla yanaşı, məlumat mübadiləsi, tədris proqramları və ədalət sistemlərində standartlaşma mövzularında yeni imkanlar yaratmışdır.

Bundan əlavə, hüquq təhsilinin beynəlxalq standartlara uyğunlaşdırılması və məhkəmə işçilərinin peşəkar inkişafına dəstək kimi sahələrdə əhəmiyyətli addımlar atılmışdır.

Belə tədbirlər, türk dünyasının ədalət sistemləri arasında uzunmüddətli əməkdaşlığı gücləndirərək həm regional həmrəyliyə, həm də beynəlxalq hüquq sahəsində rəqabət qabiliyyətinin artırılmasına mühüm töhfələr verir.

***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Hüquq tətbiqçilərinin təlimində bir neçə mühüm məqam mövcuddur və bu məqamlara xüsusi diqqət yetirilməlidir:

- ✓ Davamlı öyrənmə mədəniyyəti: hüquq sahəsindəki sürətli dəyişikliklər hüquqşünasların daim yeni bilik və bacarıqlar əldə etməsini zəruri edir.
- ✓ Praktik tətbiqlər: nəzəri biliklə yanaşı, real işlər üzərində işləmək və simulyasiyalar həyata keçirmək peşəkar bacarıqların inkişafı baxımından böyük əhəmiyyət daşıyır.
- ✓ Texnoloji vasitələrin istifadəsi: hüquq araşdırma proqramları, məlumat təhlili vasitələri və süni intellekt dəstəkli sistemlər hüquqşünasların daha effektiv işləməsinə kömək edir.
- ✓ Şəbəkələşmə: digər hüquqşünaslar, hakimlər və hüquq sahəsindəki mütəxəssislərlə qarşılıqlı əlaqə, müxtəlif baxış bucaqlarının qazanılması və bilik mübadiləsi baxımından mühümdür.

Akademiya olaraq bu məqamları nəzərə almışıq. Məqsədimiz, hüquqa və insan haqlarına sadiq, qərəzsiz, müstəqil və azad vicdanla qərar

qəbul edən, peşə etik dəyərlərini mənimsəmiş və cəmiyyətin ədalət ehtiyaclarını qarşılaya biləcək səviyyədə hakim və prokurorlar yetişdirməkdir. Bu məqsədlə, tətbiq yönümlü və interaktiv tədris modeli Akademiyamızın təlim fəaliyyətlərinin əsasını təşkil edir.

Namizədlik mərhələsindən başlayaraq, fasiləsiz və davamlı tədris yanaşmasına inanaraq, hüquq tətbiqçilərinin nəzəri bilik və peşəkar bacarıqlarını daim inkişaf etdiririk.

Bu məqsədlə mövcud təhsil sistemini yenidən qurmuşuq. Yeni təhsil modelimiz üç əsas istiqamətdə hazırlanmışdır:

– Tamamlayıcı hüquq təhsili
– Davamlı hüquq təhsili
– Fərdi peşəkar inkişaf təhsili.




***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***



Türkiyə, zəngin bioloji müxtəlifliyi və təbii gözəllikləri ilə dünyanın ən mühüm ekoloji bölgələrindən biri kimi fərqlənir və bu baxımdan, təbiəti ilə heyranedici bir ölkə olduğunu vurğulamaq istəyirəm. Lakin təəssüf ki, ətraf mühit problemləri sürətlə artmaqdadır. Sürətli sənayeləşmə, əhalinin sürətli artımı və qeyri-düşünülmüş istehlak ətraf mühiti təhdid edən əsas amillər sırasındadır. Bununla yanaşı, ölkəmiz bu problemlərlə mübarizə aparmaq üçün bir çox əhəmiyyətli addımlar atmaqdadır. Ətraf mühiti qoruma sahəsində əsas məqsədimiz gələcək nəsillərə təmiz və sağlam bir təbiət miras qoymaqdır.

Hava çirkliliyi, su çirkliliyi və tullantıların idarə olunması ən ciddi narahatlıq doğuran problemlərimizdəndir. Məsələn, böyük şəhərlərdə hava çirkliliyi tənəffüs yolları xəstəliklərinə səbəb olur, su ehtiyatlarımız isə çirklənməyə məruz qalır. Bu səbəbdən, ölkəmiz tullantıların idarə olunması və suya qənaət mövzularında maarifləndirmə işlərini sürətləndirmişdir. Bundan əlavə, meşə itkilərinin qarşısını almaq məqsədilə milli parklarımızın qorunmasına və yeni yaşıl sahələrin yaradılmasına xüsusi diqqət yetirilir.

Ətraf mühitin qorunması ilə bağlı hüquqi tənzimləmənin həyata keçirilməsi mühüm bir addımdır. Lakin yalnız qanunların mövcudluğu kifayət deyil, hər bir fərdin bu mübarizədə fəal iştirak etməsi zəruridir. Gündəlik həyatımızda sadə tədbirlər görməklə ətraf mühitə töhfə verə bilərik. Məsələn, tullantıları çeşidləməklə təkrar emalın artmasına dəstək olmaq, suyu qənaətlə istifadə edərək təbii ehtiyatları qorumaq mümkündür.

Gələcək üçün əsas təklifim, daha çox dayanıqlı texnologiyalara və ətraf mühitə dost həllərə investisiya qoyulmasıdır. Hər bir fərd təbiətə hörmətlə yanaşaraq və ətraf mühiti təmiz saxlayaraq böyük bir fərq yarada bilər. Bu məsuliyyət yalnız hökumətlərin və ya siyasətçilərin deyil, bütün cəmiyyətin üzərinə düşən bir öhdəlikdir.





***Ölkələrimizin hüquq mühafizə orqanlarının təlim müəssisələri arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri barədə fikirlərinizi bilmək istərdik.***



Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər yalnız iki ölkənin deyil, həm də iki xalqın ürəyində dərin bir yer tutan qardaşlıq bağlarının təzahürüdür. Bu münasibətlər tarixi, dil, mədəni və dini bağlarla zənginləşmiş və möhkəmləndirilmişdir. Siyasi və iqtisadi sahələrdə olduğu kimi, ictimai və mədəni baxımdan da bu əlaqələr son dərəcə güclüdür.

Tarixi köklər və ortaq dəyərlər çərçivəsində başlayan dostluğumuz “Bir Millət, İki Dövlət” prinsipi ilə iki xalqın bir-birinə olan dərin bağlılığını və qardaşlıq anlayışını ən aydın şəkildə nümayiş etdirir.

2020-ci ildə Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycana verdiyi güclü siyasi dəstək iki ölkə arasındakı qardaşlıq bağlarını daha da dərinləşdirdi. Müharibədən sonra imzalanan sazişlər bölgədə yeni bir dövrün başlanğıcını qoymuşdur. Türkiyə və Azərbaycan bu yeni dövrdə qarşılıqlı əməkdaşlığı daha da möhkəmləndirmək və gücləndirmək məqsədini güdür.

Türkiyə və Azərbaycan arasındakı güclü münasibətlər gələcəkdə daha da möhkəmlənərək davam edəcəkdir. Bu əməkdaşlıq yalnız iki ölkənin maraqlarına deyil, eyni zamanda bütün türk dünyasının ümumi maraqlarına xidmət edəcək mühüm bir addımdır.

Şuşa Bəyannaməsi ilə zirvəyə çatan əməkdaşlığımız hüquq və ədalət sahəsində də artaraq davam edəcəkdir. Hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğan və Ədliyyə naziri Yılmaz Tunçun dəstəyi ilə bu istiqamətdəki fəaliyyətlərimiz gələcəyimizə yön verəcəkdir.

Bakıda keçirilən proqramın təşkilində ev sahibliyi edən Baş prokuror Kamran Əliyev və Ədliyyə Naziri Fərid Əhmədov cənablarına da təşəkkürümü bildirirəm.



***Hörmətli Muhittin Özdemir, bu geniş və maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə dərin təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

# Qazaxıstan Respublikası Baş Prokurorluğu yanında Hüquqmühafizə orqanları Akademiyasının rektorunun müsahibəsi

***Cənab Seksembayev, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***



İlk növbədə, ənənəvi qonaqpərvərliyə, qardaşcasına səmimiyyətə və qayğıya, eləcə də konfransın belə yüksək səviyyədə təşkilinə görə Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin kollektivinə səmimi təşəkkürümü bildirirəm. Biz Mərkəzin əməkdaşlarının yüksək peşəkarlığına, geniş dünyagörüşünə və vətənpərvərliyinə heyran olduq. Azərbaycan tərəfi səfər üçün kifayət qədər zəngin proqram təqdim edib.

Konfransdan əlavə, nümayəndə heyətlərinin Azərbaycanın Respublikasının Baş prokuroru cənab Kamran Əliyevlə görüşü keçirildi, görüş zamanı iştirakçılar üçün Türk Ədliyyə Təlim Şəbəkəsinin üzv təhsil müəssisələri arasında əməkdaşlığı daha da inkişaf etdirmək niyyətlərini bildirmək imkanı yarandı.



Bizim üçün Bakının xatirə komplekslərinə ziyarət təşkil olundu: Heydər Əliyevin məzarı, Türk Şəhidliyi abidəsi, Şəhidlər Xiyabanı, Heydər Əliyev Mərkəzi, "Suraxanı" gəmi muzeyi və Baş Prokurorluğun muzeyi.

2024-cü ildə Bakıda keçirilən COP29 iqlim sammitinin və Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu konfransının video görüntüləri də nümayiş etdirildi.

Ümumiyyətlə, səfərdən yalnız müsbət təəssüratlar qalıb.

Sevindirici haldır ki, Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində keçirilən tədbirlərin əhəmiyyəti ildən-ilə artır.

***Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda beynəlxalq konfransın Bakıda keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

Qeyd edək ki, konfransın məzmunu və təşkili yüksək səviyyədə oldu. Müzakirə üçün seçilmiş mövzular son dərəcə aktualdır və qlobal gündəmə uyğundur.

Qazaxıstan tərəfi üçün bu konfrans xüsusi əhəmiyyət kəsb edir. Yekun iclasda Türk Ədliyyə Təlim Şəbəkəsinə sədrliyin Azərbaycandan Qazaxıstana verilməsi mərasimi keçirildi.

Qarşıdan gələn ildə artıq sədrlik edən ölkə olaraq, biz bu müsbət dinamikanı davam etdirməyə və Türk Ədliyyə Təlim Şəbəkəsinin iştirakçıları arasında əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verməyə hazırıq.

Konfrans zamanı türk dövlətlərinin hüquq sistemlərinin mümkün uyğunlaşdırılması məqsədilə öyrənilməsinin, təcrübə mübadiləsi və elmi tədqiqatların aparılması üçün birgə maarifləndirici tədbirlərin keçirilməsinin məqsədəuyğunluğu barədə ümumi fikir bildirildi.

Eyni zamanda, konfransda Türk dövlətlərin model Kommersiya Məcəlləsi layihəsinin hazırlanması üçün işçi qrupunun yaradılması, iştirakçı dövlətlərin dillərində ticarət hüququna dair hüquqi terminlərin, rəqəmsal lüğətinin tərtib edilməsi, Şəbəkə çərçivəsində prokurorluq və ədliyyə orqanlarının əməkdaşlarının hazırlanması üzrə birgə görülən işlər barədə məlumatların yerləşdirilməsi üçün onlayn platformanın bərpası və türk şəbəkəsinin təlim müəssisələrinin tədris prosesində türk hüquqşünaslıq tarixinin tədrisi barədə konkret təkliflər irəli sürüldü.

Bütün bu təşəbbüslər diqqətə layiqdir və daha sıx əməkdaşlıq üçün, xüsusilə də Azərbaycan və Qazaxıstan

arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi və inkişafı üçün yeni imkanlar açır.




***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Bəli, əlbəttə. Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə Akademiyası 2015-ci ildə yaradılıb.

Akademiyanın tədris prosesi müdavimlərin və dinləyicilərin kateqoriyalara bölünməsi prinsipinə əsaslanır və üç istiqamətə malikdir: hüquq-mühafizə orqanlarına xidmətə daxil olan şəxslər üçün ilkin peşə hazırlığı, işləyən əməkdaşlar üçün ixtisasartırma kursları, habelə ali təhsildən sonrakı təhsil (magistratura və doktorantura).

2020-ci ildən Akademiyamızda ilkin peşə hazırlığı institutu və prokurorluq orqanlarına, antikorrupsiya və iqtisadi istintaq xidmətlərinə kadr seçimi üzrə yeni model fəaliyyət göstərir.

Təhsil 20% nəzəriyyə və 80% təcrübə prinsipinə əsaslanır. Tədrisin məzmunu nəzarət fəaliyyətinin materialları, cinayət işləri və prosessual sənədlər əsasında formalaşır. Keys materialları və simulyasiya təlimləri şəklində bir sıra interaktiv tədris metodları istifadə olunur.

Akademiyada hadisə yerinə baxış, axtarış, götürmə, cinayət izlərinin qeydə alınması, maddi sübutların müsadirə edilməsi üzrə təhqiqat və əməliyyat bacarıqlarının inkişaf etdirilməsi üçün reallığa mümkün qədər yaxın təlim meydançalarına malik təlim-təcrübə mərkəzi fəaliyyət göstərir.

Dinləyicilər hüquq-mühafizə orqanlarında bilavasitə təcrübə keçərkən əldə etdikləri bilik və bacarıqları möhkəmləndirir və nəticələri əsasında Akademiyaya hesabatlar təqdim edirlər.





İmtahandan müvəffəqiyyətlə keçən şəxslər hüquq-mühafizə orqanlarına işə qəbul olunur və xüsusi rütbə alırlar. Hər il orta hesabla 350-400 məzunumuz işə qəbul olunaraq, ölkəmizin müxtəlif yerlərində şərəflə xidmət göstərir.

Növbəti sahə – hüquq-mühafizə orqanlarının əməkdaşlarının, o cümlədən orta rəis heyəti vəzifələrinə namizədlərin, Prezident ehtiyatında olan ərazi hüquq-mühafizə və xüsusi təyinatlı orqanlarının rəhbərləri vəzifələrinə namizədlərin, mərkəzi icra hakimiyyəti rəhbərlərinin müavinlərinin ixtisaslarının artırılmasıdır.

Kursların mövzuları hüquq-mühafizə orqanlarının təklifləri və onların fəaliyyətinin təhlili əsasında formalaşdırılır. Dinləyicilərin iş kateqoriyalarına, iş stajına və iş sahəsinə görə fərqləndirilməsi tətbiq edilir.

Təlimçi qismində təcrübəli hakimlər, müstəntiqlər, prokurorluq və digər hüquq-mühafizə orqanlarının mərkəzi aparatlarının əməkdaşları, habelə hüquqşünas alimlər dəvət olunurlar.

Təhsil zamanı strateji və sistemli düşüncənin, vəziyyətinin operativ və keyfiyyətli təhlilinin, normal və qeyri-standart vəziyyətlərdə

fəaliyyətin səmərəli planlaşdırılmasının, o cümlədən media ilə işləmək bacarığının inkişafına diqqət yetirilir.

2015-ci ildən hazıradək Akademiyada 12 mindən çox hüquq-mühafizə orqanı əməkdaşı, o cümlədən 4 mini distant formatda təlim və ixtisasartırma kursu keçib.

Üçüncü sahə – ali təhsildən sonrakı təhsil proqramlarının həyata keçirilməsidir.

Hüquq-mühafizə orqanlarının əməkdaşları magistr və doktorant kimi hazırlanır. Onlar elmi tədqiqat işlərinə cəlb olunur, beynəlxalq tədbirlərdə mükafatlar qazanırlar.

2015-ci ildən hazıradək Akademiya 400-ə yaxın magistr və 62 doktorant yetişdirib.

Gələcək üçün biz təhsil proqramlarının müasirləşdirilməsi, fasiləsiz təlim sisteminin tətbiqi, hüquq-mühafizə sahəsində elmi liderliyə nail olmaq, Akademiyanın qabaqcıl rəqəmsal infrastrukturla təchiz edilməsi kimi yüksək məqsədlər qoyuruq.



***Akademiyanın beynəlxalq təhsil və əməkdaşlıq sahəsində fəaliyyəti də maraq doğurur. Bu istiqamətdə görülən işlər barədə məlumat verə bilərsinizmi?***

Beynəlxalq əməkdaşlıq təhsil strategiyamızın əsas elementidir.

Son on ildə beynəlxalq tərəfdaşlarla sıx əlaqələr qurulub. Yaxın və uzaq xarici ölkələrin elm və təhsil mərkəzləri ilə 39 beynəlxalq müqavilə və anlaşma memorandumu imzalanıb.

2021-ci ilin sentyabr ayında biz Azərbaycan Baş Prokurorluğunun Elm və Tədris Mərkəzi ilə memorandum imzaladıq. Bu saziş təşkilatlarımız arasında əməkdaşlığın möhkəmləndirilməsində mühüm addım oldu, hər iki ölkənin hüquq-mühafizə orqanları əməkdaşlarının hazırlığının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına, birgə tədbirlərdə fəal iştirakına və müsbət təcrübələrin mənimsənilməsinə imkan yaradıb.

Biz beynəlxalq təşkilatlarla da əməkdaşlıq qurmuşuq: BMT-nın Narkotik və Cinayətkarlıqla Mübarizə İdarəsi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi, Avropa Şurası, ATƏT, ABŞ-ın Qazaxıstandakı səfirliyi, F.Ebert Fondu, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) və sair.

Akademiya maliyyə istintaqı və hüquq-mühafizə işçilərinin ixtisasının artırılması üzrə MDB-nin baza təşkilatı statusuna layiq görülüb. Bu status çərçivəsində biz hər il xarici hüquq-mühafizə orqanlarının əməkdaşları və hakimlərinin iştirakı ilə beynəlxalq təlim tədbirləri keçiririk.

Bundan əlavə, BMT-nin dəstəyi ilə 2017-ci ildən biz Mərkəzi Asiyada qlobal təhlükələrə qarşı mübarizə məsələləri üzrə təlim platforması kimi fəaliyyət göstəririk. Bunlar terrorizm, ekstremizm, maliyyə cinayətləri, korrupsiya, narkotiklərin qanunsuz dövriyyəsi və insan alveridir.

Bu istiqamətlərdə beynəlxalq ekspertlər cəlb edilməklə yerli və xarici hüquq-mühafizə orqanlarının



əməkdaşları üçün 400-dən çox elmi-maarifləndirici tədbir keçirilib.

Tərəfdaşların köməyi ilə təlim keçmək və beynəlxalq tədbirlərdə iştirak məqsədilə Akademiyanın işçilərinin xaricə müntəzəm səfərləri təmin edilir.




Ümumiyyətlə, beynəlxalq əməkdaşlıq Akademiyaya hüquq-mühafizə sahəsində ən son metod və texnologiyaların tətbiqinə, kadr hazırlığının və ekspertlərin hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə, habelə tanınmasının artırılmasına imkan verir.

***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

Qazaxıstan digər ölkələrlə birlikdə bir-biri ilə əlaqəli davamlı inkişaf məqsədlərinə nail olmağa çalışır ki, onların arasında ətraf mühitin mühafizəsi məsələsi xüsusi rol oynayır.

Bu kontekstdə ölkədə ekosistemin qorunması, biomüxtəlifliyin qorunub saxlanılması və bərpası istiqamətində kompleks işlər aparılır.

Heyvanlar aləminin mühafizəsi üzrə fəaliyyətin hüquqi təminatı baxımından qorunan heyvan növlərinə təcavüzə görə kifayət qədər sərt sanksiyalar müəyyən edilmişdir. Onların arasında sayqakları xüsusi qeyd etmək olar. Qazaxıstan yer üzündə mövcudluq tarixi 50-70 min il əvvələ təsadüf edən bu relikt heyvanların yaşayış yeridir.

İntensiv ov sayəsində onların sayı 1990-cı illərdən 2000-ci illərə qədər 50 dəfə azalmışdır (1 milyondan 20 minə qədər).

Səbəb müalicəvi təbiəti olan və bir kiloqramının qara bazarda 5 min dollara satılan buynuzları olmuşdur. Bu səbəbdən 2002-ci ildə Beynəlxalq Təbiəti Mühafizə İttifaqı sayqakları nəsli kəsilməkdə olan növlərə aid etdi.

Bununla bağlı Qazaxıstanda sayqakların tutulmasına görə cinayət məsuliyyəti tətbiq edilməyə başlanıldı. Ciddi sanksiyalar, o cümlədən 10-12 ilədək azadlıqdan məhrum etmə müəyyən edildi. Onların yaşayış və miqrasiya zonalarında xüsusi mühafizə olunan ərazilər yaradıldı. Nəticədə, 2000-ci illərdən bəri sayqakların sayı 20 mindən 3 milyona qədər artdı.

Qazaxıstanda yaşayan nəsli kəsilməkdə olan bəzi heyvan növləri üzrə də müsbət statistika müşahidə olunur. Bu cür yanaşmalar ətraf mühitin mühafizəsi fəaliyyətinin bütün sahələrində tətbiq edilir.

Şübhəsiz ki, cəza tədbirləri ilə yanaşı, əhali arasında da xeyli maarifləndirici işlər aparılır.

***Ölkələrimizin hüquq mühafizə orqanlarının təlim müəssisələri arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri barədə fikirlərinizi bilmək istərdik.***

Qurumlarımız arasında anlaşma memorandumunun mövcudluğunu, ortaq tarixi-mədəni dəyərlərin olmasını, Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində fəaliyyətimizi, BMT və digər beynəlxalq təşkilatların təhsil proqramlarında eyni vaxtda iştirakımızı nəzərə alsaq, əməkdaşlığın gələcək inkişafı üçün böyük perspektivlər yaradır.

Birgə layihələr, konfranslar, təlimlər və seminarlar transmilli cinayət, kibertəhlükə və terrorizmlə mübarizə kimi ümumi problemlərin həllinə vahid yanaşmanın formalaşdırılmasına kömək edə bilər.

Təşkilatlarımız arasında elmi tədqiqatlarda qarşılıqlı iştirakın təşkili də faydalı olacaq. Düşünürəm ki, burada hər iki ölkənin hüquq-mühafizə sahəsi üçün aktual olacaq problemlərə dair elmi mövzular tapmaq olar.

Hüquq-mühafizə orqanlarının əməkdaşlarının, elmi işçilərinin və professor-müəllim heyətinin qarşılıqlı təcrübə keçməsində – əməkdaşlıq üçün böyük potensial görünür.

Bu təşəbbüslər Akademiyanın maliyyə istintaqı və hüquq-mühafizə işçilərinin ixtisasının artırılması üzrə MDB-nin baza təşkilatı, eləcə də qlobal təhlükələrə qarşı mübarizə üzrə Regional Qovşağı statusu çərçivəsində həyata keçirilə bilər.

Biz istər təlim tədbirlərinin keçirilməsi, istərsə də elmi tədqiqatlar baxımından Azərbaycan tərəfi ilə sıx əməkdaşlığa həmişə açığıq və hazırıq.

***Hörmətli Marat İslamxanoviç, bu geniş və maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə dərin təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

# Qırğızıstan Respublikası Ali Məhkəməsi yanında Ali ədalət məktəbinin müəlliminin müsahibəsi

***Xanım Duşenbekova, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***




Azərbaycanda ilk dəfə səfərdə oldum. Bakının dünyanın ən gözəl şəhərlərindən biri olması fikri öz təsdiqini tapdı. Bakıya səfər əlbəttə ki, müstəsna təəssürat yaradır. Bu şəhər qədim tarix, inkişaf etmiş memarlıq və müasir rahatlığı özündə birləşdirir. Mədəni proqram da çox rahat, bacarıqlı və peşəkar şəkildə qurulub. Təşkilatçılar konfransın işgüzar aspektlərinə diqqət yetirməklə yanaşı, həm də ölkənin mədəniyyəti ilə tanış olmaq, gözəl yeməklərdən dadmaq və Bakının gözəlliyindən heyran olmaq fürsətini mükəmməl təşkil edib. Konfransın bütün iştirakçılarını qəbul edən Baş prokuror Kamran Əliyevə xüsusi təşəkkürümü bildirirəm ki, bu qəbul, əlbəttə ki, tədbirin əhəmiyyətini vurğulayır.

***Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda beynəlxalq konfransın Bakıda keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

İlk növbədə, bu praktika və təcrübə mübadiləsidir. Konfrans müxtəlif ölkələrdən olan müəllimlər və praktiki hüquqşünaslar arasında təcrübə və bilik mübadiləsi üçün platforma yaradır. Bu insan hüquqlarının müdafiəsi, antikorrupsiya tədbirləri və azlıqların hüquqları kimi transmilli məsələlərə birgə yanaşmaların inkişafına kömək edə bilər.

Konfrans türk dünyası ölkələrində və onun hüdudlarından kənarda hüquqi təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə kömək edəcək hüquq normaları sahəsində ortaq standartların işlənib hazırlanması üçün forumdur. Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində əməkdaşlıq hüquq fakültələri və məhkəmə orqanları arasında təhsil proqramlarının, birgə tədqiqat layihələrinin və akademik mübadilələrin genişləndirilməsinə imkan verir. Bu, həm də vahid təhsil standartlarının yaradılmasına, regionda hüquqi savadlılığın və hüquqi maarifləndirmənin gücləndirilməsinə kömək edəcək.

Ümumi hüquqi və siyasi məsələlərin müzakirəsi qarşılıqlı etimadın və əməkdaşlığın möhkəmlənməsinə kömək edəcək. Konfrans beynəlxalq səviyyədə əlaqələndirilmiş səylər tələb edən iqlim dəyişikliyi, miqrasiya, terrorizmlə və transmilli cinayətkarlıqla mübarizə kimi qlobal çağırışların həllinə yanaşmaları kollektiv şəkildə inkişaf etdirmək imkanı verir. Hüquqi aspektlərin birgə müzakirəsi ölkələr arasında mədəni əlaqələri dərinləşdirəcək. Bu, türk dünyası kimi ortaq tarix və mədəniyyətə malik olan ölkələr üçün xüsusilə vacibdir.

***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Qırğızıstan Respublikasının Ali Məhkəməsi yanında Ali Ədliyyə Məktəbində hakimlər və məhkəmə işçiləri üçün təlim proqramı baxılan məsələlərin aktuallığı və dinləyicilərin müraciətləri əsasında hazırlanır, sonra mövzular Hakimlər Şurası tərəfindən təsdiq edilir. Qırğızıstan Respublikası təlim mürəkkəb sistemdə səmərəli işləmək üçün zəruri olan bacarıq və biliklərin formalaşdırılmasına yönəlib. "Terrorizm



və ekstremizmlə bağlı cinayət işlərinə baxılmasının xüsusiyyətləri", "Korrupsiya cinayətlərinə baxılmasının xüsusiyyətləri, ətraf mühitə qarşı cinayətlər, transmilli elementləri olan cinayətlər, kibercinayətlər" və başqaları hakimlərin, məhkəmə işçilərinin təlimlərinin, dəyirmi masaların və seminarların tərkib hissəsidir.

Ali Ədliyyə Məktəbi həmçinin hakimlər, prokurorlar, müstəntiqlər və vəkillər üçün idarələrarası seminarlar məqsədi ilə bir neçə modul hazırlayıb. Məsələn, "İnsan alveri ilə bağlı cinayət işlərinə baxılmasının xüsusiyyətləri" mövzusunda seminar bu cinayətlərin qurbanlarına yönəldilmiş və səhnələşdirilmiş formatda keçirilir.



Konfransda baxılan məsələlər, digər ölkələrin təcrübəsinin müzakirəsi, şübhəsiz ki, tədbirdə iştirak edən ölkələrin bacarıq və təcrübələrini bölüşməyə, o cümlədən Ali Ədliyyə Məktəbi üçün daha mütərəqqi təlim və tədris metodlarını mənimsəməyə imkan verir.

***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

Ətraf mühitin mühafizəsi həqiqətən də Qırğızıstan üçün əsas prioritetdir və son illərdə ölkə öz ekosistemini qorumaq üçün mühüm addımlar atır. Qırğızıstanın unikal təbii sərvətləri, o cümlədən dağlar, göllər, çaylar və müxtəlif flora və fauna var ki, bu da ekoloji problemləri xüsusilə aktual edir.

Qırğızıstan ekoloji qanunvericiliyin təkmilləşdirilməsi üzərində fəal işləyir. Ətraf mühitin mühafizəsinə yönəlmiş yeni qanunların və əlavələrin qəbulu mühüm addımlar oldu. Misal kimi, 2024-cü ildə havanın, suyun və torpağın çirklənməsini tənzimləyən "Ətraf mühitin mühafizəsi haqqında" Qanuna edilmiş dəyişiklikləri göstərmək olar.

Qırğızıstan çoxlu sayda şirin su obyektlərinə malik ölkədir və su ehtiyatlarının qorunması ekoloji siyasətin vacib hissəsidir. Əhalinin əksəriyyəti çay və göllərin sularından istifadə edir ki, bu da bu mənbələrin qorunmasını vacib edir. Qırğızıstan transsərhəd su ehtiyatlarından səmərəli istifadə məsələlərində qonşu ölkələrlə fəal əməkdaşlıq edir. Əhəmiyyətli nümunə Mərkəzi Asiya Su Ehtiyatları Proqramı kimi beynəlxalq təşkilatlarda iştirakdır. 2023-cü ilin fevralında Qırğızıstan Respublikasının 2040-cı ilə qədər Milli Su Strategiyası qəbul edilib və su obyektlərinin yaşıllaşdırılması üzrə Proqramlar mövcuddur. Su obyektlərinin ekosistemlərinin bərpası üçün səylər göstərilir, məsələn, Sarı-Çelek gölündə suyun keyfiyyətinin yaxşılaşdırılması və bioloji növlərin bərpası üçün işlər aparılır. 2022-ci ildən "Yaşıl irs" kampaniyası başlayıb. Həmin kampaniya çərçivəsində 2030-cu ilə qədər ölkədə 70 milyondan çox ağacın əkilməsi gözlənilir.

"Yaşıl Kəmər" proqramı çərçivəsində iri şəhərlərdə və kənd təsərrüfatı ərazilərində yaşıllıqların yaradılması, havanın çirklənməsinin azaldılması və mikroiqlimin yaxşılaşdırılması məqsədilə ağac və kolların əkilməsi fəal şəkildə aparılır.

Nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunması üçün qoruqlar və milli parklar şəbəkəsi fəal şəkildə inkişaf edir. Buna misal olaraq YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Sarı-Çelek Milli Parkının yaradılmasını göstərmək olar.

Ekosistemin mühafizəsinin mühüm elementi kimi qar bəbiri, maral, çöl qoyunu və nəsli kəsilməkdə olan digər heyvan növlərinin qorunub saxlanılması işidir. Buraya biomüxtəlifliyin qorunmasına yönəlmiş həm milli, həm də beynəlxalq layihələr daxildir.

Qırğızıstanın böyük şəhərlərində, məsələn Bişkekdə havanın keyfiyyətinin yaxşılaşdırılması, o cümlədən nəqliyyat vasitələrinin və sənayenin tullantılarının azaldılması ilə bağlı layihələr həyata keçirilir. Bu layihələrə nəqliyyat vasitələrinin modernləşdirilməsi, alternativ enerji mənbələrinin tətbiqi və emissiyalara nəzarət üzrə fəaliyyətlər daxildir.

Qırğızıstan həmçinin "Paris Sazişi" kimi beynəlxalq iqlim sazişlərində fəal iştirak edir və istixana qazlarının emissiyasını azaltmaq və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün milli strategiyalar hazırlayır. Ölkədə bərpa olunan enerji mənbələrindən, xüsusilə də hidroenergetikadan istifadə layihələri həyata keçirilir.

Son illərdə Qırğızıstanda tullantıların təkrar emalı, torpaq və su ehtiyatlarının çirklənməsinin azaldılması məsələlərinə diqqət artır. Ölkədə tullantıların toplanması və təkrar emalı üçün infrastrukturun yaradılması, habelə tullantıların ayrıca toplanmasının vacibliyi barədə ictimaiyyətin məlumatlandırılması istiqamətində işlərə başlanılıb.

***Ölkələrimizin hüquq mühafizə orqanları arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri barədə fikirlərinizi bilmək istərdik.***



Qloballaşma şəraitində cinayətkarlığın, terrorizmin, transmilli təhdidlərin və digər çağırışların koordinasiyalı səylər tələb etdiyi bir şəraitdə türk dünyası ölkələrinin hüquq-mühafizə orqanları arasında əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. Türk dünyası ölkələri arasında çoxtərəfli yanaşma və sıx qarşılıqlı fəaliyyət kontekstində asayişin qorunması sahəsində aktual məsələlərin birgə səmərəli həlli üçün böyük potensial mövcuddur.

Türk dünyası ölkələri mühüm nəqliyyat marşrutları üzərində yerləşməsi onları transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə, qaçaqmalçılıq və silah alverinə qarşı həssas edir. Hüquq-mühafizə orqanları arasında əməkdaşlıq – səmərəli məlumat mübadiləsinə, birgə əməliyyatların aparılmasına və cinayətkar şəbəkələrin qarşısının alınması üçün tədbirlərin hazırlanmasına imkan verəcək.

Bundan əlavə, son dövrlərdə beynəlxalq terrorizm təhlükəsinin artması, o cümlədən gənclərin radikallaşması və bunun üçün yeni texnologiyalardan istifadə olunması müşahidə edilir. Terrorizmlə koordinasiyalı mübarizə səyləri, kəşfiyyat məlumatlarının mübadiləsi və birgə antiterror təlimlərin keçirilməsi türk dünyası ölkələrinin bu cür təhlükələrə qarşı mübarizə imkanlarını gücləndirəcək.

Türk dünyası ölkələri cinayətlərin araşdırılması, insan hüquqlarının müdafiəsi fəaliyyəti, cinayətkarların reabilitasiyası və bir çox digər aspektlərdə təcrübə mübadiləsi apara bilərlər. Bu əməkdaşlıq təkcə daxili hüquq-mühafizə orqanları səviyyəsində deyil, həm də effektiv monitorinq və təhlükəsizlik sistemlərinin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Birgə təlim proqramlarından, elmi-tədqiqat layihələrindən və təlim kurslarından istifadə, şübhəsiz ki, hüquq-mühafizə orqanlarının əməkdaşlarının bacarıqlarının artırılmasına öz töhfəsini verəcək və bu, qabaqcıl təcrübənin tətbiqinə və qanunun mühafizəsinin səmərəli təşkilinə kömək edəcəkdir.

Hüquqi yardım, ekstradisiya və məhkəmə əməkdaşlığı haqqında sazişlər qanunun aliliyinin möhkəmləndirilməsində mühüm elementdir. Bu cür razılaşmalar cinayətkarların ekstradisiyasını sürətləndirməyə və cinayətkarların xaricdə gizləndiyi işlərdə ədaləti təmin etməyə kömək edə bilər.

İqtisadi cinayətlər, korrupsiya və çirkli pulların yuyulması kimi beynəlxalq işlərin araşdırılması və hüquqi təminatı sahəsində birbaşa əməkdaşlığın qurulması da vacibdir.

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq-mühafizə orqanlarının iclasları və forumları təhlükəsizlik və asayiş sahəsində ümumi problemlərin müzakirəsi, konkret məsələlər üzrə birgə yanaşmaların işlənib hazırlanması və fəaliyyətlərin əlaqələndirilməsi üçün yaxşı əsas yaradır.

Birgə layihələr və təşəbbüslər geniş spektrli məsələləri əhatə edə bilər, məsələn: kibercinayətkarlıqla mübarizə, cinayətkarlıqla mübarizə, insan hüquqları, terrorizmlə mübarizə və digər məsələlər üzrə birgə təlim kurslarının və seminarların təşkili türk dünyası ölkələrində hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyini əhəmiyyətli dərəcədə artıra bilər.

***Hörmətli Gülnara Sultanbekovna, bu geniş və maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə dərin təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

# Özbəkistan Respublikasının Hüquq-mühafizə Akademiyasının baş müəlliminin müsahibəsi



***Cənab Mustafaev, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***

"Azərbaycan Prokurorluğu" elmi-praktik jurnalı üçün səfər təəssüratlarını təqdim etmək istəyiniz mənim üçün böyük şərəfdir, səfərimlə bağlı fikirlərimi bölüşməkdən məmnunam.

Azərbaycana səfərim dolğun və maarifləndirici oldu. Səfər zamanı mənim Azərbaycan Prokurorluğunun işi ilə yaxından tanış olmaq, o cümlədən hüquq qaydasının və ölkələrimiz arasında əməkdaşlığın ən mühüm məsələlərini müzakirə etmək imkanım oldu. Xüsusi diqqət prokurorluq fəaliyyəti, hüquqi dövlətin möhkəmləndirilməsi və vətəndaşların hüquqlarının müdafiəsi sahəsində təcrübə mübadiləsinə yetirilib.

Səfərimin mühüm cəhəti müasir çağırışları və təhdidləri müzakirə etdiyimiz Azərbaycandan, Türkiyədən, Qazaxıstandan və Qırğızıstandan olan həmkarlarımla görüş olmuşdur. Biz, həmçinin, ölkələrimizdə ədalətin, hüquq qaydasını təmin edilməsi üçün böyük əhəmiyyət kəsb edən beynəlxalq hüquqi əməkdaşlıq sahəsində təcrübə mübadiləsi apardıq.

Azərbaycana səfərim həm də bu böyük ölkənin mədəniyyətini və adət-ənənələrini daha yaxşı başa düşməyə, eləcə də qurumlarımız arasında daha sıx əlaqələr yaratmağa imkan verdi. Əminəm ki, əməkdaşlığımız bundan sonra da inkişaf edəcək və biz qabaqcıl təcrübə mübadiləsi apara biləcəyik. Bu da öz növbəsində hər iki ölkədə prokuror fəaliyyətinin və insan hüquqları sisteminin təkmilləşdirilməsinə kömək edəcəkdir.

Səmimi qəbula və səmərəli görüşlərin təşkilinə görə Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərliyinə və kollektivinə təşəkkürümü bildirirəm. Ümidvaram ki, əməkdaşlığımız ümumi fayda gətirəcək, ölkələrimizdə qanunun, hüquq qaydasının və ədalətin möhkəmlənməsinə kömək edəcəkdir.

***Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda beynəlxalq konfransın Bakıda keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində Bakıda "Hüquqi münasibətlərdə transmilli aspektlər: müasir çağırışlar və məqsədlər" mövzusunda keçirilən beynəlxalq konfrans ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafı üçün aşağıdakı mühüm imkanlar aça bilər.

1) Konfrans hüquqi islahatlar, məhkəmə təcrübəsi və transsərhəd cinayətlərlə mübarizə, insan hüquqlarının müdafiəsi və beynəlxalq arbitraj tənzimlənməsi kimi transmilli məsələlər sahəsində təcrübə və qabaqcıl təcrübə mübadiləsi üçün platforma yaradır. Bu, hüquq sistemlərinin yaxınlaşmasını təşviq edir və iştirakçı ölkələr arasında qarşılıqlı əlaqəni asanlaşdırır.

2) Şəbəkə məhkəmə təhsili sahəsində əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tutur. Bu, prokurorların, müstəntiqlərin, vəkillərin hazırlanmasında qarşılıqlı təlim, təcrübə keçmək, birgə tədqiqatlar aparmaq və qabaqcıl təhsil metodlarının tətbiqi üçün imkanlar açır.

3) Konfransda müzakirə edilən qeyri-qanuni əldə edilmiş aktivlərin qaytarılması, ekoloji pozuntular, transmilli cinayətlərin qurbanlarının hüquqlarının müdafiəsi üçün mülki hüquq mexanizmləri, miqrasiya problemləri, model Kommersiya Məcəlləsinin yaradılması kimi transmilli çağırışlar – ölkələrə birgə yanaşmalar inkişaf etdirməyə imkan verir və beynəlxalq aləmdə mövqelərini möhkəmləndirir.

4) Model Kommersiya Məcəlləsi kimi hüquqi bazaların inkişafı səmərəli iqtisadi əməkdaşlıq üçün imkanlar yaradır, ikitərəfli investisiyaları gücləndirə, ticarətdə maneələri azalda və biznes fəaliyyəti üçün daha əlverişli mühit yarada bilər.

5) Bakıda keçirilən konfrans hüquqi əməkdaşlıq sahəsində həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrin inkişafı üçün mühüm addım olacaq. Bu forumun görüşləri və müzakirələri türk dövlətlərinin prokurorluq orqanlarının nümayəndələri arasında yeni birgə layihələrin həyata keçirilməsinə səbəb ola biləcək şəxsi əlaqələrin qurulmasına töhfə verdi.

***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***




Hüquq-mühafizə orqanlarının əməkdaşlarının nəzəri biliklərinin və peşə vərdişlərinin təkmilləşdirilməsi üçün beynəlxalq təcrübəyə və sübut olunmuş metodlara əsaslanaraq aşağıdakı yanaşma və təcrübələrdən istifadə etmək olar:

*Çoxsəviyyəli təlim sisteminin yaradılması*

– Baza təlimi: Hüquq, iş taktikası, kriminologiya və etikanın əsaslarını ehtiva edir.

– Dövri ixtisas təkmilləşdirilməsi: Qanunvericilik, texnologiya və texnikada yeni dəyişikliklərlə bağlı qısamüddətli kurslar və ya seminarlar.

– İxtisaslaşdırılmış Təlim: Xüsusi sahələrdə bilikləri artırmaq, məsələn, kibercinayətkarlıq, insan alverinə qarşı mübarizə, maliyyə araşdırmaları.

*Praktik treninqlərin tətbiqi*

– Sınaq məhkəmələri: Prokurorlar, müstəntiqlər və əməliyyatçılar üçün məhkəmə proseslərində iştirak təcrübəsi.



– Ssenari təlimləri: İstintaq, həbslər və danışıqların aparılmasını əhatə edən real vəziyyətlər.

– Qruplarda iş: Koordinasiya və əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək üçün komanda tapşırıqları.

*Müasir texnologiyalardan istifadə*

– Elektron təlim platformaları: Sizə əlverişli vaxtda materialları öyrənməyə imkan verən onlayn kurslar və vebinarlar.

– Virtual reallıq simulyatorları: Çətin vəziyyətlərdə, məsələn, xüsusi əməliyyatlar və ya cinayətkarlarla danışıqlar aparmaq üçün.

– İnteraktiv verilənlər bazaları: Hüquqi presedentləri öyrənmək, məlumatları təhlil etmək və hallər tapmaq üçün.

*Beynəlxalq standartlara uyğun təlim*

– Beynəlxalq insan hüquqları normaları, antikorrupsiya standartları və beynəlxalq təşkilatlarla (məsələn, İnterpol, BMT) qarşılıqlı fəaliyyət metodları üzrə təlimlərin keçirilməsi.

– Konfranslar, təcrübələr və iş səfərləri vasitəsilə digər ölkələrdən olan həmkarları ilə təcrübə mübadiləsi.

*Akademik və elmi mərkəzlərlə əməkdaşlıq*

– Məlumatların təhlili, kriminologiya və psixologiyanın müasir üsullarını öyrətmək üçün cəmiyyətin elmi nümayəndələrinin daxil edilməsi.

– Birgə tədqiqat layihələrinin hazırlanması.

*Müntəzəm sertifikatlaşdırma və bacarıqların qiymətləndirilməsi*

– Təlimin effektivliyini müəyyən etmək üçün testlərin, praktiki imtahanların və peşə bacarıqlarının qiymətləndirilməsinin aparılması.

– Bonuslar, karyera yüksəlişi və xidmətlərin təsdiqi sistemi vasitəsilə ən yaxşı işçilərin həvəsləndirilməsi.

*Etika və psixoloji davamlılığa xüsusi diqqətin yetirilməsi*

– Etik məsələlər, peşə tükənmişliyinin qarşısının alınması, stressin idarə edilməsi və ünsiyyət bacarıqları üzrə təlimlər.

– Mürəkkəb hallar üçün psixoloqlarla fərdi məsləhətləşmələr.

***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

Özbəkistan da ətraf mühitin mühafizəsi və ekosistemin qorunması istiqamətində mühüm addımlar atır. Səhralaşma, torpaqların deqradasiyası, su qıtlığı və biomüxtəlifliyin qorunması da daxil olmaqla ekoloji problemlər mühüm prioritetlərdir. Ölkədə həyata keçirilən bəzi tədbirləri təqdim edirik.

Özbəkistan su itkilərini minimuma endirmək üçün damcı suvarma və çiləmə sistemləri kimi müasir suvarma texnologiyalarını fəal şəkildə tətbiq edir. Ölkədə Aralın xilası üzrə beynəlxalq proqram çərçivəsində toz fırtınalarının qarşısını almaq üçün quru dənizin dibində saksovul və digər quraqlığa davamlı bitkilərin əkilməsi layihələri həyata keçirilir.

Nadir heyvan və bitki növlərinin qorunduğu Uğam-Çatkal Milli Parkı kimi qoruqlar, milli parklar yaradılmış və genişlənməkdədir. Qar bəbiri və kulan kimi nəsli

kəsilməkdə olan heyvanların qorunması üçün proqramlar həyata keçirilir.

Özbəkistan xüsusilə Qaraqalpaqıstan və Xarəzm bölgələrində meşələrin bərpası ilə fəal məşğul olur. Deqradasiyaya məruz qalan ərazilərdə saksovulun əkilməsi layihəsini qeyd etmək vacibdir. Torpaq eroziyasının qarşısının alınması və torpağın münbitliyinin yaxşılaşdırılması üçün tədbirlər həyata keçirilir.

Yaşıl enerjiyə keçid: Özbəkistan istixana qazı emissiyalarının azaltmaq üçün günəş və külək elektrik stansiyaları inkişaf etdirir. 2030-cu ilə qədər bərpa olunan enerjinin payının əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Dəyişən iqlim şəraitinə uyğunlaşma tədbirlərini özündə əks etdirən İqlim Dəyişikliyi ilə Mübarizə üzrə Milli Strategiya həyata keçirilir.



Əhalinin, xüsusən də gənclərin ekoloji savadlılığının artırılmasına yönəlmiş maarifləndirici proqramlar, layihələr yaradılır. Tullantıların ayrılması və plastik məmulatlardan istifadənin azaldılması istiqamətində kampaniyalar keçirilir.

Özbəkistan ekoloji layihələrin həyata keçirilməsi üçün BMTİP, Qlobal Ətraf Mühit Fondu və Dünya Bankı kimi beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edir. Ölkə Mərkəzi Asiya Təbiətin Mühafizəsi və Davamlı İnkişaf Proqramı kimi regional təşəbbüslərdə iştirak edir. Bu səylər Özbəkistanın öz ekosistemini qorumaq və ekoloji problemlərə qarşı qlobal mübarizəyə töhfə vermək öhdəliyini vurğulayır.

***Ölkələrimizin hüquq mühafizə orqanlarının təlim müəssisələri arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri barədə fikirlərinizi bilmək istərdik.***

Azərbaycan və Özbəkistanın hüquq-mühafizə orqanları arasında ikitərəfli əlaqələr və beynəlxalq təşkilatlar çərçivəsində aşağıdakı əsas perspektivlər və istiqamətlər üzrə əməkdaşlıq böyük potensiala malikdir.

*Transmilli cinayətlə mübarizə*

Azərbaycan və Özbəkistan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu layihələri kimi böyük nəqliyyat dəhlizlərinin olduğu strateji əhəmiyyətli regionlarda yerləşir. Bu, qaçaqmalçılıq, narkotik ticarəti və insan alveri də daxil olmaqla transmilli cinayət formasında problemlər yaradır. Əməkdaşlığa aşağıdakılar daxil ola bilər:

– əməliyyat məlumatlarının mübadiləsi;

– birgə əməliyyatların aparılması;

– İnterpol və oxşar strukturlar vasitəsilə təkmilləşdirilmiş koordinasiya.

*Terrorizm və ekstremizmlə mübarizə*

– Hər iki ölkə radikallaşma və terrorizm təhlükəsi ilə üz-üzədir. Əməkdaşlığa aşağıdakılar daxil ola bilər:

– ekstremist qrupların müəyyən edilməsi üzrə təcrübə mübadiləsi;

– birgə analitik mərkəzlərin yaradılması;

– hüquq-mühafizə orqanları üçün treninqlərin və təlimlərin keçirilməsi.

*Kibertəhlükəsizlik*

– Rəqəmsallaşmanın artması ilə hər iki ölkə kibercinayətkarlıq sahəsində problemlərlə üzləşir. Əməkdaşlığa aşağıdakılar daxil ola bilər:

– birgə kiberproqramların hazırlanması;

– mütəxəssislərin hazırlanması;

– müasir təhlükələr və onların qarşısının alınması üsulları haqqında məlumat mübadiləsi.

*Hüquqi bazasının inkişafı*

Uğurlu əməkdaşlıq üçün hüquqi yardım, ekstradisiya və cinayət işlərində əməkdaşlıq haqqında sazişləri özündə birləşdirən hüquqi bazanın yaradılması vacibdir. Hər iki ölkə bu istiqamətdə işləri gücləndirə bilər.

*Beynəlxalq təşkilatlar*

Azərbaycan və Özbəkistan MDB, İƏT (İslam Əməkdaşlıq Təşkilatı) və ŞƏT (Şanxay Əməkdaşlıq Təşkilatı) kimi beynəlxalq və regional strukturlarda fəal iştirak edirlər. Bu təşkilatlar çərçivəsində onlar aşağıdakı sahələrdə koordinasiyanı gücləndirə bilərlər:

– cinayətkarlıqla mübarizəyə yanaşmaların unifikasiyası;

– cinayət prosesində insan hüquqlarının müdafiəsi sahəsində birgə standartların işlənib hazırlanması;

– qabaqcıl təcrübələrin mübadiləsi.

*Kadr hazırlığı*

Hüquq-mühafizə orqanları əməkdaşlarının hazırlanması və ixtisaslarının artırılması əsas istiqamət ola bilər. Birgə kursların, treninqlərin və mütəxəssis mübadiləsinin təşkili peşəkar əlaqələrin möhkəmlənməsinə və müasir iş üsullarının tətbiqinə kömək edəcəkdir.

Azərbaycan və Özbəkistanın təhlükəsizlik və hüquq-mühafizə məsələlərində çoxlu təmas nöqtələri var. Əməkdaşlığın inkişafı regional sabitliyin möhkəmlənməsinə, hüquq qaydasının səviyyəsinin yüksəldilməsinə və qlobal çağırışlarla mübarizə üçün effektiv mexanizmlərin yaradılmasına kömək edəcək.

***Hörmətli Şuxratjon Buriyeviç, bu geniş və maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə dərin təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

# Azərbaycan Prokurorluğunun veteranı Rüstəm Usubovun 70 illik yubileyi qeyd olunub



Uzun müddət prokurorluq orqanlarında şərəfli xidmət yolu keçmiş Azərbaycan Prokurorluğunun veteranı Rüstəm Usubovun 70 illik yubileyi ilə əlaqədar Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə oktyabrın 4-də tədbir keçirilib.

Görüş zamanı Rüstəm Usubovun prokurorluq orqanlarında keçdiyi uzunmüddətli xidmət illərinə nəzər salınaraq, onun qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı əldə etdiyi nailiyyətlər, eləcə də uzun illər cinayətkarlığa qarşı mübarizə, istintaqa nəzarət sahəsində səmərəli fəaliyyəti qeyd edilib.

Rüstəm Usubov prokurorluq orqanlarında qulluq keçmənin, prokurorluq işçisi kimi qanunçuluq və hüquq qaydalarının təmin olunmasında, dövlətçiliyimizin maraqlarının müdafiə edilməsində xidmət aparmanın qürurverici olduğunu bildirərək, göstərilən diqqət və qayğıya görə öz dərin minnətdarlığını bildirib.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi söhbətlər edib və sonda xatirə şəkili çəkdiriblər.









## Prokurorluğun veteranları təbrik edilib

Azərbaycan Prokurorluğunun veteranları Əli Eyvazov və Aydın Nəsimiyevin 70 illik yubileyləri ilə əlaqədar Baş prokuror Kamran Əliyevin adından təbrik məktubları təqdim edilib.





Görüş zamanı veteranlar prokurorluq orqanlarındakı xatirələrini bölüşərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən qayğı nəticəsində prokurorluq orqanlarının maddi-texniki bazasının möhkəmlənməsini, prokurorluq işçilərinin, onun veteranlarının maddi və sosial rifahının yüksəlməsini qeyd ediblər.

## Azərbaycan Prokurorluğunun veteranının yubileyi münasibətilə tədbir keçirilib

Uzun müddət prokurorluq orqanlarında şərəfli xidmət yolu keçmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri və prokurorluğun veteranı Ruslan Hacıyevin 70 illik yubileyi münasibətilə 20 noyabr 2024-cü il tarixdə tədbir keçirilib.







Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə keçirilən tədbir zamanı Ruslan Hacıyevin prokurorluq orqanlarında keçdiyi xidmət illərinə nəzər salınaraq, onun qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı əldə etdiyi nailiyyətlər, həmçinin beynəlxalq əlaqələr, ekstradisiya və hüquqi yardım, daha sonra həmkarlar ittifaqı fəaliyyəti sahəsində uzunmüddətli səmərəli fəaliyyəti qeyd edilib.

Ruslan Hacıyev prokurorluq orqanlarında qulluq keçmənin, prokurorluq işçisi kimi qanunçuluq və hüquq qaydalarının təmin olunmasında, dövlətçiliyimizin maraqlarının müdafiə edilməsində xidmət aparmanın qürurverici olduğunu bildirərək, göstərilən diqqət və qayğıya görə öz dərin minnətdarlığını bildirib.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi söhbətlər edib və sonda xatirə şəkili çəkilib.

## Baş prokuror tərəfindən Azərbaycan Prokurorluğunun veteranları və təqaüdə çıxmış prokurorluq işçisi təltif edilib

Uzun müddət prokurorluq orqanlarında şərəfli xidmət yolu keçmiş Azərbaycan Prokurorluğunun veteranları Namiq Əsgərov və Bəhruz Mahmudovun 70 illik yubileylərinin tamam olması, eyni zamanda prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Kürdəmir rayon prokurorunun müavini Elxan Məmmədovun qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə dekabrın 18-də tədbir keçirilib.



Tədbirdə Baş prokuror tərəfindən veteran prokurorluq işçisi Namiq Əsgərova hədiyyə, Bəhruz Mahmudova isə "Azərbaycan Prokurorluğunun 100 illiyi" Azərbaycan Respublikasının yubiley medalı təqdim edilib.

Namiq Əsgərov və Bəhruz Mahmudov prokurorluq orqanlarında qulluq keçmənin, prokurorluq işçisi kimi qanunçuluq və hüquq qaydalarının təmin olunmasında, dövlətçiliyimizin maraqlarının müdafiə edilməsində xidmət aparmanın qürurverici olduğunu bildirərək, veteran prokurorluq işçilərinə göstərilən diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirib.

Həmçinin, Baş prokuror tərəfindən uzunmüddətli səmərəli fəaliyyətinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdiyi nailiyyətlərə görə Elxan Məmmədova "Prokurorluğun fəxri işçisi" döş nişanı təqdim edilib.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi söhbətlər edib və sonda xatirə şəkli çəkilib.





***





## Təqaüdə çıxmış prokurorluq işçisinə "Prokurorluğun fəxri işçisi" döş nişanı təqdim edilib



Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin böyük prokuroru Alim Cəbrayılovu qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş prokurorun birinci müavini Elçin Məmmədov noyabrın 25-də Baş Prokurorluğun inzibati binasında qəbul edib, ona Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən verilmiş "Prokurorluğun fəxri işçisi" döş nişanını və hədiyyə təqdim edib.

Baş prokurorun birinci müavini görüş zamanı çıxış edərək, Alim Cəbrayılovun prokurorluq orqanlarında keçdiyi uzunmüddətli xidmət illərinə nəzər salaraq onun prokurorluq orqanlarında səmərəli fəaliyyəti, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi,

habelə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdikləri nailiyyətləri qeyd edib.

Alim Cəbrayılov göstərilən diqqətə görə minnətdarlığını bildirib və tədbir iştirakçıları ilə xatirələrini bölüşüb.

Görüş zamanı, həmçinin, digər tədbir iştirakçıları Alim Cəbrayılovla bağlı xoş xatirələrini bölüşüb, ona uğurlar arzulayıblar.





***

Azərbaycan Prokurorluğunun veteranı Abusəməd Abı oğlu Səmədovun 70 illik yubileyi ilə əlaqədar Baş prokuror Kamran Əliyevin adından ona təbrik məktubu təqdim edilib.



Abusəməd Səmədov son zamanlar prokurorluq orqanlarının və prokurorluqda qulluq keçmənin nüfuzunun artdığını, vətəndaşların prokurorluq orqanlarına və prokurorluq işçilərinə etimadının yüksəlməsini vurğulayaraq qeyd edib ki, prokurorluq orqanları və prokurorluq işçilərinin fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, prokurorluq işçilərinin insanların hüquq, azadlıq və qanuni maraqlarının təmin olunması istiqamətində gördükləri işlər onu çox sevindirir. Prokurorluqda işlədiyi illərdə o özü də prokurorluq orqanının və prokurorluqda qulluğun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini həmişə uca tutmağa çalışmışdır.

Görüş zamanı veteran prokuror xatirələrini bölüşmüş, öz bioqrafiyasından maraqlı faktlar söyləmişdir.

***

Azərbaycan Prokurorluğunun veteranı Zahid Muxtar oğlu Tağıyevin 75 illik yubileyi ilə əlaqədar Baş prokuror Kamran Əliyevin adından ona təbrik məktubu təqdim edilib.



Zahid Tağıyev səmimi təbrikə görə minnətdarlığını bildirərək deyib ki, prokurorluq orqanlarında işlədiyi illər ömrünün ən aziz çağlarıdır. Həmişə özünə qarşı tələbkar olmuş, üzərinə düşən vəzifələri vaxtında və vicdanla yerinə yetirmiş, süründürməçilik hallarına yol verməmişdir. Öz xidməti fəaliyyətində şəxsi maraqlarını cəmiyyətin və peşəsinin mənafelərindən üstün tutmamış, xidməti fəaliyyəti ilə bağlı vəzifələrin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək və prokurorluq orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməmişdir.

Veteran prokuror yaddaqalan xoş xatirələrini bölüşmüş, həmkarları barədə ürəkdolusu söz açmışdır.

Söhbət zamanı prokurorluğun adını daim uca tutan veteranlarımızın ömür yolunun gənc nəsil prokurorluq işçiləri üçün örnək olması vurğulanmışdır.

# Prokurorluğun veteranı İradə Həsənovanın müsahibəsi



**Həsənova İradə Həsən qızı 1986-cı ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Prokurorluq orqanlarında isə fəaliyyətinə 1977-ci ildən başlayaraq Respublika Prokurorluğunun Ümumi şöbəsində katib, 1979-cu ildən isə Kadrlar şöbəsində inspektor olmuşdur. 1992-ci ilin aprel ayından 1993-cü ilin may ayınadək Bakı şəhəri prokurorluğunun Məhkəmələrdə mülki işlərə baxılması üzrə nəzarət şöbəsinin prokuroru, 1993-cü ilin may ayından noyabr ayınadək Baş Prokurorluğun Kadrlar idarəsinin Kadrların hazırlanması və təkmilləşdirilməsi şöbəsinin prokuroru vəzifəsində çalışmışdır. 1993-cü ilin noyabr ayından 1999-cu ilin may ayınadək Baş Prokurorluğun Kadrlar idarəsinin prokuroru, daha sonra böyük prokuroru vəzifəsində işləmişdir. 21.08.2020-ci il tarixdə prokurorluqda qulluqda olmasının yaş həddinə çatdığına görə təqaüdə çıxmışdır. Baş prokurorluğun "Prokurorluq orqanlarında uzunmüddətli xidmətə görə üstəlik haqq verilməsi üçün əmək stajını müəyyən edən komissiya"nın, Müsabiqə komissiyasının məsul katibi, Həmkarlar İttifaqı Rəyasət Heyətinin, Beynəlxalq Prokurorlar Assosiasiyasının yarandığı ilk illərdən üzvü olmuşdur.**

**İradə Həsənova işlədiyi müddət ərzində xidməti vəzifələrini nümunəvi icra etdiyi üçün, habelə qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində peşəkarlıq göstərdiyinə görə "Prokurorluğun fəxri işçisi" döş nişanı, dəfələrlə "Fəxri Fərman", qiymətli hədiyyə, təşəkkürlə həvəsləndirilmiş, baş ədliyyə müşaviri rütbəsində olmaqla təqaüdçü və əmək veteranıdır.**

***İradə xanım, prokurorluqda işə başladığınız ilk günü necə xatırlayırsınız?***

Prokurorluq orqanlarında ilk iş günüm 4 iyul 1977-ci il tarixinə təsadüf edir. Həmin gün məni Respublika prokurorunun kadrlar üzrə müavini İmran Cümşüd oğlu Rəsulbəyov qəbul etdi. İmran müəllimin öyüd-nəsihətindən sonra mən Ümumi şöbəyə katib vəzifəsinə təyin olunmaqla, Cəzaçəkmə müəssisələrinə nəzarət şöbəsinə təhkim olundum. Həmin şöbənin əməkdaşları kifayət qədər yaşa, iş stajına və təcrübəyə malik idilər və bu, orta məktəbi yeni bitirmiş, həddi-buluğa çatmamış, amma ürəyində böyük arzular olan bir gənc üçün böyük məktəb idi. Az bir müddətdən sonra isə Kadrlar şöbəsinə təyin olundum. Maraqlıdır ki, prokurorluq orqanlarında 43 il 1 ay 16 gün davam edən iş yolum yalnız Nobel qardaşlarının Azərbaycandakı fəaliyyətindən yadigar qalan Baş prokurorluğun Bakı şəhəri, N.Rəfibəyli, 7 ünvanda yerləşən əsas inzibati binasında keçib, belə ki Məhkəmələrdə mülki işlərə baxılması üzrə nəzarət şöbəsinin prokuroru işlədiyim müddətdə belə Bakı şəhəri prokurorluğu da həmin binada fəaliyyət göstərirdi.

***Əvvəlcədən prokurorluq orqanlarında dövlət qulluqçusu kimi fəaliyyət göstərməyiniz gələcək fəaliyyətinizə hansı təsiri olmuşdur?***

Əminliklə deyə bilərəm ki, prokurorluq orqanlarında dövlət qulluqçusu kimi fəaliyyət göstərib, sonradan xüsusi rütbəli vəzifələrdə xidmətini davam etdirən əksər əməkdaşlar işin təşkili, kargüzarlığın aparılması qaydalarını özəyindən öyrənir, sonrakı fəaliyyətlərində daha tez adaptasiya olunur, iş proseslərini qısa müddətdə səriştəli və operativ qurmaq bacarığına yiyələnirlər. Bu səbəbdən vaxtı ilə dəftərxanada mütəxəssis və müdir işləmiş əməkdaşların sonradan rayon prokuroru və digər məsul və rəhbər vəzifələrə irəli çəkilərək xidməti fəaliyyətləri üzrə tez bir zamanda müsbət nəticə əldə etmələri heç də təsadüfi deyil. Ümumiyyətlə, dəftərxana qurumun ürəyidir. Rəhbərliyin göstərişi ilə yerli və digər qurumlara ezamiyyətlərdə olarkən ilk dəfə vəzifəyə təyin olunmuş prokurorlara dəftərxana



işini yenidən qurmağa və müasir texnoloji imkanlardan istifadə etməklə təkmilləşdirməyə dəfələrlə əməli köməklik etmişəm. Kompleks yoxlamalar zamanı yoxladığım qurumun dəftərxana işinin nöqsanlarını qeyd etməklə yanaşı, yerində aradan qaldırılmasına kömək etmişəm. Çünki məqsəd tək nöqsanı aşkar etmək deyil, həm də işin düzgün qurulması olmuşdur. Təcrübə göstərir ki, dəftərxana işini düzgün təşkil edən qurumların iş göstəriciləri yüksək, hesabatları dəqiq olur.

***Məhkəmələrdə mülki işlərə baxılması üzrə nəzarət şöbəsinin prokuroru olarkən, çıxdığınız işlərdən hansı ən çox yadda qalmışdır?***



məqamlar daha çox özünü büruzə verir. Ölkənin bir regionundan digər regionuna təyinat alanda, iş prosesində prokurorluq əməkdaşı və onun ailə üzvləri bir çox problemlərlə üzləşə, adaptasiya olmaqda çətinlik çəkə bilər. Kadr işçisi onu dinləməli, səlahiyyətləri və imkanları çərçivəsində tədbir görməli, zəruri hallarda yuxarı rəhbərliyə məruzə etməlidir. Bəzən insan sadəcə dərdini deyib ürəyini boşaltmağa ehtiyac duyur. Dəfələrlə yanıma işdən çıxma ərizəsi ilə gələn əməkdaşları dinləyib, sakitləşdirib, keçdiyi həyat və peşə yolunda bundan da çətin günlərinin olduğunu, çətinlik və məhrumiyyətlərin müvəqqəti olduğunu xatırladıb, ərizəsini geri götürməsinə müvəffəq olmuşam. Həmin əməkdaşlar indiyədək yeri düşəndə bunu minnətdarlıq hissi ilə vurğulayırlar. İstər istintaq, istər prokurorluq orqanlarının digər fəaliyyət istiqamətləri kifayət qədər zehni fəaliyyət, cəsarət, əzm və səbri tələb edir, bəzən əsəblər tarıma çəkilir və tab gətirmir. Bu səbəbdən kadr işçisi həm də yaxşı psixoloq və həssas insan olmalıdır ki, ani səbəbdən tələskən qərar verən əməkdaşa atacağı addımın gələcək nəticə və təsirlərini ona izah edə bilsin. Kadr işçisinin iti zehni, güclü yaddaşı olmalıdır. Kadr əməkdaşı empatiya qurmağı bacarmalıdır. Fəaliyyətimin bir istiqamətini də veteranlarla və prokurorluğun şəhid olmuş əməkdaşlarının ailələri ilə iş təşkil edirdi. Bir kadr işçisi kimi siz onları dinləməli, qayğılarını öyrənməli, onlara layiq olduqları diqqəti göstərməlisiniz. Gələcəyin bütün kadr və prokurorluq işçilərinə tövsiyəm odur ki, bu insanlara xüsusi həssaslıq və diqqətlə yanaşsınlar. Çünki veteranlar bu

Həmin sahədə fəaliyyətim uzunmüddətli olmasa da, 1992-ci ilin aprelindən 1993-cü ilin mayınadək ölkəmiz üçün çox çətin dövr idi. Cəmiyyəti formalaşdıran, insanların gündəlik fəaliyyətini tənzimləyən müəyyən institutlar dağılmış, yerində isə vakuum yaranmışdı. Həmin dövrdə mülki və əmək hüquqların pozulması, başqasının əmlakını və vəsaitini müxtəlif saxta sənəd, bəhanə və vasitələrlə qanunsuz ələ keçirmə faktları, kütləvi ixtisarlar çoxalmışdır. Ən çox yadda qalan işlərdən isə qanunsuz işdən çıxarılan gənc mütəxəssis olan xanımın işə bərpa olunması və ağbirçək anasının ağlayaraq, məni qucaqlayıb təşəkkür etməsi olmuşdur. Digər yadda qalan iş isə tənha yaşlı qadının "işgüzar" şəxslər tərəfindən zəbt edilmiş yaşayış sahəsindən istifadə hüququnun bərpa olunması olmuşdur. Bu qəbildən olan işlər üzrə haqq-ədalət yerini tapanda insanın yaşadığı hüzur hissi həyatın ən gözəl hisslərindəndir. Məhz bu hissi yaşamaq üçün həyatı hüquqşünaslıq peşəsinə həsr etməyə, bu yolda çətinlik və məhrumiyyətlərə dözməyə dəyər.



***İradə xanım, kadrların hazırlanması və təkmilləşdirilməsi üzrə Siz peşəkar mütəxəssis hesab olunursunuz. Bu sahədə bilik və vərdişləriniz ilə bölüşməyinizi xahiş edərdik.***

Kadr işinin ən vacib və çətin cəhəti odur ki, həcmli sənədləşmə və çoxrəqəmli hesabatlardan əlavə bilavasitə insanlarla işləyirsən. Yazdığım minlərlə əmrlərin hər birinin arxasında insan taleyi var. Prokurorluq işçisi sadəcə vəzifəli şəxs deyil, həm də bir çox hallarda övlad, ailə başçısı, valideyn və digər sosial status daşıyıcısıdır. Onun iş yerində hər bir dəyişiklik bir çox hallarda ailə üzvlərinə də təsir edir. Rotasiya məsələlərində bu

şərəfli peşəyə illərini həsr etmiş, şəhid ailələri isə öz əzizlərini qurban vermişlər. Şəhid prokurorluq işçiləri ailələri ilə 1995-ci ildən işləməyə başladım, bu illər ərzində mütəmadi əlaqədə olduq, onların problemlərini öz problemim, dərdlərini öz dərdim bildim. Ötən il şəhid Nizami Ağayevin həyat yoldaşı İradə xanımın vəfatı mənim üçün ağır itki idi. Nə yaxşı ki, onların davamçıları var. Bu gün Nizami Ağayevin oğlu Qasım da prokurordur, atasının yolunu şərəflə davam edir. İsmət Qayıbovun yadigarı İsmayıl Qayıbov gənc yaşlarından prokurorluq orqanlarında işləyərək, hazırda rəhbər vəzifədədir, idarə rəisinin müavinidir. Şəmşir Əliyevin oğlu Rəşad Əliyev prokurorluqda işləmiş, hazırda Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin sədridir. Səbuhi Xasayevin oğlu Elvin Xasayev müstəntiq kimi çalışır. Rövşən Əliyevin oğlu Rain Əliyev də prokurordur. Eyyub Vəliyevin övladları Murad və Yaqub başqa sahədə çalışırlar, anaları Flora xanım təqaüdə çıxmağıma baxmayaraq bu günədək hər bayramda məni yad edir.



***Həmkarlarınızdan kimi xatırlamaq istərdiniz?***

Stajımı və kadrlar sahəsində işlədiyimi nəzərə alsaq, xatirələr bir neçə müsahibə üçün material təşkil edə bilər. Kadrlar işi birbaşa rəhbərliyin nəzarətində olduğundan, mən bir sıra respublika prokuroru və müavinləri, idarə rəisləri və digər dəyərli həmkarlarla çalışmışam. 8 Baş prokurorun rəhbərliyi dövründə fəaliyyət göstərmişəm. Kadrlara şöbəsinə təhkim olunanda qurumun rəhbəri respublika prokurorunun müavini İmran Rəsulbəyov, şöbə müavini Şvetsov Vladislav İvanoviç, daha sonra isə Vəkilov Fərrux Gəray oğlu, şöbənin prokurorları sırasında Murad Babayev, Azər Köçərli, Fikrət Daşdəmirov, Müzəffər Həsənov, Bəhruz Mahmudov, Nazim Rəcəbov var idilər. İllər sonra Bəhruz Mahmudov və Nazim Rəcəbov Kadrlar idarəsinin rəisi vəzifəsində çalışdılar. Sovet dövründə və müstəqilliyin ilk illərində kadr istiqamətinin rəhbəri respublika prokurorunun müavini idi, müavinləri isə müxtəlif vaxtlarda Mirağa Cəfərquliyev, Aslan Muradov olmuş, 1995-ci ildə isə Kadrlar idarəsinin rəisi vəzifəsi təsis olunaraq Prezident Aparatından Toğrul Musayev həmin vəzifəyə təyin olunmuşdur. Ümumiyyətlə, sovet dönəmində "baza prokurorluq qurumları" anlayışı var idi. Həmin qurumlarda gənc kadrlar xüsusi təcrübəyə malik əməkdaşların yanında təkmilləşir, daha sonra vəzifədə irəli çəkilirdirlər. Kadrlarla iş istiqaməti bir çox rəhbər vəzifələrə təyinatlar üçün peşəkar hüquqşünas kadrlar bazası idi. Respublika prokurorunun kadrlar üzrə müavinləri İlyas İsmayılov və Fikrət Məmmədov Baş prokuror və ədliyyə naziri vəzifələrinə təyin olunublar. Vladislav Şvetsov o vaxtki Mərkəzi Komitənin İnzibati şöbəsinə dəvət olundu. Azər Köçərli SSRİ prokurorluğunun mərkəzi aparatına dəvət olundu, daha sonra oradan Kadrlar şöbəsinin müavini kimi geri qayıtdı. Nazim Rəcəbov və İlqar Cəfərov Prezident Administrasiyasına çalışdıqdan sonra ali xüsusi rütbə alaraq Baş prokurorluq və Ədliyyə Nazirliyində idarə və baş idarə rəisi kimi fəaliyyət göstərdilər, Cavid Hüseynov Məhkəmə-Hüquq Şurasında aparat rəhbəri, Ədliyyə Nazirliyində baş idarə rəisi oldu, Kadrlar idarəsinin rəisi Toğrul Musayev nazir müavini kimi 24 il çalışdı. Prokurorluğun idarə rəisləri Natiq Abdullayev və Vüqar Əliyev, Nəsimi rayon məhkəməsinin sədri İlqar Qaralov da vaxtilə Kadrlar idarəsində çalışıblar. Kadrlar idarəsinin əməkdaşları digər dövlət qurumlarında da yüksək vəzifələrdə təmsil olunublar.



Bəlkə yeganə prokuroram ki, 3 nəsil (baba-övlad-nəvə) prokurorluq işçiləri ilə eyni zamanda işləmişəm. Belə ki, sayılıb seçilən prokurorlardan olan Hüseynqulu Mirzəyev, oğlu Fuad Mirzəyev və nəvəsi Fərizə Mirzəyeva ilə, həmçinin Mustafa Əliyev, oğlu Firudin Əliyev və nəvəsi Ramil Əliyevlə eyni vaxtda, sonuncu ilə isə eyni



ilk dəfə 2002-ci ildə, Naxçıvan Muxtar Respublika üzrə isə 2003-cü ildə keçirildi. Müsabiqə öncə iki, daha sonra isə üç mərhələli oldu. Kazus mərhələsi ilk dəfə olaraq iştirakımla NMR-da pilot layihə kimi sınaqdan keçirildi, sonra ümumi müsabiqədə də tətbiq olundu. Müsabiqənin test və kazus mərhələlərinin təşkili ilə bağlı dəfələrlə Naxçıvanda ezamiyyətdə olmuşam, özüm də, övladlarım da Naxçıvanı qarışbaqarış gəzib, xoş xatirələr gətirmişik. Qeyd edim ki, müsabiqə yolu ilə qəbul özünü tam doğrultdu, nəticədə nəzəri cəhətdən yüksək hazırlıqlı kadrları birbaşa iş fəaliyyətinə cəlb etmək imkanı verdi. 2002-ci ilin müsabiqəsinin qaliblərindən (60 nəfər olduqları üçün biz onları "altmışlar" adlandırırdıq) kadr korpusu yarandı, növbəti müsabiqə qalibləri ilə daha da gücləndi, onlar müvafiq qurumlara təyinat aldılar, prokurorluq və digər qurumlarda tədricən yüksək vəzifələrə irəli çəkildilər. Bu gün birinci və növbəti müsabiqələrin qalibləri prokurorluqda müstəqil idarə rəisi, rayon prokuroru kimi fəaliyyət göstərir, digər orqanlarda isə nazir müavini, baş idarə rəisi, aparat rəhbəri vəzifəsinədək yüksəliblər.

İşini sevən və öhdəsindən gələn prokurorluq işçisinin ən böyük məhrumiyyəti kimi ancaq ailəsi və əzizləri ilə keçirə bilmədiyi zamanın olduğunu hesab edirəm. Hesabatlar, ştat sayı, davamlı olaraq müxtəlif əmrlərin hazırlanması, işə qəbul müsabiqələrinin təşkili, veteranlarla iş, mərhum prokurorluq işçilərinin ailə üzvlərinin qəbulu və müraciətlərinə baxılması, şəxsi işlərin aparılması, kadr işinin müxtəlif sahələrinə dair arayışların tərtib olunması, tərtib etdiyim arayışların Baş prokurorun hesabatlarında birbaşa əks olunması böyük məsuliyyət tələb etdiyindən bu fəaliyyətləri icra müddətlərini də nəzərə alsaq, yalnız adi iş gününün saatlarına sığdırmaq qeyri-mümkün olurdu. İşin keyfiyyətli icrası üçün işdən sonra da, zərurət olduğunda bayram və istirahət

idarədə işləmişəm. Düşünürəm ki, prokurorluq işçisinin ailəsində böyüyən övlad da ömrü boyu gözünün önündə nümunə görür, prokurorluq işçisi olmağın necə şərəfli, eyni zamanda məsuliyyətli və heç də asan olmadığını daha dərindən dərk edir və gələcək fəaliyyətlərində çətinliklər onu bir qayda olaraq qorxutmur.

***Xanım olaraq prokuror vəzifəsində işləmək Sizə həyatda hansı üstünlüklər və məhrumiyyətlər bəxş edib?***

Adın müqəddəsdir sənin ey qadın,
Dahilər anası çağırılır adın!

İş yükü cəhətdən kişi həmkarlarıma nisbətdə yeganə üstünlüyüm 8 martda əlavə mükafat almağım olub (gülümsəyir). Ən böyük üstünlük prokurorluq işçisi olmaq şərəfinə layiq olmaq və bu yolda müstəsna insanlara rast gəlmək, onları tanıyıb ibrət götürmək imkanı olmuşdur. 1998-ci ildə Ümummilli Lider Heydər Əliyevlə prokurorluq orqanlarının yaranmasının 80 illiyinə həsr olunmuş təntənəli tədbirdə görüşmək də nəsib olub. Ölkə başçısının 17 iyul 1998-ci il tarixli sərəncamı ilə 1 oktyabr prokurorluq işçilərinin peşə bayramı kimi elan olunmuş və həmin il Opera və Balet Teatrında onun şəxsi iştirakı ilə geniş şəkildə qeyd olunmuşdur. Çox güclü aurası var idi və olduğu yeri sanki işıqlandırırdı. Prezidenti qarşılayaraq ona gül dəstəsi təqdim etdim. Çox xarizmatik insan idi, iti baxışı ilə sanki insanı rentgendən keçirirdi. Təkrarolunmaz səs tembri ilə "Mən heç bilməzdim ki, prokurorluqda belə gözəl xanımlar var" dedi və gülümsədi. Ulu Öndərin "Prezident kimi mən Azərbaycan prokurorluğuna güvənirəm, inanıram və arxalanıram" sözləri daim xatirəmizdədir. Həmin tədbirdən sonra prokurorluq orqanlarına islahatlar dövrü başlanıldı, 1999 – 2001-ci illərdə "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunlar qəbul edildi, prokurorluğa işə qəbul prosesi müsabiqə əsasında keçirilməyə başladı. Müsabiqə





günlərində də işləməyi lazım bilmişəm. Bu səbəbdən övladlarımın təhsil aldıqları məktəbi belə öz iş yerimə yaxın seçmişdim ki, asudə vaxtının bir dəqiqəsini belə itirməyək. İş nə qədər çox olsa da, onlara diqqət ayırmağa, davamiyyətlərini və qayğılarını nəzarətdə saxlamağa çalışmışam. Onlardan da hər zaman dəstək görmüşəm. Hətta Bəhruz Mahmudov bizə “Siz bir komandasız” deyərdi. Bu çox vacib amildir. Prokurorluq işçisinin ailəsi onun qalası olmalıdır, onun “arxa cəbhəsi” möhkəm olmalı, onu nigaran saxlamamalıdır. Prokurorluq işçisinin ailəsi olmaq şərəfli və şöhrətli olduğu qədər, məsuliyyətli və səbirli olmağı, onunla bu şanlı yolda bütün çətinlikləri bölüşməyi tələb edir. Təəssüflər olsun ki, bəzi hallarda, xüsusən gənc ailələr anlayış göstərmir, həyatını prokurorluğa həsr etmək arzusunda olan həyat yoldaşını işdən çıxmağa, əks halda ailənin dağıdılmasına səbəb olurlar. Onlara demək istəyirəm ki, bu gün çətinliklərə dözə bilsələr, sabah daha möhkəm ailə sahibi olacaq, fəxrlə “prokuror” ailəsi adını daşıyacaqlar.

***Son illər prokurorluq orqanlarında kadr siyasətinin təkmilləşdirilməsi ilə həyata keçirilən islahatların mühüm hissəsi xanımların prokurorluqda vəzifədə irəli çəkilməsi ilə əlaqədar olmuşdur. Bu barədə nə deyə bilərsiniz?***

Azərbaycan SSR prokurorluğunda xanımlar rəhbər vəzifədə az sayda idilər. Məhkəmələrdə mülki işlərə baxılması üzrə nəzarət şöbəsinin rəisi Afəridə Xəlilova olmuş, ondan sonra həmin vəzifəyə Elmira Mirzəzadə, onun müavini vəzifəsinə isə İntizar Bayramova təyin olunmuşlar. Yetkinlik yaşına çatmamışlarla iş şöbəsinin rəisi Leyla Rəsulova olmuşdur. Respublika prokurorunun statistika üzrə böyük köməkçisi vəzifəsi sonradan statistika şöbəsinin rəisi vəzifəsi oldu və ora ardıcıllıqla Firuzə Əbdürrəhimova və İnna Andreyeva, 1-ci şöbənin rəisi vəzifəsinə isə İrina Valueva təyin olunmuşdur. Porfiriyeva Qalina İvanovna respublika prokurorluğunda şöbə rəisi olmuş, sonradan isə Bakı şəhəri prokurorunun müavini vəzifəsində uzun illər çalışmışdır. Lakin müstəqillik dövründə bu tendensiya davam etmədi. Xanım əməkdaşlar bir çox məsul vəzifələr tutub, lakin rəhbər vəzifələrdə işləyən cəmi bir neçə xanım olub. Buna baxmayaraq, peşəkar və qətiyyətli xanım əməkdaşlarımız hər zaman olub. Məsələn, Səmayə Seyfullayeva rayon prokurorunun müavini vəzifəsində işləyirdi. Svetlana İslamova isə ilk mühüm işlər üzrə müstəntiq olmuşdu. Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan kadr siyasəti, prokurorluğun veteranlarına göstərilən diqqət və qayğı ən yüksək tərifə layiqdir. Son illərdə xanım əməkdaşların prokurorluqda rəhbər vəzifələrə təyin olunmaları məni sevindirir, onlara bu etimadı doğrultmağı arzulayıram, çünki bu halda onlar növbəti nəsil xanım əməkdaşlara yol açacaq, xanımların ən çətin işin öhdəsindən gələ bildiklərini bir daha sübut edəcəklər.

***Təqaüdə çıxdığınız dövrdə əmək və ya digər fəaliyyətlə məşğul olmusunuzmu?***

Əmək fəaliyyəti ilə məşğul olmamışam. Əmək kitabçamda əlavə qeydin olmasını həyat yolumu həsr etdiyim prokurorluq orqanlarına xəyanət kimi qəbul edirəm (gülümsəyir). Bu səbəbdən işlədiyim dövrdə belə başqa orqanlara hətta rəhbər vəzifəyə keçmək təkliflərini də qəbul etməmişəm. Düşünmüşəm ki, kadrlar işində tam özümü realizə edə bilərəm. Prokurorluğun mənim həm şəxsiyyət kimi, həm peşəkar kimi formalaşmağımda müstəsna yeri var.

Təqaüdə çıxandan sonra uzun illər arzusunda olduğum asudə vaxtımı həsrətini çəkdiyim Ağstafada olan ata evimin abadlaşdırılması, orada yaratdığım kitabxananın böyüdülməsi ilə məşğul oluram. Orada mənim və oğlumun hüquq, qızımın tibb peşəsi üzrə kitabları, elmi, bədii əsərlər yer tutub. Həmin kitabxanada Böyük Vətən Müharibəsinin ilk günlərindən iştirak edib, 3 dəfə ağır yaralanaraq, kəşfiyyatçı kimi Stalinqraddan Vyanaya döyüş yolu keçmiş, zabit olmadığı halda 4 orden və bir çox medalla təltif olunmuş, əmək veteranı Həsən Binnət oğlu Həsənova həsr olunmuş guşə, bürünc büstü, şer kitabları, dövlət təltifləri var, hərbi jurnalist İlya Kamenkoviçin, “Əməkdar jurnalist” Əntiqə Qonaqovanın onun barəsində yazdığı materiallar var. Atam müharibə barədə




çox danışmağı sevməzdi, qanı qaralardı. Təkid edəndə də, yanına valokordin qoyardı. Bu gün onun döyüş yoluna aid sənədlər Rusiya Müdafiə Nazirliyinin arxivindən çıxarılaraq ehtiram layihəsi olan "pamyat-naroda.ru" saytında dərc olunur. Atam mənə poeziyanı sevdirib, özü hər zaman yeni şer axtarıb, öyrənərdi, ətrafında hər zaman şairlər və aşıqlar olmuş, Xalq şairi Hüseyn Arif, Aşıq Ədalət tez-tez evimizin qonağı olardılar. Hüseyn Arif ona "Ceyrançöl" poemasında "Ucaboy, enlikürək bir dost çıxır qarşıma, yanaşıb söz atıram öz könül sirdaşıma, o Daş Salahlıdandır, ali təhsil almayıb, min ali təhsillidən heç də geri qalmayıb, xətirli, hörmətlidir, ürəkdən verir xəbər, fəhlələr söz düşəndə, bizim Həsən deyirlər" misraları ilə başlayan hissəsini həsr etmişdir. Biz tərəflərin suyundanmıdır bəlkə, hələ də gənc yaşda oxuduğum şerləri saatlarla əzbərdən söyləyə bilərəm. Ən çox Səməd Vurğunun yaradıcılığını sevdiyim üçün atam mənə "Vurğunun vurğunu" deyərdi. Səsini ucaltmaz, bir baxışı ilə nə demək istədiyini bilərdik. Anam Həvva xanımla izdivacı hamı üçün qarşılıqlı hörmət və məhəbbət nümunəsi idi.

Veteran qızı olaraq Böyük Vətən Müharibəsi veteranları olmuş prokurorluğun əməkdaşları Eynal Əliyevə, Faiq Allahverdiyevə, Abbas Məmmədova, Nurəddin Cəfərova xüsusi həssaslıqla yanaşmışam, daima onlarla əlaqə saxlamışam, onların yeni nəsil prokurorlarla görüşlərinin keçirilməsini təşkil etmişdim. Artıq onlar hamısı haqq dünyasına qovuşublar.

Vaxtımı həm atamın, həm özümün əkdiyimiz yaşıllıqların qulluğuna həsr edirəm. Vaxtilə Roma imperatoru Diokletian 20 ildən çox hökmdar olub, uğurlu nəticələr əldə edərək taxtı təhvil verib, Split şəhərinə köçmüşdü. Sonradan onu geri qaytarmaq cəhdlərini rədd etmiş, səbəbini soruşarkən cavabı "*Siz mənim Splitdə necə kələm yetişdirdiyimi görsəz, heç vaxt səbəbini soruşmazsınız"* olmuşdur (gülümsəyir). İş fəaliyyəti də bir yerə qədərdir. Zənnimcə, işi nə qədər sevsəndə, vaxtında getməyi və cavanlara yol açmağı bacarmaq lazımdır. Təqaüdə çıxandan sonra mənim əsas işim və statusum Teybənin, Saidin və İmanın nənəsi olmaqdır.

***Ənənəvi sualımızı vermə istərdik. Həyatınızda ən yüksək nailiyyətiniz kimi nəyi qəbul edirsiniz?***

Həyatda ən yüksək nailiyyətim inandıqlarım doğrulara sadiq qalmağımı hesab edirəm. Mənim üçün həyatda ən dəyərli olan etimad, etibar və sədaqətdir. Çalışmışam ki, mənə göstərilən etimadı doğruldum, həm işimin öhdəsindən gəlim, həm də mənə ehtiyacı olan insanlara dayaq olum. 60 yaşım tamam olanda həyat yolumun davamçısı olan oğlum Həsənin və sirdaşım qızım Eterinin məni "Valideynlərinə oğul əvəzi, bacılarına qardaş əvəzi, övladlarına ata əvəzi olan can dostumuz Anamız, doğum günün mübarək" sözləri ilə təbrik etmələri, diqqət və qayğı göstərdiyim adamların məni axtarıb hal-əhval tutmaları, övladlarımı hörmətlə qarşılayaraq barəmdə xoş sözlər söyləmələri həyatdakı nailiyyətlərimin təzahürüdür.

***İradə xanım, bir daha bu maraqlı və geniş müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə dərin təşəkkürümüzü bildiririk.***

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**«Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş»in təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il avqustun 17-də Bakı şəhərində və 2024-cü il avqustun 23-də Bonn şəhərində imzalanmış «Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş» təsdiq edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 8 oktyabr 2024-cü il
№ 35-VIIQ

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250; № 7, maddə 772) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 99-4.5-ci maddəyə «Məcəllənin» sözündən sonra «104-1,» rəqəmləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 104-1-ci maddə əlavə edilsin:

**«Maddə 104-1. Ekosid**

Bitki və ya heyvanlar aləminin kütləvi məhv edilməsi, atmosferin, torpaq və ya su ehtiyatlarının zəhərlənməsi, yaxud ekologiyaya ziyan vuran digər hərəkətlərin qəsdən törədilməsi, bu əməllər ekoloji fəlakətə səbəb olduqda və ya ekoloji fəlakətin baş verməsi üçün real təhlükə yaratdıqda –

on ildən on beş illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.».

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 22 oktyabr 2024-cü il
№ 55-VIIQR

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 dekabr 2024-cü il

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**Q Ə R A R I**

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndinin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi ilə əlaqəli şəkildə şərh olunmasına dair**

**1 oktyabr 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Fikrət Məmmədov, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndinin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi ilə əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor Ş.Səmədovanın rəyini araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndinin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra – «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanun) 1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət işləri üzrə məhkəmə təcrübəsi öyrənilib ümumiləşdirilərkən hüquq tətbiqetmə təcrübəsində bəzi ziddiyyətlərin olduğu müəyyən edilmişdir.

Belə ki, Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndində könüllü surətdə təhvil vermə və ya cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmə hərəkətləri yalnız narkotik vasitələr, psixotrop maddələr və ya onların prekursorlarına münasibətdə tətbiq edildikdə şəxsin cinayət məsuliyyətindən azad edilməsinin şərti kimi öz əksini tapmış, tərkibində narkotik maddələr olan bitkilər ilə bağlı müvafiq hərəkətlərin edilməsinin isə şəxsin cinayət məsuliyyətindən azad edilməsi ilə nəticələnməsi barədə müddəa nəzərdə tutulmamışdır.

Sorğuda qeyd edilmişdir ki, «Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə əsas verən narkotik vasitələrin və psixotrop maddələrin xeyli, külli və xüsusilə külli miqdarlarına görə siyahılarının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda (bundan sonra – «Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə əsas verən narkotik vasitələrin və psixotrop maddələrin xeyli, külli və xüsusilə külli miqdarlarına görə Siyahıları») narkotik vasitələr, psixotrop maddələr və tərkibində narkotik maddələr olan bitkilər ayrı-ayrı siyahılarda formulə edilməklə bir-birindən fərqləndirilsə də, «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunda tərkibində narkotik maddələr olan bitkilər narkotik vasitələrə aid edilmişdir. Bu hal isə tərkibində

narkotik maddələr olan bitkilərin kultivasiyasına münasibətdə Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndinin tətbiq edilməsinin mümkünlüyü məsələsində qeyri-müəyyənlik yaradır.

Həmçinin, hüquq tətbiqedənlər arasında Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndində göstərilən cinayət məsuliyyətindən azad etməyə əsas verən halların yalnız Cinayət Məcəlləsinin 234-cü maddəsində nəzərdə tutulan cinayətə deyil, ümumiyyətlə həmin Məcəllənin 234–240-cı maddələrində nəzərdə tutulmuş cinayətlərə münasibətdə tətbiq edilməsinin mümkünlüyü barədə fikir ayrılığı mövcuddur. Buna səbəb isə Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsində göstərilmiş «qanunsuz dövriyyə» ifadəsinin həmin Məcəllənin 26-cı fəslinin adı, habelə «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 1.0.5-ci maddəsi ilə müəyyən olunmuş qanunsuz dövriyyə anlayışı ilə müqayisə edilməsidir.

Sorğuverənin qənaətinə görə, hüquq tətbiqetmə təcrübəsində ziddiyyətlərin aradan qaldırılması, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədi ilə sorğuda göstərilmiş qanunvericilik normalarının əlaqəli şəkildə şərh olunmasına zərurət yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinin tələbləri baxımından Azərbaycan Respublikasının Milli Məclisi qanunların qəbul edilməsi yolu ilə cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi ilə bağlı ümumi qaydalar müəyyənləşdirir.

O, müəyyən ictimai təhlükəli hərəkətlərə görə cavab tədbiri kimi hansı dövlət məcburiyyət tədbirlərindən istifadə edilməsi ilə yanaşı, hansı hallarda onların tətbiqindən imtinanın mümkünlüyünü də müəyyən edə bilər. Bununla əlaqədar olaraq, qanunverici cinayət və cinayət-prosessual qanunvericiliklərində müəyyən kateqoriyadan olan şəxslər barəsində cinayət təqibindən imtina edilməsinə və onların cinayət işlərinə xitam verilməsinə imkan verən əsasları müəyyən etmək hüququna malikdir (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-1, 178-ci maddələrinin və 312-ci maddəsinin «Qeyd» hissəsinin əlaqəli şəkildə şərh edilməsinə dair» 2022-ci il 14 iyul tarixli Qərarı).

Cinayət məsuliyyətindən azad etmə halları Cinayət Məcəlləsinin 11-ci fəsli (72-75-ci maddələri) ilə yanaşı, həmin Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrinin qeyd hissələri ilə də müəyyənləşdirilmişdir ki, belə qeydlərdən biri də Cinayət Məcəlləsinin 234-cü maddəsində nəzərdə tutulmuşdur.

Cinayət məsuliyyətindən azad etmə ilə bağlı münasibətləri tənzimləyən bəzi normaların Cinayət Məcəlləsinin Ümumi hissəsində deyil, məhz Xüsusi hissəsindəki maddələrin qeydlərində təsbit edilməsi ondan irəli gəlir ki, həmin məsuliyyətdən azad etmənin əsasları, şərtləri, müəyyən olunma məqsədi bir-birindən tamamilə fərqlənir. Onlar hər hansı kateqoriyadan olan cinayət əməllərinə ümumilikdə şamil oluna bilmir və hər bir cinayət əməlinin xarakterinə uyğun olaraq həmin cinayət əməlini nəzərdə tutan normanın «Qeyd» hissəsində onun tərkib hissəsi kimi təsbit olunur (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsinin «Qeyd» hissəsinin həmin Məcəllənin 11-ci fəsli və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39, 40, 41 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair» 2023-cü il 7 iyul tarixli Qərarı).

Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndinə əsasən narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını könüllü surətdə təhvil verən və ya narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.

İlk növbədə göstərilməlidir ki, normativ hüquqi aktların hazırlanması, qəbul olunması, rəsmiləşdirilməsi, dərc edilməsi, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydalarını müəyyən edən «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikası Konstitusiya Qanununun (bundan sonra – «Normativ hüquqi aktlar haqqında» Konstitusiya Qanunu) 35.1-ci maddəsinə əsasən, normativ hüquqi aktların (onların struktur elementlərinin) ayrıca struktur elementləri kimi onlara dair sətiraltı qeydlər ola bilər. Sətiraltı qeydlərdən, izahlardan və ya ixtisar edilmiş adlardan onlar normativ hüquqi aktın (onun struktur elementlərinin) mətninə yerləşdirilə bilmədikdə istifadə edilir.

Qeyd edilən normadan göründüyü kimi, hər hansı normativ hüquqi aktın, o cümlədən Cinayət Məcəlləsinin «Qeyd» hissələrində həmin qeydin digər bölməyə, fəslə, maddələrə və s. şamil olunması ilə bağlı birbaşa göstəriş nəzərdə tutulmadıqda, onlar, bir qayda olaraq məhz təsbit olunduğu struktur elementin (bölmə, fəsil, maddə və s.) ayrılmaz tərkib hissəsini təşkil etməklə həmin struktur elementinə aid olur.

Hüquq tətbiqetmə təcrübəsində qeyri-müəyyənliyin yaranmasına səbəb olan Cinayət Məcəlləsinin 26-cı fəslinin adı ilə bağlı qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin Xüsusi hissəsində cinayət əməllərini müəyyən edən maddələrin bölmələr və fəsillər şəklində qruplaşdırılmasında və müvafiq əməllərin onların tərkibinə daxil edilməsində ən mühüm meyar həmin əməllərin cinsi obyektlərinin (mahiyyətcə eyni cinsli olan və ya məzmunca oxşar ictimai münasibətlər) və növ obyektlərinin (cinsi obyekt daxilində bir-biri ilə daha sıx əlaqəli və dar ictimai münasibətlər qrupu) eyniliyi və ya oxşarlığı ilə əlaqədardır. Bölmə və fəsillərin adı

məhz cinayətlərin qəsd etdiyi ictimai münasibətlərin ümumiliyi ilə əlaqədar olduğundan, konkret əməlin Cinayət Məcəlləsinin eyni fəsli daxilində hansı maddə ilə tövsif edilməsində, cinayət məsuliyyətindən azad etmənin mümkünlüyü məsələsində həmin fəslin adı əsas meyar kimi çıxış etmir.

«Normativ hüquqi aktlar haqqında» Konstitusiya Qanununun 30.5-ci maddəsinə əsasən, normativ hüquqi aktın fəsli maddələri özündə birləşdirən struktur elementi olmaqla, mahiyyətini əks etdirən ada malik olmalıdır.

Cinayət Məcəlləsinin 26-cı fəsli «narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər» adlandırılsa da, bu fəslə predmetini belə maddə və vasitələrin təşkil etmədiyi cinayətlər də daxil edilmişdir. Bunun da səbəbi məhz həmin fəsildə əksini tapmış cinayət əməllərinin eyni növlü ictimai münasibətlərə qəsd etməsi, yəni bu əməllərin növ obyektinin eyniliyi ilə əlaqədardır. Məsələn, həmin fəsildə nəzərdə tutulan cinayət əməllərindən biri də güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsidir (Cinayət Məcəlləsinin 240-cı maddəsi).

O da göstərilməlidir ki, Cinayət Məcəlləsinin 234-cü maddəsi ilə yanaşı, 240-cı maddəsində də «Qeyd» hissə nəzərdə tutularaq orada göstərilən hərəkətləri həyata keçirmiş şəxsin cinayət məsuliyyətindən azad olunması müəyyən edilmişdir. Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin eyni bir fəslinə aid iki fərqli maddədə cinayət məsuliyyətindən azad etmənin şərtlərini müəyyənləşdirən qeydlərin nəzərdə tutulması, o cümlədən hər iki qeyddə cinayət məsuliyyətindən azad etmənin şərtlərinin oxşar şəkildə müəyyənləşdirilməsi onu göstərir ki, qanunverici Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndini həmin Məcəllənin 26-cı fəslinə aid olan bütün cinayətlərə deyil, məhz 234-cü maddədə təsbit olunmuş cinayət əməllərinə münasibətdə tətbiq edilməli olduğunu nəzərdə tutmuşdur. Əks yanaşma Cinayət Məcəlləsinin 240-cı maddəsinin «Qeyd» hissəsinə 2020-ci il 1 may tarixli Azərbaycan Respublikasının Qanunu ilə cinayət məsuliyyətindən azad etmə şərtlərini nəzərdə tutan əlavənin edilməsinin məqsəd və mahiyyətini əhəmiyyətsiz edərdi.

Konstitusiya Məhkəməsinin Plenumu onu da bildirir ki, Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndində onun Cinayət Məcəlləsinin digər maddələrinə və ya fəslinə şamil edilməsi ilə bağlı birbaşa göstəriş olmadığı halda, ikinci bəndinin «bu fəsildə göstərilən narkotik vasitələrin və ya psixotrop maddələrin xeyli, külli və xüsusilə külli miqdarı, habelə prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) xeyli, külli və xüsusilə külli miqdarı müvafiq qanunlarla müəyyən edilir» məzmununda ifadə edilməsi qanunvericinin iradəsinin «Qeyd»in birinci bəndinin məhz həmin maddə üzrə cinayət məsuliyyətindən azad etməyə imkan verən hal kimi müəyyən edilməsi olduğunu göstərir.

Nəzərə alınmalıdır ki, Cinayət Məcəlləsinin «Qeyd» hissəsinin birinci bəndinin hüquqi mahiyyəti və təyinatının təhlili də belə nəticəyə gəlməyə əsas verir ki, «Qeyd» hissənin birinci bəndinin Cinayət Məcəlləsinin 26-cı fəslinin digər normaları (235—240-cı maddələri ilə) heç bir funksional əlaqəsi yoxdur.

Belə ki, Cinayət Məcəlləsinin 2.1-ci maddəsinə əsasən, bu Məcəllənin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Cinayət Məcəlləsində onun vəzifələrinin bu şəkildə müəyyən və bəyan edilməsi bütünlükdə cinayət qanunvericiliyi normalarının, o cümlədən cinayət məsuliyyətindən azad edən normaların Cinayət Məcəlləsinin prinsiplərini əsas götürməklə, məhz bu vəzifələrin həyata keçirilməsinə xidmət edəcək formada təfsir və tətbiq olunmasını tələb edir.

Cinayət Məcəlləsinin «qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma» adlı 234-cü maddəsinin «Qeyd» hissəsində göstərilmiş hərəkətlərin cinayət məsuliyyətindən azad etmənin şərtləri kimi nəzərdə tutulmasında məqsəd narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının yerinin aşkar edilməsinin, tapılaraq qanunsuz dövriyyədən çıxarılmasının, onlardan istifadə olunmaqla törədilən cinayətlərin açılmasının və ya qarşısının alınmasının, cinayətkarların müəyyən edilməsinin asanlaşdırılması və təmin edilməsi üçün belə cinayətləri törədən şəxsləri istintaq orqanları ilə əməkdaşlığa stimullaşdırmaqdır.

Həmin hərəkətlərin icra edildiyi halda şəxsin cinayət məsuliyyətindən azad edilməsinin səbəbi, bu hərəkətlərin icrası nəticəsində cinayət əməlini törətmiş şəxsin şəxsiyyətinin və ya onun törətdiyi əməlin öz ictimai təhlükəliliyini itirməsi ilə deyil, şəxsin törətmiş olduğu əmələ tənqidi münasibətinin yaranması, cinayət təqibi orqanlarının aşkar etmə ehtimalı çox az və ya belə ehtimalın olmadığı halda narkotik vasitələrin aşkarlanıb qanunsuz dövriyyədən çıxarılmasına, bu vasitələrdən istifadə olunmaqla törədiləcək cinayətlərin qarşısının alınmasına mühüm töhfə verməsi ilə bağlıdır. Bu halda ictimai təhlükəsizliyə ciddi təhdid hesab edilən maddə və vasitələr dövriyyədən çıxarılmaqla onlardan istifadə nəticəsində yaranacaq mənfi halların qarşısı alınır ki, bununla da ictimai qayda və təhlükəsizliyin təmin edilməsinə, əhalinin həyat və sağlamlığının qorunmasına nail olunur.

Beləliklə, qanunverici narkotik vasitələr və psixotrop maddələrlə bağlı konkret cinayətlərin yayılma intensivliyi, onların aşkar edilməsinin mürəkkəbliyi və latentlik səviyyəsi, bu və ya digər hərəkətin müvafiq cinayətlərin açılması və qarşısının alınmasında, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında əhəmiyyətli

rolunun olması və digər amilləri nəzərə almaqla cinayət məsuliyyətindən azad etməyə əsas olan həmin şərtləri Cinayət Məcəlləsinin 26-cı fəslinə daxil olan yalnız iki, 234 və 240-cı maddələri ilə bağlı nəzərdə tutmuşdur.

Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndində göstərilmiş «qanunsuz dövriyyə» ifadəsinin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunda «qanunsuz dövriyyə»yə verilmiş anlayışla eyniləşdirilməsi ilə bağlı mövqelərlə əlaqədar vurğulayır ki, qanunçuluq prinsipinə əsasən, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız Cinayət Məcəlləsi ilə müəyyən edilir (Cinayət Məcəlləsinin 5.1-ci maddəsi). Qanunçuluq prinsipinin mahiyyəti cinayət qanununun tətbiqi ilə bağlı hüquq tətbiqedən orqanın fəaliyyətinin yalnız qanuna əsaslanmasından və qanun əsasında həyata keçirilməsindən, eləcə də əməlin cinayət sayılması, belə əməli törədən şəxsin təqsirli hesab edilməsi və onun barəsində cəzanın tətbiqinə yalnız cinayət qanunu əsasında yol verilməsindən ibarətdir.

Nəzərə alınmalıdır ki, qanunçuluq prinsipinin tələblərinə uyğun olaraq hansı əməllərin narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət əməlləri hesab edilərək kriminallaşdırılması, həmin əməllərin cinayət qanunvericiliyində bu və ya digər bölməyə, fəslə və s. aid edilməsi də digər qanunvericilik aktları ilə deyil, yalnız Cinayət Məcəlləsi ilə müəyyən edilir.

«Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun məqsədi narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə əlaqədar yaranan ictimai münasibətlərin tənzimlənməsi və bu sahədə dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrinin müəyyənləşdirilməsidir. Qeyd olunan Qanunda istifadə olunan anlayışlar məhz həmin Qanunun tənzimləmə predmetinə uyğun olaraq və onun məqsədləri üçün müəyyən edilmişdir. Bu Qanunla müəyyən edilmiş bir sıra anlayışlar Cinayət Məcəlləsinin 26-cı fəsli baxımından blanket xarakter daşımaqla mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, həmin Qanun əməlin hansı hallarda narkotik vasitələr və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət əməli hesab edildiyini, cinayət qanunvericiliyinin strukturundakı yerini müəyyən edən normativ hüquqi akt kimi başa düşülə bilməz.

Sözügedən Qanunun 1.0.4-cü maddəsi ilə dövriyyə anlayışı kifayət qədər geniş şəkildə müəyyənləşdirilərək ona narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının idxal və ixracı da aid edilmiş, qanunsuz dövriyyə isə onlara münasibətdə «qanunvericiliklə müəyyən edilmiş qaydaları pozan hər hansı hərəkət» kimi müəyyən edilmişdir.

Həmin Qanunun 1.0.5-ci maddəsinə əsasən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları ilə bağlı törədilən hər hansı hərəkətlərdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsində göstərilən «qanunsuz dövriyyə» ifadəsinin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 1.0.5-ci maddəsində verilmiş anlayışla tamamilə eyniləşdirilməsi cinayət məsuliyyətinin mühüm prinsiplərindən olan qanunçuluq prinsipinin tələblərinə uyğun gəlməməklə bərabər, şəxsin nəinki Cinayət Məcəlləsinin 26-cı fəslinə daxil olan cinayətlərə görə, hətta bu fəslə daxil edilməyən başqa, məsələn, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qaçaqmalçılığı ilə bağlı Cinayət Məcəlləsinin 206.2-ci maddəsində müəyyənləşdirilən cinayət əməlinə görə də məsuliyyətdən azad edilməsinə əsas verərdi.

Qeyd edilməlidir ki, cinayət məsuliyyətindən azad edən normanın bu şəkildə genişləndirici təfsir edilməsi həmin hüquq normasının məqsəd və təyinatına zidd olmaqla Cinayət Məcəlləsinin 2.1-ci maddəsi ilə müəyyən edilən vəzifələrinə uyğun gəlmir, habelə şəxslərdə cəzasızlıq və məsuliyyətdən yayınmağın mümkünlüyü hissinin yaranması, fərdi hüquqların müdafiəsi ilə ictimai təhlükəsizliyin təmin edilməsi arasında ədalətli balansın pozulması ilə nəticələnə bilər.

Bununla yanaşı Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etməyi vacib hesab edir ki, Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndində cinayət məsuliyyətindən azad etmənin şərti kimi nəzərdə tutulmuş hərəkətlərin həmin Məcəllənin 26-cı fəslinə daxil olan digər cinayətləri törətmiş şəxslər tərəfindən də icra edilməsi mümkündür. Bu baxımdan, humanizm, ədalətlilik, cinayət məsuliyyətinin mütənasibliyi prinsiplərini, eləcə də Cinayət Məcəlləsinin vəzifələrini nəzərə almaqla, gələcəkdə Cinayət Məcəlləsinin 26-cı fəslinə daxil olan müvafiq maddələrdə cinayət məsuliyyətindən azad etmə əsaslarını tənzimləyən qeyd hissələrinin əlavə edilməsi qanunvericinin diskresion səlahiyyətinə aiddir.

Tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyasına görə məsuliyyət nəzərdə tutan Cinayət Məcəlləsinin 237-ci maddəsinə münasibətdə həmin Məcəllənin 234-cü maddəsinin «Qeyd» hissəsinin tətbiqinin mümkünlüyü məsələsi ilə bağlı qeyd edilməlidir ki, Azərbaycan Respublikası narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində Birləşmiş Millətlər Təşkilatının 1972-ci il tarixli protokolu ilə edilmiş düzəlişlərlə «Narkotik vasitələr haqqında» 1961-ci il tarixli Vahid Konvensiyasına (bundan sonra – «Narkotik vasitələr haqqında» Vahid Konvensiya) və «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» 1988-ci il tarixli Konvensiyasına qoşulmuşdur.

Azərbaycan Respublikası qeyd olunan beynəlxalq aktları ratifikasiya etməklə ərazisi hüdudlarında öz mülahizəsinə uyğun olaraq «Narkotik vasitələr haq-

qında» Vahid Konvensiyanın narkotik vasitələrə dair I Siyahısında göstərilən istənilən narkotik vasitəyə münasibətdə zəruri hesab etdiyi xüsusi nəzarət tədbirini görmək öhdəliyini götürmüşdür («Narkotik vasitələr haqqında» Vahid Konvensiyanın 2-ci maddəsinin 5-ci bəndinin «a» yarımbəndi).

«Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyanın 3-cü maddəsinin 6-cı bəndinə müvafiq olaraq, Tərəflər bu maddədə nəzərdə tutulmuş istənilən hüquqpozmalar barəsində hüquq-mühafizə tədbirlərinin maksimal effektivliyinə nail olmaq məqsədilə və belə hüquqpozmaların törədilməsinə mane olmağın zəruriliyini nəzərə almaqla, həmin hüquqpozmalara görə şəxslərin cinayət təqibinə aid istənilən diskresion hüquq səlahiyyətlərinin öz milli qanunvericiliklərinə müvafiq olaraq istifadəsini təmin etməyə çalışırlar.

«Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 1.0.1-ci maddəsində göstərilmişdir ki, narkotik vasitələr – BMT-nin 1961-ci il tarixli «Narkotik vasitələr haqqında» Vahid Konvensiyasında, 1971-ci il tarixli «Psixotrop maddələr haqqında» Konvensiyasında, 1988-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərdir (onların hissələridir).

«Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə əsas verən narkotik vasitələrin və psixotrop maddələrin xeyli, külli və xüsusilə külli miqdarlarına görə Siyahıları»nda narkotik vasitələr, psixotrop maddələr və tərkibində narkotik maddələr olan bitkilərin ayrı siyahılarda göstərilməsi isə həmin bitkilərin bioloji tərkibi baxımından digər narkotik vasitələrdən fərqləndirilməsi, narkotik vasitələrlə törədilən cinayətlərə görə məsuliyyətin differensiasiyalaşdırılmasına əsas olan miqdarların müəyyən edilməsi və s. zərurətlərdən irəli gəlir.

Beləliklə, tərkibində narkotik maddələr olan bitkilər də qanunvericiliklə narkotik vasitələr anlayışının tərkib hissəsi kimi müəyyən edilmişdir. Bu səbəbdən Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə cinayət əməli kimi müəyyən edilməklə məsuliyyət nəzərdə tutulmuşdur. Kultivasiya etmə əməli əkmə və ya yetişdirməni özündə ehtiva etməklə formal tərkibli cinayətdir və bu halda, həmin proses nəticəsində belə bitkilərin əldə olunub-olunmamasının cinayət əməlinin başa çatmış hesab olunması üçün heç bir əhəmiyyəti yoxdur.

Qanunvericilikdə Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin həmin Məcəllənin 237-ci maddəsinə münasibətdə şamil edilməsi ilə bağlı müddəanın olmaması tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyasının bu vasitələrlə törədilən cinayətlərin ilkin mərhələsi olması, kultivasiyanın hələ narkotik vasitənin hazırlanıb dövriyyəyə buraxılmasını ehtiva etməməsi və ona görə də Məcəllənin 234-cü maddəsinin «Qeyd» hissəsində göstərilən hərəkətlərin bu halda normanın hüquqi məqsədi və təyinatı baxımından əhəmiyyətsizliyi ilə izah oluna bilər.

Konstitusiya Məhkəməsinin Plenumu «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinin həmin Məcəllənin 237-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair» 2021-ci il 6 iyul tarixli Qərarında da göstərmişdir ki, şəxs tərkibində narkotik maddələr olan bitkilərin kultivasiya edilməsi prosesi çərçivəsində onları (onların hissələrini) toplamaqla yanaşı, Cinayət Məcəlləsinin 237.1-ci maddəsinin dispozisiyasından kənara çıxan cinayət xarakterli hərəkətlərə yol verərsə, yəni həmin Məcəllənin 237-ci maddəsi ilə onun əməllərini tamamilə əhatə etmək mümkün olmadıqda, həmin hərəkətləri cinayətlərin məcmusu qaydasında Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə yanaşı həm də Məcəllənin digər müvafiq maddələri ilə tövsif edilməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun əvvəlki Qərarlarında ifadə edilmiş hüquqi mövqelərdən də göründüyü kimi, tərkibində narkotik maddələr olan bitkilərlə bağlı törədilmiş əməllər yalnız Cinayət Məcəlləsinin 237-ci maddəsində deyil, həmçinin 234-cü maddəsində nəzərdə tutulmuş cinayət tərkiblərini də əmələ gətirə bilər.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Konstitusiya Məhhəməsinin Plenumu hesab edir ki, tərkibində narkotik maddələr olan bitkilərlə bağlı törədilən əməllər (məsələn, daşıma, saxlama və s.) Cinayət Məcəlləsinin 234-cü maddəsində nəzərdə tutulan cinayət tərkiblərindən hər hansı birini əmələ gətirdiyi halda, belə bitkiləri könüllü surətdə təhvil verən və ya qanunvericiliklə müəyyən edilmiş digər şərtləri yerinə yetirən şəxs məhz həmin əmələ münasibətdə Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndinə əsasən cinayət məsuliyyətindən azad edilir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– «Normativ hüquqi aktlar haqqında» Konstitusiya Qanununun 35.1-ci maddəsi, habelə Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndinin hüquqi təyinatı və digər maddələrlə qarşılıqlı hüquqi əlaqəsi baxımından həmin normada müəyyənləşdirilən hallar yalnız 234-cü maddə üzrə cinayət əməllərinə münasibətdə cinayət məsuliyyətindən azad etmənin əsasını təşkil edir;

– şəxsin əməli Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə yanaşı həmin Məcəllənin 234-cü maddəsində nəzərdə tutulan cinayət tərkibini də yaratdığı halda o, sonuncu cinayət əməlinə münasibətdə həmin maddənin «Qeyd» hissəsinin birinci bəndi ilə müəyyənləşdirilmiş əsaslarla cinayət məsuliyyətindən azad edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini və «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq,

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **qərara aldı:**

**1.** «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikası Konstitusiya Qanununun 35.1-ci maddəsi, habelə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinin «Qeyd» hissəsinin birinci bəndinin hüquqi təyinatı və digər maddələrlə qarşılıqlı hüquqi əlaqəsi baxımından həmin normada müəyyənləşdirilən hallar yalnız 234-cü maddə üzrə cinayət əməllərinə münasibətdə cinayət məsuliyyətindən azad etmənin əsasını təşkil edir.

**2.** Şəxsin əməli Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə yanaşı həmin Məcəllənin 234-cü maddəsində nəzərdə tutulan cinayət tərkibini də yaratdığı halda o, sonuncu cinayət əməlinə münasibətdə həmin maddənin «Qeyd» hissəsinin birinci bəndi ilə müəyyənləşdirilmiş əsaslarla cinayət məsuliyyətindən azad edilir.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

## Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinin I hissəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 412.7-ci maddəsinin «İcra haqqında» Azərbaycan Respublikası Qanununun 17.1.7-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair

**15 oktyabr 2024-cü il** **Bakı şəhəri**

fAzərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), İsa Nəcəfov, Fikrət Məmmədov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinin I hissəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 412.7-ci maddəsinin «İcra haqqında» Azərbaycan Respublikası Qanununun 17.1.7-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının, Sumqayıt Apellyasiya Məhkəməsinin və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının mütəxəssis mülahizələrini, fekspert Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrasının müdiri, hüquq elmləri doktoru, professor F.Abbasovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 412.7-ci maddəsinin «İcra haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra – «İcra haqqında» Qanun) 17.1.7-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Bakı Hərbi Məhkəməsinin 1 may 2023-cü il tarixli icra sənədinə əsasən müsadirə edilməli əmlak, o cümlədən vurulmuş maddi və mənəvi ziyanla bağlı təqsirləndirilən şəxslərdən tutulmalı

olan pul vəsaitlərinin və iddianın təmin edilmiş hissəsinə mütənasib olaraq dövlət rüsumlarının məbləği müəyyən edilmişdir.

Bakı şəhəri Nərimanov Rayon İcra Şöbəsi «İcra haqqında" Qanunun 17.1.7-ci maddəsini rəhbər tutaraq icra sənədi üzrə icraatın dayandırılması barədə 3 avqust 2023-cü il tarixli qərar qəbul etmişdir. Qərar onunla əsaslandırılmışdır ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin elektron sistemindən çıxarılmış məlumata əsasən icra sənədinin verilməsinə əsas olmuş məhkəmə qərarından kassasiya şikayəti Məhkəmənin icraatına daxil olmuş və şikayətə baxılması 18 oktyabr 2023-cü il tarixinə təyin olunmuşdur.

Bakı Hərbi Məhkəməsinin 20 oktyabr 2023-cü il tarixli qərarı ilə S.Hüseynovun ərizəsi təmin edilərək icra sənədi üzrə icraatın dayandırılması barədə qərar Cinayət-Prosessual Məcəlləsinin 412.7-ci maddəsinə əsasən ləğv edilmişdir.

Sorğuda qeyd edilmişdir ki, Cinayət-Prosessual Məcəlləsinin 412.7-ci maddəsi ilə məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarından kassasiya şikayəti, yaxud kassasiya protestinin verilməsi onların icrasını dayandırmadığından həmin hökm və ya qərara əsasən verilmiş əmlakın alınmasına dair icra sənədləri üzrə icraat dayandırıla bilməz.

Digər tərəfdən «İcra haqqında" Qanunun 17.1.7-ci maddəsində icraatda olan iş üzrə qəbul olunmuş məhkəmə aktlarından verilmiş apellyasiya və kassasiya şikayəti müvafiq məhkəmələrin icraatına qəbul olunduqda icra sənədi üzrə icraatın məcburi olaraq dayandırılması göstərilmişdir.

Belə olan halda məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarından kassasiya şikayəti, yaxud kassasiya protesti verildiyi zaman müsadirə edilməsi, dövlət nəfinə keçirilməsi, istintaq orqanları tərəfindən götürülməsi, üzərinə həbs qoyulması ilə vurulmuş əmlak ziyanının ödənilməsinə dair hissədə onların icrasının dayandırması ilə bağlı fikir ayrılığı mövcuddur.

Göstərilənlərə əsasən, sorğuverən qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının icrası qaydalarının dəqiq müəyyən edilməsi, bununla da pozulmuş hüquqların bərpasına yönəlmiş qanunvericilik normalarının vahid qaydada tətbiqinin təmin edilməsi məqsədilə müvafiq maddələrin şərh edilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Əsas Qanun insan və vətəndaş hüquq və azadlıqlarını təsbit etməklə yanaşı, onların qorunmasına və müdafiəsinə yönəlmiş təminatları da müəyyənləşdirmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında (bundan sonra – Konstitusiya) hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat hüququ təsbit edilmişdir (26 və 60-cı maddələrin I hissələri).

Məhkəmə müdafiəsi hüququ bir tərəfdən şəxsin həqiqi və ya ehtimal olunan hüquqlarının pozulması ilə bağlı məhkəməyə müraciət etmək hüququnu, digər tərəfdən isə məhkəmələr tərəfindən həmin müraciətlərə müvafiq surətdə müəyyən edilmiş hüquqi prosedurlara uyğun faktlar əsasında, qərəzsiz, ədalətlə və ağlabatan müddətdə baxılmasını, məhkəmənin və ya icra sənədini verən digər orqanın icra sənədlərinin vaxtında və düzgün icra edilməsinə nəzarət etmək vəzifəsini nəzərdə tutur.

Konstitusiyanın 129-cu maddəsinin müddəaları məhkəmə müdafiəsi hüququnun təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Həmin maddənin I və II hissələrinə uyğun olaraq, məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir. Məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Qanuni qüvvəyə minmiş məhkəmə qərarının icrası məhkəmə müdafiəsi hüququnun tərkib hissəsi olmaqla pozulmuş hüquqların bərpa olunmasında xüsusi önəm daşıyır. Belə ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarının vaxtında və düzgün icra olunmaması bütövlükdə məhkəmə müdafiəsi hüququnun həyata keçirilməsini səmərəsiz və qəbul olunmuş qərarı əhəmiyyətsiz edər (Konstitusiya Məhkəməsi Plenumunun «İcra haqqında» Azərbaycan Respublikası Qanununun 7, 10, 24 və 26-cı maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin bəzi müddəaları baxımından şərh edilməsinə dair» 2015-ci il 2 sentyabr tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələnin həlli məqsədi ilə məhkəmə hökmünün və ya qərarının qüvvəyə minməsini və icrasını tənzimləyən qanunvericilik normalarının bir daha nəzərdən keçirilməsini zəruri hesab edir.

Cinayət-Prosessual Məcəlləsinin 407.2-ci maddəsinə uyğun olaraq, apellyasiya instansiyası məhkəməsinin yekun qərarı elan olunduğu andan dərhal sonra qanuni qüvvəyə minir. Həmin Məcəllənin 412.7-ci maddəsinə əsasən, məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarından kassasiya şikayəti yaxud kassasiya protestinin verilməsi onların icrasını dayandırmır.

Konstitusiya Məhkəməsi Plenumunun apellyasiya instansiyası məhkəməsinin qərarının qanuni qüüvvəyə minmə anı ilə bağlı ifadə etdiyi hüquqi mövqeyinə görə, apellyasiya instansiyası məhkəməsinin yekun qərarı elan olunduğu andan dərhal sonra qanuni qüvvəyə mindiyindən, həmin qərardan sonra şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi ci-

nayətlərin residivini yaradır və həmin şəxsə hökmlərin məcmusu üzrə qəti cəza təyin edilməlidir («Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 407.2-ci maddəsinin şərh edilməsinə dair» 2014-cü il 17 dekabr tarixli Qərar).

Məsələ ilə əlaqədar xarici ölkələrin təcrübəsi araşdırılarkən bir sıra ölkələrdə analoji normativ tənzimetmənin nəzərdə tutulduğu müəyyən olunmuşdur. Məsələn, Rusiya Federasiyasının cinayət-prosessual qanunvericiliyinə əsasən, apellyasiya instansiyası məhkəməsinin hökmü elan edildiyi andan qanuni qüvvəyə minir. Hökm qanuni qüvvəyə mindiyi və ya cinayət işi apellyasiya instansiyası məhkəməsindən qaytarıldığı gündən 3 gün müddətində birinci instansiya məhkəməsi tərəfindən icra edilməlidir (Rusiya Federasiyasının Cinayət-Prosessual Məcəlləsinin 390-cı maddəsi).

Qazaxıstan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 488-ci maddəsinə uyğun olaraq, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yenidən baxılması üçün şikayətin və ya protestin verilməsi, həmin Məcəllənin 493-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, onların icrasını dayandırmır. Məcəllənin «Hökmün və ya məhkəmə qərarının icrasının dayandırılması» adlanan 493-cü maddəsinə görə Qazaxıstan Respublikası Ali Məhkəməsinin sədri, Qazaxıstan Respublikasının Baş Prokuroru işin tələb edilməsi ilə eyni vaxtda hökmün, məhkəmə qərarının icrasını kassasiya qaydasında yoxlanılması üçün onu üç aydan çox olmayan müddətdə dayandırmaq hüququna malikdir.

İnsan Hüquqları üzrə Avopa Məhkəməsinin qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icrasına dair mövqeyinə görə son və məcburi qüvvəyə malik olan məhkəmə qərarı tərəflərdən birinin ziyanına olaraq icra edilmədikdə ədalət mühakiməsi araşdırması xəyali hüquqa çevrilir (Hornsbi Yunanıstana qarşı iş üzrə 1997-ci il 19 mart tarixli Qərar).

Beləliklə məhkəmə hökmünün və ya digər qərarının icraya yönəldilməsinin və icra olunmasının zəruri hüquqi əsası kimi onun qanuni qüvvəyə minməsi çıxış edir.

Qanuni qüvvəyə minmə ilə məhkəmə hökmü məcburilik və icraedilənlik kimi keyfiyyətləri əldə etdiyindən həmin hökm tam həcmdə icraya yönəldilməli və icra edilməlidir. Məhkəmə qərarlarının icrası cinayət prosesinin elə bir mərhələsidir ki, həmin mərhələ qərarın qanuni qüvvəyə minməsi anından başlayır və özündə qərarın icrası ilə əlaqədar qəbul edilən digər prosessual qərarları və hərəkətləri ehtiva edir.

Nəzərə alınmalıdır ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarının həqiqətə uyğunluğu prezumpsiyası təkzib edilə də bilər. Çünki onun əlavə kassasiya və ya yeni açılmış hallar üzrə araşdırma qaydasında (məhkəmə prosesinin bu və ya digər formasında müvafiq instansiyaların mövcudluğundan asılı olaraq) ləğv olunması mümkündür. Lakin eyni zamanda, qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının qeyri-sabitliyinin konstitusion hüquqi müəyyənlik prinsipinə zidd olduğu və bütövlükdə hüquq sisteminin qeyri-sabitliyinə gətirib çıxardığı da vurğulanmalıdır. Ona görə də qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının ləğvi müstəsna tədbir kimi nəzərdən keçirilməlidir (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 453.10-cu maddəsinin şərh edilməsinə dair» 2022-ci il 31 avqust tarixli Qərarı).

Cinayət-Prosessual Məcəlləsinin 65.3-cü maddəsinə əsasən, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarlarının bütün dövlət orqanları, fiziki və hüquqi şəxslər üçün məcburiliyi məhkəmə hökmünün və digər qərarının kassasiya qaydasında və yeni açılmış hallar üzrə yoxlanılmasına, ləğv edilməsinə və dəyişdirilməsinə mane olmur.

Cinayət-Prosessual Məcəlləsinin 410.1.1-ci maddəsi ilə apellyasiya instansiya məhkəməsinin yekun qərarından kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün kifayət qədər uzun müddətlər – müvafiq olaraq bir, üç, altı və on iki aylıq müddətlər müəyyən edilmişdir.

Bu baxımdan məhkəmələrin hökm və ya qərarlarından kassasiya şikayətinin və ya kassasiya protestinin hətta bəzi hallarda on iki ay müddətində verilməsinin mümkün sayılmasını nəzərə alaraq qanunverici məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarından kassasiya şikayəti, yaxud kassasiya protestinin verildiyi halda onların icrasının dayandırılmadığını müəyyən etmişdir.

Qeyd edilməlidir ki, baş vermiş cinayət nəticəsində ictimai münasibətlərə əhəmiyyətli dərəcədə zərər vurulur, cəmiyyətin bütövlükdə maraq və mənafeyinə toxunulur və bu səbəbdən də ictimai nizamın bərpa edilməsinin yubadılması yolverilməzdir. Odur ki, cinayət mühakimə icraatında qərarların qeyri-müəyyən müddət ərzində icrasız qalmasının qarşısının alınması məqsədi ilə qanuni qüvvəyə minmiş hökm və ya qərardan kassasiya şikayətinin verilməsinin icranı dayandırmadığı təsbit edilmişdir.

Cinayət-Prosessual Məcəlləsinin 506.0.1-ci maddəsinə uyğun olaraq, hökm və ya məhkəmənin digər yekun qərarlarının icrasının cinayət cəzalarını və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar tərəfindən vaxtında və lazımınca təmin edilməsi üzrə məhkəmələrin vəzifələrindən biri kimi qanuni qüvvəyə minmiş hökmlərin və ya digər yekun qərarların icrası barədə dərhal göstərişin verilməsi müəyyən edilmişdir.

Həmçinin Cinayət-Prosessual Məcəlləsinin 507.1 və 508.1-ci maddələrinə əsasən, hökmün və ya məh-

kəmənin digər yekun qərarının icrası barədə hakimin göstərişi, bir qayda olaraq, məhkəmənin müvafiq hökmünün və ya qərarının qanuni qüvvəyə mindiyi andan təxirə salınmadan yerinə yetirilir. Müvafiq müəssisə və ya orqanların vəzifəli şəxsləri təxirə salınmadan hökm, yaxud məhkəmənin digər yekun qərarının lazımınca icrasını təmin etməli və onun icraya yönəldilməsi barədə göstəriş vermiş hakimə dərhal məlumat verməlidirlər.

Göründüyü kimi Cinayət-Prosessual Məcəlləsində qanuni qüvvəyə minmiş hökm və qərarın istisnasız olaraq dərhal icraya yönəldilməsi və icra olunması müəyyən edilərək hər hansı bir hissənin icrasının dayandırılması ilə bağlı müddəa nəzərdə tutulmamışdır.

Cinayət mühakimə icraatından fərqli olaraq mülki məhkəmə icraatında apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin kassasiya qaydasında mübahisələndirilməsi həmin məhkəmə aktının icrasının dayandırılması ilə nəticələnir.

Belə ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – Mülki Prosessual Məcəllə) 393-cü maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən şikayət verilməmişdirsə, qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay keçdikdən sonra qanuni qüvvəyə minir. Mülki Prosessual Məcəllənin 419.4-cü maddəsinə görə isə kassasiya instansiyası məhkəməsinin qərarı qəbul edildiyi andan qüvvəyə minir.

Göründüyü kimi, mülki məhkəmə icraatında apellyasiya instansiyası məhkəməsinin qərarı qəbul edildiyi andan deyil, mübahisələndirilmədiyi təqdirdə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay keçdikdən sonra qanuni qüvvəyə minir. Odur ki, mülki məhkəmə icraatı zamanı apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən kassasiya şikayətinin verilməsi icra sənədi üzrə icraatın məcburi olaraq dayandırılmasını labüd edir.

Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının 2009-cu il 26 may tarixli Qanununun tətbiq edilməsi barədə» 2009-cu il 22 iyun tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qüvvədə olan qanunvericilik aktlarının «Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərin hazırlanıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi qərara alınmışdır.

Həmçinin «İcra haqqında» Qanuna 2010-cu il 18 iyun tarixli Azərbaycan Respublikasının Qanunu ilə 17.1.7-ci maddə əlavə edilmişdir.

Həmin maddəyə görə, icra sənədi üzrə icraatın dayandırılması əsaslarından biri kimi icraatda olan iş üzrə qəbul olunmuş məhkəmə aktlarından verilmiş apellyasiya və kassasiya şikayətinin müvafiq məhkəmələrin icraatına qəbul olunması müəyyən edilmişdir.

Əvvəldə də qeyd edildiyi kimi, məhkəmə qətnaməsinin təkzibolunmazlığı və məcburiliyi onun qanuni qüvvəyə minməsi ilə şərtləndirildiyindən Mülki Prosessual Məcəllənin 393-cü maddəsinin tələblərinə uyğun olaraq apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən şikayətin verildiyi halda həmin məhkəmə aktı üzrə icra tədbirləri başlanıla və yaxud davam etdirilə bilməz. Mübahisələndirilən məhkəmə aktı qanuni qüvvəsini alanadək və ya mübahisələndirilən iş üzrə başqa qəti qərar (məsələn, kassasiya instansiyası məhkəməsinin yeni qərarı) çıxarılanadək icra tədbirlərinin davam etdirilməsi istisna edilir.

Qanuni qüvvəyə minmiş məhkəmə aktı özündə mübahisələndirilən maddi hüququn, yaxud belə hüquqa əsaslanan faktın mövcud olub-olmamasını qəti surətdə müəyyənləşdirir və səlahiyyətli şəxsin tələbi ilə hər hansı qeyd-şərt qoyulmadan onların həyata keçirilməsini ehtiva edir. Məhz bu baxımdan prosessual qanunvericilikdə nəzərdə tutulmuş bütün müdafiə vasitələri istifadə edildikdən sonra qanuni qüvvəyə minmiş məhkəmə aktı təkzibolunmazlıq, müstəsnalıq və məcburilik kimi hüquqi xüsusiyyətlər əldə edir (Konstitusiya Məhkəməsi Plenumunun C.İsmayılzadənin şikayəti üzrə 2014-cü il 6 iyun tarixli Qərarı).

Bu baxımdan, «İcra haqqında» Qanunun 17.1.7-ci maddəsində əks olunmuş «icraatda olan iş üzrə qəbul olunmuş məhkəmə aktlarından verilmiş apellyasiya və kassasiya şikayətinin müvafiq məhkəmələrin icraatına qəbul olunması» müddəası ilə məhz mülki icraat zamanı apellyasiya və kasassiya şikayətinin müvafiq məhkəmələrin icraatına qəbul olunması nəzərdə tutulmuşdur.

Göstərilənlərlə yanaşı, Konstitusiya Məhkəməsinin Plenumunu onu da qeyd etməyi vacib hesab edir ki, Cinayət Prosessual Məcəlləsinin XIX fəslində əmlakına vurulmuş ziyana görə fiziki və hüquqi şəxsin cinayət mühakimə icraatı zamanı mülki iddia vermək hüququ nəzərdə tutulmuşdur. Belə iddialar həmin Məcəllənin müddəaları ilə müəyyən edilmiş qaydalara əsasən verilir, sübut və həll olunur. Mülki iddia üzrə qərar iddianın predmetindən asılı olaraq mülki qanunvericiliyin və digər qanunvericilik sahələrinin normalarına uyğun qəbul edilir.

Cinayət-Prosessual Məcəlləsinin 181-ci maddəsinə müvafiq olaraq, fiziki və hüquqi şəxs cinayət mühakimə icraatı zamanı iki halda mülki iddia verməyə haqlıdır:

– ziyan bilavasitə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulduqda;

– ziyan cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi ilə əlaqədar vurulduqda.

Qanunverici həmçinin, dövlət əmlakının mühafizəsi (dövlət idarə, müəssisə və ya təşkilatının müraciəti

olduqda), habelə mülki iddiaçının öz qanuni mənafelərini şəxsən müdafiə etmək imkanı olmadıqda, prokurorun onların hüquqlarının müdafiəsi üçün mülki iddia verərək onu müdafiə etmək imkanını müəyyən etmişdir (Cinayət-Prosessual Məcəlləsinin 181.7-ci maddəsi).

Cinayət mühakimə icraatı zamanı mülki iddiaçı, mülki cavabdeh, onların qanuni nümayəndələri və ya nümayəndələri kassasiya şikayəti vermək hüququna malik olan şəxslərin sırasına aid edilmişdir (Cinayət-Prosessual Məcəlləsinin 409.1.3-cü maddəsi).

Lakin, yuxarıda qeyd edildiyi kimi, mülki məhkəmə icraatından fərqli olaraq cinayət mühakimə icraatı zamanı mülki iddiaçı və ya cavabdeh tərəfindən vurulmuş ziyana görə kassasiya şikayətinin verilməsi icra sənədi üzrə icraatın məcburi olaraq dayandırılmasına səbəb olmur.

Vurulmuş maddi ziyanla bağlı fiziki və ya hüquqi şəxsin kassasiya şikayəti ilə məhkəməyə müraciət etdiyi hallarda cinayət mühakimə və mülki məhkəmə icraatlarında məhkəmə qərarlarının icrası ilə bağlı fərqli qaydaların müəyyən edilməsi mülki dövriyyə iştirakçılarının maraqlarına zidd olmaqla yanaşı, həmin şəxslərin icraatdan asılı olaraq mülkiyyət hüququnu qeyri-mütənasib şəkildə məhdudlaşdırır.

Konstitusiyanın 71-ci maddəsinin I və II hissələrinə görə, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.

Konstitusiyanın 149-cu maddəsinin I və III hissələrinə uyğun olaraq, normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı, qanunlar Konstitusiyaya zidd olmamalıdır.

Məhkəmə icraatı və məhkəmə qərarlarının icrası məsələlərinə dair ümumi qaydaların müəyyən edilməsi Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 6-cı bəndi baxımından qanunvericinin diskresion səlahiyyətlərinə aiddir. Bu sahədə o, geniş mülahizə sərbəstliyinə malikdir.

Bununla belə, qanunvericinin qeyd edilən mülahizə sərbəstliyi hədsiz deyil və Konstitusiyada təsbit olunmuş tələblərə, o cümlədən normativ hüquqi aktların hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanması və Konstitusiyaya zidd olmaması tələblərinə uyğun həyata keçirilməlidir.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Konstitusiyanın 149-cu maddəsinin I və III hissələrinin tələblərinə müvafiq olaraq mülki iddiaçının və ya cavabdehin qanuni mənafeləri, habelə dövlət əmlakının mühafizəsi baxımından (prokurora dövlət idarə, müəssisə və ya təşkilatının müraciəti olduqda) Cinayət-Prosessual Məcəlləsinin 412.7-ci maddəsinin bu Qərarda əks olunan hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– «İcra haqqında» Qanunun 17.1.7-ci maddəsi mülki məhkəmə icraatının xüsusiyyətlərindən irəli gələrək məhz mülki icraat zamanı icra sənədi üzrə icraatın məcburi olaraq dayandırılması halını müəyyən edir;

– Konstitusiyanın 149-cu maddəsinin I və III hissələrinin tələblərinə və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq, cinayət mühakimə icraatı zamanı apellyasiya instansiyası məhkəməsinin qanuni qüvvəyə minmiş hökm və ya digər qərarının mülki iddiaya aid hissəsindən kassasiya şikayətinin verildiyi halda onun icrasının dayandırılması məsələsinin tənzimlənməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu qərara aldı:

**1.** «İcra haqqında» Azərbaycan Respublikası Qanununun 17.1.7-ci maddəsi mülki məhkəmə icraatının xüsusiyyətlərindən irəli gələrək məhz mülki icraat zamanı icra sənədi üzrə icraatın məcburi olaraq dayandırılması halını müəyyən edir.

**2.** Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I və III hissələrinin tələblərinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq, cinayət mühakimə icraatı zamanı apellyasiya instansiyası məhkəməsinin qanuni qüvvəyə minmiş hökm və ya digər qərarının mülki iddiaya aid hissəsindən kassasiya şikayətinin verildiyi halda onun icrasının dayandırılması məsələsinin tənzimlənməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsi və 26-cı maddəsinin II hissəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 325-ci maddəsinin şərh olunmasına dair**

**28 oktyabr 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsi və 26-cı maddəsinin II hissəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 325-ci maddəsinin şərh olunmasına dair

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı

Bakı şəhəri, 28 oktyabr 2024-cü il

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Fikrət Məmmədov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsi və 26-cı maddəsinin II hissəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 325-ci maddəsinin şərh olunmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının, Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 325 və 326.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 325-ci maddəsinə görə, hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədləri, habelə Azərbaycan Respublikasının dövlət təltifini qanunsuz yolla əldə etmə və ya satmaya görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Həmin Məcəllənin 326.1-ci maddəsində, rəsmi sənədləri, ştampları və ya möhürləri tamah məqsədi və ya digər şəxsi niyyətlə talama, məhv etmə, zədələmə və ya gizlətməyə görə cinayət məsuliyyəti nəzərdə tutulsa da, bu maddədə dövlət təltiflərinin talanmasına görə cinayət məsuliyyəti müəyyən olunmamışdır.

Sorğuverən qeyd etmişdir ki, Azərbaycan Respublikasının dövlət təltiflərinin talanması hallarında, əməlin tövsifi ilə bağlı hüququ tətbiqetmə təcrübəsində fikir ayrılığı mövcuddur.

Belə ki, bir qrup hüquq tətbiqedənlərin mövqeyinə əsasən, dövlət təltifinin talanmasına görə cinayət qanununun konkret maddəsində cinayət məsuliyyəti müəyyən edilmədiyindən, həmçinin talama qanunsuz yolla əldə etmənin üsullarından biri olduğundan dövlət təltifinin talanması əməli Cinayət Məcəlləsinin 325-ci maddəsi ilə tövsif edilməlidir.

Digər mövqe isə ondan ibarətdir ki, Cinayət Məcəlləsinin 325-ci maddəsi üzrə «qanunsuz yolla əldə etmə» talama əməlini də ehtiva etsəydi, bu halda rəsmi sənədlərin talanmasına görə Cinayət Məcəlləsinin 326.1-ci maddəsində cinayət məsuliyyətinin müəyyən edilməsinə zərurət yaranmazdı.

Sorğuda həmçinin Cinayət Məcəlləsinin 226 və 227, 228 və 232, 234 və 235-ci maddələrinə istinad edilərək, müvafiq predmetlərin qanunsuz yolla əldə edilməsinə

və talanmasına görə cinayət məsuliyyətinin həmin Məcəllənin ayrı-ayrı maddələri ilə müəyyən olunduğu göstərilmişdir.

Qeyd olunanlara əsasən, sorğuverən qanunvericilik normalarının vahid qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə «Azərbaycan Respublikasının dövlət təltifini qanunsuz yolla əldə etmə»nin dövlət təltifinin talanması əməlini ehtiva edib-etməməsinin müəyyənləşdirilməsi üçün Cinayət Məcəlləsinin yuxarıda qeyd edilən maddələrinin əlaqəli şəkildə şərh edilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıların qeyd edilməsini zəruri hesab edir.

Cinayət qanunvericiliyi sahəsində hüquqi müəyyənlik prinsipi Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 71-ci maddəsinin VIII hissəsindən irəli gəlir. Həmin maddəyə əsasən, heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır.

Konstitusiya Məhkəməsi Plenumunun hüquqi müəyyənlik prinsipi ilə bağlı ifadə etdiyi hüquqi mövqeyinə görə, cinayət məsuliyyətini yaradan əməlin qanunda dəqiq, birmənalı və açıq-aşkar şəkildə göstərilməsi mütləqdir. Müvafiq olaraq, təqsirsiz şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasına və təqsirli şəxslərin cinayət məsuliyyətindən kənarda qalmasına şərait yaratmamaq məqsədilə məsuliyyəti müəyyən edən cinayət qanununun müddəası qeyri-müəyyən və ikimənalı olmamalıdır («Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1, 229.1, 230, 231 və 232.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» 2010-cu il 21 iyun tarixli Qərar).

Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsindəki müddəa, həmçinin qanunçuluq prinsipini ehtiva edir.

Həmin müddəa cinayət və cəzanın qanuna əsaslanmasını tələb etməklə yanaşı (nullum crimen sine lege və nulla poena sine lege prinsipləri), cinayət qanununun genişləndirici təfsirinin qadağan edilməsi (lex stricta) və cinayət qanunvericiliyinin aydın və müəyyən olmasını da (lex certa) tələb edir (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin şərh edilməsinə dair» 2012-ci il 10 aprel tarixli Qərarı).

Nəzərə alınmalıdır ki, cinayət tərkibinin qanunvericilikdə birmənalı və aydın müəyyən olunması əməlin tövsifi zamanı mühüm əhəmiyyət kəsb edir. Belə ki, tövsif törədilmiş əməlin faktiki hallarının cinayət tərkibinin əlamətlərinə dəqiq uyğun gəlməsinin müəyyən edilməsinə yönəlmiş ardıcıl və məntiqi prosesdir (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsinin şərh edilməsinə dair» 2015-ci il 22 iyun tarixli Qərarı).

Hər bir cinayət əməli araşdırılarkən onun tərkibinin düzgün müəyyən edilməsi və düzgün tövsif edilməsi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsiri olub-olmamasını müəyyənləşdirməyə, habelə həmin cinayətə görə təqsirləndirilən şəxsə ədalətli cəza təyin edilməsinə yönəlmişdir. Əks hal təqsiri olmayan şəxsin məsuliyyətə alınmasına, yaxud da cinayət törətməkdə təqsirli olan şəxsin məsuliyyətdən kənarda qalmasına, cəzanın düzgün olmayan tətbiqinə səbəb ola bilər. Bu isə öz növbəsində Cinayət Məcəlləsinin əsaslandığı qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinin pozulmasına gətirib çıxara bilər (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair» 2011-ci il 17 mart tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu cinayət əməllərinin tərkib əlamətlərinin müəyyən edilməsinin həmin əməllərə cinayət-hüquqi qiymət verilməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini nəzərə almaqla, məsələyə aydınlıq gətirilməsi üçün sorğuda göstərilən cinayət əməllərinin tərkib əlamətlərinin, xüsusilə də onun predmetinin və obyektiv cəhətinin əlamətlərinin nəzərdən keçirilməsini vacib hesab edir.

Belə ki, Cinayət Məcəlləsinin 325-ci maddəsində nəzərdə tutulan cinayətin predmetini (alternativ olaraq) hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədlər və dövlət təltifləri təşkil edir.

Qeyd olunmalıdır ki, sənədin göstərilən cinayətin predmeti ola bilməsi üçün o, hüquq verən və ya vəzifədən azad edən sənəd kimi hüquqi nəticələrə, yəni hüququn yaranması və xitamı, öhdəliyin əmələ gəlməsi və ondan azad olunması, hüquq və öhdəliklərin həcminin dəyişdirilməsi kimi nəticələrə səbəb olmalıdır. Onların sırasına diplomlar, şəhadətnamələr, vəsiqələr, əmək qabiliyyətinin müvəqqəti itirilməsi haqqında arayışlar, müvafiq kateqoriyalı (alt kateqoriyalı) nəqliyyat vasitəsinin idarə edilməsinə yararlılıq barədə tibbi arayışlar və s. aiddir.

Təhlil edilən cinayət əməlinin digər predmetini təşkil edən dövlət təltifləri ilə bağlı qeyd olunmalıdır ki, dövlət təltifləri dövlətin və cəmiyyətin inkişafına, təhlükəsizliyinə və rifahına yönəlmiş, iqtisadiyyat, elm, Vətənin müdafiəsi və ictimai həyatın müxtəlif sahələrində göstərilmiş xidmətlərə görə şəxsin dövlət tərəfindən mükafatlandırılmasının ali forması kimi çıxış edir. Bu mükafatlandırma şəxsi gələcəkdə də cəmiyyət üçün faydalı işlər görməyə həvəsləndirir, eyni zamanda cəmiyyətin digər üzvləri üçün bir nümunə rolunu oynayır.

«Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən, orden və medal – vətəndaşlara xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən dövlət təltifidir. Orden və medalların siyahısı həmin Qanunun 1 və 2-ci maddələrində sadalanmışdır.

Dövlət təltifləri idarəetmə fəaliyyətinin predmetini təşkil etdiyindən və təsis edilməsi, hazırlanması, verilməsi və s. müvafiq normativ aktlarla tənzimləndiyindən, onlarla bağlı belə aktların tələblərindən kənara çıxan ayrı-ayrı hərəkətlərin edilməsi də dövlət təltifləri sahəsində idarəetmə fəaliyyətinə mənfi təsir göstərir. Məhz bu səbəbdən dövlət təltiflərini və rəsmi sənədi əldə etmə

və ya satma cinayət əməli Cinayət Məcəlləsinin «İdarəetmə qaydası əleyhinə olan cinayətlər» adlı 34-cü fəslinə aid edilmişdir.

O da nəzərə alınmalıdır ki, sorğuda göstərilən «dövlət təltifini qanunsuz yolla əldə etmə» əməli obyektiv cəhətdən dövlət təltifinin qanunsuz yolla əldə edildiyi anda başa çatmış hesab olunur.

Qanunsuz əldə etmə dedikdə, dövlət təltifinin qanuni əsas olmadan, qanunvericiliyin tələblərini pozmaqla şəxsin özünün və ya mənafeyi üçün hərəkət etdiyi digər şəxsin faktiki sahibliyinə keçirilməsi başa düşülür.

Dövlət təltifi şəxsin əməyinin və xidmətlərinin dövlət səviyyəsində qiymətləndirilməsinin nəticəsi, ona olan etimadın göstəricisi olmaqla şəxsləri təltif etmək, orden və ya medalları şəxslərin sahibliyinə vermək hüququ da yalnız dövlətə məxsusdur. Dövlət tətifləri yalnız qanunvericiliklə müəyyən edilən əsaslarla, hallarda və qaydada verilə bildiyindən, belə əşyaların dövlətin iradəsi ziddinə dövriyyəsi, yəni dövlətin iradəsindən kənar əvəzli və ya əvəzsiz şəkildə alınması, qəbul edilməsi və ya satılması kimi hərəkətlər, cəmiyyət və dövlət qarşısında xüsusi xidmətləri təşviq edən belə təltiflərə dövlət tərəfindən verilmiş xüsusi dəyərin əhəmiyyətsizləşməsinə, onun mülki dövriyyənin adi predmetinə çevrilməsinə gətirib çıxarır.

Konstitusiya Məhkəməsinin Plenumu bir daha qeyd etməyi vacib bilir ki, dövlət təltifləri müxtəlif fəaliyyət sahələrində mühüm təşviqedici vasitələrdən biri kimi tətbiq edilir. Belə mükafatlar təltif olunan şəxslərin fəaliyyətinin dövlət tərəfindən təsdiqinin və ona verilən mənəvi dəyərin yüksək təzahürüdür.

Bu baxımdan, dövlət təltiflərinin talanması onun qanunsuz yolla əldə edilməsi üsullarından biri kimi dövlətin təltifetmə sahəsindəki siyasətinə mənfi təsir göstərir.

Dövlət təltiflərinin qanunsuz əldə edilməsinin üsulu kimi talama Cinayət Məcəlləsinin 325-ci maddəsinin dispozisiyasında birbaşa nəzərdə tutulmasa da, Konstitusiya ilə təmin edilən və qorunan dəyərlər baxımından Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, dövlət təltiflərinin talanması onların qanunsuz yolla əldə edilməsinin bir üsulu kimi qəbul edilməlidir.

Belə ki, Azərbaycan Respublikası demokratik və hüquqi dövlət olmaqla, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi onun ali məqsədidir. Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır (Konstitusiyanın 7, 12 və 31-ci maddələri).

Habelə Konstitusiyanın 24-cü maddəsinin I hissəsinə və 26-cı maddəsinin II hissəsinə müvafiq olaraq, insan ləyaqəti qorunur və ona hörmət edilir. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

Bu baxımdan insanın həyat və sağlamlığı, hüquq və azadlıqları, habelə şəxsiyyəti və ləyaqəti hər cür qəsdlərdən qorunur. Qeyd olunan dəyərlərin təmin edilməsi və qorunması cinayət məsuliyyəti də daxil olmaqla bir sıra hüquqi vasitələrin tətbiq edilməsini tələb edir.

Konstitusiya Məhkəməsinin Plenumu onu da xüsusilə qeyd edir ki, insan şəxsiyyətinə və ləyaqətinə edilən qəsd nəticəsində mənəvi sarsıntıya məruz qalan şəxslərin hüquq və qanuni mənafelərinin bərpası üçün cinayət hüquq normalarının düzgün başa düşülməsi, təfsiri, bununla da onun tətbiqi zamanı hər hansı qeyri-müəyyənliyin istisna edilməsi vacibdir.

Belə ki, hüquq tətbiqedici tərəfindən qanunvericilik normasının yanlış təfsir edilərək başqa qaydada tətbiq olunması hüquqi müəyyənlik prinsipinə xələl gətirməklə insan və vətəndaş hüquq və azadlıqlarının pozulması ilə nəticələnə bilər (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsinin «Qeyd» hissəsinin həmin Məcəllənin 11-ci fəsli və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39, 40, 41 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair» 2023-cü il 7 iyul tarixli Qərarı).

Bu mənada normanın konstitusiya-hüquqi mahiyyətinə uyğun təfsiri məzmununda mümkün ola biləcək qeyri-müəyyənliklərin, onun tətbiqi təcrübəsindəki ziddiyyətlərin aradan qaldırılmasına və hüquq tətbiqetmədə vahidliyin təmin edilməsinə, nəticədə həmin normanın Konstitusiyaya zidd tətbiqinin qarşısının alınmasına xidmət edir.

Cinayət Məcəlləsinin digər müddəalarının əlaqəli təhlili də göstərir ki, qanunverici tərəfindən həmin Məcəllənin bir sıra normalarında talamanın müxtəlif növləri predmetlərin qanunsuz yolla əldə edilməsinin bir forması kimi müəyyən olunmuşdur (Cinayət Məcəlləsinin 202 və 284-1-ci maddələri).

Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd edir ki, Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun «Rusiya Federasiyası Cinayət Məcəlləsinin 324—327.1-ci maddələrində nəzərdə tutulmuş cinayət işləri üzrə məhkəmə təcrübəsinin bəzi məsələləri haqqında» 2020-ci il 17 dekabr tarixli Qərarında ifadə edilmiş hüquqi mövqe ondan ibarət olmuşdur ki, talama qanunsuz əldə etmənin üsullarından biridir və dövlət təltiflərinin talanması Rusiya Federasiyası Cinayət Məcəlləsinin 324-cü maddəsi (dövlət təltiflərini və rəsmi sənədləri əldə etmə və ya satma) ilə tövsif edilməlidir.

Bəzi əşyaların (narkotik vasitə, silah və s.) qanunsuz yolla əldə edilməsinə və talanmasına görə cinayət məsuliyyətinin cinayət qanunvericiliyinin ayrı-ayrı maddələrində müəyyən edilməsi ilə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Cinayət Məcəlləsində cinayət əməlləri ilə bağlı müddəaların ümumi və xüsusi normalar şəklində müəyyənləşdirilməsi qanunverici orqanın diskresion səlahiyyətlərinə aid olmaqla, cinayət qanunvericiliyinin məqsəd və prinsiplərindən irəli gəlir. Qanunverici əməllərin ictimai təhlükəlilik dərəcəsini,

predmetlərini, qəsd etdiyi ictimai münasibətlərin dairəsini və digər amilləri nəzərə almaqla müəyyən əməlləri xüsusi normalar vasitəsi ilə kriminallaşdırmışdır.

Cinayət Məcəlləsinin 17.4-cü maddəsində göstərilmişdir ki, bu Məcəllənin Xüsusi hissəsində həm ümumi, həm də xüsusi normada nəzərdə tutulmuş cinayətin törədilməsi cinayətlərin məcmusunu yaratmır və bu halda xüsusi norma tətbiq olunur.

O da nəzərə alınmalıdır ki, şəxs Cinayət Məcəlləsinin 325-ci maddəsinin dispozisiyasından kənara çıxan cinayət xarakterli hərəkətlərə yol verdikdə, yəni həmin Məcəllənin 23-cü fəslində nəzərdə tutulan cinayət əməllərindən hər hansı birini törətdikdə, həmin hərəkətlər cinayətlərin məcmusu qaydasında Cinayət Məcəlləsinin 325-ci maddəsi ilə yanaşı, həm də bu Məcəllənin Xüsusi hissəsinin digər müvafiq maddələri ilə tövsif edilməlidir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi dəfələrlə qeyd etmişdir ki, xüsusilə proqnozlaşdırıla bilənlik baxımından istənilən hüquq sistemində, o cümlədən cinayət hüququnda, hüquqi müddəanın nə qədər aydın ifadə olunmasından asılı olmayaraq, məhkəmə şərhi qaçılmazdır. Şübhəli məqamların aydınlaşdırılmasına və onların dəyişən şəraitə uyğunlaşdırılmasına həmişə ehtiyac olacaq. Həqiqətən də, bəzi «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasına qoşulmuş Dövlətlərdə cinayət hüququnun məhkəmə-hüquq yaradıcılığı yolu ilə tədricən inkişafı hüquqi ənənənin köklü və zəruri hissəsidir. Konvensiyanın 7-ci maddəsi cinayət məsuliyyəti ilə bağlı normaların ayrı-ayrı hallarda tədricən məhkəmə təfsiri vasitəsilə aydınlaşdırılmasını qadağan edən mənada başa düşülməməlidir, bir şərtlə ki, nəticədə baş verən inkişaf cinayətin mahiyyətinə uyğun və ağlabatan şəkildə proqnozlaşdırıla bilən olsun (Kononov Latviyaya qarşı iş üzrə 2010-cu il 17 may tarixli Qərar §185, Streletz, Kessler və Krenz Almaniyaya qarşı iş üzrə 2001-ci il 22 mart tarixli Qərar §50).

Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etməyi vacib hesab edir ki, dövlət təltifinin qanunsuz əldə edilməsinin yollarından biri kimi talama müxtəlif üsullarla (gizli, etibardan sui-istifadə etmə və ya aldatma, mənimsəmə və s.) həyata keçirilə bilər ki, bu da talamanın qanunsuz əldə etmənin digər yollarına münasibətdə daha ictimai təhlükəli olmasına dəlalət edir.

Konstitusiya Məhkəməsi Plenumunun bununla bağlı ifadə etdiyi hüquqi mövqeyinə görə, cinayətkarlığa qarşı tətbiq edilən cinayət hüquq təsir vasitələrinin səmərəliliyi onların hüquq pozuntusu törətmiş şəxsin fərdi xüsusiyyətlərinə, törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsinə, xarakterinə mütənasib olması, habelə məsuliyyətin və cəzanın fərdiləşdirilməsi ilə sıx bağlıdır. Cəza cinayətin hüquqi nəticəsi olmaqla fərdin təqsirli olaraq törətdiyi ictimai təhlükəli əmələ görə dövlət tərəfindən kəskin mənfi münasibətin göstəricisi kimi çıxış edir («Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 48-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair» 2004-cü il 23 iyul tarixli Qərar).

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, cinayət qanunvericiliyinin mühüm prinsiplərindən biri olan ədalət prinsipinin tələbləri baxımından, dövlət təltifinin talanması əməli ilə bağlı cinayət məsuliyyətinin qanunverici orqan tərəfindən differensiasiyalaşdırılması məqsədəmüvafiqdir. Əks hal, yəni ictimai təhlükəliliyi aşkar fərqli olan əməllərə görə məsuliyyətin fərdiləşdirilməməsi Cinayət Məcəlləsinin 8-ci maddəsi ilə təsbit edilmiş ədalət prinsipinin pozulması ilə nəticələnə bilər.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

– Konstitusiyanın 24-cü maddəsinin I hissəsi və 26-cı maddəsinin II hissəsi baxımından, habelə bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqeyə uyğun olaraq dövlət təltiflərinin qanunsuz əldə edilməsi onların talama yolu ilə əldə edilməsi halını da ehtiva etdiyindən dövlət təltiflərinin talanması Cinayət Məcəlləsinin 325-ci maddəsi ilə nəzərdə tutulan cinayət məsuliyyətini yaradır;

– Cinayət Məcəlləsinin 8-ci maddəsinin tələbləri baxımından dövlət təltiflərinin talanmasına görə cinayət məsuliyyətinin fərdiləşdirilməsi istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **qərara aldı:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsi və 26-cı maddəsinin II hissəsi baxımından, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqeyə uyğun olaraq dövlət təltiflərinin qanunsuz əldə edilməsi onların talama yolu ilə əldə edilməsi halını da ehtiva etdiyindən dövlət təltiflərinin talanması Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 325-ci maddəsi ilə nəzərdə tutulan cinayət məsuliyyətini yaradır.

**2.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 8-ci maddəsinin tələbləri baxımından dövlət təltiflərinin talanmasına görə cinayət məsuliyyətinin fərdiləşdirilməsi istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad ABDULLAYEV**

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**QƏRARI**

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 294-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII hissəsi baxımından şərh edilməsinə dair**

**1 noyabr 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), İsa Nəcəfov, Fikrət Məmmədov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı Ağır Cinayətlər Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 294-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII hissəsi baxımından şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlər Bakı Ağır Cinayətlər Məhkəməsi və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının, Azərbaycan Respublikası Prokurorluğunun və Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının mütəxəssis mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı Ağır Cinayətlər Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 60-cı maddəsinin I hissəsi, 63-cü maddəsinin I hissəsi, 64-cü maddəsi, 71-ci maddəsinin VIII hissəsi, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (bundan sonra – Konvensiya) 7-ci maddəsinin 1-ci bəndi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 17, 66, 294.3-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunmuşdur ki, Cinayət Məcəlləsinin sübutların saxtalaşdırılmasına görə məsuliyyəti müəyyən edən 294.3-cü maddəsi cinayətin subyekti baxımından qeyri-müəyyən olduğuna görə hüquq tətbiqetmə təcrübəsində fərqli yanaşmalara səbəb olur. Belə ki, Cinayət Məcəlləsinin 294.1-ci və 294.2-ci maddələrinin dispozisiyalarında cinayətin xüsusi subyekti birbaşa müəyyənləşdirilmişdir. Həmin Məcəllənin 294.1-ci maddəsində subyekt olaraq mülki iş üzrə işdə iştirak edən şəxs və ya onun nümayəndəsi, 294.2-ci maddəsində isə cinayətin xüsusi subyektləri olaraq təhqiqatçı, müstəntiq, prokuror və müdafiəçi göstərilmişdir.

Yuxarıda göstərilən iki maddədən fərqli olaraq Cinayət Məcəlləsinin 294.3-cü maddəsində xüsusi subyekt birbaşa göstərilməmiş, həmin maddənin dispozisiyası «ağır və ya xüsusilə ağır cinayətlər haqqında cinayət işi üzrə sübutları saxtalaşdırma, habelə digər işlər üzrə sübutların saxtalaşdırılması ağır nəticələrə səbəb olduqda» məzmununda müəyyən olunmuşdur.

Təcrübədə Cinayət Məcəlləsinin 294.3-cü maddəsinin subyektinə münasibətdə yaranmış fərqli yanaşma ondan ibarətdir ki, bəzi hüquq tətbiqedənlərin mövqeyinə görə, bu maddə üzrə qanunverici əməlin xüsusi subyekt tərəfindən törədilməsini nəzərdə tutmadığından, həmin əməlin subyekti proses iştirakçıları ilə yanaşı proses iştirakçısı olmayan istənilən digər şəxslər də ola bilər.

Digər mövqeyə görə, Cinayət Məcəlləsinin 294.3-cü maddəsində qeyd olunan «ağır və ya xüsusilə ağır cinayətlər haqqında cinayət işi üzrə sübutları saxtalaşdırma» cinayətin ümumi subyektinə aid edildikdə, həmin subyekt tərəfindən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət haqqında cinayət işi üzrə sübutların saxtalaşdırılması zamanı məsuliyyət nəzərdə tutulmamış olur. Bu isə cinayət qanunvericiliyində boşluğun əmələ gəlməsinə gətirib çıxarır.

Göstərilənlərə əsasən Bakı Ağır Cinayətlər Məhkəməsi yuxarıda qeyd olunan qanunvericilik normalarının əlaqəli şəkildə şərh edilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıları qeyd edir.

Konstitusiyanın 127-ci maddəsinin II hissəsinə əsasən, hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.

Məhkəmə qərarı qanuna və sübutlara əsaslanmalıdır (Konstitusiyanın 129-cu maddəsinin III hissəsi).

Konstitusiyanın göstərilən maddələrinə uyğun olaraq Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 28.1-ci maddəsində nəzərdə tutulmuşdur ki, məhkəmələr cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara məhkəmə iclaslarında yalnız bu Məcəlləyə müvafiq surətdə müəyyən edilmiş hüquqi prosedurlara uyğun faktlar əsasında, qərəzsiz və ədalətlə baxmalıdırlar.

Həmin Məcəllənin 28.5-ci maddəsinə görə, şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarı mülahizələrə əsaslana bilməz və işə aid biri digərinə kifayət qədər uyğun gələn mötəbər sübutların məcmusu ilə təsdiq olunmalıdır.

Həmçinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – Mülki Prosessual Məcəllə) 9.3-cü maddəsi ilə müəyyən edilmişdir ki, hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz.

İş üzrə məhkəmənin qənaətinin formalaşmasında və hüquqi mübahisənin həllində, yəni ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı fəaliyyətdə sübutların əhəmiyyəti nəzərə alınaraq cinayət qanunvericiliyində mülki və cinayət işləri üzrə sübutların saxtalaşdırılmasına görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Cinayət Məcəlləsinin 294.1-ci maddəsinə görə, mülki iş üzrə işdə iştirak edən şəxs və ya onun nümayəndəsi tərəfindən, həmin Məcəllənin 294.2-ci maddəsinə görə isə cinayət işi üzrə təhqiqatçı, müstəntiq, prokuror və ya müdafiəçi tərəfindən sübutların saxtalaşdırılması cinayət məsuliyyəti yaradır.

Hər iki maddədə nəzərdə tutulmuş cinayətin obyektini məhkəmənin normal fəaliyyəti, ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı ictimai münasibətlər təşkil edir.

Bu cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, sübutların saxtalaşdırılması ədalətsiz qərarın qəbul edilməsinə, bununla da məhkəmə hakimiyyətinin nüfuzuna xələl gətirilməsinə, fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin pozulmasına səbəb ola bilər.

Cinayət əməllərinin obyektiv cəhətini sübutların saxtalaşdırılması təşkil edir. Nəzəriyyəyə əsasən, eləcə də məhkəmə təcrübəsində saxtalaşdırmanın həyata keçirilməsinin müxtəlif üsullarına rast gəlinir. Təhlil edilən cinayət əməlinə münasibətdə saxtalaşdırma təqdim olunan sübutların, məsələn, sənədlərin (etibarnamələrin, iltizamların, müqavilələrin, yoxlama aktlarının, ekspert rəylərinin, istintaq hərəkətləri protokollarının və s.) saxta formasını hazırlamaq, belə sənədlərə onların həqiqi məzmununu təhrif edən düzəlişlər etmək və ya yalan məlumatlar əlavə etmək, uydurma maddi sübutların hazırlanması və s. bu kimi hərəkətlər vasitəsilə icra edilə bilər.

Cinayət Məcəlləsinin 294.1, 294.2 və 294.3-cü (digər işlər üzrə sübutların saxtalaşdırılmasının ağır nəticələrə səbəb olması istisna olmaqla) maddələrində nəzərdə tutulmuş cinayətlər formal tərkiblidir. Bu cinayətlər saxtalaşdırılmış sübutların prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq mülki və cinayət işinə əlavə edildiyi andan başa çatmış hesab edilir.

Subyektiv cəhətdən göstərilən cinayətlər birbaşa qəsdlə törədilir. Təqsirli şəxs mülki və ya cinayət işi üzrə sübutları saxtalaşdırdığını dərk edir və belə əməlin törədilməsini arzu edir.

Cinayətin motivi (tamah və s. şəxsi niyyət) və məqsədi əməlin tövsifinə təsir etmir, çünki onlar maddələrdə cinayət tərkibinin mütləq əlaməti kimi nəzərdə tutulmamışdır. Lakin həmin əlamətlər cəza təyin edilərkən nəzərə alına bilər.

Cinayət Məcəlləsinin 294.1-ci maddəsinin subyekti mülki işdə iştirak edən şəxslər (Mülki Prosessual Məcəllənin 46-cı maddəsi) və məhkəmədə iş aparmaq üçün səlahiyyəti lazımi qaydada rəsmiləşdirilmiş nümayəndə (Mülki Prosessual Məcəllənin 69.1-ci maddəsi) və qanuni nümayəndə (Mülki Prosessual Məcəllənin 72-ci maddəsi) ola bilər.

Cinayət Məcəlləsinin 294.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyektləri bilavasitə həmin maddənin dispozisiyasında göstərilmişdir. Bu subyektlərə təhqiqatçı, müstəntiq, prokuror və müdafiəçi daxildir.

Beləliklə, Cinayət Məcəlləsinin 294.1 və 294.2-ci maddələrinin dispozisiyalarında sübutların saxtalaşdırılması cinayətinin subyektləri birbaşa və açıq şəkildə müəyyən olunmuşdur.

Bundan fərqli olaraq, Cinayət Məcəlləsinin 294.3-cü maddəsində cinayətin xüsusi subyekti birbaşa müəyyən edilmədən ağır və xüsusi ilə ağır cinayətlər haqqında cinayət işi üzrə sübutların saxtalaşdırılmasına, habelə digər işlər üzrə sübutların saxtalaşdırılmasının ağır nəticələrə səbəb olmasına görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Müraciətdə də qeyd edildiyi kimi, təcrübədə Cinayət Məcəlləsinin 294.3-cü maddəsində göstərilən cinayət əməlinin subyekti ilə bağlı yaranmış fikir ayrılığı həmin əməlin subyekti kimi Cinayət Məcəlləsinin 294.1 və 294.2-ci maddələrində nəzərdə tutulmuş xüsusi subyektlərin, yaxud ümumi subyekt olaraq 16 yaşına çatmış istənilən şəxsin çıxış edə bilməsi ilə əlaqədardır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələnin düzgün həlli və Cinayət Məcəlləsinin 294.3-cü maddəsinin tətbiqində yaranmış qeyri-müəyyənliyin aradan qaldırılması məqsədilə, Konstitusiyanın və Cinayət Məcəlləsinin bəzi müddəalarının, habelə Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı

hüquqi mövqelərin nəzərdən keçirilməsini zəruri hesab edir.

Konstitusiya hüququnun doktrinası hüquqi müəyyənlik prinsipini Konstitusiyanın Preambulasında öz əksini tapan qanunun aliliyinin əsas elementlərindən biri kimi tanıyır. Hüquqi müəyyənlik prinsipi isə digər tələblərlə yanaşı, ümumi mənada mövcud hüquqi vəziyyətə dair aydınlığı və müəyyənliyi nəzərdə tutur.

Hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas xüsusiyyətlərdən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu isə öz növbəsində hər kəsin onun hüquq və azadlıqlarının müdafiə olunacaqlarına, hüquq tətbiqedənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 107.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair» 2012-ci il 31 may tarixli Qərarı).

Hüquqi müəyyənlik konstitusiya prinsipinə uyğun olaraq normativ hüquqi aktların və onların struktur elementlərinin forması və mətninə xüsusi tələblər irəli sürülmüşdür.

Belə ki, «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikası Konstitusiya Qanununun (bundan sonra – Konstitusiya Qanunu) 8-ci maddəsində normayaratma fəaliyyətinin əsas prinsipləri sırasında «mütənasiblik», «normativ hüquqi aktların ziddiyyətsizliyi», «ictimai münasibətlərin hüquqi tənzimlənməsinin sistemliliyi və kompleksliyi» kimi prinsiplər yer almışdır.

Bu baxımdan Konstitusiya Qanununun 25.1-ci maddəsinə əsasən, normativ hüquqi aktlar daxilən uzlaşdırılmalı, məntiqli qurulmalı və normayaratma texnikasına uyğun olmalıdır.

Konstitusiya Qanununun 30.1-ci maddəsində müəyyən edilmişdir ki, normativ hüquqi aktın struktur elementləri preambuladan, bölmədən, fəsildən, maddədən, hissədən, bənddən, yarımbənddən və abzasdan ibarətdir. Həmin Qanunun 30.6-cı maddəsinə görə isə normativ hüquqi aktın maddəsi hissələri özündə birləşdirən və tamamlanmış normativ müddəanı əks etdirən əsas struktur elementidir.

Göstərilənlər baxımından Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Cinayət Məcəlləsinin 294.3-cü maddəsi həmin Məcəllənin 294.1 və 294.2-ci maddələri ilə sistemlilik və komplekslilik yaratmaqla, məntiqi baxımından qarşılıqlı uzlaşmış olmaqla məhz ilk iki maddədə müəyyən edilmiş işlər üzrə sübutların saxtalaşdırılması əməlinin tövsifedici əlamətini (ağır və xüsusilə ağır cinayətlər haqqında cinayət işləri üzrə sübutların saxtalaşdırılması, habelə digər işlər üzrə ağır nəticələrə səbəb olma) müəyyən edir.

Lakin Cinayət Məcəlləsinin 294.3-cü maddəsinin mətnində müəyyən qüsurların olması həmin normanın bu məzmunda tətbiqi zamanı qeyri-müəyyənliyin yaranmasına səbəb olur. Belə ki, həmin maddənin sanksiyasında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanın təyin edilməsi imperativ qaydada müəyyən edilmişdir. Cinayət Məcəlləsinin 46-cı maddəsinin tələblərinə görə isə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası yalnız dövlət və yerli özünüidarə orqanlarında konkret vəzifə tutan və ya konkret peşə və ya digər fəaliyyətlə məşğul olan şəxslər barəsində tətbiq edilir.

Bunu nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, Cinayət Məcəlləsinin 294.3-cü maddəsində nəzərdə tutulan «ağır nəticələrə səbəb olma» tövsifedici əlaməti yalnız cinayət işləri üzrə sübutların saxtalaşdırılması halında keçərlidir. Mülki işlər üzrə sübutların saxtalaşdırılmasına görə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə növündə cəzanın tətbiqi heç də bütün subyektlərə (məsələn, iddiaçı, cavabdeh və s.) münasibətdə mümkün olmadığından, Cinayət Məcəlləsinin 294.3-cü maddəsi yalnız cinayət işləri üzrə sübutların saxtalaşdırılması ağır nəticələrə səbəb olmasına görə məsuliyyəti müəyyən edən norma kimi çıxış edir.

Lakin ağır nəticələrin yalnız cinayət işi üzrə deyil, həm də mülki iş üzrə sübutların saxtalaşdırılması nəticəsində yarana bilməsi istisna olunmur. Mülki iş üzrə sübutların saxtalaşdırılmasının ağır nəticələrinə qanunsuz övladlığa götürmə (qəbul etmə), müəssisənin müflis elan edilməsi və s. aid edilir. Belə ağır nəticələrin yüksək ictimai təhlükəlilik dərəcəsinin mütənasib qiymətləndirilməsi isə Cinayət Məcəlləsinin 294.1-ci maddəsinin sanksiyası çərçivəsində mümkün olmadığından, bu əməllər Cinayət Məcəlləsinin 294.3-cü maddəsində nəzərdə tutulmuş tövsifedici hal kimi qəbul edilməsi məqsədə müvafiq olardı.

Qeyd etmək lazımdır ki, digər ölkələrin qanunvericiliyində və təcrübəsində bu məsələ oxşar qaydada tənzimlənmişdir.

Belə ki, Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 303-cü maddəsinin birinci hissəsində mülki, inzibati və inzibati xətalar haqqında işlər üzrə, maddənin ikinci hissəsində cinayət işləri üzrə, həmin maddənin üçüncü hissəsində isə ağır və ya xüsusilə ağır cinayət işləri üzrə sübutların saxtalaşdırılmasına görə, habelə sübutların saxtalaşdırılması ağır nəticələrə səbəb olduğu halda cinayət məsuliyyəti müəyyən edilmişdir.

Rusiya Federasiyasının Ali Məhkəməsi «Ədalət mühakiməsi əleyhinə cinayət işləri üzrə məhkəmə təcrübəsinə dair» 2022-ci il 28 iyun tarixli Qərarının 14-cü bəndində göstərmişdir ki, ağır nəticələrə görə məsuliyyət məhkəmə icraatının növündən asılı olmayaraq yarana bilər.

Konstitusiya Məhkəməsinin Plenumu isə qeyd edir ki, istənilən subyekt tərəfindən ədalət mühakiməsinin, ibtidai istintaqın həyata keçirilməsinə mane olmanı nə-

zərdə tutan (Cinayət Məcəlləsinin 286-cı maddəsi) ümumi normadan fərqli olaraq, Cinayət Məcəlləsinin 294-cü maddəsi məhz sübutların saxtalaşdırılması əməlini, yəni sübutları təqdim etməyə və ya onları toplamağa prosessual səlahiyyəti olan Məcəllənin 294.2-ci maddəsində nəzərdə tutan şəxslərin hüquqa zidd davranışını nəzərdə tutur.

Həmçinin Cinayət Məcəlləsinin 294.2-ci maddəsində nəzərdə tutulmuş xüsusi subyektlər dairəsinə daxil olmayan şəxslər (zərərçəkmiş, ekspert və s.) tərəfindən cinayət prosesində sübut əhəmiyyətli ola biləcək sənədlərin, əşyaların və s. saxtalaşdırılması üzrə əməllərə görə məsuliyyət müəyyən edən xüsusi normanın (Cinayət Məcəlləsinin 297-ci maddəsi) olması da həmin Məcəllənin 294.3-cü maddəsi üzrə subyektin ümumi deyil, məhz Cinayət Məcəlləsinin 294.2-ci maddəsi ilə müəyyən olunmuş şəxslər olduğunu göstərir.

Beləliklə, sübutların saxtalaşdırılmasına görə Cinayət Məcəlləsinin 294.2-ci maddəsində nəzərdə tutulmayan şəxslərin cinayətin icraçısı qismində həmin Məcəllənin 294.3-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsi həmin maddənin məzmununa və mahiyyətinə uyğun olmamaqla yanaşı, hüququn aliliyinin əsas elementlərindən olan hüquqi müəyyənlik prinsipinə də ziddir.

Konstitusiya Məhkəməsinin Plenumu «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin şərh edilməsinə dair» 2012-ci il 10 aprel tarixli Qərarında qeyd etmişdir ki, cinayət qanunvericiliyi sahəsində hüquqi müəyyənlik prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII hissəsindən və «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 7-ci maddəsindən irəli gəlir. Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsindəki müddəa Əsas Qanunda qanunçuluq prinsipini ifadə edərək, cinayət və cəzanın qanuna əsaslanmasını tələb etməklə yanaşı (nullum crimen sine lege və nulla poena sine lege prinsipləri), cinayət qanununun genişləndirici təfsirinin qadağan edilməsi (lex stricta) və cinayət qanunvericiliyinin aydın və müəyyən olmasını da (lex certa) tələb edir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Böyük Palatasının Korbely Macarıstana qarşı iş üzrə 2008-ci il 19 sentyabr tarixli Qərarında (§70) qeyd edilmişdir ki, Konvensiyanın 7-ci maddəsi ittiham olunan şəxsin maraqlarının ziyanına cinayət-hüquqi normaların geriyə qüvvəsi ilə məhdudlaşmır. Bununla bərabər, həmin maddə özündə daha ümumi prinsipləri ehtiva edir. Həmin prinsiplərə əsasən, yalnız qanun cinayətin tərkibini və buna görə cəzanı müəyyən edə bilər (nullum crimen, nulla poena sine lege), o cümlədən ittiham olunan şəxsin ziyanına, məsələn, analogiya üzrə, cinayət hüquq normalarının genişləndirici şərh olunması qadağan edilir.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Cinayət Məcəlləsinin 294.1 və 294.2-ci maddələrində nəzərdə tutulmayan şəxslərin sübutların saxtalaşdırılmasına görə cinayətin icraçısı qismində həmin Məcəllənin 294.3-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsi cinayət qanununun genişləndirici təfsirinin qadağan edilməsinə (lex stricta) dair Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsinin və Konvensiyanın 7-ci maddəsinin tələblərinin pozulmasına gətirib çıxara bilər.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsi və Konvensiyanın 7-ci maddəsi baxımından Cinayət Məcəlləsinin 294.3-cü maddəsi üzrə subyekt qismində həmin Məcəllənin 294.2-ci maddəsi ilə müəyyən edilmiş şəxslər (təhqiqatçı, müstəntiq, prokuror və ya müdafiəçi) çıxış edə bilərlər;

– Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə görə Cinayət Məcəlləsinin 294.3-cü maddəsində tövsifedici əlamət olaraq nəzərdə tutulmuş «ağır nəticələrin» mülki iş üzrə sübutların saxtalaşdırılması nəticəsində də yaranması mümkün olduğu nəzərə alınaraq, Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinə əsasən həmin maddəyə bu istiqamətdə müvafiq dəyişikliklərin edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **qərara aldı:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII hissəsi və «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyanın 7-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 294.3-cü maddəsi üzrə subyekt qismində həmin Məcəllənin 294.2-ci maddəsi ilə müəyyən edilmiş şəxslər (təhqiqatçı, müstəntiq, prokuror və ya müdafiəçi) çıxış edə bilərlər.

**2.** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 294.3-cü maddəsində tövsifedici əlamət olaraq nəzərdə tutulmuş «ağır nəticələrin» mülki iş üzrə sübutların saxtalaşdırılması nəticəsində də yaranması mümkün olduğu nəzərə alınaraq, Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinə əsasən həmin maddəyə bu istiqamətdə müvafiq dəyişikliklərin edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**Q Ə R A R I**

## Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququ baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsində əks olunmuş «mənzil» anlayışının şərh edilməsinə dair

**25 noyabr 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Rafael Qvaladze, Fikrət Məmmədov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququ baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsində əks olunmuş «mənzil» anlayışının şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 157-ci maddəsində nəzərdə tutulmuş «mənzil» anlayışının Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 7.0.34 və 17-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 157.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan, mənzildə yaşayanın iradəsi ziddinə mənzilə daxil olma cinayət məsuliyyətinə səbəb olur.

Sorğuverən qeyd etmişdir ki, Cinayət Məcəlləsində «mənzil toxunulmazlığı hüququnun pozulması»nın cinayət məsuliyyətinə səbəb olması təsbit edilsə də, «mənzil» anlayışına hansı sahələrin daxil olması göstərilməmişdir. Bu səbəbdən hüquq tətbiqetmə təcrübəsində «mənzil» anlayışının fərqli mənalarda başa düşülməsi, özündə hansı obyektləri əhatə etməsinə dair fikir ayrılığının olması, fərdi yaşayış evlərinin hasarlanmış həyətyanı sahələrinin bu obyektlərin sırasına daxil edilib-edilməməsinə dair vahid hüquqi mövqenin olmaması şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi prosesində ziddiyyətli yanaşmalara gətirib çıxarır.

Prokurorluq hesab edir ki, hüquq tətbiqetmə təcrübəsində ziddiyyətlərin aradan qaldırılması, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, qanunvericilik normalarının eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə göstərilən maddədə nəzərdə tutulmuş «mənzil» anlayışının şərh olunmasına zərurət yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 33-cü maddəsinə müvafiq olaraq, hər kəsin mənzil toxunulmazlığı hüququ vardır. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

Qeyd edilən hüquq bir sıra beynəlxalq aktlarda da öz əksini tapmışdır. Belə ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 12-ci maddəsində və «Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt»ın 17-ci maddəsində hər bir kəsin evinin toxunulmazlığına özbaşınalıqla və ya qeyri-qanuni qəsd edilməsinin yolverilməzliyi təsbit olunmuşdur.

Həmçinin «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın «Şəxsi həyata və ailə həyatına hörmət hüququ» adlı 8-ci maddəsində göstərilmişdir ki, hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 157-ci maddəsininin dispozisiyasında göstərilən «mənzil» anlayışının məzmununun və hansı sahələri əhatə etməsinin aydınlaşdırılması üçün mənzil toxunulmazlığı hüququnun mahiyyətinin və təyinatının, bu hüquqla qorunan dəyərlərin nədən ibarət olmasının müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Konstitusiyada mənzil toxunulmazlığı, mülkiyyət (Konstitusiyanın 29-cu maddəsi) və mənzil (Konstitusiyanın 43-cü maddəsi) hüquqları kimi sosial-mədəni hüquqlardan fərqləndirilməklə əsas şəxsi hüquq və azadlıqlardan biri kimi təsbit olunmuşdur. Bu ondan irəli gəlir ki, mənzil toxunulmazlığı şəxsin mülkiyyət hüququndan daha çox şəxsi toxunulmazlıq hüququ ilə sıx bağlı olmaqla bu hüququn davamı kimi çıxış edir. Təsadüfi deyildir ki, yuxarıda qeyd edilən beynəlxalq aktlarda da mənzil toxunulmazlığı hüququ şəxsi və ailə həyatına, yazışma sirrinə hörmət hüquqları ilə eyni maddədə qoruma altına alınmışdır.

Şəxsi toxunulmazlıq hüququ hüquqi dövlətin və demokratik cəmiyyət quruluşunun ən mühüm elementlərindən biri olmaqla, ilk növbədə, şəxsin azadlığının, şəxsi və ailə həyatının məxfiliyinin və təhlükəsizliyinin qorunmasını nəzərdə tutur.

Qeyd edilməlidir ki, mənzil şəxsi həyatın yaşandığı bir yer olmaqla, insanın özünü dinc və təhlükəsiz hiss etdiyi əsas məkandır. Yaşadığı mənzil hər kəsin şəxsi həyatını istədiyi kimi təşkil etmək, həyatının özəl hesab etdiyi bu və ya digər məqamlarını başqalarından gizləmək, onların müdaxilələrindən qorumaq imkanına malik olduğu yerdir. Mənzil toxunulmazlığı da insanın şəxsi həyatının sərhədləri ilə bağlı olaraq öz yaşayış yerində təhlükəsiz və dinc şəkildə yaşamasını, üçüncü şəxslərin təsir və qeyri-qanuni müdaxilələrindən qorunmasını ehtiva edən konstitusion hüquqdur.

Şəxsi həyata hörmət hüququ kifayət qədər qorunmadıqda cəmiyyətin özünü rahat və təhlükəsiz hiss etməsi mümkün olmadığı kimi, mənzil də hər cür özbaşına qəsd və müdaxilələrdən müdafiə edilmədikdə, burada şəxsi həyatın qorunmasından bəhs etmək mümkün deyil.

Şəxsi və ailə həyatının toxunulmazlığının təmin olunmasında mənzil toxunulmazlığının əhəmiyyəti və rolu nəzərə alınmaqla bu hüquq Əsas Qanunda təsbit olunmuş və pozulmasına görə Cinayət Məcəlləsinin «İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər» adlı 21-ci fəslinin 157-ci maddəsində cinayət məsuliyyəti müəyyən edilmişdir.

O da qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin göstərilən maddəsi ilə mühafizə altına alınan münasibətlər məhz şəxsin mənzilində təhlükəsiz, özünün müəyyən etdiyi kimi yaşaya bilməsi ilə bağlı ictimai münasibətlərdir (cinayət tərkibinin obyekti). Yəni bu cinayət əməli ilə konkret mənzilə deyil, insanın yaşadığı mənzildə şəxsi və ailə həyatının toxunulmazlığı ilə bağlı ictimai münasibətlərə qəsd edilmiş olunur.

Əməl formal tərkibli olmaqla hər hansı maddi nəticələr yaratması tələb olunmur, şəxsin yaşadığı yerə onun iradəsi ziddinə daxil olma anından onun həmin mənzil daxilində şəxsi və ailə həyatının toxunulmazlığının pozulması baş vermiş olur.

Göstərilən maddədə öz əksini tapmış «mənzil» anlayışı ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi vacib hesab edir ki, bir sıra normativ hüquqi aktlarda məsələn, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində (bundan sonra – Mənzil Məcəlləsi) 12.2 və 13.3-cü maddələr), Cinayət-Prosessual Məcəlləsində (7.0.34-cü maddə), «Polis haqqında» Azərbaycan Respublikasının Qanununda (1-ci maddə), «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikasının Qanununda (2-ci maddə) «yaşayış sahəsi», «mənzil», «yaşayış yeri» kimi müxtəlif anlayışlardan istifadə olunmasına və həmin anlayışlara izah verilməsinə baxmayaraq, Cinayət Məcəlləsində bu anlayışın tərifi verilməmişdir.

Nəzərə alınması mühüm olan məqamlardan biri odur ki, müxtəlif qanunvericilik aktları fərqli ictimai münasibətləri, yaxud ictimai münasibətlərin müxtəlif aspektlərini tənzimlədiyindən həmin normativ aktlarda anlayışlara verilən izah və təriflər, bir qayda olaraq onların hüquqi məqsəd və təyinatına, yerinə yetirdiyi funksiyalara uyğun müəyyən edilir. Məhz bundan irəli gəlir ki, eyni anlayış bəzən müxtəlif normativ aktlarda fərqli mənalar kəsb edə və ya əhatə dairəsinə görə bir-birindən fərqlənə bilir.

Bu səbəbdən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, hər hansı normativ aktda mənzilə və ya yaşayış sahəsinə (yerinə) verilmiş anlayışın istisnasız şəkildə Cinayət Məcəlləsinin 157-ci maddəsinə münasibətdə tətbiq edilməsi həmin normanın konstitusiya-hüquqi təyinatı, habelə onunla mühafizə olunan ictimai münasibətlər baxımından məqsədəmüvafiq hesab edilə bilməz.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) də öz qərarlarında göstərmişdir ki, Konvensiyanın 8-ci maddəsinə əsasən «şəxsi həyat», «ailə həyatı» və «ev» məfhumları 1 nömrəli Protokolun 1-ci maddəsindəki «mülkiyyət» məfhumu kimi müstəqil anlayışlardır; onların qorunması dövlətdaxili qanunvericilikdə kvalifikasiyadan deyil, işin faktiki hallarından asılıdır («Çıraqov və başqaları Ermənistana qarşı» iş üzrə 2015-ci il 16 iyun tarixli Qərar, §206). Müvafiq olaraq, bu və ya digər yaşayış məskəninin 8-ci

maddənin 1-ci bəndində nəzərdə tutulmuş müdafiənin şamil olunduğu "mənzil" təşkil edib-etmədiyi barədə sualın cavabı işin faktiki hallarından, yəni şəxsin konkret məkanla yetərli və davamlı əlaqələrinin mövcudluğundan asılıdır («Vinterşteyn və başqaları Fransaya qarşı» iş üzrə 2013-cü il 17 oktyabr tarixli Qərar, §141).

Qeyd edilməlidir ki, digər hüquqlar kimi mənzil toxunulmazlığı hüququ mütləq hüquq olmamaqla qanunla müəyyənləşdirilmiş əsaslarla və qaydada məhdudlaşdırıla bilər ki, belə halların da bir çoxu məhz cinayət mühakimə icraatı zamanı bəzi istintaq və prosessual hərəkətlərin həyata keçirilməsi zərurətindən irəli gəlir. Belə hərəkətlər həyata keçirilərkən səlahiyyətli dövlət hakimiyyəti orqanları tərəfindən prosessual imkanlardan sui-istifadə edilməsinin qarşısının alınması, insanların şəxsi və ailə həyatının, mülkiyyət hüququnun toxunulmazlığının təmin edilməsi baxımından Cinayət-Prosessual Məcəlləsinin 17-ci maddəsində bu Məcəllədə nəzərdə tutulmuş hallardan başqa, heç kəsin yaşayış yerində yaşayanların iradəsi ziddinə yaşayış yerinə daxil ola bilməməsi təsbit edilmişdir. Bu norma hər kəsin Konstitusiya ilə tanınan mənzil toxunulmazlığı, mülkiyyət və s. hüquqlarının təminatına yönəlməklə, cinayət mühakimə icraatının əsas prinsipləri və şərtlərindən birini təşkil edir.

Müvafiq olaraq, Cinayət-Prosessual Məcəlləsinin 7.0.34-cü maddəsində yaşayış yerinə anlayış verilməklə onun bir və ya bir neçə şəxsin yaşaması üçün müvəqqəti, yaxud daimi istifadə edilən yer, o cümlədən ev, mənzil, bağ evi, mehmanxanada, sanatoriyada, pansionatda, yataqxanada, istirahət evində, kempinqdə, turist bazasında otaq, onlara bilavasitə bitişik aynabəndlər, terraslar, qalereyalar, eyvanlar, ümumi istifadə üçün yerlər (onların istirahət, əmlak saxlamaq, yaxud insanların digər tələbatlarını təmin etmək üçün istifadə olunan digər tərkib hissələri), çoxmənzilli evdən başqa tikililərin zirzəmisi və çardağı, habelə dəniz gəmisinin kayutası və ya uzaq səfərdə olan qatarın kupesi (bunlardan əlavə bu Məcəllənin məqsədləri üçün yaşayış yerinin fiziki şəxsin xidməti kabineti, ona məxsus çəpərli torpaq sahəsi, avtomobil, çay və dəniz gəmisi) olduğu göstərilmişdir.

Nəzərə alınmalıdır ki, cinayət prosesi çərçivəsində həyata keçirilən prosessual hərəkətlər şəxslərin yalnız mənzil deyil, bir sıra digər hüquqlarının (mülkiyyət və s.) qanunvericilik çərçivəsində məhdudlaşdırılması və ya onlara müdaxilə edilməsi ilə nəticələnə bildiyindən, Cinayət-Prosessual Məcəlləsində «yaşayış yeri» anlayışı yalnız mənzil toxunulmazlığı hüququ baxımından deyil, bütövlükdə həmin Məcəllənin məqsəd və funksiyaları, onunla tənzimlənən münasibətlərin xüsusiyyətləri nəzərə alınmaqla formalaşdırılmışdır.

Məhz bu səbəbdən də həmin anlayışın eynilə Cinayət Məcəlləsinin 157-ci maddəsinə münasibətdə tətbiq edilməsi məsələn, istənilən çəpərlənmiş torpaq sahəsinin və ya avtomibilin həmin maddə baxımından mənzil hesab edilməsi cinayət məsuliyyətinin əsassız şəkildə genişləndirilməsi ilə nəticələnə bilər.

Mənzil Məcəlləsinin 12.2-ci maddəsinə əsasən isə yaşayış sahəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq daşınmaz əmlak hesab edilən və vətəndaşların daimi yaşaması üçün yararlı olan (müəyyən edilmiş sanitariya və texniki norma və qaydalara, qanunvericiliyin digər tələblərinə cavab verən) ayrıca sahədir. Həmin Məcəllənin 13.2-ci maddəsinə uyğun olaraq, otaqlardan, habelə yaşama ilə əlaqədar məişət və digər ehtiyacların ödənilməsi üçün nəzərdə tutulmuş yardımçı sahələrdən ibarət fərdi müəyyən edilmiş ev yaşayış evi hesab edilir. Bir və ya bir neçə otaqdan, habelə yaşama ilə əlaqədar məişət və digər ehtiyacların ödənilməsi üçün nəzərdə tutulmuş yardımçı sahələrdən ibarət, çoxmənzilli binanın ümumi istifadədə olan sahələrinə birbaşa daxil olmaq imkanını təmin edən strukturca ayrıca sahəsi mənzil hesab edilir (Mənzil Məcəlləsinin 13.3-cü maddəsi).

Qeyd edilməsi zəruridir ki, Mənzil Məcəlləsi üzrə yaşayış sahəsi, mənzil anlayışlarının əhatə etdiyi sahələrə özbaşına qəsd Cinayət Məcəlləsinin 157-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranmasına əsas ola bilsə də, cinayət qanununun qeyd edilən normasındakı «mənzil» anlayışı Mənzil Məcəlləsində nəzərdə tutulmuş sahələrlə məhdudlaşmır. Mənzil toxunulmazlığı mülkiyyəti deyil, insanın şəxsi və ailə həyatının toxunulmazlığını, sərbəst və dinc yaşamaq hüququnu təmin etdiyindən və Cinayət Məcəlləsinin 157-ci maddəsi ilə qorunan münasibətlərin mənzildə yaşayanların şəxsi və ailə həyatının toxunulmazlığı olduğundan, qəsd edilən yaşayış sahəsinin məhz daşınmaz əmlak olması və s. tələb olunmur.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, mənzil toxunulmazlığının pozulmasına görə cinayət məsuliyyətinin müəyyən edilməsində əsas məqsəd şəxsi və ailə həyatının mühafizəsi olduğundan, mənzil anlayışı elə sahələri əhatə etməlidir ki, orada şəxsi və ailə həyatının yaşanması və qorunması mümkün olsun.

Odur ki, Cinayət Məcəlləsinin 157-ci maddəsində mənzil dedikdə, şəxsin özünə yaşayış yeri kimi seçdiyi, şəxsi və ailə həyatının yaşandığı elə sahə və tikililər başa düşülməlidir ki, buraya şəxsin iradəsi ziddinə daxil olma ilə onun dinc və təhlükəsiz yaşayışına, şəxsi həyatının pozulmasına təhlükə yaranmış olsun.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, şəxsin yaşadığı yerin Cinayət Məcəlləsinin 157-ci maddəsinin məqsədləri baxımından mənzil hesab edilə bilməsi üçün o aşağıdakı hər üç meyara cavab verməlidir:

– bir və ya bir neçə şəxs tərəfindən müvəqqəti və ya daimi yaşama üçün istifadə edilməsi;

Şəxsin yaşayış sahəsindən istifadə etməsi dedikdə, onun həmin sahə ilə davamlı və yetərli əlaqəsinin olması, şəxsi və ailə həyatının bu və ya digər hissələrini orada gerçəkləşdirməsi başa düşülür. Nəzərə alınmalıdır ki, şəxs yaşayış sahəsində şəxsi və ailə həyatınının müxtəlif hissələrini (istirahət, qidalanma, qonaq qəbul etmə və s.) yaşaya bilər ki, həmin sahələr də mənzil anlayışına aiddir.

Hər hansı sahənin yaşayış sahəsi olması üçün uzun müddət və ya daimi istifadə edilməsi, daşınar və ya

daşınmaz olması, qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun tikilməsi əhəmiyyət kəsb etmədiyi kimi, onun şəxsin mülkiyyətində olub-olmamasının da əhəmiyyəti yoxdur. Məhz buna görə də, normada «mülkiyyətçi»nin deyil, «mənzildə yaşayan»ın iradəsi ziddinə daxil olma cinayətin obyektiv cəhətinin əlaməti kimi müəyyən olunmuşdur. Avropa Məhkəməsinin qərarlarında da «mənzil» anlayışı təkcə qanunla şəxsin adına rəsmiləşdirilən mənzillərlə məhdudlaşdırılmamışdır («Bakli Birləşmiş Krallığa qarşı» iş üzrə 1996-cı il 29 sentyabr tarixli Qərar).

– şəxsi həyatı (onun məxfiliyini) təmin edə bilməsi;

Yaşayış sahəsinin mənzil hesab edilməsi üçün həmin sahə şəxsi və ailə həyatının yaşandığı və məxfiliyi təmin etmək imkanına malik bir məkan olmaqla, oraya qeyri-qanuni müdaxilə ilə şəxsin şəxsi və ailə həyatının toxunulmazlığına təhlükə yaranmalıdır. Bu səbəbdən çoxmənzilli binanın ümumi istifadədə olan sahələri, xəstələrin stasionar müalicə olunduğu xəstəxana palatası kimi yerlər Cinayət Məcəlləsinin 157-ci maddəsi baxımından mənzil hesab edilə bilməz.

Avropa Məhkəməsi də öz qərarlarında qeyd etmişdir ki, "mənzil" dedikdə adətən, fiziki cəhətdən açıq seçilən elə ərazi başa düşülür ki, orada şəxsi və ailə həyatı mövcud olsun («Morena Gomez İspaniyaya qarşı» iş üzrə 2005-ci il 16 fevral tarixli Qərar, §53).

Həmçinin Sloveniya Respublikası Konstitusiya Məhkəməsinin 2017-ci il 12 oktyabr tarixli Qərarında qeyd edilmişdir ki, mənzil (ev) anlayışı bir neçə məna daşıyır. Mənzil fərdi ətrafdan qoruyan fiziki məkandır. Eyni zamanda, mənzil fərdin öz istədiyi kimi yaşadığı və beləliklə özünü realizə edə bildiyi şəxsi məkandır.

– yaşayış məqsədilə digər sahələrdən təcrid olunması;

Yaşayış sahəsinin mənzil anlayışına daxil ola bilməsi üçün onun yaşayış yeri kimi istifadə edildiyini göstərən xarici əlamətlər olmalı, həmin sahə xarici mühitdən təcrid olunmalıdır. Belə təcrid olunmanın xarakteri, yəni maneələrin nə dərəcədə möhkəm olması əhəmiyyət daşımamaqla, insanların yaşayış tərzinə, sosial və iqtisadi vəziyyətinə, adət-ənənələrə və s. amillərə görə fərqlənə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi vacib hesab edir ki, bu meyar bilavasitə təyinatı yaşayış sahəsi olmayan, lakin şəxsin yaşaması üçün uyğunlaşdırılmış sahələrə (məsələn, qaraj, anbar, vaqon və s.) münasibətdə mənzil toxunulmazlığı hüququnun müdafiəsi üçün xüsusi əhəmiyyət kəsb edir. Həmin sahələrin təyinatının yaşayış sahəsi olmamasına baxmayaraq, şəxs oradan şəxsi və ailə həyatını yaşamaq üçün istifadə edirsə, onun həmin sahə ilə bağlı mənzil toxunulmazlığı konstitusion hüququnun qorunması mütləqdir.

Bu kimi yerlərə orada yaşayan şəxsin iradəsi ziddinə daxil olma hallarında əməlin Cinayət Məcəlləsinin 157-ci maddəsi ilə tövsif edilməsi zamanı şəxsin oradan müvafiq yaşayış sahəsi kimi istifadə etməsinə dair iradə ifadəsinin kənar şəxslərdə hər hansı şübhəyə əsas verməyəcək dərəcədə aydın ifadə edilmiş olması, yaxud mənzil toxunulmazlığını pozan şəxsin belə sahələrin məhz yaşayış sahəsi kimi istifadə edildiyini bilməsi və ya bilməli olması kimi amillər nəzərə alınmalıdır.

O da qeyd edilməlidir ki, mənzil toxunulmazlığının pozulması subyektiv cəhətdən qəsdən törədilən cinayət olduğundan, bu əməli törədən şəxsin daxil olduğu sahənin məhz yaşayış sahəsi kimi istifadə olunduğunu və həmin sahəyə iradə ziddinə daxil olduğunu dərk etməsi cinayət tərkibinin əmələ gəlməsi üçün zəruri əlaməti təşkil edir.

Həyətyanı torpaq sahəsinin, habelə çəpərlənmiş torpaq sahəsinin «mənzil» anlayışına daxil olub-olmaması ilə bağlı sorğuda qaldırılan məsələyə münasibətdə isə Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi vacib hesab edir ki, torpaq sahəsinin xarici mühitdən ayrılması üçün tədbirlər görülməsi (hasarlanması, çəpərlənməsi və s.), orada şəxsin məişət ehtiyaclarının qarşılanması üçün sahələrin yerləşməsi, şəxsin həmin sahədə şəxsi həyatının müəyyən hissəsini, məsələn istirahətini təşkil etməsi və s. bu kimi işin halları nəzərə alınmaqla, belə sahənin Cinayət Məcəlləsinin 157-ci maddəsi ilə mühafizə olunan dəyərlər baxımından mənzil hesab olunması mümkündür.

Avropa Məhkəməsinin «Guta Moldovaya qarşı» iş üzrə 2007-ci il 7 iyun tarixli Qərarında əks olunmuş hüquqi mövqeyə əsasən, qanuni əsas olmadan həyətyanı sahəyə daxil olma mənzil toxunulmazlığı hüququnun pozulmasını təşkil etmişdir.

Beləliklə, yaşayış sahəsinə daxil olmanın səbəbi, məqsədi və işin faktiki halları nəzərə alınmaqla hüquq tətbiqedən orqanlar tərəfindən şəxsin şəxsi və ailə həyatının toxunulmazlığına təhlükənin yaranmış olub-olmaması baxımından hər bir əmələ hüquqi qiymət verilməlidir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Konstitusiyanın 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququnun mahiyyəti və təyinatından irəli gələrək Cinayət Məcəlləsinin 157-ci maddəsi baxımından «mənzil» dedikdə, bu Qərarın təsviri -əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq daimi və ya müvəqqəti yaşanmasından və mülkiyyət formasından asılı olmayaraq, bir və ya bir neçə şəxs tərəfindən yaşamaq üçün istifadə edilən, şəxsi həyatı (onun məxfiliyini) təmin edən və digər sahələrdən təcrid olunan yaşayış yeri başa düşülür;

– Həyətyanı torpaq sahəsi, eləcə də təyinatı yaşayış sahəsi olmasa da yaşayış üçün uyğunlaşdırılmış sahələr bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş meyarlara uyğun olaraq şəxsi və ailə həyatının yaşandığı yer kimi istifadə edildiyi halda, həmin sahəyə şəxsin iradəsi ziddinə daxil olma Cinayət Məcəlləsinin 157-ci maddəsi üzrə cinayət məsuliyyətinə səbəb ola bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **qərara aldı:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququnun mahiyyəti və təyinatından irəli gələrək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsi baxımından «mənzil» dedikdə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq daimi və ya müvəqqəti yaşanmasından və mülkiyyət formasından asılı olmayaraq, bir və ya bir neçə şəxs tərəfindən yaşamaq üçün istifadə edilən, şəxsi həyatı (onun məxfiliyini) təmin edən və digər sahələrdən təcrid olunan yaşayış yeri başa düşülür.

**2.** Həyətyanı torpaq sahəsi, eləcə də təyinatı yaşayış sahəsi olmasa da yaşayış üçün uyğunlaşdırılmış sahələr Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş meyarlara uyğun olaraq şəxsi və ailə həyatının yaşandığı yer kimi istifadə edildiyi halda, həmin sahəyə şəxsin iradəsi ziddinə daxil olma Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsi üzrə cinayət məsuliyyətinə səbəb ola bilər.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad ABDULLAYEV**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququ baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsində əks olunmuş «mənzil» anlayışının şərh edilməsinə dair 25 noyabr 2024-cü il tarixli Qərarından hakimlər İsa Nəcəfov və Kamran Şəfiyevin**

## XÜSUSİ RƏYI

Konstitusiya Məhkəməsinin Plenumun Qərarına hörmətlə yanaşaraq aşağıdakı mövqeyimi bildirirəm.

Əsaslandırıcı hissədə «mənzil» anlayışı ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna istinad edilməmişdir. Baxmayaraq ki, Avropa İnsan Hüquqları Məhkəməsi coxsaylı qərarlarında «mənzil» anlayışına hansı obyektlərin daxil olmasını göstərmişdir.

Qərarda istinad edilən Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları mülkiyyət hüququ ilə bağlıdır və müraciətin predmetinə aid deyil.

Torpaq sahəsi açıq məkan olduğu üçün orada şəxsi həyat hüququnu təmin etmək mümkün deyil. Buna görə yaşayış evlərinin hasarlanmış həyətyanı sahələri mənzil hesab etmək olmaz. Lakin yaşayış evlərinin hasarlanmış həyətyanı sahələri şəxsi mülkiyyət olaraq qanunsuz müdaxilədən qanunla mühafizə olunmalıdır.

Qərarda həyətyanı torpaq sahəsini şəxsi və ailə həyatının yaşandığı yer kimi istifadə edildiyi halda «mənzil» anlayışına aid edilmişdir. Həyətyanı torpaq sahəsində şəxsi və ailə həyatın mövcudluğu isə həmin sahənin xarici mühitdən ayrılması üçün tədbirlər görülməsi ilə (hasarlanması, çəpərlənməsi və s.) əlaqələndirilmişdir. Bu halda həyətyanı torpaq sahəsini mənzil hesab edilməsini hasarın mövcudluğundan, onun hündürlüyündən asılı edilmişdir. Bu meyar obyektiv və dəqiq deyil. Geniş və qeyri-müəyyən şərh və tətbiq üçün imkanlar yaradır.

Qərar hissəsinə aşağıdakı bəndlər daxil edilməlidir:

– Cinayət Məcəlləsinin 157-ci maddəsində əks olunmuş «mənzil» anlayışına mənzil (Mənzil Məcəlləsinin 13.3-cü maddəsi), yaşayış evi (Mənzil Məcəlləsinin 13.2-ci maddəsi), bağ evi, şəxsin yaşaması istifadə edilən mehmanxanada, sanatoriyada, pansionatda, yataqxanada, istirahət evində, kempinqdə, turist bazasında, ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində otaq daxildir.

– «Mənzil» anlayışına yaşayış evi ilə vahid kompleksi təşkil edən aynabəndlər, terraslar, qalereyalar, eyvanlar, ümumi istifadə üçün yerlər (istirahət, əmlak saxlamaq, yaxud insanların digər tələbatlarını təmin etmək üçün istifadə olunan digər sahələr), qaraj, anbar, zirzəmi və s. yerlər aiddir;

– Yaşayış evlərinin hasarlanmış həyətyanı sahələri, yaşayış evlərindən ayrılmış və insanların məskunlaşması üçün istifadə edilməyən yardımçı tikililər, anbar, zirzəmilər, qarajlar və digər sahələr «mənzil» anlayışına aid edilmir.

Bu siyahı məhdudlaşdırıcı xarakter daşımır. Məhkəmələr hər bir sahəni «mənzil» anlayışına aid olub-olmamasını müəyyən edərkən bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərdən Avropa Məhkəməsinin presedent hüququndan və işin konkret hallarından çıxış etməlidirlər.

**İsa NƏCƏFOV**
**Kamran ŞƏFİYEV**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 150/53**

**Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında" 19.05.2021-ci il tarixli 09/06 nömrəli, "Azərbaycan Respublikasının Baş Prokurorluğunda fövqəladə hallar üzrə komissiyanın yaradılması haqqında" 28.10.2022-ci il tarixli 09/21 nömrəli əmrlərində, Azərbaycan Respublikası Baş prokurorunun 27.08.2020-ci il tarixli 15/1 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2020-ci il tarixli, 2173 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı"nda, "Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı"nda və 05.04.2022-ci il tarixli 15/32 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun böhran vəziyyətlərinin kommunikasiya planı"nda dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **09 oktyabr 2024-cü il**

Baş Prokurorluq üzrə müvafiq əmrə əsasən kadr dəyişikliyi həyata keçirildiyindən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında" 19.05.2021-ci il tarixli 09/06 nömrəli əmrin 1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** "Baş redaktor" bölməsində "Mübariz Əhmədov" sözləri "Talıb Cəfərov" sözləri ilə əvəz edilsin.

**1.2.** "Redaksiya heyətinin üzvləri" bölməsində "Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi" sözlərindən sonra "vəzifəsini icra edən" sözləri çıxarılsın.

**1.3.** "Məsul katib" bölməsində "Talıb Cəfərov Elm-Tədris Mərkəzinin rəis müavini" sözləri "Fərizə Mirzəyeva Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin prokuroru" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikasının Baş Prokurorluğunda fövqəladə hallar üzrə komissiyanın yaradılması haqqında" 28.10.2022-ci il tarixli 09/21 nömrəli əmrin 1-ci bəndində "Komissiyanın üzvləri" cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** "Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi" sözlərindən sonra "vəzifəsini icra edən" sözləri çıxarılsın.

**2.2.** "Mübariz Əhmədov" sözləri "Talıb Cəfərov" sözləri ilə əvəz edilsin.

**2.3.** "Eldar Sultanov" sözləri "Sahib İsmayılov" sözləri ilə əvəz edilsin.

**2.4.** "Mətbuat xidmətinin rəhbəri" sözlərindən sonra "vəzifəsini icra edən" sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Baş prokurorunun 27.08.2020-ci il tarixli 15/1 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2020-ci il tarixli, 2173 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı"nın 4-cü, 8-10-cu sətirlərində "M.Əhmədov" sözləri "T.Cəfərov" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Baş prokurorunun 27.08.2020-ci il tarixli 15/1 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı"nın 19-22-ci sətirlərində "M.Əhmədov" sözləri "T.Cəfərov" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Baş prokurorunun 05.04.2022-ci il tarixli 15/32 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun böhran vəziyyətlərinin kommunikasiya planı"nın 4.5-ci bəndində "Mübariz Əhmədov" sözləri "Talıb Cəfərov" sözləri ilə, "055-290-00-05" rəqəmləri, "050-210-22-48" rəqəmləri ilə əvəz edilsin.

**6.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 2-2-100/519-k**

**Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Baş Prokurorluğunun Etik Davranış Komissiyasının yaradılması haqqında" 05.08.2020-ci il tarixli 11/852-k №-li, "Azərbaycan Respublikası Baş Prokurorluğunun Müsabiqə Komissiyasının tərkibi haqqında" 05.08.2020-ci il tarixli 11/854-k №-li, "Azərbaycan Respublikası Baş Prokurorluğunun Ali Attestasiya Komissiyasının tərkibi haqqında" 06.08.2020-ci il tarixli 11/858-k №-li, "Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının tərkibi haqqında" 17.09.2020-ci il tarixli 10/937-k №-li əmrlərində dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **15 oktyabr 2024-cü il**

Baş Prokurorluq üzrə müvafiq əmrlərə əsasən kadr dəyişikliklərinin həyata keçirilməsini nəzərə almaqla, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Azərbaycan Respublikası Baş Prokurorluğunun Etik Davranış Komissiyasının yaradılması haqqında" 05.08.2020-ci il tarixli 11/852-k nömrəli əmrin 1-ci bəndində "Mübariz Əhmədov" sözləri "Talıb Cəfərov" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikası Baş Prokurorluğunun Müsabiqə Komissiyasının tərkibi haqqında" 05.08.2020-ci il tarixli 11/854-k nömrəli əmrin 1-ci bəndində "Mübariz Əhmədov" sözləri "Talıb Cəfərov" sözləri ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikası Baş Prokurorluğunun Ali Attestasiya Komissiyasının tərkibi haqqında" 06.08.2020-ci il tarixli 11/858-k nömrəli əmrin 1-ci bəndində "Mübariz Əhmədov" sözləri "Talıb Cəfərov" sözləri ilə əvəz edilsin.

**4.** "Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının tərkibi haqqında" 17.09.2020-ci il tarixli 10/937-k nömrəli əmrin 1-ci bəndində "Mübariz Əhmədov" sözləri "Talıb Cəfərov" sözləri ilə əvəz edilsin.

**5.** Əmr elan edilməsi üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestrinə" daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 2-2-100/579-k**

**Baş Prokurorluq üzrə "Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının tərkibi haqqında" 17.09.2020-ci il tarixli 10/937-k nömrəli əmrdə dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **10 dekabr 2024-cü il**

Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının tərkibində dəyişikliklər olduğundan "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1**. Baş Prokurorluq üzrə "Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasmm tərkibi haqqında" 17.09.2020-ci il tarixli 10/937-k nömrəli əmrin 1-ci bəndində "Fərid Nağıyev" sözləri "Toğrul Muxtarov" sözləri ilə əvəz edilsin, həmin bəndə aşağıdakı şəxslərin adları əlavə edilsin:

"Mübariz Əhmədov – Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Sahin Bayramov – Qarabağ Universitetinin rektoru".

**2.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 150/54**

**Azərbaycan Respublikası Baş prokurorunun 30.10.2021-ci il tarixli 15/21 nömrəli əmri ilə təsdiq edilmiş "Prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

**Bakı şəhəri** **17 dekabr 2024-cü il**

Azərbaycan Respublikası Prezidentinin 04 may 2024-cü il tarixli Sərəncamı əsasında Xankəndi şəhər prokurorluğunun yaradılmasını nəzərə alaraq, prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi işinin daha da təkmilləşdirilməsi məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun 30 oktyabr 2021-ci il tarixli 15/21 nömrəli əmri ilə təsdiq edilmiş "Prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası"nın 5.9.4-cü bəndində "rayonları üzrə-" sözlərindən sonra, "Xankəndi şəhər və" sözləri əlavə edilsin.

**2.** Əmrin icrasına nəzarət Baş prokurorun birinci müavini, müavinləri və Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**3.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 150/55**

**Azərbaycan Respublikası Prokurorluğu orqanlarında "İlin ən yaxşı prokuroru" müsabiqəsinin keçirilməsi haqqında təlimatın təsdiq edilməsi barədə**

**Bakı şəhəri** **17 dekabr 2024-cü il**

Prokurorluq əməkdaşlarının peşəkarlıqlarının yüksəldilməsi, onların yaradıcı potensialının aşkara çıxarılması, müsbət iş təcrübəsinin yayılması, işçilərin motivasiyası və peşə prestijinin artırılması, kadr ehtiyatı potensialının formalaşdırılması Azərbaycan Respublikası Prokurorluğu orqanlarında "İlin ən yaxşı prokuroru" müsabiqəsinin keçirilməsini zəruri etmişdir.

Qeyd olunanlara əsasən, “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında “İlin ən yaxşı prokuroru” müsabiqəsinin keçirilməsi haqqında” Təlimat hazırlanmışdır.

Odur ki "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında “İlin ən yaxşı prokuroru” müsabiqəsinin keçirilməsi haqqında” Təlimat təsdiq edilsin (əlavə olunur).

**2.** Baş Prokurorluğun İstintaq, Prokurorluqda istintaqa nəzarət, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icrasına nəzarət, Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət, Cinayət təqibindən kənar icraatlar, Təşkilat və icraya nəzarət, Hüquqi təminat və insan hüquqları məsələləri, Sənədlərlə və müraciətlərlə işin təşkili, Kadrlar, Xidməti araşdırmalar, Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi, Beynəlxalq hüquqi əməkdaşlıq, Kriminalistika və informasiya texnologiyalar idarələri, Elm-Tədris Mərkəzi, Mətbuat xidməti və Maddi-texniki təminat şöbəsi, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Azərbaycan Respublikası Hərbi Prokurorluğu, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Bakı şəhər prokurorluğu, tabe rayon, şəhər və ərazi hərbi prokurorluqları qeyd olunan təlimatın icrasından irəli gələn məsələləri həll etsinlər.

**3.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorluğunun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**4.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, “Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 150/56**

**Azərbaycan Respublikası Prokurorluğu orqanlarında “İlin ən yaxşı prokuroru” müsabiqəsinin keçirilməsi üzrə Komissiyanın yaradılması haqqında**

**Bakı şəhəri** **17 dekabr 2024-cü il**

Azərbaycan Respublikası Baş prokurorunun 17 dekabr 2024-cü il tarixli əmri ilə “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında “İlin ən yaxşı prokuroru” müsabiqəsinin keçirilməsi haqqında” Təlimat təsdiq edilmişdir.

Qeyd edilən Təlimatdan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədi ilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Prokurorluq orqanlarında “İlin ən yaxşı prokuroru” müsabiqəsinin keçirilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri**

| | |
|---|---|
| Elmar Camalov | Baş prokurorun müavini. |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Tural Aslanov | Təşkilat və icraya nəzarət idarəsinin rəisi; |
| Natiq Hüseynov | Kadrlar idarəsinin rəisi; |
| Nemət Əvəzov | İstintaq idarəsinin rəisi; |
| Fazil Həsənəliyev | Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi; |
| Natiq Abdullayev | Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi; |
| Ceyhun Kazımov | Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi; |

| | |
|---|---|
| Mahir Abbasov | Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi; |
| Elnur Musayev | Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi; |
| Vüqar Əliyev | Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi; |
| Kamal Qılıcov | Xidməti araşdırmalar idarəsinin rəisi; |
| Erkin Əlixanov | Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi; |
| Murad Dadaşov | Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi; |
| Talıb Cəfərov | Elm-Tədris Mərkəzinin rəisi; |
| Aynur Osmanova | Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi; |
| Sahib İsmayılov | Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi; |
| Səbuhi Alıyev | Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi; |
| Natiq Eyvazov | Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi; |
| Saleh Hacıyev | Mətbuat Xidmətinin rəhbəri. |

**Katib:**

| | |
|---|---|
| Ruslan Ağayev | Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin prokuroru. |

**2.** Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən komissiyanın katiblik funksiyalarının həyata keçirilməsi ilə əlaqədar Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın 29.3-cü bəndində nəzərdə tutulan vəzifələrin icrası təmin edilsin.

**3.** Komissiya tərəfindən hər il müsabiqənin keçirilməsi təmin edilsin.

**4.** Əmrin icrasına nəzarət Baş prokurorun birinci müavini və müavinlərinə, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**5.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 150/57**

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun 2025-ci il üzrə İş Planının təsdiq edilməsi haqqında**

**Bakı şəhəri** **17 dekabr 2024-cü il**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.

Milli Fəaliyyət Planı aidiyyəti dövlət qurumları, nəzarət orqanları və özəl sektor tərəfindən risklərin başa düşülməsi, azaldılması və ya qarşısının alınması məqsədilə səmərəli tədbirlərin həyata keçirilməsinə, habelə qanunvericiliyin tətbiqi ilə bağlı fəaliyyətlərinin effektiv əlaqələndirilməsinə, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə qarşılıqlı əməkdaşlıq və məlumat mübadiləsi mexanizminin daha təkmil əsaslar üzərində formalaşdırılmasına, beynəlxalq əməkdaşlığın genişləndirilməsinə və nəhayət, müvafiq sahədə institusional potensialın gücləndirilməsinə xidmət edir. Milli Fəaliyyət Planının əsas məqsədi ölkəmizdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və

terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması və yeni keyfiyyət meyarları əsasında davam etdirilməsidir.

Sərəncamda Azərbaycan Respublikasının Baş Prokurorluğuna Milli Fəaliyyət Planının icrası üzrə illik iş planlarının təsdiq edilməsi, bu planların və nəzərdə tutulan tədbirlərin icrası barədə Koordinasiya Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabatların təqdim edilməsi tövsiyə olunmuşdur.

Milli Fəaliyyət Planının ötən illərdə icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun 12.04.2023-cü il tarixli, 15/43 nömrəli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikası Prokurorluğunun 2023-cü il üzrə İş Planında və Azərbaycan Respublikası Baş prokurorunun 01.02.2024-cü il tarixli, 150/48 nömrəli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikası Prokurorluğunun 2024-cü il üzrə İş Planında nəzərdə tutulan tədbirlər icra edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın 2025-ci il üçün icrasını təmin etmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun 2025-ci il üzrə İş Planı təsdiq edilsin (əlavə olunur).

**2.** İş Planının icrasına nəzarət Baş prokurorun birinci müavini, müavinləri və Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**3.** İş Planında nəzərdə tutulan tədbirlərin icrası barədə Koordinasiya Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabatların verilməsi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsi tərəfindən təmin edilsin.

**4.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 150/58**

**Azərbaycan Respublikası Baş prokurorunun 21.12.2021-ci il tarixli 15/24 nömrəli əmrində və həmin əmrlə təsdiq edilmiş "İlin ən yaxşı müstəntiqi" müsabiqəsinin keçirilməsi haqqında Təlimat"da və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqəsinin keçirilməsi haqqında Təlimat"da və "Azərbaycan Respublikasının prokurorluq orqanlarında "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqəsinin keçirilməsi üzrə Komissiyanın yaradılması haqqında" 21.12.2021-ci il tarixli 15/26 nömrəli əmrində dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **23 dekabr 2024-cü il**

Azərbaycan Respublikası Baş prokurorunun 17 dekabr 2024-cü il tarixli 150/55 nömrəli əmri ilə "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında "İlin ən yaxşı prokuroru" müsabiqəsinin keçirilməsi haqqında Təlimat təsdiq edilmiş və həmin tarixli 150/56 nömrəli əmri ilə Azərbaycan Respublikası Prokurorluğu orqanlarında "İlin ən yaxşı prokuroru" müsabiqəsinin keçirilməsi üzrə Komissiya yaradılmışdır.

Bununla əlaqədar, Baş Prokurorluq üzrə bir sıra əmrlərdə dəyişiklik edilməsi zərurətini nəzərə alaraq "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutub,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında “İlin ən yaxşı müstəntiqi” və “İlin ən yaxşı dövlət ittihamçısı” müsabiqələrinin keçirilməsi haqqında təlimatların təsdiq edilməsi barədə” 21.12.2021-ci il tarixli 15/24 nömrəli əmrinin 3-cü bəndində “Cinayət təqibindən kənar icraatlar idarəsi,” və “Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu,” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Baş prokurorunun 21.12.2021-ci il tarixli 15/24 nömrəli əmri ilə təsdiq edilmiş “İlin ən yaxşı müstəntiqi” müsabiqəsinin keçirilməsi haqqında Təlimat”da aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 2.2-ci bəndin birinci abzasından “Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun İstintaq şöbəsinin,” sözləri və ikinci abzasından isə “, Naxçıvan Muxtar Respublikasının Hərbi” sözləri çıxarılsın.

**2.2.** 3.1-ci bənddən “Naxçıvan Muxtar Respublikasının Hərbi,” sözləri çıxarılsın.

**2.3.** 4.5-ci bənddə “digər struktur qurumları və” sözləri “Naxçıvan Muxtar Respublikası Prokurorluğu,” sözləri ilə əvəz edilsin.

**2.4.** 4.7-ci bəndin ikinci abzasında “Baş İdarəsinin,” sözlərindən sonra “Azərbaycan Respublikası Hərbi Prokurorluğu daxil olmaqla hərbi prokurorluq orqanlarının,” sözləri əlavə edilsin, “və Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu da daxil olmaqla, hərbi prokurorluq orqanlarının” sözləri çıxarılsın.

**2.5.** 4.8-ci bənddən “, Naxçıvan Muxtar Respublikasının Hərbi” sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Baş prokurorunun 21.12.2021-ci il tarixli 15/24 nömrəli əmri ilə təsdiq edilmiş “İlin ən yaxşı dövlət ittihamçısı müsabiqəsinin keçirilməsi haqqında Təlimat”da aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 2.2-ci bənddən “, mülki və kommersiya mübahisələrinə dair icraatda, hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası, xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasında iştirak edən Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin, Respublika Hərbi Prokurorluğunun Hərbi təsisatlarda təhqiqata nəzarət və cinayət təqibindən kənar icraatlar idarəsinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar şöbəsinin prokurorları və Naxçıvan Muxtar Respublikası Hərbi prokurorunun müvafiq köməkçisi” sözləri çıxarılsın.

**3.2.** 3.1-ci bənddən “və Naxçıvan Muxtar Respublikası Hərbi prokurorluqlarının” sözləri “Prokurorluğunun” sözləri ilə əvəz edilsin və “, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsi, Respublika Hərbi Prokurorluğunun Hərbi təsisatlarda təhqiqata nəzarət və cinayət təqibindən kənar icraatlar idarəsi, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar şöbəsi və Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu” sözləri çıxarılsın.

**3.3.** 4.6-cı bənd ləğv edilsin.

**3.4.** 4.7-ci bənddə “Əlavə № 2-5” sözləri “Əlavə № 2-4” sözləri ilə əvəz edilsin.

**3.5.** 4.8-ci bənddə “Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə” sözləri çıxarılsın, “4.6-cı bəndində göstərilmiş” sözləri “4.3-4.5-ci bəndlərində göstərilmiş meyarlara uyğun” sözləri ilə əvəz edilsin.

**3.6.** 4.9-cu bənd ləğv edilsin.

**3.7.** 4.12-ci bəndin birinci abzasında “, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun Dövlət ittihamının müdafiəsi” sözləri və ikinci abzası çıxarılsın, üçüncü abzasında “4.3-4.6-cı” sözləri “4.3-4.5-ci” sözləri ilə əvəz edilsin.

**3.8.** Əlavə № 5 ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Baş prokurorunun “Azərbaycan Respublikasının prokurorluq orqanlarında “İlin ən yaxşı dövlət ittihamçısı” müsabiqəsinin keçirilməsi üzrə Komissiyanın yaradılması haqqında” 21.12.2021-ci il tarixli 15/26 nömrəli əmrində “Elnur Musayev Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi;” sözləri “Vüsal Əliyev Baş prokurorun böyük köməkçisi;” sözləri ilə əvəz edilsin.

**5.** Əmrin icrasına nəzarət Baş prokurorun birinci müavini, müavinləri və Baş Prokurorluğun Təşkilat və icra-ya nəzarət idarəsinə həvalə edilsin.

**6.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndə-rilsin, “Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 150/59**

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 28 dekabr 2024-cü il tarixli 06 nömrəli qərarının icrasının təmin edilməsi barədə**

**Bakı şəhəri** **29 dekabr 2024-cü il**

Baş Prokurorluqda idarəçilik, icra və əmək intizamı, kadrlarla iş, sənəd dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili məsələlərini, həmçinin Baş Prokurorluğun struktur qurumları və prokurorluq sisteminə daxil olan digər qurumları arasında, o cümlədən tabe prokurorluqlar ilə münasibətləri, tabe prokurorluqda işin təşkili və iş bölgüsünün əsaslarını tənzimləyən Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları" Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmişdir.

Ötən müddət ərzində qanunvericiliyə edilmiş dəyişikliklər, o cümlədən Qaydaların tətbiqi prosesində ortaya çıxan çətinliklər daha da təkmilləşdirilməsi məqsədilə Qaydalara normayaratma fəaliyyətinin mütənasiblik, sistemlilik və digər prinsiplərinə uyğun olaraq dəyişikliklər edilməsini zəruri etmişdir.

Qeyd olunanlara əsasən, Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na dəyişikliklər edilməsi ilə əlaqədar Baş Prokurorluğun bütün struktur qurumları və tabe prokurorluqlar tərəfindən irəli sürülmüş təkliflər geniş müzakirə edilərək təkmilləşdirilmiş və hazırlanmış layihə təsdiq edilməsi üçün Baş Prokurorluğun Kollegiyasının müzakirəsinə çıxarılmışdır.

Baş Prokurorluğun 28 dekabr 2024-cü il tarixli Kollegiya iclasında Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nda dəyişikliklər təsdiq edilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclasının qərarının icrasını təmin etmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10 və 11-ci maddələrini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 28 dekabr 2024-cü il tarixli 06 nömrəli qərarı ilə təsdiq edilmiş dəyişikliklər 01 yanvar 2025-ci il tarixdən qüvvəyə minsin və bütün prokurorluq orqanlarında tətbiq edilsin.

**2.** Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda təsdiq edilmiş dəyişikliklərə uyğun olaraq qısa müddət ərzində Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası prokurorluqları tərəfindən "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin hazırlanıb təsdiq olunması, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Bakı şəhər prokurorluğu tərəfindən isə müvafiq dəyişikliklərin hazırlanıb təsdiq üçün təqdim olunması təmin edilsin.

**3.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini və müavinlərinə, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**4.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və Prokurorluğun Normativ Reyestrinə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**